

**“Azərbaycan bu gün dünya miqyasında özünü güclü dövlət kimi təsdiqləyib, Əlbəttə ki, bu, bizim hamımızı çox sevindirir. Növbəti illərdə ölkəmizin qüdrəti daha da artacaq.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*

*Oktyabr - Dekabr (2017-ci il)*

**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbairamov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel. / Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövrilikdə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cu il tarixli, 10/53 nömrəli "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiqedilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan "Azərbaycan Prokurorluğu" jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 18.01.2018
60x84 1/8 formatda 130 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2017

## MÜNDƏRİCAT


### İCTİMAİ-SİYASİ TƏDBİRLƏR

**4** Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib

**13** Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

**16** Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbriki

**17** Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni ilə münasibətilə Azərbaycan xalqına təbriki

### RƏSMİ TƏDBİRLƏR

**20** Baş Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

**24** Hərbi Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

**26** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

**27** Azərbaycan prokurorluğunun kollektivi ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

**28** Baş Prokurorluqda Azərbaycan Prokurorluğu orqanlarının yaradılmasının 99-cu ildönümünü qeyd olunub

**32** Baş prokuror Zakir Qaralov: "Hüquq sisteminin inkişafında prokurorluğun rolu əhəmiyyətlidir"

**38** Prokurorluq işçiləri həvəsləndiriliblər

**42** Hərbi Prokurorluqda Azərbaycan Prokurorluğu orqanlarının yaradılmasının 99-cu ildönümünü qeyd olunub

**44** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan Prokurorluğu orqanlarının yaradılmasının 99-cu ildönümünü qeyd olunub

**46** Baş prokuror Zakir Qaralov ədliyyə işçilərinin peşə bayramı gününün qeyd olunması tədbirində iştirak edib

**47** Baş prokuror Zakir Qaralov OECD Katibliyinin Antikorrupsiya məsələləri üzrə baş müşaviri Olqa Savran və Hüquq-mühafizə orqanları şəbəkəsinin katibi Anka Yurmanı qəbul edib

**48** Baş prokuror Zakir Qaralov Tacikistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Rustam Soliyevi qəbul edib

**49** Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

### TƏBRİKLƏR

**52** 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibəti ilə Azərbaycan Respublikasının Baş prokuroru I dərəcəli dövlət ədliyyə müşaviri cənab Zakir Qaralovun ünvanına daxil olan təbrik məktubları

### TƏHLİLLƏR, TƏKLİFLƏR

**63** Nazir Bayramov - Prokurorluq orqanlarında peşə biliyinin qiymətləndirilməsi perspektivləri barədə

### İCTİMAİYYƏTƏ HESABAT

**70** Bakıda kibercinayətkarlıqla mübarizəyə dair beynəlxalq konfrans keçirilib

**72** Bakıda korrupsiya cinayətlərinin istintaqı və cinayət təqibi məsələlərinə dair beynəlxalq tədbir keçirilib

**75** Amerikalı və fransız jurnalistlər Hərbi Prokurorluqda olublar

**77** Bakıda hüquqi şəxslərin cinayət məsuliyyəti mövzusunda simpozium keçirilib

**78** Baş Prokurorluğun nümayəndə heyəti "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" IV beynəlxalq elmi-praktiki konfransda iştirak edib

**80** Baş Prokurorluğun Hüquqi təminat idarəsi tərəfindən beynəlxalq normaların öyrənilməsi üzrə bölgələrdə seminarlar keçirilib

**81** Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən müxtəlif sahələr üzrə seminarlar təşkil olunub

**86** Dövlət ittihamçıları "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanununun müddəalarını öyrəniblər

**86** Qusar və Şəmkir rayon prokurorluqlarında bölgə prokurorluqları işçilərinin iştirakı ilə «Azərbaycan Respublikası Prezidentinin «Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə» 10 fevral 2017-ci il tarixli Sərəncamının icrası ilə bağlı prokurorluq orqanlarının üzərinə düşən vəzifələr» mövzusunda seminarlar keçirilib

**89** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 20.10.2017-ci il tarixli Qanununun müddəalarından irəli gələn məsələlərə həsr olunan konfrans keçirilib

**91** Naxçıvan Muxtar Respublikasının Prokurorluq orqanlarında "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanununun müddəaları öyrənilib

**92** Naxçıvan Muxtar Respublikasının Prokurorluq işçiləri "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ)" mövzusu üzrə təlimdə iştirak ediblər

### BEYNƏLXALQ ƏLAQƏLƏR

**93** Baş Prokurorluğun nümayəndə heyəti MDB iştirakçı dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının iclasında iştirak edib

**95** Baş Prokurorluğun nümayəndə heyəti Ukraynada səfərdə olub

**96** Baş Prokurorluğun nümayəndəsi beynəlxalq tədbirdə iştirak edib

**96** Azərbaycanın nümayəndə heyəti Kibertəhlükəsizlik və Kibercinayətkarlığa həsr olunan beynəlxalq forumda iştirak edib

**97** Baş Prokurorluğun nümayəndələri Beynəlxalq antikorrupsiya tədbirində iştirak ediblər

**97** Azərbaycanlı məzunlara Beynəlxalq Antikorrupsiya Akademiyasının diplomları təqdim olunub

### HÜQUQİ AKTLAR

**98** Qanunvericiliyə dəyişikliklər

**130** Prokurorluq üzrə hüquqi aktlar

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib

**Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib**

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.

## Prezident İlham Əliyevin giriş nitqi



– İlin doqquz ayı arxada qalır. Bu doqquz ayda ölkəmiz uğurla və hərtərəfli inkişaf etmişdir. Bütün sahələrdə dinamik inkişaf təmin olunmuşdur.

Doqquz ayda iqtisadi göstəricilərimiz də çox müsbətdir. Qeyri-neft iqtisadiyyatımız 2,5 faiz artıb. Hesab edirəm ki, bu, çox gözəl göstəricidir. Bu, son illərdə apardığımız siyasətin nəticəsidir. Çünki qeyri-neft sektorunun inkişafı bizim əsas prioritetimizdir və 2,5 faiz artan qeyri-neft iqtisadiyyatımız həm uğurlu islahatlarımızın göstəricisidir, həm də onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi məsələləri öz həllini uğurla tapıbdır. Qeyri-neft sektorunun sənaye hissəsi də uğurla inkişaf edir. Qeyri-neft sənayesi 9 ayda 3,1 faiz

artmışdır. Bu da sənayeləşmə siyasətimizin gözəl nəticəsidir. Bildiyiniz kimi, son illər kənd təsərrüfatında çox böyük inkişaf var, böyük investisiyalar qoyulur. Kənd təsərrüfatının hərtərəfli inkişafı dövlət prioritetidir və bu sahədə də nəticələr özünü göstərir. Kənd təsərrüfatı 2,8 faiz artmışdır.

Xarici ticarət dövriyyəmiz 7 faiz artmışdır. Burada da ixrac idxalı böyük fərqlə üstələyir. Hər bir inkişafın göstəricisi, o cümlədən xarici ticarətin tarazlığından asılıdır. Bizdə isə ilin 9 ayında xarici ticarətin müsbət saldosu 4,4 milyard dollara bərabərdir. Əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq. Əlbəttə, bu, bizim həm iqtisadi uğurlarımızı əks etdirir, eyni zamanda, milli valyutamız manatın məzənnəsinə çox müsbət təsir göstərir. Valyuta bazarının tənzimlənməsi istiqamətində əlbəttə ki, bu, çox böyük imkanlar açır. Eyni zamanda, bu, bizim uğurlu inkişafımızın təzahürüdür. İxracımız idxaldan 4,4 milyard dollardan çoxdur.

Baxmayaraq, dünya bazarlarında neftin qiyməti hələ də aşağı səviyyədədir, bu il biz qarşıya məqsəd qoymuşduq ki, valyuta ehtiyatlarımızı artıraq. Çünki bu, bizim iqtisadi və siyasi müstəqilliyimizin əsas şərtlərindən biridir. Xərclərimizin də artmasına və ölkə qarşısında duran vəzifələrin də çoxalmasına baxmayaraq, biz çalışırıq ki, bütün vəzifələri icra edək. Bunu etmək üçün əlbəttə ki, maliyyə resursları lazımdır. Valyuta ehtiyatlarımızdan qənaətlə istifadə etməyimiz, eyni zamanda, düzgün investisiya proqramımızın uğuru, əlbəttə, imkan verib ki, biz valyuta ehtiyatlarımızı artıraq. İlin 9 ayında Azərbaycanın valyuta ehtiyatları artıb, hazırda bu rəqəm 42 milyard dollar səviyyəsindədir. İlin əvvəlindən valyuta ehtiyatlarımız 4,5 milyard dollar artıb. Bizim siyasətimiz uzunmüddətli siyasətdir. Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişaf haqqında düşünürük. Ona görə bir daha qeyd etmək istəyirəm ki, valyuta ehtiyatlarımız, ümumiyyətlə, iqtisadi imkanlarımız müstəqilliyimizin əsas şərtlərindən biridir.

Bu gün biz özümüzü dünya miqyasında müstəqil ölkə kimi təqdim edə bilmişik, müstəqil siyasət aparan ölkə kimi tanınırıq. Əlbəttə ki, bunun təməlində güclü siyasi iradə, xalq-iqtidar birliyi, bir çox başqa amillər dayanır. Onların arasında iqtisadi müstəqillik xüsusi yer tutur. Ona görə 4,5 milyard dollar həcmində artan valyuta ehtiyatlarımız hesab edirəm ki, 9 ayın ən uğurlu nəticələrindən biridir.

Doqquz ayda həm Bakıda, həm bölgələrdə yeni iş yerlərinin yaradılması prosesi uğurla gedib. Həmin dövrdə 226 min yeni iş yeri yaradılıbdır ki, onlardan 171 mini daimi iş yeridir. Bu da işsizliyin aşağı səviyyədə saxlanmasına imkan verir. Bu, daimi proses olmalıdır. Çünki bizim əhalimiz artır və belə olan halda biz daim yeni iş yerlərinin yaradılması haqqında düşünməliyik.

Əsas infrastruktur layihələri 9 ayda uğurla icra edilibdir. Yeddi yüz kilometrdən çox içməli su xətti çəkilib, qazlaşdırma ölkəmizdə 93 faiz səviyyəsindədir və bu proses davam edir. Bunlar özlüyündə çox gözəl göstəricidir. Elektrik enerjisi ilə təminat yaxşılaşır, yeni yarımstansiyalar tikilir, elektrik xətləri çəkilir. Meliorasiya məsələləri öz həllini tapır. İlin əvvəlində qarşıya məqsəd qoyulmuşdur ki, bu günə qədər suvarılmayan, yaxud da ki, suvarılması zəif olan 150 min hektar torpaqlarımızda bu il müasir suvarma sistemləri quraşdırılsın. Əminəm ki, biz bu rəqəmə ilin sonuna qədər çatacağıq. Mənə verilən məlumata görə, bu ilin əvvəlindən bəri 50 min hektardan çox torpaqda meliorativ tədbirlər görülmüşdür, suvarma suyu təmin edilmişdir. Qalan iki ay yarım ərzində bütün işlər başa çatmalıdır. İnfrastruktur layihələrimizin uğurlu icrası ümumi iqtisadi inkişafa, regionların inkişafına təkan verir. Əlbəttə ki, bu günə qədər həyata keçirə bilmədiyimiz infrastruktur layihələrini növbəti illərdə də biz tam icra etməliyik.

Sosial infrastrukturla bağlı siyasətimiz uğurla aparılır. Bu ilin əvvəlindən 100-ə yaxın məktəb tikilib, təmir edilib. Bu proses davam etdirilir. İyirmi yeddi tibb ocağı tikilib və təmir edilib. Digər sosial infrastruktur layihələri uğurla icra edilir.

Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu il tarixi hadisə baş vermişdir. Cocuq Mərcanlı kəndi bərpa edilmişdir, indi orada yeni qəsəbə salınır, 50 evdən ibarət qəsəbənin açılışı olmuşdur, əlavə 100 evin tikintisi prosesi gedir. Məktəb, məscid tikilib, tibb mərkəzi tikilməkdədir. Orada iş yerləri ilə bağlı bir çox məsələlər öz həllini tapır. Cocuq Mərcanlı kəndinin yenidən qurulması, bərpası tarixi hadisədir.

Eyni zamanda, digər məsələlər, köçkünlərlə bağlı məsələlər də öz həllini tapır. Bakıda, Sumqayıtda, digər bölgələrdə tikinti işləri geniş vüsət almışdır. Bu il minlərlə ailə yeni evlərlə, mənzillərlə təmin olunacaq, bu proses gələn il də davam etdiriləcək. Hələ ki, ağır vəziyyətdə yaşayan köçkünlərimiz çoxdur. Dövlət əlindən gələni edir ki, bu məsələ tezliklə öz həllini tapsın. Bilirsiniz ki, 250 mindən çox məcburi köçkün dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilmişdir.

Bu il idman sahəsində uğurlarımız kifayət qə-

dər çoxdur. Onların arasında, əlbəttə ki, İslam Həmrəyliyi Oyunlarında qazandığımız uğurları qeyd etməliyəm. İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi əslində böyük uğurumuzdur və bu Oyunlar ən yüksək səviyyədə keçirilmişdir. Azərbaycan komandası bu Oyunların qalibi olmuşdur, birinci yerə layiq görülmüşdür. Bu, idmanımızın inkişafını bir daha göstərən çox ciddi amildir.

Bu il beynəlxalq arenada mövqelərimiz daha da möhkəmlənib. Bizim xarici əlaqələrimiz çoxşaxəlidir. Biz bütün ölkələrlə qarşılıqlı faydalı və bərabərhüquqlu münasibətlər qurmuşuq, buna nail olmuşuq. Bu gün Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş, ləyaqətli ölkə kimi tanınır. Xarici siyasətimiz də açıqdır, müstəqildir və bu da dünya birliyi tərəfindən böyük rəğbətlə qarşılanır.

Bu ilin doqquz ayında mənim xarici ölkələrə 14 səfərim olmuşdur. Hələ ilin qalan hissəsində də səfərlər nəzərdə tutulur. Bu səfərlərin hər biri ölkəmiz üçün faydalı olmuşdur. Azərbaycan öz mövqeyini birbaşa xarici tərəfdaşlara çatdırır. Rəsmi səfərlərdə və beynəlxalq tədbirlərdə etdiyim çıxışlar Azərbaycanın siyasətini əks etdirir, əldə etdiyimiz uğurları, eyni zamanda, Dağlıq Qarabağ problemini də bir daha dünya ictimaiyyətinə çatdırır. Ölkəmizə isə bu il ondan çox dövlət və hökumət başçısı gəlmişdir. İlin sonuna qədər yenə də səfərlər gözlənilir. Yəni, bizim beynəlxalq əlaqələrimiz çoxşaxəlidir. Xarici siyasətimiz milli maraqlarımızı təmin edir və beynəlxalq arenada Azərbaycan, bir daha demək istəyirəm ki, böyük hörmətə və çox müsbət reputasiyaya malik olan bir ölkədir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyimiz dəyişməz olaraq qalır. Bu mövqe dünyanın ən ali tribunalarından açıq bəyan edilmişdir. Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, biz bu torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Ölkəmizin ərazi bütövlüyü danışıqların predmeti deyil və heç vaxt olmayacaq. Biz torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik və ərazi bütövlüyümüzün bərpası bizim əsas vəzifəmizdir.

Bilirsiniz ki, son vaxtlar danışıqlarda heç bir irəliləyiş yoxdur. Ermənistan çalışırdı və hesab edirdi buna nail olacaq ki, danışıqlar pozulsun. Yəni, müxtəlif bəhanələrlə bizi ittiham etməklə çalışırdı ki, danışıqlar bərpa edilməsin və buna nail olmaq üçün bir neçə şərt qoymuşdu. Əlbəttə, mən əvvəlcədən bəyan etmişdim ki, heç bir şərt qəbul edilməyəcək. Onlar bu şərtləri irəli sürərkən özlərini çox axmaq vəziyyətdə qoyurlar və məcbur olub bu siyasətdən əl çəkməli olacaqlar. Həyat və reallıq bir daha onu göstərir ki, həmişə olduğu kimi, bizim təhlilimiz və siyasətimiz tam reallığı əks etdirir.

Bu gün danışıqlar prosesi heç bir şərt qəbul olunmadan bərpa edilir. Ermənistan növbəti dəfə özünü dünya ictimaiyyəti qarşısında biabır etdi və danışıqların bərpası bizə edilən hər hansı bir minnət deyil. Onların isterik bəyanatları, başqa ölkələrə qorxu ilə dolu müraciətləri əslində açıq etirafdır ki, döyüşdə onların bizim qarşımızda duruş gətirməsi qeyri-mümkündür. Aprel hadisələri bunu göstərdi. Təmas xəttindəki vəziyyət onu göstərir ki, bu gün biz təmas xəttində hakim mövqelərə tam sahibik. Əlbəttə, Ermənistan daha çox maraqlı olmalıdır ki, danışıqlar bərpa edilsin. Çünki əks təqdirdə onları çox acı nəticələr gözləyir. Məsələ ilə məşğul olan vasitəçilər çalışırlar ki, danışıqlar prosesi bərpa edilsin. Biz də əlbəttə ki, bunu dəstəkləyirik. Ona görə bir daha demək istəyirəm ki, bu il də bu istiqamətdə real nəticə əldə olunmasa da, Ermənistan növbəti dəfə özünü dünya ictimaiyyəti qarşısında aciz, gücsüz, asılı ölkə kimi təqdim etmişdir.

Bu il neft-qaz sektorunda çox əlamətdar hadisələr baş verib. Xüsusilə, neft sektorunda "Azəri-Çıraq-Günəşli" yatağının gələcəkdə işlənilməsi ilə bağlı yeni kontrakt imzalanmışdır. Kontraktın müddəti 2050-ci ilə qədər uzadıldı. Bu kontrakt bizim üçün daha da yaxşı şərtlərlə təmin edilmişdir. Baxmayaraq ki, "Əsrin kontraktı" da Azərbaycana çox böyük faydalar gətirdi. O vaxt üçün mümkün qədər ən gözəl şərtlər təmin edilmişdir. Ancaq indiki şərtlər bizim üçün daha əlverişlidir, daha da yaxşıdır. Bu şərtlərin əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın iştirak payı 11 faizdən 25 faizə qaldırılır. Mənfəət neftinin 75 faizi Azərbaycan tərəfinə veriləcəkdir. Dövlət Neft Şirkəti yeni kontraktın podratçısı kimi iştirak edəcək və ölkəmizə xarici neft şirkətləri tərəfindən 3,6 milyard dollar bonus ödəniləcək. Bu, çox gözəl şərtlərdir və "Əsrin kontraktı"nın uzadılması, yeni kontraktın imzalanması tarixi hadisədir.

Digər nəhəng layihə "Cənub Qaz Dəhlizi" layihəsidir. Bu istiqamətdə də işlər yaxşı gedir. "Şahdəniz-2" layihəsinin icrası 96 faiz səviyyəsindədir. Cənubi Qafqaz kəməri, hansı ki, qazımızı Gürcüstana qədər çatdırır, 98 faiz səviyyəsində icra edilibdir. TANAP layihəsi 82 faiz, TAP layihəsi isə 53 faiz səviyyəsində icra edilibdir. Bu rəqəmlər əslində göstərir ki, kontraktın uğurlu icrası təmin edilir.

Digər vacib olan sahələrdə də yaxşı nəticələr var. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi de-

mək olar ki, başa çatıb. Yaxın vaxtlarda bu yolun rəsmi açılışı nəzərdə tutulur. Bu da tarixi layihədir. Yəni, Azərbaycanın iştirak etdiyi və bir çox hallarda təşəbbüskarı olduğu layihələr qlobal xarakter daşıyır. Onların əsas məqsədi və mahiyyəti ondan ibarətdir ki, bu layihələr, bu kontraktlar ölkəmizi gücləndirir. Azərbaycanın qüdrəti, iqtisadi potensialı, siyasi çəkisi, regional müstəvidə rolu artır və bu kontraktlar bizə böyük iqtisadi mənfəət, səmərə verir. Təsəvvür etmək mümkün deyil ki, əgər “Əsrin kontraktı” imzalanmasa idi, biz indi hansı vəsaitlə bütün bu abadlıq-quruculuq işlərini görə bilərdik. Düzdür, bu gün əsas məqsədimiz qeyri-neft sektorunun inkişafıdır və biz əsas gücü bu istiqamətə yönəldirik. Ancaq onu da hamımız bilməliyik ki, əgər neft gəlirlərindən səmərəli şəkildə istifadə etməsəydik, Neft Fondunda böyük vəsaiti yığmasaydıq, infrastruktur layihələrinə və digər layihələrə yönəltməsəydik, əlbəttə, bizim indiki vəziyyətimiz kəskin şəkildə fərqlənə bilərdi.

Biz bütün bu işləri düşünülmüş şəkildə görmüşük, neftdən və qazdan gələn gəlirlər insan kapitalına yönəldilib, infrastruktur layihələrinin icrasına, özəl sektorun inkişafına istiqamətləndirilib. Eyni zamanda, bu layihələr ölkəmizin beynəlxalq arenadakı rolunu, çəkisini artırır. Bu gün bizim iştirakımız olmadan bu regionda heç bir layihə, hətta heç bir siyasi təşəbbüs reallaşa bilməz. Azərbaycan bu gün dünya miqyasında özünü güclü dövlət kimi təsdiqləyib, Əlbəttə ki, bu, bizim hamımızı çox sevindirir. Növbəti illərdə ölkəmizin qüdrəti daha da artacaq.

Bu il iqtisadi islahatlarla bağlı çox ciddi addımlar atılmışdır. Strateji yol xəritələrinin icrası təmin edilir. Düzdür, bəzi hallarda yubanmalara da yol verilir, ancaq bütövlükdə çox ciddi islahat olmuşdur. Sahibkarlığın inkişafı təmin edilir. İnvestisiya təşviqi mexanizmi tam işə düşmüşdür. Onu qeyd etməliyəm ki, 200-dən çox investisiya təşviqi sənədi verilmişdir. Bu layihə, bu istiqamət çərçivəsində ölkəmizə özəl sektor tərəfindən 1,7 milyard manat həcmində investisiya qoyuluşu təmin ediləcək. Yəni, görün, bir ciddi islahatın aparılması ilə biz 1,7 milyard manat özəl sektor sərmayəsini Azərbaycana cəlb etdik. Deməli, biz buna çoxdan keçməli idik. Biz əvvəlki dövrlərdə də investisiya təşviqi mexanizmi haqqında danışmışdıq. Burada müəyyən əngəllər, müxtəlif fikirlər olmuşdur. Ancaq həyat bunu göstərir ki, bu, nə qədər düzgün addım olmuşdur.

İxracın təşviqi mexanizmi işə düşüb. Mən ixracla bağlı bəzi rəqəmləri sonra səsləndirəcəyəm. Bu mexanizm də çox ciddi təsir göstərmişdir. Ona görə bu il Azərbaycan tarixində ciddi iqtisadi islahatlar ili kimi qalacaq. Bu gün bölgələrdə, böyük şəhərlərdə, Bakıda quruculuq, abadlıq işləri geniş vüsət almışdır. Sənaye istehsalı, kənd təsərrüfatının inkişafı, sənaye zonalarının yaradılması – bütün bunlar reallıqdır. Bizim siyasətimiz ictimaiyyət tərəfindən, sahibkarlar tərəfindən bəyənilir və dəstəklənir.

Əlbəttə ki, bizim iqtisadi sahədə uğurlarımızı göstərən, əks etdirən Davos Dünya İqtisadi Forumunun hesablamalarıdır. Azərbaycan bu il iki pillə irəliləyərək 37-ci yerdən 35-ci yerə qalxıb və öz reytinqini daha da yaxşılaşdırır. Beləliklə, 140 ölkə arasında keçirilmiş bu təhlil, ölkələrin rəqabətqabiliyyətliliyini əks etdirən bu hesabat göstərir ki, Azərbaycan dünya miqyasında iqtisadi cəhətdən 35 ən rəqabətqabiliyyətli ölkə sırasındadır. Bu, böyük uğurumuzdur, tarixi nailiyyətdir. Onu da qeyd etməliyəm ki, biz MDB məkanında liderliyi saxlayırıq, qoruyuruq. Bu, əslində bizim iqtisadi siyasətimizin uğurlarını dünyanın ən mötəbər iqtisadi forumu olan Davos Forumu tərəfindən qiymətləndirilməsi deməkdir.

Biz onsuz da bilirdik ki, düzgün yoldayıq. Bizim iqtisadi siyasətimiz real həyatda öz əksini tapır. Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, xalq-iqtidar birliyi iqtisadi sahədə də həm investisiyaların cəlb edilməsini, həm yerli investorların investisiyaları ölkəmizə həvəslə yatırmalarını təmin etmişdir. Həm xarici investorlar, həm də yerli sahibkarlar tərəfindən ölkəmizin gələcəyinə çox böyük inam var və bu inam əsaslıdır. Təsadüfi deyil ki, bu ilin doqquz ayında ölkə iqtisadiyyatına 8,3 milyard dollar sərmayə qoyulmuşdur. Onun böyük hissəsi xarici sərmayədir.

İlin sonuna qədər qalan işlər də görüləcək. Əminəm ki, gələn il daha da yaxşı iqtisadi göstəricilərimiz olacaqdır. Bu ilin göstəriciləri də çox müsbətdir. İlin doqquz ayının yekunları göstərir ki, istər beynəlxalq sahədə, istər daxili siyasətlə, iqtisadi siyasətlə bağlı bütün istiqamətlər üzrə çox gözəl nəticələr var. Bu, bir daha bizim düzgün yolda olmağımızı göstərir.

***

Təhsil naziri Mikayıl Cabbarov, “Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov, Bakı Nəqliyyat Agentliyinin baş direktoru Vüsal Kərimli çıxış etdilər.

***

Azərbaycan Prezidenti iclasda yekun nitqi söylədi.

## Prezident İlham Əliyevin yekun nitqi



– İlin sonuna üç aydan az vaxt qalır. Bu müddət ərzində Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapmalıdır. Bu il Dövlət İnvestisiya Proqramı lazımi səviyyədə təmin edilir, kifayət qədər vəsait nəzərdə tutulmuşdur. Nəzərdə tutulmuş bütün məsələlər ilin sonuna qədər öz həllini tapmalıdır.

Maliyyə məsələləri ilə bağlı heç bir problem yoxdur. Büdcə göstəriciləri yaxşıdır, tam icra edilir. Ona görə, investisiya proqramının icrası əlbəttə ki, təmin ediləcəkdir. Mən buna şübhə etmirəm.

Gələn ilin Dövlət İnvestisiya Proqramı ilə bağlı ilkin təkliflər gəlməkdədir. Gələn il kifayət qədər vəsait nəzərdə tutulmalıdır ki, həm infrastruktur layihələri, eyni zamanda, ölkə qarşısında duran əsas vəzifələr icra edilsin. Ona görə, hesab edirəm ki, gələn ilin investisiya proqramı ilin sonuna qədər təsdiq edilə bilər. Gələn ilin büdcəsi bu ilin büdcəsindən daha da böyük olmalıdır. Buna bütün imkanlar var. Yaxın zamanlarda bu məsələyə də baxılacaqdır.

Bildiyiniz kimi, sahibkarlığın inkişafı üçün bir çox işlər görülür. Onların arasında güzəştli kreditlərin verilməsi də var. Artıq uzun illərdir ki, bu proses davam edir. Hazırda sahibkarlara verilən güzəştli kreditlərin demək olar ki, tam həcmi əvvəllər verilmiş və qaytarılmış kreditlər hesabına təşkil edilir. Bu il kifayət qədər böyük proqram nəzərdə tutulmuşdur. Mənə məruzə edilib. Bu proqramın böyük hissəsi icra edilmişdir. Amma hələ də Sahibkarlığa Kömək Milli Fondunun sərəncamında kifayət qədər vəsait – bölüşdürülməmiş, yaxud da ki, bölüşdürülmüş, ancaq verilməmiş kreditlər var. Çalışmaq lazımdır ki, ilin sonuna qədər nəzərdə tutulmuş kreditləşmə tam həcmdə təmin edilsin.

Yol infrastrukturu ilə bağlı görülmüş işlər haqqında burada məruzədə göstərildi. Qeyd etməliyəm ki, ilin əvvəlində nəzərdə tutulmuş layihələrin hamısı

təbii ki, icra ediləcək. Bundan əlavə, il ərzində mənim bölgələrə səfərlərim çərçivəsində və yerlərdən gələn təkliflər nəticəsində yeni yol layihələri də icra edilməyə başlanılmışdır. Bunlar daha çox kənd yollarıdır və eyni zamanda, şəhərlərarası yollardır. Onların arasında əvvəlcədən nəzərdə tutulmamış, ancaq builki proqrama salınmış və indi icrası gedən layihələr arasında Qax-Zaqatala-Balakən yolunu qeyd etməliyəm. Bu yolun əsaslı təmiri bu il nəzərdə tutulmamışdır. Ancaq bölgəyə səfərim zamanı bu məsələ qaldırıldı və göstəriş verildi. İndi bu layihə icra edilir. Cəlilabad-Yardımlı yolunun bir hissəsi əvvəlki dövrdə əsaslı təmir edilmişdir. Ancaq bu layihə yarımçıq qalmışdır. Cənub bölgəsinə səfərim zamanı bu məsələ də qaldırıldı və göstəriş verildi. Cəlilabad-Yardımlı yolunun tam istifadəyə verilməsi ilə bağlı bütün lazımi tədbirlər görülüb. Bu, Yardımlıya Bakıdan və digər bölgələrdən ən qısa yol olacaq və bir çox kəndləri birləşdirəcək.

Bizim gözəl turizm məkanımız olan Göygölə gedən yol artıq uzun illərdir ki, təmirsiz qalmışdı. Biz indi Göygölü turizm mərkəzinə çevirərək oraya böyük turist axınına nail olmuşuq. Əlbəttə ki, oraya gedən yol tam yüksək səviyyədə təmir edilməlidir. Bu göstəriş də verilmişdir. Eyni zamanda, o bölgədə olarkən bu məsələ də qaldırıldı. Bu yaxınlarda Şamaxı rayonunda olarkən orada da Şamaxını Lahıcla birləşdirən yol haqqında məsələ də öz həllini tapmışdır. Bu yolun bir hissəsi istifadəyə verilib, qalan hissə də bu il və gələn il istifadəyə veriləcək. Lahıc nadir bir yaşayış mərkəzidir. Oraya hər il on minlərlə turist gəlir. İndi Lahıca həm alternativ, həm də ən qısa yol Şamaxı-Dəmirçi-Lahıc yolu olacaqdır. Bu da bir neçə kəndi birləşdirən yoldur.

Ona görə, bunu deyirəm ki, biz proqramı tərtib edirik, vəsait ayırırıq. Ancaq il ərzində yeni təkliflər gəlir və bu təkliflər də həmişə təmin edilir. Ona görə, bizim əsas fəaliyyət istiqamətimiz də bundan ibarətdir ki, Azərbaycan xalqının maraqlarını təmin edək, xalqı narahat edən məsələlər öz həllini tezliklə tapmalıdır. Çalışmalıyıq ki, gələn ilin kənd yolları proqramının tərtibində və təşkilində bütün yerlərdən gələn təkliflər nəzərə alınsın. Mənə artıq ilkin məruzə edilib. Biz gələn il bu ilə nisbətən daha çox kəndi yeni yollarla təmin edəcəyik. Baxmayaraq ki, bu il də yüzlərlə kəndə yol salınıb. Bu proses hələ neçə il bundan sonra da davam etməlidir, o vaxta qədər ki, bizim bir dənə də təmirsiz və yaxşı vəziyyətdə olmayan kənd yolu qalmasın.

Mən giriş sözümdə qeyd etdim ki, infrastruktur layihələri arasında meliorasiya məsələləri indi ön plandadır. Bu layihələrin icrası artıq öz səmərəsini verib. Bu il nəzərdə tutulub ki, 150 min hektar yeni sahəyə suyun verilməsi təmin edilsin və biz bu hədəfə çatmalıyıq. Gələn il isə ən azı bu günə qədər suvarılmayan, yaxud da suvarılması lazımi səviyyədə olmayan 100 min hektar sahəyə yeni kanallar çəkilməlidir ki, bu proses daha da sürətlə getsin. Beləliklə, suvarılan torpaqların həcmi hər il artacaq. Bu da təbii ki, özlüyündə kənd təsərrüfatının sürətli inkişafını təmin edəcək. Çünki bu gündən sonra, – əslində bu məqsəd, bu vəzifə əvvəlki dövrlərdə də qarşıya qoyulmuşdur, – kənd təsərrüfatının intensiv inkişafı təmin edilməlidir.

Bizim torpaq fondumuz məhduddur. Kənd təsərrüfatının sürətli inkişafı ancaq intensiv metodlardan asılı olacaqdır. Onların arasında əlbəttə ki, aqrotexniki tədbirlər, laboratoriyaların qurulması, torpağın düzgün təhlili, – bütün bu məsələlər Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təmin edilir, – və suvarma məsələləridir. Ona görə, meliorativ tədbirlər həm növbəti ilin Dövlət İnvestisiya Proqramında, ondan sonrakı illərdə də daim prioritet olmalıdır.

Onu da qeyd etməliyəm ki, bu il yerlərdən gələn təkliflər nəticəsində bir neçə önəmli layihənin icrasına başlanılıb. Şəmkirçay su anbarından kanalın Goranboy rayonuna qədər uzadılması, Neftçala su kanalının tikintisinin davam etdirilməsi və digər layihələr on minlərlə hektar yeni torpaq sahəsinə suyun verilməsini təmin edəcək. Əlbəttə ki, Taxtakörpü su anbarının mövcudluğu və yeni kanalların çəkilməsi Xızı, Siyəzən, Şabran rayonlarındakı böyük torpaq sahələrinə suyun verilməsini təmin edəcək.

Bu il kənd təsərrüfatı ilə bağlı bir çox önəmli tədbirlər həyata keçirilmişdir. Mənim sədrliyimlə müxtəlif sahələr üzrə müşavirələr keçirilmiş, pambıqçılıq, baramaçılıq, tütünçülük, fındıqçılıq, çəltikçilik, sitrusçuluq, çayçılıq – bütün bu məsələlər çox geniş müzakirə edilmişdir. Dövlət proqramları hazırlanmış, təsdiq olunmuş və bütün hədəflər müəyyən edilmişdir. Bu proqramlar çox konkret xarakter daşıyır. Orada həm icra mexanizmləri, maliyyə vəsaiti nəzərdə tutulur. Əlbəttə ki, gələn ilin dövlət büdcəsində bu proqramların reallaşması nəzərdə tutulmalıdır.

Bir daha demək istəyirəm ki, müşavirələrdə bütün rəqəmlər qeyd edildi, qarşıya hədəflər qoyuldu. Həmin rəqəmləri və hədəfləri təkrar etmək istəmirəm. Əsas odur ki, bu proqramların çox operativ icra mexanizmləri və maliyyə resursları təmin edilməlidir.

Hesab edirəm ki, bu il kənd təsərrüfatı texnikasının alınması ilə bağlı rekord il olmuşdur. Bu il artıq 8 min texnika gətirilib. Biz bu il 10 min texnika gətirməli idik. Yəqin ki, qalan texnika da ilin sonuna qədər gətiriləcək. Deməliyəm ki, mən indi bölgələrdə olarkən texnika ilə bağlı heç bir şikayət, yaxud da əlavə təklif yoxdur. Biz demək olar ki, bu məsələni də həll etmişik. Əlbəttə ki, bəzi kənd təsərrüfatı sahələrinin inkişafı üçün xüsusi texnikanın alınması davam etdirilməlidir və biz bunu edəcəyik. Amma prinsipcə hesab edirəm ki, biz bu problemi də köklü şəkildə həll etmişik.

Heyvandarlığın sürətli inkişafı da prioritetlərdən biridir. Bu il bu istiqamətdə çox işlər görülüb və gələn il də görüləcək. Əlbəttə ki, Göygöl rayonunda Süni Mayalanma Mərkəzinin yaradılması bu sahədə dünyanın ən mütərəqqi təcrübəsini Azərbaycana gətirməyi təmin edir. Yerli cinslərin sağlamlaşdırılması, yaxşılaşdırılması, cins mal-qaranın alınması məsələnin həllini kompleks şəkildə təmin edəcək və əminəm ki, biz bir neçə ildən sonra südçülük və ətçilik sahəsində daha da böyük uğurlara nail ola biləcəyik. Azərbaycanda yeni süd zavodları yaradılmalıdır. Çünki bizdə bu sahədə bu qədər ki, inkişaf gözlənilir, mövcud istehsal gücü bizi qane etməyəcək.

Bölgələrdə logistik mərkəzlərin tikintisinə başlanılmışdır. Biz əslində artıq neçə ildir ki, soyuducu anbarlar, taxıl anbarları, logistika ilə bağlı digər məsələləri uğurla həll edirik. Demək olar ki, bütün bölgələrdə bu məsələlər öz həllini tapıbdır. İndi vaxt gəlib ki, böyük ixraca hesablanmış logistik mərkəzlərin yaradılması təmin edilsin. Çünki biz əvvəlki dövrlərdə bu işləri daha çox məhsulun xarab olmaması, saxlanması və daxili tələbatın təmin edilməsi üçün görürdük. Ancaq bizim ixrac imkanlarımız artacaq, – indi mən bu barədə də danışacağam, – və belə olan halda, mütləq böyük logistik mərkəzlər tikilməlidir. Onlardan birini mən Şəmkir rayonunda olarkən görmüşəm. Əslində o logistik mərkəzin təməlini də mən qoymuşam. İndi deyə bilərəm ki, bu bölgədə ən böyük logistik mərkəz yaradılıbdır. Hesab edirəm ki, bundan sonra bizə ən azı üç böyük logistik mərkəz lazımdır – Mərkəzi Aran, şimal və cənub zonalarında. Mən sahibkarları da bu işlərə dəvət edirəm. Dövlət öz dəstəyini verəcək, kreditlər ayıracaq, bütün lazımi infrastruktur təşkil ediləcək. Çünki bu, bizim böyük ixrac potensialımızın inkişafı üçün mütləq lazım olacaq.

İstixanaların salınması Azərbaycanda çox geniş vüsət alıb. Çox şadam ki, mənim çağırışım və tövsiyələrim reallaşır. Mənə bu yaxınlarda verilən məlumata görə, biz bu təşəbbüsü irəli sürəndən sonra hazırda 400 hektardan çox sahədə yeni, müasir istixana kompleksləri yaradılır. Onların bir hissəsi istifadəyə verilib, böyük hissəsi isə hələ yaradılmaqdadır. İndi təsəvvür edin, məhsuldarlıq yüksək olan 400 hektarda yeni istixanalar yaradılır. Bu istixanaların böyük hissəsi ixraca hesablanıb və beləliklə, bizim ixracımız daha da artacaq. Əlbəttə ki, böyük logistik mərkəzlərin yaradılması da bu potensiala uyğun şəkildə nəzərdə tutulmalıdır.

Ölkəmizdə 38 aqroparkın yaradılması prosesi gedir. Onlardan ikisi artıq fəaliyyət göstərir. Qalan aqroparklarda işlər gedir. Bu işlər tam nəzarət altındadır, mənə müntəzəm olaraq məlumat verilir. Hesab edirəm ki, bu aqroparkların uğurlu fəaliyyəti bizim bütün sahibkarların diqqətini cəlb edəcək. Bu, həm sahibkarlar, həm dövlət, həm də bizim valyuta ehtiyatlarımızın artırılması üçün çox gəlirli sahədir.

Sənaye zonalarının yaradılması artıq reallaşır. Mən bu barədə bir neçə il bundan əvvəlki müşavirələrdə də demişdim ki, hər rayonda müasir sənaye zonaları yaradılmalıdır. Biz artıq buna da nail oluruq. Bu yaxınlarda Neftçala Sənaye Məhəlləsinin açılışı oldu. Balaxanıda, Masallıda sənaye zonaları yaradılır. Mingəçevirdə böyük tekstilyönümlü yüngül sənaye zonası yaradılır. Hacıqabul rayonunda sənaye məhəlləsi yaradılır.

İqtisadiyyat Nazirliyinə göstəriş verilmişdir ki, gələn il də bir neçə rayonda sənaye zonalarının yaradılması ilə bağlı praktiki işlər başlasın. Neftçala rayonunda və digər rayonlarda olduğu kimi, burada da dövlət yenə də əsas yükü öz üzərinə götürəcək. Bütün infrastruktur, bütün tikililər – anbarların, istehsalat sahələrinin binaları dövlət tərəfindən inşa ediləcək. Qoy, sahibkarlar təkliflər versinlər, bazarın düzgün monitorinqini aparsınlar. Xüsusilə o sahələrə üstünlük verilməlidir ki, biz o sahələrdə hələ idxaldan

asılıyıq. Yəni, birinci növbədə idxal təhlil edilməli və idxalı əvəzləyən məhsulların istehsalı ilə bağlı təkliflər verilməlidir. Bununla bərabər, əlbəttə ki, ixrac potensialı olan istehsalın yaradılması da diqqət mərkəzində olmalıdır. Yəni, daxili tələbat və ixrac sənaye zonalarının əsas meyarları olmalıdır. Ona görə, ixrac bazarları da düzgün təhlil edilməlidir ki, biz hansı məhsulla hansı bazara çıxa bilərik. Elə olmasın ki, belə zonalar yaradılsın, orada məhsul istehsal olunsun, sonra da onu sata bilməsinlər. Əlbəttə ki, sahibkarlar da bu işlərdə çox fəal iştirak etməlidirlər – həm bölgələrdə, həm də Bakıda yaşayan sahibkarlar. Bu zonaların çox böyük potensialı var. Çünki bizim, – mən bu barədə dəfələrlə demişəm, – bir neçə ənənəvi sənaye mərkəzimiz var – Bakı, Sumqayıt, Gəncə, indi Mingəçevir şəhərləri və digər bölgələr. Hesab edirəm ki, əksər rayonlarda sənaye zonalarının yaradılması yaxşı nəticə verəcək.

Təqribən bir il, bəlkə də bundan bir qədər də əvvəl xalçaçılığın inkişafı istiqamətdə çox ciddi addımlar atılmağa başlanmışdır. Bu il 10 xalça fabrikinin istifadəyə verilməsi nəzərdə tutulur. Onlardan ikisi mənim iştirakımla açılıb, səkkizi ilin sonuna qədər açılmalıdır. İndi verilən təkliflərə baxılır, gələn il də bölgələrdə təqribən 10-a yaxın fabrik açılacaq. Bu, çox müsbət irəliləyişdir. Xalçaçılıq bizim milli sənətimizdir, eyni zamanda, xarici bazarlara çıxışı olan məhsuldur, ölkəmizə valyuta gətirən sahədir, işsizliyi, xüsusilə qadınlar arasında işsizliyi aradan qaldıran sahədir. Xalçaçılığın çox böyük potensialı var. Dövlət vəsait ayırıb, bütün bu fabriklər dövlət hesabına tikilir, həm dəzgahlar, həm də bütün digər avadanlıq dövlət vəsaiti hesabına alınır. Biz bütün istehsal zəncirini ardıcıllıqla yaratmalıyıq. Ona görə, göstəriş verilib, bu il və gələn il müxtəlif bölgələrdə yun qəbulu məntəqələri açılacaq. Bu məsələ təhlil edildi və gördük ki, burada da xaotik bir vəziyyət yaranıbdır. Bizim cəmi bir və ya iki yerdə yun qəbulu məntəqəmiz var. Onlar da elə vəziyyətdədir ki, heç olmasa idi, bəlkə bundan yaxşı idi. Ona görə, yeni, müasir məntəqələr yaradılacaq. Rayonlar müəyyən edilib, vəsait nəzərdə tutulub, bu, birinci məsələ. İkincisi, Sumqayıt şəhərində əyirici-boya fabrikinin tikintisi nəzərdə tutulur. Bu məqsəd üçün də vəsait ayrılıb. Ümid edirəm, gələn il fabrikin açılışı olacaq ki, biz həm boyadan, həm də iplikdən xarici asılılığa son qoyaq. Əlbəttə ki, biz bundan sonra xarici bazarlara çıxışı təmin etməliyik. Bunun üçün yəqin ki, sərgilərdə, beynəlxalq tədbirlərdə daha fəal iştirak etməliyik. Həmçinin reklam xarakterli tədbirlər də görülməlidir ki, Azərbaycan öz milli sənətini dünyaya təqdim etsin.

Tikinti sektorunda canlanma gedir. Bu, tikinti materialları sektoruna da müsbət təsir göstərir. Gələn il bu sahədə işlər daha da sürətlə gedəcək. Hazırda Bakı şəhərində 95 yaşayış binası tikilir. Bu binaların özəlliyi ondan ibarətdir ki, onlar yararsız, qəzalı vəziyyətdə olan binaların, bəzi hallarda daxmaların yerində tikiləcək. Orada yaşayan vətəndaşlara kompensasiya ödənilir, yaxud da ki, kirayə pulu verilir. Sonra onlar daha da böyük mənzillərlə təmin ediləcəklər. Artıq bir layihə icra edilib. Orada əvvəllər yaşamış və bu gün yaşayan sakinlər çox razıdırlar. Onlara təmirli, müasir və daha böyük həcmli mənzillər verilmişdir.

Bu, həm sosial, həm də iqtisadi layihədir. Bunun tikinti sektoruna çox böyük təsiri var. Eyni zamanda, MİDA-nın – Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə Yasamal rayonunda böyük şəhərcik tikilir. Gələn ilin dövlət büdcəsində vəsait nəzərdə tutulmalıdır ki, həm bu layihə davam etdirilsin, həm də Hövsan qəsəbəsində MİDA-nın yeni layihəsi icra olunsun.

“ASAN xidmət” mərkəzlərinin tikintisi davam etdirilir. Yaxın aylarda Mingəçevir və Quba şəhərlərində yeni mərkəzlər açılacaq. Şəki və İmişli şəhərlərində isə gələn il yeni mərkəzlərin açılması nəzərdə tutulur. Mən hesab edirəm ki, gələn il əlavə bir neçə şəhərdə “ASAN xidmət” mərkəzlərinin tikintisi başlanmalıdır. Çünki bu layihənin çox böyük səmərəsi var, xalq tərəfindən yüksək qiymətləndirilir, bəyənmə əmsalı 100 faizə yaxındır. Ona görə biz çalışmalıyıq ki, bütün bölgələrdə, – indi biz buna yaxınlaşırıq, – bundan sonra hər bir yerdə “ASAN xidmət” fəaliyyət göstərsin.

“ASAN” öz funksiyalarını genişləndirir. İndi kommunal xidmətlər göstərilir. “ABAD mərkəz”lər yaradılır. Mən Masallıda, Balakəndə olarkən artıq orada kəndli-fermerlərin məhsulları ilə də tanış oldum. Bunun çox böyük faydası var. Eyni zamanda, “ABAD mərkəz”lərin yaradılması özünüməşğulluq proqramının icrasına da böyük dəstək olacaq. Özünüməşğulluq proqramına gəldikdə, mən əvvəlki müşavirələrdə bu barədə göstərişlər vermişəm. İndi qanunvericilikdə də lazımi düzəlişlər edilib. Əmək

və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kifayət qədər böyük vəsaiti yaranacaq və bu vəsait də özünüməşğulluq proqramının icrasına yönəldilir. İlkin məlumat müsbətdir. Bu məsələ yerlərdə çox böyük həvəslə qarşılanır. Əlbəttə ki, dövlət ağır vəziyyətdə yaşayanlar üçün öz hesabına pulsuz imkan yaradır, vəsait verir ki, onlar bundan sonra öz dolanışığını lazımi səviyyədə təmin etsinlər.

Turizmin inkişafı növbəti reallıqdır. Son bir-iki il ərzində bu sahədə sürətli inkişafı görürük. Yerlərdəki turizm mərkəzlərində mənə deyirlər ki, xüsusilə yay aylarında və əsas turizm mövsümündə otellərdə yer olmur. Ona görə, yeni otellərin tikintisi mütləq təmin edilməlidir. Yerli icra orqanları şərait yaratmalıdırlar, yerlər ayırmalıdırlar və özəl sektor bu sahəyə fəal investisiya qoymalıdır.

Strateji Yol Xəritələrinin icrası ilə bağlı monitorinq aparılır. Monitorinqin nəticələri mənə məruzə edildi. Monitorinq göstərir ki, bəzi hallarda nəzərdə tutulan tədbirlərin icrası gecikir. Buna yol vermək olmaz. Bütün dövlət qurumları qarşısında vəzifə qoyulmuşdur. Hər bir dövlət qurumu bilir nə etməlidir. Ona görə, bəzi qurumlarda Strateji Yol Xəritələrinin icrası 50 faizdir, 70 faizdir, bəzi qurumlarda isə 10 faizdir, 15 faizdir. Bunun izahatı tələb olunmalıdır. Mən göstəriş verirəm ki, gecikməyə yol verən qurumlar tezliklə işlərində dönüş yaratsınlar. Bütövlükdə Strateji Yol Xəritələrinin qəbulu və elan edilməsi çox ciddi islahatdır – 164 prioritet və 683 tədbir nəzərdə tutulmuşdur. Onların hamısı 2020-ci ilə qədər öz həllini tapmalıdır. Ona görə, bu məsələ ilə bağlı monitorinqin nəticələri təhlil olunmalı və burada qüsurlara yol verən qurumlar tezliklə düzəlişlər etməlidirlər. Mənə mütəmadi olaraq məlumat veriləcək. Yubanma aradan qaldırılmalıdır. Aidiyyəti dövlət qurumları nəticə çıxarsınlar.

İndi isə mən bu il qeyri-neft ixracımızla bağlı bəzi rəqəmləri səsləndirmək istəyirəm ki, Azərbaycan ictimaiyyəti görsün, bizim işimiz necə gözəl nəticə verir. Bu rəqəmlər səkkiz ayı əks etdirir. Doqquz ayın rəqəmləri, yəqin ki, bir qədər sonra məlum olacaq. Yəni, indi səkkiz ayın göstəriciləri Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırılacaq.

Deməli, ixracımız hansı səviyyədə artıb? Tərəvəz istehsalı 68 faiz, o cümlədən pomidor 60 faiz. Bu gün qeyri-neft sektorunun ən çox gəlir gətirən sahəsi pomidor ixracıdır. Səkkiz ayda bu, ölkəyə 128 milyon dollar gətirib və 59 faiz artım var. Kartof 63 faiz, salat tərəvəzi 20 faiz, soğan ixracı 15 dəfə artıb. Pambıq 2,4 dəfə, o cümlədən pambıq lifi 8,4 dəfə, meyvə ixracı bütövlükdə 12 faiz artıbdır. Ancaq alma və şaftalı üzrə artım iki dəfədən çox olub. Süd məhsullarının ixracı dörd dəfə artıb. Spirtli və spirtsiz içkilər 28 faiz, onun içərisində şərab 56 faiz artıb. Meyvə-tərəvəz emalı məhsulları 50 faiz, tütün məmulatları 45 faiz, çay 63 faiz, bitki və heyvan mənşəli yağlar 19 faiz, şokolad 65 faiz.

Sənaye məhsulları – qızıl 56 faiz, elektrik enerjisi 4,1 dəfə, alüminium 28 faiz, kimya sənayesi məhsulları 25 faiz, plastiklər 14 faiz, mis-filiz konsentratları 94 faiz, avadanlıqlar, mexaniki qurğular 48 faiz, mis və ondan hazırlanan məmulatlar 54 faiz, toxuculuq məmulatları 92 faiz. Elektrik avadanlıqları və hissələri 75 faiz, daş, gips, sement 34 dəfə.

Bu rəqəmlər ən yaxşı göstəricidir. Onlar göstərir ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı bizim bütün vəzifələrimiz uğurla icra edilir. Mən əvvəlki dövrlərdə də qeyd etmişdim ki, bizim əsas prioritetimiz qeyri-neft sektorunun inkişafıdır. Ondan sonrakı dövrlərdə qarşıya daha çox məsələ qoyulur ki, biz qeyri-neft ixracının artımına nail olaq və buna da nail oluruq. Çünki budur bizim inkişaf perspektivlərimiz. Qeyri-neft sektorunun ixracı bizə böyük həcmdə valyuta gətirir. Bu, hələ işimizin birinci mərhələsidir. İndi aqroparklar, istixanalar, heyvandarlığın inkişafı, sənayeləşmə siyasətimiz bundan sonra daha da böyük nəticələr verəcək. Mən həmişə deyəndə ki, ölkəmizin gələcək inkişafı ilə bağlı çox nikbin fikrim var, bax, buna əsaslanıram.

Ölkəmizin ictimai-siyasi vəziyyəti də bir çox ölkələr üçün nümunə ola bilər. Xalq-iqtidar birliyi həmişə olduğu kimi möhkəmdir. İqtisadi göstəricilər, – bu gün müşavirədə bu göstəricilər səsləndi, – hər bir ölkə üçün nümunə ola bilər. Perspektivlərimiz bunlardır -– sənayenin, kənd təsərrüfatının inkişafı, infrastruktur, Bakı-Tbilisi-Qars dəmir yolu, “Cənub Qaz Dəhlizi” layihələrinin icrası, “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının işlənilməsi. Bunlar yalnız sadaladığım əsas istiqamətlərdir.

Ona görə əminəm ki, nəinki bu ilin sonuna qədər, bundan sonrakı illərdə də ölkəmiz uğurla inkişaf edəcək, Azərbaycan həmişə zirvələrdə olacaq. Sağ olun.

# Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

## Ümummilli lider Heydər Əliyevin xatirəsi dərin ehtiramla yad edilib




Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 14 il keçir.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.



Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlət başçısı İlham Əliyev və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarəti mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.



1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük qayıdış idi və ulu öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətlərdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıdan, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınan böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 14-cü ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirlər.

# Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbriki

## Dünya azərbaycanlılarına

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram.

Qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli-mənəvi dəyərlərə bağlılığı və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsi daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan vermiş, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirmişdir.

Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və tolerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir.

Sizə bu yolda möhkəm iradə və mütəşəkkillik, şəxsi həyatınızda səadət və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 dekabr 2017-ci il.

# Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki

## Prezident İlham Əliyev Azərbaycan xalqını təbrik edib



– Əziz həmvətənlər.

2017-ci il arxada qalır. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra edildi, Azərbaycanda sabitlik təmin edildi. Sabitliyin mənbəyi xalq-iqtidar birliyidir. Dünyada gedən xoşagəlməz proseslər, qanlı toqquşmalar, müharibələr, münaqişələr göstərir ki, sabitlik olmayan yerdə inkişafdan söhbət gedə bilməz. Azərbaycan xalqı 2017-ci ildə sabitlik şəraitində yaşamışdır.

Bizim beynəlxalq əlaqələrimiz bu il daha da genişləndi. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı gündən-günə artır. Azərbaycan dünyada özünü ləyaqətli və etibarlı tərəfdaş kimi göstərir. Qonşu ölkələrlə əlaqələrimiz daha yüksək pilləyə qalxmışdır. Bu əlaqələr hər bir ölkə üçün çox önəmlidir, bizim üçün də. Bütün qonşularımızla qarşılıqlı hörmət əsasında dostluq əlaqələrimiz regional sabitliyə müsbət təsir göstərir.

Azərbaycan bu il İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal iştirak edib və İslam həmrəyliyinin inkişafına, güclənməsinə öz dəyərli töhfəsini vermişdir. Bildiyiniz kimi, 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmuşdur və bu il ərzində həm ölkə daxilində, həm xaricdə bir çox önəmli tədbirlər keçirilmişdir. Eyni zamanda, bu il Avropa İttifaqı ilə əlaqələrimiz yeni pilləyə qalxıb, yeni saziş üzərində danışıqlar başlamışdır. Bildiyiniz kimi, keçən il Azərbaycanda "Multikulturalizm İli" elan olunmuşdur. Azərbaycan dinlərarası, mədəniyyətlərarası dialoqun inkişafında öz dəyərli rolunu oynayır və hesab edirəm ki, dünya miqyasında bu sahədə mərkəzlərdən birinə çevrilmişdir.

Mən bu il 20-dən çox xarici səfər etmişəm. Bu səfərlər çərçivəsində Azərbaycanın milli maraqlarını müdafiə etmişəm. Deyə bilərəm ki, xarici tərəfdaşlarla əlaqələrimiz bir daha göstərir ki, Azərbaycanın dünya miqyasında çox müsbət imici və reputasiyası vardır.

Xarici siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllidir. Bu istiqamətdə nəticələr olmasa da, hesab edirəm ki, 2017-ci ildə bizim mövqelərimiz daha da möhkəmləndi. Birinci onu qeyd etməliyəm ki, separatist rejim tərəfindən keçirilmiş qondarma "referendum" dünya ictimaiyyəti tərəfindən qəbul edilmədi. Nə qonşu ölkələr, nə Avropa İttifaqı, nə də ki bütün başqa ölkələr bu qondarma "referendum"u tanımadılar və beləliklə, bir daha göstərdilər ki, bütün dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu da təbiidir. Çünki Dağlıq Qarabağ bizim əzəli tarixi torpaqlarımızdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Sadəcə olaraq, mənfur qonşular tərəfindən bizim tarixi, dini abidələrimiz məhv edilibdir və uzun illərdir ki, bu torpaqlar işğal altındadır.

Hesab edirəm, ikinci önəmli məsələ ondan ibarətdir ki, Ermənistan qeyd-şərtsiz danışıqlara qoşuldu, baxmayaraq ki, şərt qoyurdu. Aprel məğlubiyyətindən sonra Ermənistan tərəfindən irəli sürülmüş heç bir şərt Azərbaycan tərəfindən qəbul edilmədi. Danışıqlar qeyd-şərtsiz bərpa edildi. Ümid edirəm ki, danışıqlar nəticəsində biz məsələnin həllinə nail ola bilərik. Əlbəttə ki, danışıqlarda bizim mövqeyimizi güclü iqtisadi və hərbi potensial daha da gücləndirir. Aprel məğlubiyyətindən sonra Ermənistan hələ də özünə gələ bilməyib. Hesab edirəm, bu məğlubiyyət onlar üçün yaxşı dərs olmalıdır, bir daha bütün dünyaya göstərməlidir ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq.

Aprel qələbəmizdən sonra Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında vaxtilə işğal altında olmuş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Gün gələcək bizim bayrağımız bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada dalğalanacaqdır. Bunu deməyə əsas verən Azərbaycan xalqının əyilməz iradəsidir, Azərbaycan rəhbərliyinin siyasətidir.

Bu il Cocuq Mərcanlı kəndinə uzun fasilədən sonra həyat qayıtdı. Cocuq Mərcanlının inkişafı bizim əyilməz ruhumuzun rəmzidir. Uzun illər o kəndin sakinləri başqa yerlərdə yaşamışlar. Ancaq Azərbaycan dövləti orada qəsəbə salandan sonra onlar öz doğma torpağına qayıtmışlar. Cocuq Mərcanlının bərpası bizim qürur mənbəyimizdir. Bu gün orada 150 evdən ibarət gözəl qəsəbə salınıb, məktəb, tibb məntəqəsi, uşaq bağçası və Şuşa məscidinin – vəhşi qonşular tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəri olan məscid tikilib.

Qeyd etməliyəm ki, bu il məcburi köçkünlərin problemlərinin həlli işində digər çox önəmli və deyə bilərəm ki, tarixi hadisə baş vermişdir. Vaxtilə işğal altında olan Şıxarx qəsəbəsində 1170 ailə üçün tikilmiş şəhərcik açılmışdır. Bu önəmli hadisə bir tərəfdən onu göstərir ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Digər tərəfdən, onu göstərir ki, işğaldan azad edilmiş torpaqlarda Azərbaycan yeni həyat qurur, yeni ictimai binalar, yaşayış binaları salınır və minlərlə köçkün bu torpaqlara qayıdır.

Bizim hərbi potensialımız bu il də diqqət mərkəzində olmuşdur. Ordumuz üçün nə lazımdırsa onu da biz həll etdik. Bu gün bütün beynəlxalq reytinqlər göstərir ki, Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü

ordular sırasındadır. Düşmən bunu bilir və bilməlidir. Bundan sonra da ordu quruculuğu üçün bütün lazımi tədbirlər görüləcək, yeni texnika, silahlar, ən müasir döyüş vasitələri alınır və alınacaqdır.

Əlbəttə ki, qarşımızda duran bütün vəzifələri icra etmək üçün güclü iqtisadiyyat lazımdır. Biz bu istiqamətdə də bu il çox fəal işləmişik. 2017-ci il tarixdə dərin, köklü və nəticə verən iqtisadi islahatlar ili kimi qalacaqdır. Baxmayaraq ki, neftin qiyməti hələ də aşağı səviyyədədir və Azərbaycanda neftin hasilatı düşür, Azərbaycan apardığı islahatlar nəticəsində çətin vəziyyətdən şərəflə çıxa bilmişdir. Bunu beynəlxalq mötəbər təşkilatlar da qeyd edir. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına, ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir. Bu, ilk növbədə, onu göstərir ki, ölkəmizdə aparılan çox ciddi islahatlar gözəl nəticələr verir.

Bu il iqtisadiyyatın qeyri-neft sektoru 2 faizdən çox, iqtisadiyyatımızın qeyri-neft sənayesi 3 faizdən çox, kənd təsərrüfatı isə 4 faizdən çox artmışdır. Hesab edirəm ki, indiki şərait üçün bu, çox yaxşı nəticədir. Əminəm ki, 2018-ci ildə rəqəmlər daha da böyük olacaq. Eyni zamanda, biz öz valyuta ehtiyatlarımızdan da çox səmərəli şəkildə istifadə etdik. Baxmayaraq ki, neftin qiyməti aşağı düşüb, biz valyuta ehtiyatlarımızı artıra bilmişik, özü də böyük dərəcədə. Valyuta ehtiyatlarımız 4,5 milyard dollardan çox artmışdır. Bu da bizim strateji ehtiyatımızdır, bizə həm iqtisadi, həm də siyasi müstəqillik verən və onu gücləndirən amillərdən biridir.

Azərbaycanın regionları bu il sürətlə inkişaf etmişdir. Mən bu il regionlara 30-dan çox səfər etmişəm. Hər yerdə quruculuq-abadlıq işləri göz oxşayır.

Bu il neft-qaz sektorunda tarixi hadisələr baş vermişdir. “Azəri-Çıraq-Günəşli” neft yatağının istismar müddətinin uzadılması məsələsi həll olundu. Bu kontrakt 2050-ci ilə qədər qüvvədə olacaq və ölkəmizə milyardlarla dollar gəlir gətirəcək. Sadəcə olaraq, Azərbaycana verilən bonus 3 milyard dollardan çoxdur. Cənub Qaz Dəhlizinin icrası demək olar ki, son mərhələyə qədəm qoyub. Gələn il TANAP layihəsinin açılışı gözlənilir. Bu da tarixi hadisədir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində çox önəmli tərəfdaşa çevrilir.

Bu il digər tarixi layihə öz həllini tapmışdır, Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimi Bakıda keçirilmişdir. Bu dəmir yolu layihəsi qitələri birləşdirir. Bakı-Tbilisi-Qars Asiya ilə Avropa arasında ən qısa və etibarlı yol olacaq, bundan sonra onilliklər ərzində Azərbaycana həm iqtisadi, həm siyasi dividendlər gətirəcək. Azərbaycan önəmli tranzit ölkəsinə çevrilir. Əgər biz Şimal-Cənub nəqliyyat dəhlizini də qeyd etsək görərik ki, Azərbaycan dünya miqyasında, – baxmayaraq ki, bizim açıq dənizlərə çıxışımız yoxdur, – strateji nəqliyyat mərkəzinə çevrilir.

Bu il idmançılarımız bizi qələbələrlə sevindirmişlər. Bakıda ən yüksək səviyyədə keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançıları birinci yerə layiq görüldülər. Bütün müsəlman aləmində birinci yeri qazanmaq çox böyük tarixi nailiyyətdir. Əgər biz 2015-ci il Avropa Oyunlarını yada salsaq, orada da Azərbaycan komandası ikinci yerdə idi. Yəni, bu, bir daha onu göstərir ki, Azərbaycan güclü idman dövlətidir.

Bu il Azərbaycanda “İslam Həmrəyliyi İli” elan olunmuşdur. Hər zaman olduğu kimi, Azərbaycan bütün məsələlərdə İslam həmrəyliyinin güclənməsinə öz töhfəsini verir. Bu il də istisna olmamışdır.

Bir sözlə, 2017-ci il ölkəmiz üçün uğurlu olub, əminəm ki, gələn il də uğurlu olacaqdır. Bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Fürsətdən istifadə edərək bütün dünyada yaşayan azərbaycanlıları bu bayram münasibətilə təbrik edirəm.

Hörmətli həmvətənlər, mən sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

# Baş Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

## Baş Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsi yad edilib



Dekabrın 11-də Baş Prokurorluqda Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin əbədiyyətə



qovuşduğu gün ölkə vətəndaşları, xaricdə yaşayan soydaşlarımız tərəfindən dərin ehtiramla yad edilir, dahi şəxsiyyətin Vətən və dövlət qarşısındakı xidmətləri minnətdarlıqla xatırlanır.

Bildirilmişdir ki, ötən əsrin 60-cı illərindən başlamaqla ölkəmizin 30 ildən artıq dövrünü əhatə edən ən yeni tarixi Heydər Əliyev dahi şəxsiyyətinin adı, onun müdrik dövlətçilik siyasəti ilə bağlı olmuşdur. Bu müddət ərzində ulu öndər tərəfindən həyata keçirilən möhtəşəm dövlətçilik tədbirlərinin nəticəsidir ki, azərbaycançılıq ideyası ətrafında birləşməklə, siyasi və iqtisadi müstəqilliyə nail olan xalqımız demokratik və hüquqi bir dövlətdə, ümumbəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətində layiqli yaşamaq imkanı əldə etmişdir. Müxtəlif siyasi quruluşların mövcudluğu şəraitində Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev şəxsiyyətinin böyüklüyü ondan ibarətdir ki, o, sovetlər dönəmində ölkəmizin gələcək müstəqilliyinin möhkəm iqtisadi əsaslarını yaratmaqla xalqımızı öz suverenliyi uğrunda mübarizəyə hazırlamağı bacarmış, dövlət müstəqilliyimizin itirilməsi və ölkəmizin parçalanması təhlükəsi yarandığı bir dövrdə xarici və daxili qüvvələrin məkrli cinayətkar hərəkətlərinin qarşısını almaqla sabitlik və əmin-amanlıq şəraiti yaratmış, daha sonra isə Azərbaycanın inkişaf etmiş bir ölkəyə çevrilməsini şərtləndirən misli görünməmiş quruculuq işlərini həyata keçirmişdir.

Doğma xalqına və millətinə təmənnasız xidməti həyatının mənası və məqsədi kimi qəbul edən, bu yolda mümkün olan bütün addımları atan Heydər Əliyev siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə müstəqil Azərbaycan dövlətçiliyinin formalaşdırılması və daha da möhkəmləndirilməsi uğrunda mübarizə meydanında olmuş və millətinə rəhbərlik etmişdir. Bu yolda çox böyük maneələrlə rastlaşması, fiziki cəhətdən məhv edilmək təhlükəsi, çoxsaylı sui-

qəsd və terror cəhdləri ilə üzləşməsinə baxmayaraq, Heydər Əliyev öz siyasi müdrikliyi, polad iradəsi və qətiyyətli hərəkətləri, ən əsası – xalqının dəstəyi nəticəsində doğma Azərbaycanı bugünkü və gələcək nəsillər üçün qoruyub saxlamış və müstəqil inkişaf yoluna çıxarmışdır.

Azərbaycan dövlətçiliyi məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir vaxtda xilaskarlıq missiyasını fədakarlıqla öz üzərinə götürən Heydər Əliyevin həyata keçirdiyi böyük quruculuq işləri, strateji inkişafa zəmin yaradan dövlətçilik konsepsiyasının hazırlanması nəticəsində bütün dünya azərbaycanlılarının fəxri və ümid yeri, vətəndaşlarına layiq olduqları həyat səviyyəsini təmin etməyə qadir olan güclü dövlətin yaradılmasına, azərbaycançılıq ideologiyasının gücləndirilməsinə, milli-mənəvi dəyərlərin qorunub saxlanmasına nail ola bilmişdir.

Bildirilmişdir ki, ümummilli liderin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biri olmaqla xalqımızın yaddaşında dahi şəxsiyyət kimi təcəssüm olunan Heydər Əliyev dühasının tarixi sınaq anında üzərinə düşən missiyanın öhdəsindən uğurla gəlməsi, milli qurtuluşa nail olması onun xalqla mənəvi birliyinin əyani sübutudur.

Ölkəmizin tarixinə sabitlik və inkişaf dövrü kimi düşən 1993-2003-cü illər ərzində Heydər Əliyevin möhtəşəm dövlətçilik fəaliyyətinin nəticəsidir ki, Azərbaycanda hüquqi və dünyəvi dövlət qurulmuş, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində mühüm addımlar atılmış, geosiyasi mövqelərini möhkəmləndirən ölkəmiz dünya birliyində layiqli yerini tutmuş, azərbaycançılıq məfkurəsi inkişaf etdirilməklə iqtisadi dirçəlişə nail olunmuşdur.

Məhz bu dövrdə hüquq mühafizə, məhkəmə sistemində mütərəqqi islahatların həyata keçirilməsinə başlanılmış, qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Respublikada əfvetmə institutunun bərpası, ölüm hökmü üzərində moratoriumun qoyulması, 1998-ci ildə bu hökmün birdəfəlik ləğv olunması, hüquq mühafizə orqanlarında dövrün tələblərinə cavab verən islahatların aparılması – bütün bunlar Heydər Əliyevin qətiyyətli addımları sayəsində gerçəkliyə çevrilmişdir.

Qeyd edilmişdir ki, ümummilli liderin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə keçirilmiş referendumla qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun bünövrəsini qoymuşdur. Ulu öndərin ölkəmizdə həyata keçirdiyi məhkəmə-hüquq islahatları, inkişaf etmiş dövlətlərin qabaqcıl təcrübəsini özündə birləşdirən üçpilləli məhkəmə sisteminin qurulmasına, prokurorluq orqanlarının tam yenilənərək dövlət idarəetmə mexanizmində rolu dəqiq müəyyən edilmişdir.

Azərbaycan prokurorluğunda hüquqi dövlət quruculuğunun müasir tələblərinə cavab verən köklü islahatlar və səmərəli struktur dəyişikliklərinin əsası ulu öndərin iştirakı ilə 26 aprel 2000-ci ildə keçirilən geniş müşavirədən sonra başlanılmış və uğurla icra edilmişdir. Prokurorluğun həyatında müstəsna rol oynamış tarixi müşavirədə dövlət başçısının verdiyi tövsiyə və göstərişlər əsasında həyata keçirilən tədbirlər bu orqanda neqativ təzahürlərin aradan qaldırılması, yüksək standartlar səviyyəsində işləməyə qadir olan kadr korpusunun formalaşdırılması, cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi işinin zəruri tələblər səviyyəsinə qaldırılması ilə nəticələnmişdir.

Bildirilmişdir ki, prokurorluq orqanlarının idarəetmə sistemində statusuna uyğun layiqli yerini tutması Heydər Əliyevin dövlətçilik siyasəti və bu siyasəti yeni müstəvidə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hərtərəfli qayğısı nəticəsində mümkün olmuşdur. Azərbaycan Prokurorluğunun müasir tələblər səviyyəsində təkmilləşdirilməsi istiqamətində görülən işlər sırasında dövlət başçısının 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın əhəmiyyəti xüsusi qeyd edilmişdir.

Heydər Əliyevin dahiliyi, müdrikliyi və uzaqgörənliyi onun ideya və tövsiyələrinin reallığa əsaslanaraq zamanın sınaqlarından keçməklə

Azərbaycan xalqının yeganə tarixi inkişaf yolunun müəyyən edilməsində, ölkə həyatının bütün sahələrinin davamlı olaraq inkişaf etməsində özünü göstərmişdir. Bu tarixi şəxsiyyətin öz xalqı qarşısında ən böyük xidməti həm də ondan ibarət olmuşdur ki, ölkənin uzunmüddətli davamlı strateji inkişaf konsepsiyasını müəyyən etməklə yanaşı onu, özündən sonra müasir dövrün tələblərinə uyğun şəkildə yüksək peşəkarlıqla həyata keçirməyə qadir olan, hərtərəfli liderlik keyfiyyətlərinə malik, səmərəli fəaliyyəti nəticəsində ölkəmizi regionun qabaqcıl dövlətinə çevirmiş, həyata keçirdiyi sistemli islahatlarla respublikamızın davamlı tərəqqisini təmin edən xarizmatik və təşəbbüskar rəhbər, yüksək idarəçilik məharətinə, möhkəm siyasi iradə və qətiyyətə malik olan İlham Əliyev kimi layiqli davamçı hazırlamışdır.

Qeyd edilmişdir ki, Heydər Əliyev ideyalarını hər sahədə uca tutan, onları praktik şəkildə gerçəkləşdirən, mərkəzində Azərbaycan vətəndaşı, onun qayğı və maraqları dayanan sosial yönümlü dövlət siyasəti həyata keçirən Möhtərəm Prezidentimiz daim öz müdrik qərarları, səriştəli və bacarıqlı idarəçiliyi ilə xalqımızı ciddi sınaqlardan, iqtisadi risklərdən və onların yarada biləcəyi fəsadlardan xilas etmiş, ölkənin davamlı və dayanıqlı tərəqqisini təmin etmişdir. Ölkədə son dövrlərdə həyata keçirilən mütərəqqi islahatlar, idarəetmənin təkmilləşdirilməsi istiqamətində mühüm yeniliklər, korrupsiya hallarının qarşısının alınması, şəffaflığın və ictimai nəzarətin artırılması ilə bağlı qəbul olunan strateji əhəmiyyətə malik innovativ qərarlar göstərilənlərin bariz nümunəsi olmaqla Heydər Əliyev siyasətinə alternativin olmadığını bir daha təsdiqləyir.

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz aprel döyüşlərində öz hərbi gücünü və qətiyyətini real şəkildə bütün dünyaya nümayiş etdirməsi nəticəsində işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində yeni qəsəbənin açılışı xalqımızın və dövlətimizin tarixində baş vermiş çox əlamətdar hadisələrdən biri olmuş və öz doğma yurd-yuvalarından didərgin düşmüş məcburi köçkünlərimizin işğal olunmuş torpaqlara qayıtma əzmini daha da artırmışdır.

Xüsusi vurğulanmışdır ki, ölkəmizin ictimai-siyasi və sosial iqtisadi həyatında ən əlamətdar hadisənin – Heydər Əliyev Fondunun Prezidenti, görkəmli ictimai-siyasi xadim, ümummilli liderin zəngin siyasi irsini bütün dünyada təbliğ edən Mehriban xanım Əliyevanın ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyinatından sonrakı müddət ərzində respublikanın hərtərəfli inkişafına təkan verən işlərin müsbət dinamikasının və intensivliyinin artması, sosial sahədə mövcud problemlərin aradan qaldırılması istiqamətində yerinə yetirilən tədbirlər qeyd olunanların bariz nümunəsidir.

Bildirilmişdir ki, dövlət başçısı cənab İlham Əliyevin uzaqgörənliyi, yüksək təşkilatçılıq və diplomatik bacarığının məntiqi nəticəsi olaraq, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istismara verilməsi respublikamız üçün həm iqtisadi, həm də siyasi baxımdan xüsusi əhəmiyyət kəsb etməklə yanaşı, ölkəmizin dünyada artan nüfuzunun daha da möhkəmlənməsinə xidmət edəcək, regionda sabitliyə, xalqlarımızın firavanlığına və iqtisadi inkişafa böyük töhfə verəcəkdir.

Azərbaycan Respublikasının dünya dövlətləri birliyində öz layiqli yerini tutması, ölkəmizin ideal məkan sayılaraq mötəbər beynəlxalq iqtisadi, humanitar forumlara, möhtəşəm mahnı müsabiqəsi və dünya miqyaslı idman yarışlarına – ilk Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi respublikamızın beynəlxalq aləmdə yüksək imicə və tolerantlıq və multikulturalizm prinsiplərinə bağlılığının bariz nümunəsi olduğunu bir daha sübut etmişdir.

Anım mərasiminin iştirakçıları və Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Dövlət başçısı cənab İlham Əliyev əmin edilmişdir ki, ulu öndər Heydər Əliyevin ideyalarına və onun müəyyən etdiyi siyasi kursa və strateji inkişaf konsepsiyasına daim sadiq olan prokurorluğun kollektivi bütün səylərini dövlət müstəqilliyinin və milli maraqların, ölkəmizdə ictimai-siyasi sabitliyin hər cür cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəkdir.

Mərasimin sonunda ümummilli liderin xatirəsinə həsr olunmuş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış "Əbədiyyət" filmi nümayiş etdirilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Hərbi Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

**Hərbi Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsi yad edilib**

Dekabrın 11-də Azərbaycan Respublikası Hərbi Prokurorluğunda ümummilli lider Heydər Əliyevin vəfatının 14-cü ildönümü ilə bağlı anım mərasimi təşkil edilmişdir.

Tədbir iştirakçıları əvvəlcə qurumun inzibati binasında ulu öndər Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoyub, ümummilli liderin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Hərbi prokuror Xanlar Vəliyev çıxış edərək müstəqilliyə gedən yolumuzu işıqlandıran, həyatın sərt, çətin sınaqlarına sinə gərən, ən çətin şəraitdən ən düzgün çıxış yolu tapan, daim xalqı ilə yaşayan, qəlbində Vətən sevgisi, milli ruh gəzdirən qüdrətli şəxsiyyət, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin beynəlxalq aləmdə və müasir Azərbaycan tarixindəki rolu, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət barədə ətraflı məlumat vermişdir.

Qeyd edilmişdir ki, şərəfli və mənalı ömür yolunun 34 ilini ölkəmizin rəhbəri kimi xalqının tərəqqisinə həsr edən Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını yaratmış, xalqı həqiqi müstəqilliyə qovuşduraraq ictimai şüurda əbədiyaşarlıq qazanmışdır.

Bildirilmişdir ki, Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi, suveren bir ölkə kimi qarşılaşa biləcəyi problemlərin həllinə nail olması üçün real əsaslar hələ ulu öndərin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə formalaşdırılmışdır. Bugünkü müstəqilliyimizin əldə olunması məhz həmin dövrdə Heydər Əliyevin Azərbaycanın sosial, iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirdiyi tədbirlər, milli şüurun oyanması istiqamətində istər açıq, istərsə də gizli şəraitdə gördüyü işlər nəticəsində mümkün olmuşdur. Azərbaycanın müstəqil xəttə malik, heç bir dövlətdən asılı olmayan suveren ölkə kimi mövcudluğu məhz həmin dövrdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş bünövrə üzərində qurulmuş və bu gün də uğurla davam etdirilir.

Xanlar Vəliyev xüsusilə vurğulamışdır ki, dahi lider Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə Bakıya gələrək müstəqilliyimiz tarixində böyük bir faciənin qarşısını almış oldu. Respublika ərazisinə səpələnmiş silahlı cinayətkar dəstələr zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı, respublikamızın cənub və şimal-şərqində separatçı meyillərə son qoyuldu, ölkənin iqtisadi və siyasi böhrandan xilasını təmin etmək məqsədilə cəbhədə atəşkəsə nail olunmuşdur. Heydər Əliyevin yeni neft strategiyasının nəticəsi kimi təzahür edən “Əsrin müqaviləsi” imzalanmaqla Azərbaycanın dünya iqtisadi sistemindəki yeri müəyyənləşdirilmişdir.

Respublikamızın müstəqillik tarixinə nəzər salan Xanlar Vəliyev müstəqillik illərində əldə edilmiş uğurların ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd etmişdir. O, müstəqilliyin qorunub saxlanmasında ümummilli liderin xidmətlərinin əvəzsizliyini vurğulayaraq, ərazi baxımından kiçik bir dövlət olan Azərbaycanın ulu öndərin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində böyük uğurları ilə dünyanın diqqət mərkəzində olduğunu, Heydər Əliyevin fəaliyyətinin də, şəxsiyyətinin də müasir Azərbaycanın müstəqillik tarixinin ayrılmaz bir hissəsini təşkil etdiyini qeyd etmişdir. Hərbi prokuror xalqımızın ulu öndərin yoluna sadiqliyi və bu gün həmin yolun layiqli davamçısı Prezident İlham Əliyevin apardığı siyasətə tam dəstək verməsinin, iqtidarla xalqın vəhdətinin formalaşmasının ölkəmizin əldə etdiyi və gələcəkdə qazanacağı uğurların təməlini təşkil etdiyini söyləmişdir. O, xalqımızın Heydər Əliyev yoluna, bu yolu uğurla və zamanın tələblərinə uyğunlaşdıraraq yüksək bacarıqla davam etdirən Prezident cənab İlham Əliyevə inamının əbədi və dönməz olduğunu bildirmişdir.

Xanlar Vəliyev ulu öndər Heydər Əliyevin həyata keçirdiyi müdrik dövlətçilik siyasətinin nəticəsi olaraq bütün dövlət qurumları ilə yanaşı, Azərbaycan Prokurorluğunun da demokratik məzmunlu dövlət təsisatı kimi tamamilə yenidən formalaşdırıldığını, onun dövlətçiliyə sədaqəti ilə seçilən kadr korpusunun yaradıldığını, Azərbaycanda reallaşdırılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində milli prokurorluq orqanlarının müasir məzmunda yeniləşdirilməklə cəmiyyətdə statusuna uyğun yerini tutduğunu qeyd etmişdir. Diqqətə çatdırılmışdır ki, Prezident İlham Əliyevin dövlət səviyyəsində prokurorluq orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi və əməkdaşların maddi-sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində gündəlik diqqət və qayğısı nəticəsində Azərbaycan Prokurorluğunun digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəli fəaliyyətinin təkmilləşdirilməsi, müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunmaqla mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, bütün istiqamətlər üzrə işin səmərəliliyinin və əməkdaşların peşəkarlığının yüksəldilməsi, habelə yeni nəsil prokurorluq işçilərinin formalaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi mümkün olmuşdur. Çıxışda digər hüquq-mühafizə orqanları kimi, Hərbi Prokurorluğun kollektivinin də ölkəmizdə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizə, Silahlı Qüvvələrdə nizam-intizamın gücləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi istiqamətində uğurlu nəticələr əldə etdiyi vurğulanmışdır.

Ölkəmizdə aparılan ordu quruculuğu məsələlərinə toxunan Xanlar Vəliyev qeyd etmişdir ki, gələcəkdə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün etibarlı qorunmasının təmin edilməsində onun güclü orduya qadir olmasını hələ sovet hakimiyyəti dövründə görən ulu öndər Heydər Əliyevin həyata keçirdiyi qətiyyətli siyasətin nəticəsi olaraq 1971-ci ildə ali hərbi məktəbləri ixtisaslı kadr korpusu ilə təmin edən Cəmşid Naxçıvanski adına hərbi lisey təsis edilmişdir. Siyasi hakimiyyətə qayıdışından sonra ulu öndərin ölkə Prezidenti və Ali Baş Komandan kimi gördüyü qətiyyətli tədbirlər nəticəsində qısa zaman kəsiyində respublikamızın təhlükəsizliyini və müdafiəsini təmin etmək kimi konstitusion məqsədlərlə yaradılmış və dövlətin ən mühüm milli atributlarından olan Silahlı Qüvvələrimiz tamamilə yenidən qurularaq müasir tipli, qüdrətli, yüksək döyüş qabiliyyətli və regionda ən güclü orduya çevrilmişdir.

Xanlar Vəliyev çıxışında Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin ölkəmizdə ordu quruculuğunu daim diqqət mərkəzində saxlaması nəticəsində ordunun maddi-texniki bazasının möhkəmləndirildiyini, onun yeni və müasir silahlarla təchiz olunması məsələlərinə daim qayğı göstərildiyini, bunun da nəticəsi olaraq bu gün Azərbaycan ordusunun Cənubi Qafqaz regionunda ən güclü orduya çevrilərək Ali Baş Komandanın əmri ilə hər an torpaqlarını düşməndən azad etmək qüdrətinə malik olduğunu bildirmişdir.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı uğurla davam etdirən dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda əldə olunmuş nailiyyətlərdən söhbət açan Xanlar Vəliyev bu nailiyyətlərin qazanılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz xidmətlərini vurğulamışdır. Qeyd edilmişdir ki, Mehriban xanım Əliyevanın görkəmli dövlət xadimi kimi uzun illər ərzində ölkəmizin sürətli sosial-iqtisadi inkişafı, xalqımızın maddi rifahının yaxşılaşdırılması, dövlətçiliyimizin beynəlxalq nüfuzunun daha da artırılması istiqamətində gərgin, yorulmaz və dəyərli ictimai-siyasi fəaliyyəti bu istiqamətdə müsbət nəticələrin əldə olunmasına öz layiqli töhfəsini verməklə yanaşı, dövlətimizin, xalqımızın, mədəniyyətimizin və milli dəyərlərimizin bütün dünyaya tanıdılmasında əhəmiyyətli rol oynamışdır. Görkəmli siyasi xadim Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə gördüyü işlərin, həmçinin ulu öndərin siyasi irsinin öyrənilməsi, təbliği və bu ideyaların həyata keçirilməsində Heydər Əliyev Fondunun rolu əvəzsizdir.

Çıxışının sonunda Xanlar Vəliyev qeyd etmişdir ki, Hərbi Prokurorluğun kollektivi Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunmasında bu kursun layiqli davamçısı olan Prezident cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində yaxından iştirak etməklə uğurlu siyasəti daim dəstəkləyəcəkdir.

Tədbir Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən filmin nümayişi ilə başa çatmışdır.

**Hərbi Prokurorluq**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ulu öndər Heydər Əliyevin xatirəsi yad edilib**

Dekabr ayının 11-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi anma mərasimi keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın müdrik rəhbəri Heydər Əliyevin müasir Azərbaycanın tarixindəki rolu, demokratik və hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət barədə ətraflı məlumat verərək vurğulamışdır ki, Vətənini, xalqını zamanın sərt sınaqlarından çıxaran dahilər tarixin əbədiyyət zirvəsinə ucalırlar. Azərbaycanın şanlı səhifələrlə dolu müstəqillik tarixinin müəllifi, xalqımızın xilaskarı və qurucu lideri Heydər Əliyev belə dahilərdəndir.

Azərbaycanın müstəqil dövlət kimi regionda söz sahibi olması görkəmli dövlət xadimi, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə əvəzedilməz xidmətlər göstərmiş dahi Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. O, sağlığında xalqının ümummilli lideri adını qazanan yeganə şəxsiyyətdir. Dahi öndərin şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı üçün Vətənə xidmət nümunəsi, qürur və fəxarət rəmzidir. Ulu öndərin "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır", – kəlamı onun bütün həyat amalının, işıqlı ideyalarının ifadəsinə çevrilmişdir.

Bu bir həqiqətdir ki, Azərbaycanın inkişaf epoxası və müstəqillik tarixinin əsası 1969-cu ilin14 iyulunda ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə başlanmışdır. Dahi rəhbər milli şüurda oyanışa, özünəqayıdışa, özünəinama nail olmuş, xalqın milli mənliyini özünə qaytarmış, milli kadr potensialı formalaşdırılmışdır.

Qeyd olundu ki, 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində bu barədə deyirdi: "Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına getgedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır... SSRİ dövlətinin dağılması ərəfəsində bir çox mütəxəssislər hansı müttəfiq respublikaların iqtisadiyyatının müstəqillik şəraitində özünü təmin etməyə qadir olduğunu müəyyən etməyə cəhd göstərdilər. Aparılan təhlillər göstərirdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri məhz Azərbaycan idi".

Sovet rejiminin kifayət qədər güclü olduğu bir dövrdə milli dəyərlərin və milli şüurun bərpasına xidmət edən tədbirlərin görülməsi, Azərbaycan dili və Azərbaycan tarixi ilə bağlı tədqiqat işlərinin genişləndirilməsi, rus dilinin yeganə rəsmi dil olduğu bir şəraitdə Azərbaycanın 1978-ci il Konstitusiyasına "Azərbaycan SSR-də dövlət dili Azərbaycan dilidir" müddəasının salınması xalqımızın böyük oğlunun misilsiz tarixi xidmətlərindəndir. 1982-ci ildə ümummilli liderimiz SSRİ-də rəhbər vəzifəyə irəli çəkildikdən sonra isə Azərbaycanın hərtərəfli inkişafı ilə yanaşı, xalqımızın dünya arenasında tanıdılması və təbliği istiqamətində görülən işlərin miqyası da genişləndirilmişdir. Bir sözlə, ümummilli lider Heydər Əliyevin hakimiyyətinin birinci dövrü Azərbaycanda ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində möhtəşəm quruculuq dövrü olmuş, müasir Azərbaycan dövlətinin təməl prinsipləri məhz bu dövrdə yaradılmışdır.

Ümummilli lider 1990-cı il iyulun 20-də Bakıya gəldi. İki gün sonra-iyulun 22-də isə doğma Naxçıvana qayıtdı, bu qədim diyardan Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etdi. Ümummilli lider 1990-1993-cü illərdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən xilası və böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər gördü. Dahi şəxsiyyətin Naxçıvandan başladığı müstəqillik yolu Azərbaycanın qurtuluş mübarizəsinə çevrildi. Üçrəngli bayrağımız ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan parlamentində qaldırıldı, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri

çıxarıldı, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikası iştirak etmədi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvandan başlandı, bir sözlə, müstəqil dövlətçilik yolunda mühüm və əhəmiyyətli addımlar atıldı. Ümummilli liderin siyasi fəaliyyətinin Naxçıvan dövrü dövlətçilik təcrübəsində xalq-lider birliyinin nələrə qadir olduğunu bir daha təsdiq etdi.

1993-cü il iyunun 15-də ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizin əsasını qoydu, ölkəmiz təlatümlər burulğanından xilas oldu, müstəqilliyimiz qorunub saxlandı, vətəndaş müharibəsinin qarşısı alındı, möhkəm ictimai-siyasi sabitlik yaradıldı, Azərbaycan yenidən əsası 1969-cu ildən başlanan inkişaf yoluna qayıtdı. 1993-cü ildən sonra dünyanın aparıcı dövlətləri və şirkətləri qısa zamanda siyasi sabitliyə və dinamik inkişafa nail olmuş Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul etdi, bağlanan beynəlxalq müqavilələr ölkəyə xarici investisiyanı cəlb etməklə iqtisadi tərəqqidə, əhalinin rifah halının yüksəlməsində mühüm rol oynadı. Ölkəmizdə dövlət quruculuğu prosesinə başlandı, güclü ordu yaradıldı, ölkənin demokratik prinsiplərini, insanların siyasi hüquq və azadlıqlarının toxunulmazlığını bəyan edən müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu.

Vurğulandı ki, umummilli liderin ideyaları, amalları bu gün də Azərbaycanın yoluna işıq, nur saçır, xalqımızı xoşbəxt gələcəyə aparır. Dünya dövlətləri sırasında layiqli yer tutan Azərbaycanın ulu öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Ümummilli liderimizin siyasi kursu Azərbaycan Prezidenti tərəfindən daha da zənginləşdirilərək mükəmməl dövlətçilik fəlsəfəsinə çevrilmişdir. Bu gün böyük dövlət xadimi Heydər Əliyevin parlaq ideyalarının bəhrələri onun şah əsəri olan müstəqil, qüdrətli Azərbaycanın hər yerində, eləcə də doğma Naxçıvanımızda aydın görünür.

Ulu öndərin əbədiyyətə qovuşmasından ötən zaman bu dahi şəxsiyyətin milli dövlətçilik tariximizdəki yerini və rolunu daha dolğun dəyərləndirmək imkanı verir. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsi, demokratik hüquqi dövlətin qurulması, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-mənəvi yüksəlişə nail olunması ilə səciyyələnən mühüm tarixi mərhələdir. Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində mühüm yer tutan Heydər Əliyev epoxasının hər bir mərhələsi müasir tariximizin bütöv bir salnaməsidir.

Vurğulandı ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və ciddi elmi əsaslara söykənən sosial-iqtisadi siyasət strategiyası sonrakı illərdə ulu öndərimizin layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, respublikamız bütün sahələrdə uğurlu inkişaf yoluna çıxmış və bu yolla inamla daha xoş sabahlara doğru irəliləyir.

Sonda əminliklə ifadə olundu ki, Naxçıvan Muxtar Respublikası Prokuroluğunun kollektivi bundan sonra da ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitliyin qorunmasında bu kursun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində yaxından iştirak etməklə, bu uğurlu siyasəti daim dəstəkləyəcəkdir.

Məruzə ətrafındakı çıxışlarda ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının tərəqqisi naminə gürdüyü möhtəşəm işlərdən danışıldı.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Azərbaycan prokurorluğunun kollektivi ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

**Prokurorluq işçiləri ulu öndər Heydər Əliyevin xatirəsini Fəxri xiyabanda yad ediblər**

Baş Prokurorluğun, Respublika Hərbi və Bakı şəhər prokurorluqları orqanlarının kollektivləri dekabrın 12-də Fəxri xiyabana gələrək, ulu öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Baş Prokurorluqda Azərbaycan Prokurorluğu orqanlarının yaradılmasının 99-cu ildönümünü qeyd olunub

## Azərbaycan Prokurorluğunun kollektivi peşə bayramını qeyd edib



Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin siyasi iradəsinə uyğun olaraq, 1998-ci ildən etibarən peşə bayramı gününü qeyd etmək imkanı əldə edən Azərbaycan prokurorluğunun kollektivi milli prokurorluq orqanlarının yaradılmasının 99-cu ildönümünü və peşə bayramını təntənəli şəkildə qeyd edib.

Baş Prokurorluğun, Respublika Hərbi və Bakı şəhər prokurorluqları orqanlarının kollektivləri sentyabrın 30-da Fəxri xiyabana gələrək, ulu öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Şəhidlər xiyabanına gələn Azərbaycan Prokurorluğunun kollektivi Vətənimizin müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş qəhrəman oğul və qızlarımızın xatirəsinə dərin ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri qoyub, “Əbədi məşəl” abidəsini ziyarət ediblər.

Sonra Baş Prokurorluqda 1 oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı




gününə və milli prokurorluğun yaradılmasının 99-cu ildönümünə həsr olunmuş mərasim keçirilib.

Azərbaycanın dövlət himni səsləndirildikdən sonra Baş prokuror Zakir Qaralov peşə bayramı münasibətilə prokurorluq orqanlarında çalışan bütün işçiləri, veteranları, onların ailə üzvlərini təbrik edib.

Baş prokuror vurğulayıb ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti cənab İlham Əliyevin müasir dövrün reallıqlarını nəzərə alaraq məharətlə həyata keçirdiyi strateji inkişaf konsepsiyası, müdrik dövlət siyasəti və səmərəli idarəetmə üsulu respublikamızın sosial-iqtisadi inkişafının dayanıqlı və davamlı olmasını, əhalinin yaşayış şəraitinin və sosial rifahının ildən-ilə yüksəlməsini təmin etməklə yanaşı, ölkəmizin dünya birliyində özünə layiqli yer tutmasına da şərait yaradıb. Ölkəmiz qazandığı nailiyyətləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi şəraitdə əldə edib. Beynəlxalq qurumların çoxsaylı qərar və qətnamələrinə baxmayaraq, Azərbaycanın ərazi bütövlüyü indiyədək bərpa olunmayıb. Dünyanın ən ali tribunasından xalqın iradəsini ifadə edən Prezident cənab İlham Əliyev BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışındakı qətiyyətli və cəsarətli çıxışı ilə bir daha dünya ictimaiyyətinin diqqətini Azərbaycana, xüsusən də Dağlıq Qarabağ münaqişəsinə yönəldərək, rasional və praqmatik tezisləri ilə Ermənistanın kriminal rəhbərliyinin cinayətkar əməllərini növbəti dəfə ifşa edərək işğalçı dövlətin 2016-cı ilin aprelində olduğu kimi, istənilən an qüdrətli ordumuz tərəfindən yenidən cəzalandırılacağı barədə sərt xəbərdarlığını edib.

Diqqətə çatdırılıb ki, xalqımızın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin həyata keçirdiyi müdrik dövlətçilik siyasətinin nəticəsi olaraq, bütün digər qurumlarla yanaşı, Azərbaycan Prokurorluğu da dövlət təsisatı kimi tamamilə yenidən formalaşdırılaraq, dövlətçiliyimizin mühüm sütunlarından birinə çevrilib, onun dövlətçiliyə sədaqəti ilə seçilən kadr korpusu yaradılıb. Azərbaycan Respublikasında reallaşdırılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində milli prokurorluq orqanları müasir məzmunda yeniləşdirilməklə, cəmiyyətdə statusuna uyğun yerini tutub.

Ümummilli liderin müəyyən etdiyi strateji inkişaf konsepsiyasını uğurla reallaşdıran və keyfiyyətcə yeni müstəviyə qaldıran dövlətimizin başçısı cənab İlham Əliyevin Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, insan hüquqlarının və azadlıqlarının qorunmasına yönələn siyasətinin




artıq öz bəhrəsini verdiyini diqqətə çatdıran Baş prokuror bildirib ki, son dövrlərdə Azərbaycan Respublikasında ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial-iqtisadi islahatların reallaşdırılması, hərtərəfli düşünülmüş dövlət siyasətinin həyata keçirilməsi, ictimai-siyasi sabitliyin təmin olunması nəticəsində Azərbaycan beynəlxalq birliyin tamhüquqlu üzvü kimi layiq olduğu yerini tutub.

Respublikamızda dövlət idarəçilik mexanizminin təkmilləşdirilməsi və onun səmərəliliyinin artırılması üzrə görülən tədbirlər baxımından ölkənin Birinci Vitse-Prezidenti vəzifəsinə tanınmış ictimai-siyasi xadim, Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təyinatının ölkənin ictimai-siyasi həyatında ən əlamətdar hadisələrdən biri olması xüsusi qeyd edilib.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı qarşıda duran vəzifələri müəyyənləşdirərək dediyi sözləri tədbir iştirakçıların diqqətinə çatdırıb: “Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq işçilərinin yetişdirilməsidir. Əminəm ki, Azərbaycan Respublikası Prokurorluğu bu məqsədə çatmaq üçün səylərini davam etdirəcək və qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirəcəkdir”.

Qeyd edilib ki, dövlətimizin başçısı cənab İlham Əliyevin siyasi iradəsinə və onun rəhbərliyi altında reallaşdırılan dövlət gənclər siyasətinin tələblərinə müvafiq olaraq, şəffaf prosedurlar əsasında prokurorluğun kadr korpusunun yeniləşdirilməsi istiqamətində məqsədyönlü işlər eyni intensivliklə davam etdirilir. 2002-ci ildən başlayaraq keçirilən müsabiqələr yolu ilə qulluğa qəbulun yeni əsaslarla təşkili nəticəsində işə götürülən 780 gənc hüquqşünasın Azərbaycan Respublikası Prokurorluğunun kadr korpusunun 65 faizini təşkil etməsi ölkə həyatının bütün sahələrində gənclərin əməyindən geniş istifadə olunması barədə dövlətimizin başçısının göstərişlərinin icrasının nəticəsidir. Alternativi olmayan bu kadr seçimi vasitəsinin tətbiqi bundan sonra da davam etdiriləcək.

Azərbaycan Prokurorluğu orqanları ötən müddətdə daxili işlər, ədliyyə, məhkəmə və digər hüquq mühafizə orqanları ilə birlikdə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahələrində zəruri tədbirlərin görülməsini təmin edib. Düzgün qurulmuş qarşılıqlı əlaqə kriminogen duruma effektiv nəzarəti təmin etməyə, onun səviyyəsini təhlükəsiz hədlərdə saxlamağa imkan verib. Həyata keçirilmiş məqsədyönlü tədbirlərin nəticəsidir ki, Azərbaycan Respublikası MDB və Şərqi




Avropa məkanında ən təhlükəsiz və sabit ölkələrdən biri olaraq qalır.

Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində uğurlu nəticələrin əldə olunduğunu vurğulayan Baş prokuror deyib: "Korrupsiyaya qarşı mübarizə sahəsində işin düzgün təşkilinə Prezident cənab İlham Əliyev tərəfindən dövlət səviyyəsində göstərilən yüksək diqqətin nəticəsidir ki, ixtisaslaşdırılmış qurum kimi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti üçün əlverişli şərait yaradılıb, çevik fəaliyyəti təmin etməyə qadir yeni struktur formalaşdırılıb, MDB məkanında, habelə Azərbaycan tarixində ilk dəfə olaraq prokurorluq orqanlarına əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi səlahiyyəti verilib. İşçilərin sosial müdafiəsinin gücləndirilməsi və sair tədbirlər korrupsiya hallarının qarşısının alınması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin səmərəliliyini daha da artırıb, profilaktiki fəaliyyət və preventiv təsir imkanları daha da gücləndirilib".

Baş prokuror xüsusi qeyd edib ki, Azərbaycan Respublikası Prokurorluğu sistemində informasiya-kommunikasiya sisteminin, "Elektron hökumət" layihəsi çərçivəsində prokurorluq orqanlarında elektron sənəd dövriyyəsini təmin edəcək şəbəkənin yaradılması istiqamətində həyata keçirilən tədbirlər xüsusilə əhəmiyyətli olub. Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması istiqamətində Baş Prokurorluqda və bütün tabe prokurorluqlarda elektron müraciətlərin qəbulu və baxılması üçün lazımi imkanlar yaradılıb. Vətəndaşların müraciətlərinə baxılması sahəsində yeni informasiya texnologiyalarının tətbiqi, "Qaynar xətt" əlaqə mərkəzi və "Azərbaycan Prokurorluğunun veb saytı" vasitəsilə Baş Prokurorluğun rəhbərliyinə birbaşa müraciət etmək imkanının yaradılması kimi islahat tədbirləri müsbət nəticələrini verib.

Əminliklə ifadə olunub ki, peşə bayramını qeyd edən prokurorluq orqanları həmişə ölkəmizdə həyata keçirilən yeni məzmunlu mütərəqqi islahatların reallaşdırılması istiqamətində xidmət göstərəcək, ictimai-siyasi sabitliyin, dövlətçiliyimizin maraqlarının cinayətkar qəsdlərdən qorunması, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində digər dövlət təsisatları ilə əlaqəli şəkildə yaxından iştirak edəcək.

Sonda Baş prokuror Zakir Qaralov xidmətdə fərqlənən bir qrup prokurorluq işçilərinə "Prokurorluğun fəxri işçisi" döş nişanını, Fəxri fərman və rütbə dərəcələrini təqdim edib.

Mərasimin sonunda Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından dövlətimizin başçısı cənab İlham Əliyevə müraciət qəbul edilib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Hüquq sisteminin inkişafında prokurorluğun rolu əhəmiyyətlidir

## *Ölkənin davamlı tərəqqisi prokurorluğun müntəzəm inkişafının əsasını yaradır*

*"Prokurorlar demokratik cəmiyyətdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayırlar".*

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hüquqi dövlət quruculuğu və strateji inkişaf konsepsiyasına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla həyata keçirilən ardıcıl və sistemli islahatlar, idarəetmə mexanizminin mütəmadi olaraq təkmilləşdirilməsi ilə müşaiyət olunan müdrik və səmərəli dövlət idarəçiliyi, təhlükəsizliyin və sabitliyin gücləndirilməsi ilə bağlı vaxtında görülən tədbirlər ölkənin müstəqilliyinin daha da möhkəmləndirilməsinə, onun davamlı və dayanıqlı inkişafının təmin olunmasına, dövlətimizin qüdrətinin artmasına, xalqımızın əmin-amanlığının və rifah halının, vətəndaş həmrəyliyinin yüksəlməsinə zəmin yaratmışdır.

Ulu öndərin ölkə rəhbərliyinə yenidən qayıdışı ilə onun tərəfindən müəyyən edilmiş siyasi kursun düzgün seçilməsinin, bu kursun müasir dövrün reallıqları nəzərə alınmaqla yüksək idarəetmə məharəti və qətiyyəti ilə, hərtərəfli düşünülmüş və əsaslandırılmış, eyni zamanda çevik idarəçilik üslubuna malik xarizmatik dövlət başçısı cənab

İlham Əliyev tərəfindən inamla davam etdirilməsinin, iqtisadiyyatın idxaldan asılılığının azaldılması üçün yerli istehsalın hərtərəfli stimullaşdırılmasının, biznes qurumlarına əlverişli şəraitin yaradılmasının, bir sözlə, ciddi islahatların, restrukturizasiyanın müdrik və səmərəli idarəetmənin tətbiqinin nəticəsidir ki, ölkəmiz dünyada və regionda baş verən neqativ proseslərdən kənarda qalmaqla dayanıqlı və davamlı inkişaf yolu keçərək həyatın bütün sahələrində böyük uğurlar qazanır.

Dövlət başçısının 28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda söylədiyi tarixi nitqindəki bu sözlər ölkədə həyata keçirilən dövlət siyasətinin mahiyyətini aydın ifadə edir: "Biz, ilk növbədə, öz maraqlarımız, öz təhlükəsizliyimiz, inkişafımız, rifahımız haqqında düşünürük. Əgər hansısa beynəlxalq təklif və təşəbbüs bizim maraqlarımızla üst-üstə düşürsə, əlbəttə ki, biz buna müsbət yanaşa bilərik. Ancaq ilk növbədə, milli maraqlar, Azərbaycanın maraqları, xalqımızın rahatlığı, firavanlığı və ölkəmizin təhlükəsizliyi məsələləri ön plandadır, xüsusilə indiki şəraitdə. Biz bu siyasəti uzun illərdir ki, aparırıq. Bəzən buna görə də müxtəlif yerlərdən Azərbaycana təzyiqlər göstərilir və bizə qarşı kampaniyalar aparılır. Ancaq indiki şərait, bugünkü beynəlxalq vəziyyət bir daha göstərir ki, bu, yeganə düzgün siyasətdir".

Ötən bir il respublikamızın ictimai-siyasi və sosial iqtisadi həyatında mühüm əhəmiyyətə malik əlamətdar hadisələrlə zəngin olmuşdur. Onlardan ən əhəmiyyətlisi Konstitusiyaya ümumxalq səsverməsi – referendumla edilən, 12 oktyabr 2016-cı il tarixdən rəsmi dərc edilməklə qüvvəyə minmiş dəyişikliklər olmuşdur. Konstitusiyaya dəyişikliklər mahiyyətcə dövlət idarəetmə mexanizmini müasir dünya tələbləri səviyyəsində təkmilləşdirərək onun çevikliyinin və effektivliyinin artırılması, idarəçiliyin həyata keçirilməsində gənclərin rolunun əhəmiyyətli dərəcədə yüksəldilməsi, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, vətəndaş cəmiyyəti quruculuğu prosesinin, müstəqilliyimizin əbədiliyinin, ölkənin hər hansı neqativ təsirlərdən asılı olmayaraq dayanıqlı və ardıcıl inkişafının təmin olunması məqsədi daşımaqla, respublikamızda demokratik məzmunlu yeni ictimai-siyasi, sosial-iqtisadi islahatların aparılmasını sürətləndirən mütərəqqi addım

olaraq ölkədə dövlətçiliyin və qanunçuluğun, təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının daha mükəmməl, hüquqi dövlət quruculuğu prosesinin daha yüksək səviyyədə təmin olunmasına xidmət etmişdir.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, referendum aktı ilə təsis edilmiş Birinci vitse-prezident vəzifəsinə tanınmış ictimai-siyasi xadim, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təyinatı son dövrün ən önəmli, ölkənin bu günü, gələcəyi, xalqımızın sosial rifahının daha dinamik və təminatlı şəkildə yüksəlməsi üçün xüsusi əhəmiyyətə və dəyərə malik mühüm hadisəsi olmuşdur. Bu yüksək dövlət vəzifəsinə xalqımızın haqq səsini, Azərbaycan həqiqətlərini bütün dünya ictimaiyyətinə çatdıran, 4 amnistiya aktının təşəbbüskarı olmaqla 40 mindən artıq insanın bağışlanmasına, onların ailələrinə sevinc bəxş edilməsinə nail olan, Azərbaycanda keçirilən ən mötəbər tədbirlərdə Təşkilat Komitəsinə rəhbərliyi həyata keçirməklə çox yüksək təşkilatçılıq və idarəçilik qabiliyyətinə malik olan, dinlərarası, mədəniyyətlərarası münasibətlərin qurulmasında, multikultural dəyərlərin inkişafında, dövlətin sosial siyasətinin həyata keçirilməsində mühüm rolu olan şəxsin bu vəzifəyə təyin olunması xalqın hədsiz sevincinə səbəb olmaqla ölkənin işıqlı gələcəyinə inamını daha da artırmışdır. Bu mühüm təyinatdan sonrakı ötən müddət ərzində ölkədə həyata keçirilən strateji əhəmiyyətə malik, ölkənin hərtərəfli inkişafına təkan verən işlərin müsbət dinamikasının və intensivliyinin artması qeyd olunanların bariz təsdiqidir.

Ölkədə ictimai həyatın bütün sahələrini əhatə edən sistemli islahatlar, dövlət idarəçiliyinin müasirləşdirilməsi üzrə ardıcıl tədbirlər hüquq sisteminin ən yüksək beynəlxalq standartlara uyğun formalaşdırılmasına və müasir dövrün tələbləri səviyyəsində təkmilləşdirilməsinə zəmin yaradaraq bu istiqamətlərdə görülən işlərin səmərəliliyinin artırılmasını ehtiva etmişdir. Cənab Prezidentin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli proqram xarakterli sərəncamı ölkənin hüquq və qanunvericilik sisteminin daha yüksək müstəvidə inkişafının yeni mərhələsinin başlanğıcı olmaqla bu istiqamətdə görülən işlər üçün yol xəritəsi əhəmiyyətinə malik olmuşdur.

Sərəncam cinayət-hüquq siyasətinin liberallaşdırılması, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılması, bəzi cinayətlərin dekriminallaşdırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üçün kompleks institusional, qanunverici və praktiki tədbirlərin görülməsini təmin etmiş, qeyd edilən hər bir istiqamətdə növbəti islahatlar dalğasının həyata keçirilməsinə təkan vermişdir.

Respublikamızın davamlı tərəqqisi digər dövlət təsisatları kimi, prokurorluq orqanlarının da ardıcıl və müntəzəm inkişafını təmin etmişdir. Bu mühüm dövlət orqanı fəaliyyətini müasir dövrün daha yüksək tələbləri səviyyəsində quraraq təkmilləşməkdə davam etmiş, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının, milli dövlət maraqlarımızın qorunmasında, sabitliyin və təhlükəsizliyin təmin olunmasında digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əməkdaşlıq şəraitində çalışaraq yeni-yeni uğurlar qazanmışdır.

Ümummilli lider Heydər Əliyevin 26 aprel 2000-ci il tarixdə prokurorluq orqanlarının rəhbər vəzifəli şəxsləri ilə keçirdiyi müşavirədə prokurorluğun fəaliyyətində əvvəllər mövcud olmuş nöqsanların aradan qaldırılmasına, zəruri tədbirlərin həyata keçirilməsinə dair proqram xarakterli nitqindən irəli gələn tövsiyə və göstərişlərin yerinə yetirilməsi ilə əlaqədar aparılmış geniş və dərin məzmunlu islahatlar nəticəsində Azərbaycan Prokurorluğu struktur və mahiyyət baxımından tam yenidən qurularaq demokratik məzmunlu prinsip və metodlardan istifadə etməklə mütərəqqi normativ hüquqi baza əsasında fəaliyyət göstərən sivil, çevik və işlək dövlət təsisatına çevrilmişdir. Həyata keçirilmiş hərtərəfli islahatlar nəticəsində mövcud olmuş nöqsan və çatışmazlıqların aradan qaldırılmasına, prokurorluğun sıralarının saflaşdırılmasına, müasir tələblər səviyyəsində işləmək iqtidarında olan yüksək peşə hazırlıqlı, qabiliyyətli və bacarıqlı kadr tərkibinin formalaşdırılmasına, xalqın və dövlətçiliyin maraqlarına üstünlük verilməklə qanunçuluq, obyektivlik, qərəzsizlik və faktlara əsaslanma, prokurorluğun fəaliyyətinin digər mühüm prinsiplərinə ciddi əməl edilməsinə nail olunmuşdur. Prokurorluğun rolunun artırılması istiqamətində görülən tədbirlər içərisində bu dövlət orqanına qanunvericilik təşəbbüsü hüququnun verilməsinin hüquq sisteminin inkişafına müsbət təsiri olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş, prokurorluğun daha da

təkmilləşərək müasirləşdirilməsi dövrünün əsasını qoymuş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, insan hüquq və azadlıqlarının qorunması, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə edilməsi, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, prokurorluğun fəaliyyətinin bütün istiqamətləri üzrə peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahələrində ciddi nailiyyətlər əldə edilmişdir.

### 1 oktyabr 2017-ci ildə milli prokurorluq orqanlarının təsis edilməsinin 99-cu ili tamam olur

Prokurorluq orqanlarının inkişafı ilə bağlı mühüm məqamlar ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğu kimi, prokurorluq işçilərinin peşə bayramının təsis edilməsi də məhz onun yüksək qayğısının təzahürü olmuşdur. Hər ilin oktyabr ayının 1-nin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd edilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə bizə bəxş edilmişdir. Milli prokurorluq orqanlarının yaranması tarixinin 1 oktyabr 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının qərarı ilə Bakı Dairə Məhkəməsinin nəzdində prokurorluğun təsis edildiyi gündən hesablanmasına baxmayaraq, bu mühüm dövlət təsisatının dünya standartları və müasir tələblərə cavab verən, konstitusion statusa malik, yüksək nüfuzlu orqan kimi formalaşması, ölkənin hüquq sisteminin inkişafında əhəmiyyətli rola malik olması məhz ulu öndər Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi məhkəmə hüquq islahatları və hərtərəfli dövlət qayğısı nəticəsində mümkün olmuşdur. Prokurorluq işçilərinin peşə bayramının təsis edilməsi ilə yanaşı, Azərbaycan Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququnun verilməsi də bu təsisata olan yüksək dövlət qayğısının göstəricisi olmuşdur.

Milli prokurorluq orqanlarının yaranmasının 99-cu ilini qeyd edərkən biz prokurorluq işçiləri ümummilli lider Heydər Əliyevin bu əlamətdar günün respublikamızda ilk dəfə olaraq 1998-ci ildə qeyd olunmasında iştirakını yüksək fəxr və qürurla yadımıza salırıq. Ümummilli lider prokurorluq işçilərinin peşə bayramına və milli prokurorluq orqanlarının yaranmasının 80 illiyinə həsr edilmiş 28 noyabr 1998-ci il tarixli təntənəli tədbirdəki tarixi nitqində prokurorluq işçilərinə tövsiyələrini verərək prokurorluq orqanları qarşısında dayanan əsas vəzifələri müəyyən etmişdir. Ümummilli lider prokurorluq işçilərinin fəaliyyətinə yüksək dəyər verməklə onlara müraciət edərək qeyd etmişdi: "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız".

Prokurorluq orqanlarının yaradılmasının 90 illik yubileyi də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək qayğısı sayəsində xüsusi təntənə ilə qeyd edilmişdir. Cənab

İlham Əliyev prokurorluq işçilərini yubiley münasibətilə təbrik etməklə bu dövlət qurumunda həyata keçirilən işləri yüksək qiymətləndirmiş, son illər prokurorluqda sağlam iş mühitinin yaradılması üçün ciddi işlərin görüldüyünü, dövlətçilik, qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi prinsiplərinin ön plana çəkildiyini, cəmiyyətdə prokurorluğa ictimai etimadın artdığını və onun nüfuzunun yüksəldiyini, prokurorların cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirmələrini, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynadıqlarını qeyd etmişdir.

Dövlət başçısı tərəfindən, eyni zamanda ölkəmizdə zamanın ruhuna, yeni siyasi, iqtisadi, sosial reallıqlara uyğun olaraq prokurorluq orqanlarının statusunda, səlahiyyətində və fəaliyyətində köklü dəyişikliklər baş verdiyi, kadr siyasətində ciddi dönüşün yaradılması və şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində kompleks tədbirlər görüldüyü qeyd edilmişdir. Eyni zamanda prokurorluq orqanları qarşısında dayanan mühüm vəzifələr göstərilməklə, əsas məqsədin prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması olduğu vurğulanmışdır.

1 oktyabr 2018-ci ildə milli prokurorluğun təsis edilməsinin 100 ili tamam olacaq və bu əlamətdar

hadisə prokurorluq işçiləri və veteranları, geniş ictimaiyyət, bütün Azərbaycan xalqı tərəfindən yüksək təntənə ilə qeyd ediləcəkdir. Xalqımızın və milli dövlətimizin tarixində mühüm hadisələrdən biri olan bu yubileyin yüksək səviyyədə təşkil edilməsi və keçirilməsi üçün artıq ciddi hazırlıq işlərinə başlanılmış, Baş Prokurorluq üzrə 9 avqust 2017-ci il tarixli sərəncamla milli prokurorluq orqanlarının yaradılmasının 100 illiyinin qeyd edilməsi ilə əlaqədar olaraq zəruri tədbirlərin müəyyənləşdirilməsi məqsədilə təkliflərin işlənib hazırlanması üçün Baş prokurorun müavininin rəhbərliyi ilə geniş tərkibdən ibarət komissiya yaradılaraq yüksək standartlara uyğun bir sıra maraqlı tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

**Prokurorluq orqanlarında işin təşkili və idarəetmənin təkmilləşdirilməsi məsələlərinə xüsusi diqqət yetirilir**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 745 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturu"nda dəyişikliklər edilməsi haqqında" dövlət başçısının 23 dekabr 2016-cı il tarixli 2571 nömrəli Sərəncamına əsasən, Baş Prokurorluq üzrə 30 dekabr 2016-cı il tarixli əmrlə Baş Prokurorluğun strukturunun təkmilləşdirilməsi yolu ilə fəaliyyətinin səmərəliliyinin artırılmasının təmin edilməsi məqsədilə Hüquqi təminat və informasiya idarəsi ləğv edilərək, onun bazasında Hüquqi təminat, İnformasiya-kommunikasiya texnologiyaları idarələri və Mətbuat xidməti (şöbə səlahiyyətli) yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli proqram xarakterli sərəncamından irəli gələn, Azərbaycan Respublikası Ali Məhkəməsi və Ədliyyə Nazirliyi ilə birlikdə üzərimizə düşən vəzifələrin tam və dəqiq yerinə yetirilməsi, cəza siyasətinin liberallaşdırılması, cinayət təqibi ilə əlaqədar fəaliyyətin səmərəli təşkil edilməsi məqsədilə birgə işçi qrupu yaradılaraq geniş təkliflər paketi hazırlanıb müvafiq qaydada təqdim edilmişdir. Təkliflər hərtərəfli təhlil edilərək qabaqcıl beynəlxalq praktika və qanunvericiliyin təcrübədə tətbiqi nəzərə alınmaqla Cinayət Məcəlləsinə kompleks dəyişiklikləri əhatə edən qanun layihəsi hazırlanaraq Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə göndərilmiş və hazırda baxılmaq ərəfəsindədir.

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 189 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında Əsasnamə"yə 2016-cı il 20 may tarixli 905 nömrəli Fərmanla əlavə edilmiş 25-6 bəndin icrası ilə bağlı dini ekstremizm, terrorçuluq və dövlət təhlükəsizliyini təhdid edən digər ideyalardan islah olunmamış məhkumlar barəsində vətəndaşlığın itirilməsi ilə bağlı icraata başlanılması ilə əlaqədar cəzanı icra edən orqan və ya müəssisələrdən daxil olan məlumatlara cinayət işinin istintaqını aparmış orqan və Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən baxılması qaydaları hazırlanaraq Baş Prokurorluq üzrə 11 avqust 2017-ci il tarixli əmrlə təsdiq edilmişdir.

Baş Prokurorluq üzrə 1 mart 2017-ci il tarixli əmrlə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın icraya yönəldilməsi bu sahədə fəaliyyətin səmərəliliyini daha da artırmışdır.

Ölkəmizdə informasiya cəmiyyətinin formalaşması, dövlət orqanlarının fəaliyyətində və vətəndaşların həyatında informasiyanın, informasiya resurslarının və texnologiyalarının rolunun artması təhlükəsizlik və qanunla qorunan sirlərin, digər konfidensial məlumatların mühafizəsinin əhəmiyyətini artırmaqla, bu sahədə nizamasalmanın və normativ tənzimləmənin təkmilləşdirilməsini və nəzarətin daha da gücləndirilməsini zəruri etdiyindən cinayət təqibi zamanı dövlət sirri, şəxsi həyatın toxunulmazlığı, ailə, peşə, kommersiya və sair məlumatların qorunmasının təmin olunması ilə bağlı Baş Prokurorluq üzrə əmr və təlimatların, digər normativ sənədlərin təkmilləşdirilməsi üzrə əsaslandırılmış təkliflərin işlənib hazırlanması məqsədilə Baş Prokurorluq üzrə 12 sentyabr 2017-ci il tarixli sərəncamla Baş prokurorun müavininin rəhbərliyi ilə işçi qrupu yaradılmışdır.

Cənab Prezidentin qarşımızda qoyduğu vəzifələrin icrası ilə bağlı onun tövsiyələrində qeyd olunan tələblərə cavab verən yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması prosesinin həyata keçirilməsi istiqamətində fəaliyyət sistemli şəkildə və müntəzəm olaraq həyata keçirilir. Yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması prosesi prokurorluğun kadr korpusunun dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik gənc hüquqşünaslar hesabına, obyektivlik və əda-

lətlilik meyarlarına əsaslanaraq müsabiqə yolu ilə həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 509 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluqda işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"yə müvafiq olaraq gənc hüquqşünasların işə qəbulunu keçirmək məqsədilə 15 avqust 2017-ci il tarixdə növbəti 18-ci müsabiqə elan edilməklə hazırda sənədlərin qəbulu həyata keçirilir.

Ümumilikdə 2002-ci ildən başlayaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (Dövlət İmtahan Mərkəzi) ilə əlaqəli şəkildə, tam aşkarlıq şəraitində və şəffaf prosedurlar əsasında, dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları və beynəlxalq təşkilatlar, eləcə də kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 10 və Naxçıvan Muxtar Respublikasının Prokurorluğu üzrə isə 7 müsabiqə keçirilməklə başa çatmışdır. Həmin müsabiqələr nəticəsində 780 namizəd prokurorluq orqanlarına qulluğa qəbul edilmişdir. İslahatlara qədərki dövrdə prokurorluq orqanlarında qulluq keçən 30 yaşınadək işçilərin sayı prokurorluq əməkdaşlarının cəmi 3 faizinə bərabər olduğu halda qulluğa qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi nəticəsində gənc prokurorluq əməkdaşlarının sayı əhəmiyyətli dərəcədə artaraq hazırda prokurorluq işçilərinin 65 faizini təşkil edir.

Kadr siyasətinin günün tələbləri, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla demokratik məzmunda, ədalət və şəffaflıq meyarları əsasında həyata keçirilməsi prokurorluğun yenidən qurulmasına yönəlmiş mütərəqqi islahatların uğurla reallaşdırılmasının ümdə şərtlərindən biri olmuşdur. Prokurorluqda qulluğa qəbul müsabiqə yolu ilə həyata keçirilməklə prokurorluq orqanlarının yüksək ixtisaslı, sağlam mənəviyyata, geniş dünyagörüşünə malik mütəxəssislərlə komplektləşdirilməsi, gənc perspektivli kadrlar hesabına mütəmadi yenilənmənin həyata keçirilməsi, müxtəlif nəsil prokurorluq işçiləri arasında sağlam varisliyin təmini, layiqli kadrların vəzifədə irəli çəkilməsi, prokurorluq işçisinin davranışının mənəvi-etik əsaslarının müəyyən edilməsi, onun fəaliyyətinin obyektiv qiymətləndirilməsi üçün zəruri meyarların təsbiti və rəhbər tutulması prokurorluqda kadrlarla iş sahəsindəki islahatların əsas istiqamətlərini təşkil etmişdir.

Qeyd olunanlar əsas götürülməklə ötən bir il ərzində 294 prokurorluq işçisinin iş yeri dəyişdirilmiş, onlardan xidməti fəaliyyətlərində müsbət xarakterizə olunan 105 nəfər yuxarı təsnifatlar üzrə vəzifələrə irəli çəkilmişdir. 156 nəfər eyni təsnifatda olan vəzifələrə, 33 nəfər isə müxtəlif əsaslarla aşağı təsnifat vəzifələrə təyin edilmişlər. Bu müddət ərzində xidməti qaydada həvəsləndirilmiş 144 prokurorluq işçisindən 5 nəfəri "Prokurorluğun fəxri işçisi" döş nişanına layiq görülmüş, 63 nəfər fəxri fərmanla təltif edilmiş, 31 nəfərə mükafatlandırma qaydasında rütbə, 1 nəfərə pul mükafatı verilmiş, 2 nəfərin intizam tənbehi üzərindən götürülmüş, 42 nəfərə isə təşəkkür elan edilmişdir.

İntizam məsuliyyətinə cəlb edilmiş 59 işçidən 40 nəfərə töhmət və şiddətli töhmət elan edilmiş, 3 nəfər aşağı vəzifəyə keçirilmiş, 8 nəfər vəzifədən azad edilmiş, 4 nəfər prokurorluq orqanlarından xaric olunmuş, 4 nəfərə isə irad tutulmuşdur.

### Korrupsiyaya qarşı mübarizədə prokurorluğun fəaliyyətinin əhəmiyyəti yüksəlmişdir

Korrupsiyaya qarşı mübarizənin aparılmasında prokurorluq orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi üzrə müntəzəm olaraq həyata keçirilən sistemli tədbirlərin nəticəsi olaraq bu sahədə işin effektivliyi və səmərəliliyi artmışdır. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi öz fəaliyyətini ötən bir il ərzində prokurorluq orqanlarının digər qurumları ilə əlaqəli şəkildə quraraq mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən biri olan korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsinə çalışmışdır. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən ölkə vətəndaşlarını ciddi narahat edən korrupsiya cinayətlərinin və hüquqpozmalarının daha geniş yayıldığı idarəçilik və xidmət sahələri müəyyən edilmiş, təqsirli şəxslər ifşa edilmiş, korrupsiya hüquqpozmalarından əziyyət çəkən vətəndaşların hüquqlarının bərpa edilməsi məqsədi ilə vətəndaşlardan "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş bir sıra müraciətlər üzrə təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri həyata keçirilmişdir. Əlaqəli dövlət qurumları ilə birgə fəaliyyət nəticəsində vətəndaşların çoxsaylı müraciətlərinin müsbət həll olunması təmin edilmiş, eyni zamanda maarifləndirmə sahəsində kitab, bülleten, buklet və digər metodiki vəsaitlər nəşr olunmuş, kütləvi informasiya vasitələrində, televiziya kanallarında Baş İdarənin fəaliyyətini əks etdirən məlumatlar ictimaiyyətin diqqətinə çatdırılmışdır.

Ötən bir il ərzində Baş İdarə tərəfindən vətəndaşların 6571 müraciətinə baxılmış, əlaqəli

dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində vətəndaşlar tərəfindən "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş ilkin müraciətlərin böyük əksəriyyətinin müsbət həll olunması təmin edilmiş, 7 müraciət üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmış, həmçinin digər müraciətlər üzrə qanunla nəzərdə tutulmuş müvafiq tədbirlər görülmüşdür. Başlanılmış cinayət işlərinin bir qismi üzrə ibtidai istintaq yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilmiş, digərləri üzrə isə istintaq davam etdirilir. Bu müraciətlərlə bağlı Baş İdarədə aparılan araşdırmalar zamanı aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədilə müvafiq təşkilatlara təqdimatlar verilmiş, həmin təqdimatlara əsasən bir sıra işçilər intizam tənbehi qaydasında cəzalandırılmış, aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir. Aşkar edilmiş qanun pozuntularının, onları doğuran səbəb və şəraitin, habelə bu sahələrdə mövcud qanunvericilikdəki boşluq və çatışmazlıqların aradan qaldırılması istiqamətində təkliflər hazırlanaraq aidiyyəti dövlət orqanlarına təqdim olunmuşdur.

Ötən müddət ərzində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 232 şəxs barəsində 180 işin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilmişdir. Həmin cinayət işləri əsasən mənimsəmə və israf etmə, dələduzluq, vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, səhlənkarlıq, hüquq verən rəsmi sənədləri istifadə etmə məqsədilə saxtalaşdırma, qanunsuz hazırlama və istifadə etmə və digər faktlarla əlaqədar olmuşdur.

İstintaqı başa çatdırılmış işlər üzrə cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması məqsədilə aidiyyəti müəssisə və təşkilatların rəhbərlərinə 30 təqdimat verilmiş, həmin təqdimatlara əsasən, bir sıra işçilər intizam qaydasında cəzalandırılmış, aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

**Vətəndaşların müraciətlərinə daim diqqət və qayğı göstərilməklə onların ərizə və şikayətlərinə həssaslıqla yanaşılır**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışlarında mütəmadi olaraq qeyd etdiyi kimi, ölkədə mərkəzində Azərbaycan vətəndaşı dayanan sosialyönümlü dövlət siyasəti həyata keçirilir. Dövlət başçısının həyata keçirdiyi sosialyönümlü dövlət siyasətinin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında əhalinin qəbulu məsələlərinə xüsusi önəm verilərək vətəndaşların müraciətlərinə daim diqqət və qayğı göstərilməklə onların ərizə və şikayətlərinə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə ciddi əməl olunmaqla baxılır.

Ölkənin müxtəlif bölgələrində Baş prokuror tərəfindən mütəmadi olaraq vətəndaşların səyyar qəbulu keçirilməklə qaldırılan məsələlərin yerində həll edilməsi və əsaslı müraciətlərin təmin olunması istiqamətində konkret tədbirlər həyata keçirilir. Təkcə 2017-ci ilin ötən 9 ayı ərzində Baş prokuror tərəfindən yerlərdə 9 qəbul keçirilməklə Sumqayıt şəhərində, Göyçay, Cəlilabad, Beyləqan, Göygöl, Lənkəran, Gədəbəy, Qax və Siyəzən rayonlarında 223 vətəndaş qəbul olunmuşdur.

Qeyd olunan səyyar qəbullar zamanı 223 vətəndaşdan daxil olmuş 191 müraciətdən 180-ni prokurorluğun icraatına qəbul edilmiş, 11 müraciət isə aidiyyəti dövlət orqanlarına göndərilmişdir. Prokurorluqda baxılmış 180 müraciətdən 22-si təmin edilmiş, 14-ü rədd olunmuş, 129-u üzrə vətəndaşlara izahlar verilmiş, 1 müraciət cinayət işinin materiallarına əlavə edilərək ibtidai istintaqda araşdırılmış, 14 müraciət isə hazırda icraatdadır.

Sonda bildirmək istəyirəm ki, bir ildən sonra biz prokurorluq işçiləri, bütün ölkəmiz prokurorluq orqanlarının yaranmasının 100 illik yubileyini qeyd edəcəyik. Bu isə o deməkdir ki, fəaliyyətimiz barədə daha geniş hesabat xarakterli məlumat verməli olacağıq. Bunun üçün isə daha çox işləməli və üzərimizə qoyulan vəzifələrin icrası üzrə daha çox fəaliyyət göstərməliyik. Yəni fəaliyyətimizi daha səmərəli qurmaqla böyük məsuliyyətlə çalışaraq həvalə olunan iş və tapşırıqları tam və keyfiyyətlə yerinə yetirməliyik. Əminliklə qeyd etmək istəyirəm ki, Azərbaycan Prokurorluğunun kollektivi bundan sonra da əzmlə işləməklə möhtərəm Prezidentin rəhbərliyi ilə həyata keçirilən dövlətçilik siyasətini hərtərəfli dəstəkləyərək ölkədə təhlükəsizliyin və sabitliyin təmin olunmasında, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının qorunmasında, xalqına və dövlətinə xidmətdə öz töhfəsini verəcəkdir.

**Zakir Qaralov,**
Azərbaycan Respublikasının Baş prokuroru
I dərəcəli dövlət ədliyyə müşaviri

30 sentyabr 2017-ci il

# Prokurorluq işçiləri həvəsləndiriliblər

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**
**№ 11/491-k**

Bakı şəhəri 29 sentyabr 2017-ci il

**1 Oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının 99 illiyi münasibətilə bir qrup prokurorluq işçisinin həvəsləndirilməsi haqqında**

1 Oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının 99 illiyi mlinasibətilə xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 32-ci və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 18.10-cu, 23-cü və 24-cü maddələrini rəhbar tutaraq,

**ƏMR EDİRƏM:**

**1. Aşağıda adıçəkilən prokurorluq işçiləri "Prokurorluğun fəxri işçisi" döş nişanı ilə təltif edilsinlər:**

| | |
|---|---|
| **baş ədliyyə müşaviri**<br>**Quliyev Əli Tofiq oğlu** | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin istintaq idarəsinin rəisi |
| baş ədliyyə müşaviri<br>**Ələkbərov Taryel Əkbər oğlu** | Calilabad rayon prokuroru |
| baş ədliyyə müşaviri<br>**Əliyev Əlixan Ataxan oğlu** | Kürdəmir rayon prokuroru |
| baş ədliyyə müşaviri<br>**Aslanov Seyfulla Xalıq oğlu** | Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin böyük prokuroru (məxfiçilik üzrə) |
| ədliyyə müşaviri<br>**Tağıyev Mahir Nəriman oğlu** | Baş Prokurorluğun Hüquqi təminat idarəsinin böyük prokuroru |

**2. Aşağıda adıçəkilən prokurorluq işçiləri "Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanı" ilə təltif edilsinlər:**

| | |
|---|---|
| baş ədliyyə müşaviri<br>**Səfərov Müşfiq Rəsul oğlu** | Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini |
| ədliyyə müşaviri<br>**Əliyev Rövşən Əli oğlu** | Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin rəis müavini - Hüquqi statistika şöbəsinin rəisi |
| ədliyyə müşaviri<br>**Quliyev Vüqar Fərhad oğlu** | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Daxili təhlükəsizlik şöbəsinin rəisi |
| I dərəcəli hüquqşünas<br>**Talibli Nigar Ağakişi qızı** | Azərbaycan Respublikası Baş prokurorunun köməkçisi |

| | |
|---|---|
| ədliyyə müşaviri<br>**Cəfərov Talıb Məmmədhüseyn oğlu** | Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi - boyük prokuroru |
| baş ədliyyə müşaviri<br>**Fətullayev Azad Dayış oğlu** | Bakı şəhər prokurorunun böyük köməkçisi |
| ədliyyə müşaviri<br>**Kərimov Tofiq Əli oğlu** | Bakı şəhər prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru |
| ədliyyə müşaviri<br>**Nəcəfov Nəsif Lətif oğlu** | Gəncə şəhər prokurorunun müavini |
| kiçik ədliyyə müşaviri<br>**İsmayılov Qalib Xanbala oğlu** | Naxçıvan Muxtar Respublikası Naxçıvan şəhər prokurorunun müavini |
| ədliyyə müşaviri<br>**Məmmədov Namiq Məmməd oğlu** | Xaçmaz rayon prokurorunun müavini |
| ədliyyə müşaviri<br>**Hacıyev Vüqar Aydın oğlu** | Səki rayon prokurorunun müavini |
| I dərəcəli hüquqşünas<br>**Həsənov Rəfael Hidayət oğlu** | Salyan rayon prokurorunun müavini |
| kiçik ədliyyə müşaviri<br>**Ələkbərov Vüqar Sabir oğlu** | Bakı şəhər prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru |

**3. Aşağıda adıçəkilən prokurorluq işçilərinə mükafatlandırma qaydasında növbəti və növbədənkənar xüsusi rütbələr verilsin:**

**ədliyyə müşaviri**

| | |
|---|---|
| kiçik ədliyyə müşaviri<br>**İsayev Orxan Elşad oğlu** | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini |
| I dərəcəli hüquqşünas<br>**Nəsibov Anar Yusif oğlu** | Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi |
| kiçik ədliyyə müşaviri<br>**Məmmədov Anar Azad oğlu** | Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəis müavini - Ekstradisiya və hüquqi yardım şöbəsinin rəisi |
| kiçik ədliyyə müşaviri<br>**Mansurov Rəşad Salman oğlu** | Bakı şəhər prokurorluğunun İstintaq idarəsinin rəisi |

**I dərəcəli hüquqşünas**

| | |
|---|---|
| II dərəcəli hüquqşünas<br>**Quliyev Faiq Çingiz oğlu** | Kürdəmir rayon prokurorunun böyük köməkçisi |

**4. Aşağıda adıçəkilən prokurorluq işçilərinə təşəkkür elan edilsin:**

| | |
|---|---|
| I dərəcəli hüquqşünas<br>**Zeynalov Kamil Əlizeynal oğlu** | Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>**Rüstəmov Orxan Namiq oğlu** | Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>**Nağıyev Həsən Asəf oğlu** | Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi |
| III dərəcəli hüquqşünas<br>**Murquzov Emil İlqar oğlu** | Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin Kriminalistika şöbəsinin prokuroru |
| ədliyyə müşaviri<br>**Qəniyev Ramazan Sabir oğlu** | Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru |

| | |
|---|---|
| II dərəcəli hüquqşünas<br>**Cabbarov Cabbar Əli oğlu** | Baş Prokurorluğun Ədliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru |
| ədliyyə müşaviri<br>**Babayeva İradə Mövsüm qızı** | Baş Prokurorluğun Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru |
| I dərəcəli hüquqşünas<br>**Səlimov Vasif Ələmdar oğlu** | Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Ağstafa və Qazax rayon məhkəmələri üzrə) |
| kiçik ədliyyə müşaviri<br>**Nağıyev Fərid Bəkir oğlu** | Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuror-metodisti |
| I dərəcəli hüquqşünas<br>**Quliyev Vüqar Elbrus oğlu** | Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Bakı Ağır Cinayətlər Məhkəməsi üzrə) |
| kiçik ədliyyə müşaviri<br>**Budaqov Ceyhun Fərman oğlu** | Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Kassasiya instansiyası məhkəməsi və Bakı Apellyasiya Məhkəməsi üzrə) |
| ədliyyə müşaviri<br>**Səməndərov Yusif Firudin oğlu** | Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuroru |
| ədliyyə müşaviri<br>**Qədimov Emil İbrahim oğlu** | Bakı şəhər prokurorluğunun Təşkilat-analitik şöbəsinin böyük prokuroru |
| kiçik ədliyyə müşaviri<br>**Qənizadə Elgiz Çingiz oğlu** | Bakı şəhəri Binəqədi rayon prokurorunun müavini |
| ədliyyə müşaviri<br>**Xudiyev Nazim Nizami oğlu** | Bakı şəhəri Sabunçu rayon prokurorunun müavini |
| kiçik ədliyyə müşaviri<br>**Əliyev Rəşad Elbrus oğlu** | Bakı şəhəri Suraxanı rayon prokurorunun müavini |
| kiçik ədliyyə müşaviri<br>**Ağakişiyev Zaur Zakir oğlu** | Bakı şəhəri Xəzər rayon prokurorluğunun böyük müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>**Əsgərov Vasif Mətləb oğlu** | Bakı şəhəri Xətai rayon prokurorluğunun müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>**Ələkbərov Anar Akif oğlu** | Bakı şəhəri Səbail rayon prokurorunun köməkçisi |
| I dərəcəli hüquqşünas<br>**Bağırov Əli Rəsul oğlu** | Naxçıvan Muxtar Respublikası Babək rayon prokurorluğunun böyük müstəntiqi |
| I dərəcəli hüquqşünas<br>**Nəzərəliyev Zamin Əşrəf oğlu** | Naxçıvan Muxtar Respublikası Ordubad rayon prokurorunun köməkçisi |
| ədliyyə baş leytenantı<br>**Məmmədov Xaliq Musa oğlu** | Füzuli hərbi prokurorluğunun böyük müstəntiqi |
| ədliyyə kapitanı<br>**Həsənli Tural Nüsrət oğlu** | Qazax hərbi prokurorluğunun prokuror-kriminalisti |
| ədliyyə baş leytenantı<br>**Quliyev Elçin Çapay oğlu** | Qarabağ hərbi prokurorunun böyük köməkçisi |
| ədliyyə baş leytenantı<br>**Əliyev Elmir Həsən oğlu** | Bakı hərbi prokurorluğunun müstəntiqi |

| | |
|---|---|
| ədliyyə leytenantı<br>**Əhməd Rəcəb Nazim oğlu** | Gəncə hərbi prokurorunun köməkçisi |
| ədliyyə leytenantı<br>**Bağırov Taleh Vilayət oğlu** | Tərtər harbi prokurorluğunun müstəntiqi |
| ədliyyə kapitanı<br>**Rzayev Hikmət Abbas oğlu** | Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun İstintaq şöbəsinin böyük müstəntiqi |
| III dərəcəli hüquqşünas<br>**Əlləzov Dilqəm Umud oğlu** | Sirvan şəhər prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| II dərəcəli hüquqşünas<br>**Hüseynov Hüseyn Nizami oğlu** | Cəlilabad rayon prokurorunun böyük köməkçisi |
| II dərəcəli hüquqşünas<br>**Rüstəmov Elnur Rəşid oğlu** | Goranboy rayon prokurorluğunun böyük müstəntiqi |
| I dərəcəli hüquqşünas<br>**Qurbanov Təbriz Bəxtiyar oğlu** | Lənkəran rayon prokurorluğunun böyük müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>**Yusifov Elçin Vəkil oğlu** | Samux rayon prokurorluğunun böyük müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>**Məmmədov Sahin Asif oğlu** | Tərtər rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən |
| III dərəcəli hüquqşünas<br>**Hümmət-zadə Tural Ramazan oğlu** | Gəncə şəhər prokurorluğunun müstəntiqi |
| III dərəcəli hüquqşünas<br>**Hüseynov Əflatun Əflan oğlu** | Sumqayıt şəhər prokurorluğunun müstəntiqi |
| III dərəcəli hüquqşünas<br>**İsayeva Gülər Əlhəsən qızı** | Ağdaş rayon prokurorluğunun müstəntiqi |
| III dərəcəli hüquqşünas<br>**Hüseynli Qədimalı Muxtar oğlu** | Ağstafa rayon prokurorluğunun müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>**Kərimov Qibləli Ağa oğlu** | Beyləqan rayon prokurorluğunun müstəntiqi |
| III dərəcəli hüquqşünas<br>**Məmmədov Yaqub Mehman oğlu** | Füzuli rayon prokurorluğunun müstəntiqi |
| III dərəcəli hüquqşünas<br>**Musayev Vasif Vaqif oğlu** | Gədəbəy rayon prokurorluğunun müstəntiqi |
| II dərəcəli hüquqşünas<br>**Hüseynli Tural Mirbahəddin oğlu** | Xocalı rayon prokurorunun köməkçisi |
| I dərəcəli hüquqşünas<br>**Ağayev Qasım Nizami oğlu** | Masallı rayon prokurorunun köməkçisi |
| II dərəcəli hüquqşünas<br>**Məmmədov Rəşad Namiq oğlu** | Tovuz rayon prokurorunun köməkçisi |

**5.** Baş Prokurorluğun Kadrlar idarəsi (N.Rəcəbov), Təşkilat-analitik idarəsi (M.Sultanov) və Maddi-texniki təminat şöbəsi (N.Məmişov) tərəfindən bu əmrdən irəli gələn müvafiq təşkilati məsələlərin həlli təmin edilsin.

**6.** Əmr prokurorluq işçilərinə elan edilməsi üçün tabe prokurorluqlara göndərilsin.

Əsas: təqdimatlar

**Zakir Qaralov,**
Azərbaycan Respublikasının Baş prokuroru
I dərəcəli dövlət ədliyyə müşaviri

# Hərbi Prokurorluqda Azərbaycan Prokurorluğu orqanlarının yaradılmasının 99-cu ildönümünü qeyd olunub

## Hərbi Prokurorluğun kollektivi peşə bayramını qeyd edib

Hərbi Prokurorluqda 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 99-cu ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Tədbirdən əvvəl Hərbi Prokurorluğun işçiləri Baş Prokurorluğun kollektivi ilə birlikdə Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin məzarlarını ziyarət etmişlər.



Hərbi Prokurorluğun iclas zalında keçirilən tədbirdə çıxış edən Baş prokurorun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev dünya şöhrətli, müdrik siyasi xadim, müasir Azərbaycanın memarı Heydər Əliyevin ölkəmizin tarixindəki rolu, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində əzmkar fəaliyyəti barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, 1993-cü ilin iyununda kifayət qədər mürəkkəb siyasi şəraitdə xalqın təkidli çağırışına biganə qalmayaraq, ölkə rəhbərliyinə qayıdan ulu öndər bu missiyanı inamla həyata keçirmiş, qısa müddətdə ictimai-siyasi sabitliyin, qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsinə nail olmuşdur. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə sistemli surətdə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində mühüm addımlar atılmış, hüquq münasibətlərinin bütün subyektləri tərəfindən qanunçuluğun təmin olunmasının milli mexanizmləri formalaşdırılmış və bu mexanizmlər sistemində prokurorluq özünəməxsus yer tutmuşdur. Ulu öndərin 1993-cü ilin ikinci yarısından başlayaraq həyata keçirdiyi müdrik dövlətçilik siyasətinin nəticəsi olaraq, bütün digər qurumlarla yanaşı, Azərbaycan Prokurorluğu da demokratik məzmunlu dövlət təsisatı kimi tamamilə yenidən formalaşdırılaraq dövlətçiliyimizin mühüm sütunlarından birinə çevrilmişdir.

Xanlar Vəliyev, həmçinin qeyd etmişdir ki, ulu öndərin əsasını qoyduğu siyasi kurs, apardığı məhkəmə hüquq islahatları, həmçinin prokurorluq orqanlarına göstərdiyi etimad və diqqət onun layiqli davamçısı – Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilmişdir. Prezident cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar Hərbi Prokurorluğun strukturunun təkmilləşdirilməsi və fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə kriminalistika, kadrlar və hüquqi təminat, xüsusi istintaq, Silahlı Qüvvələrdə qanun pozuntuları barədə məlumatların araşdırılması, informasiya-kommunikasiya texnologiyaları və maddi-texniki təminat şöbələri, eləcə də dövlətimizin başçısının müvafiq Sərəncamı ilə Zaqatala Hərbi Prokurorluğu yaradılmışdır. Respublika Hərbi Prokurorluğunun mərkəzi aparatı, Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu, Qazax və Zaqatala hərbi prokurorluqları üçün yeni inzibati binalar tikilərək istifadəyə verilmiş, digər hərbi prokurorluqlarının binaları isə əsaslı təmir edilmişdir.

Son illər hərbi prokurorluq orqanları tərəfindən Silahlı Qüvvələrdə və qanunvericilikdə nəzərdə tutulmuş başqa silahlı birləşmələrdə qanunların icrasına nəzarət və hərbi qulluqçular tərəfindən qanunazidd hərəkətlərin törədilməsinin qarşısının alınması sahəsində çoxşaxəli tədbirlər görülmüşdür. Bu barədə danışan Xanlar Vəliyev vurğulamışdır ki, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizənin kəsərliliyinin və istintaq olunan cinayət işlərinə, ibtidai araşdırmaya prosessual rəhbərliyin gücləndirilməsi və işin düzgün təşkili nəticəsində hərbi hissələrdə törədilən cinayətlərin, xü-



susən də qəsdən adam öldürmə, intihar, habelə fərarilik və digər bu kimi hərbi xidmət əleyhinə olan cinayətlərin sayı durmadan azalmışdır. Son on ildə bütünlükdə hərbi xidmət əleyhinə olan cinayətlərin təxminən 50 faiz, qəsdən adamöldürmə, intihar və şəxsiyyət əleyhinə olan digər cinayətlərin 40 faiz azalması, hərbi hissəni və xidmət yerini müharibə vaxtı və ya döyüş şəraitində tərk etmə cinayətlərinin isə ümumiyyətlə törədilməməsi Silahlı Qüvvələrdə nizam-intizamın gücləndirilməsinin və qanunun aliliyinin təmin edilməsinin göstəricisidir. Eyni zamanda korrupsiya cinayətlərinə qarşı mübarizənin vəziyyəti mütəmadi olaraq Respublika Hərbi Prokurorluğunda ümumiləşdirilib kollegiya iclaslarında müzakirə olunur. Bu sahədə işin daha səmərəli təşkili, hərbi hissə və birləşmələrdə həmin cinayətlərin vaxtında aşkarlanması sahəsində ərazi hərbi prokurorluqlarının fəaliyyətləri təhlil olunub, müvafiq hərbi idarəetmə orqanlarına təqdimatlar, informasiya və icmal məktubları göndərilməklə zəruri qabaqlayıcı tədbirlərin görülməsi tələb edilib. Bununla yanaşı, Hərbi Prokurorluğun işçiləri tərəfindən vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzində saxlanılır, hər bir müraciətə fərdi qaydada baxılır.

Xanlar Vəliyev bildirmişdir ki, Respublika Hərbi Prokurorluğunun xüsusi istintaq şöbəsində erməni silahlı birləşmələri tərəfindən 1990-ci il martın 24-də Qazax rayonunun Bağanis-Ayrım kəndində, 1991-ci il dekabrın 22-də keçmiş Əsgəran rayonunun Qaradağlı kəndində, 1992-ci il fevralın 17-də keçmiş Ağdərə rayonunun Meşəli kəndində, 1992-ci il fevralın 26-na keçən gecə Xocalı şəhərində törədilmiş soyqırımı cinayətləri, habelə ermənilər tərəfindən törədilmiş terror aktları və digər cinayət əməlləri ilə bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin soyqırımına görə məsuliyyət nəzərdə tutan 103-cü və digər maddələri ilə istintaq olunan cinayət işi üzrə 296 təqsirləndirilən şəxs barəsində məhkəmələr tərəfindən həbs qətimkan tədbiri seçilməklə axtarış elan edilməsi təmin olunmuşdur. Həmçinin erməni millətçilərinin xüsusi amansızlıqla və qəddarlıqla törətdikləri kütləvi qırğınların, bəşəriyyət əleyhinə yönəlmiş soyqırımı cinayətlərinin tarixin yaddaşına həkk olunması, bütövlükdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Hərbi Prokurorluğun təşəbbüsü ilə Azərbaycan Respublikası baş prokurorunun 2013-cü il 19 iyul tarixli əmrinə əsasən Respublika Hərbi Prokurorluğunda zəngin tarixi sənədlər, faktlar və istintaq materialları əsasında Soyqırımı Muzeyi yaradılmışdır. Habelə "Soyqırımı Muzeyi", "Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları" kitabları nəşr olunmuş, "Əsrin faciəsi" filmi çəkilmişdir.

Dövlətimizin başçısının prokurorluğa göstərdiyi qayğıya və onun fəaliyyətinə verdiyi yüksək qiymətə görə hərbi prokurorluğun kollektivi adından Azərbaycan Prezidentinə dərin minnətdarlığını bildirən Xanlar Vəliyev əmin etmişdir ki, Respublika Hərbi Prokurorluğu bundan sonra da öz işini göstərilən yüksək etimad səviyyəsində qurmaq üçün bütün zəruri tədbirlərin görülməsini təmin edəcək, dövlətçiliyimizin maraqlarının müdafiəsi işində səylərini əsirgəməyəcək.

Sonda hərbi prokuror Xanlar Vəliyev xidmətdə fərqlənən işçiləri mükafatlandırmışdır.

**Hərbi Prokurorluq**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan Prokurorluğu orqanlarının yaradılmasının 99-cu ildönümünü qeyd olunub

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi peşə bayramını qeyd edib**

Sentyabrın 30-da Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq işçilərinin peşə bayramı və prokurorluq orqanlarının yaradılmasının 99 illiyi münasibətilə tədbir keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev çıxış edərək bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən hər il oktyabr ayının 1-i "Prokurorluq işçilərinin peşə bayramı günü" kimi qeyd olunur. Azərbaycanda prokurorluq orqanlarının əsasının 1918-ci il oktyabr ayının 1-də qoyulmasına baxmayaraq, onun dövlət orqanı kimi formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi elan edilmişdir. Bu tədbirlərin tərkib hissəsi kimi 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır.

Bu dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq, prokurorluq orqanlarında köklü islahatlara başlanılmışdır. "Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir", – deyən ulu öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixində qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından hüquqi zəmin formalaşdırmışdır. "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Qeyd olunmuşdur ki, ölkəmizdə bu gün həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ulu öndərimizin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Dövlət başçısı prokurorluq orqanlarının inkişafını həm də peşəkar prokurorluq işçilərinin hazırlanmasından asılı olduğunu bildirərək demişdir: "Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində hüquq sisteminin

inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmitexniki nailiyyətlərdən istifadə edilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahəsində ciddi uğurlar əldə edilmişdir. Dövlət proqramının icrası üzrə prokurorluğun fəaliyyətinin bütün sahələrini əhatə edən çoxsaylı və əhəmiyyətli tədbirlər həyata keçirilməklə əsaslı təkmilləşməyə və müasirləşməyə nail olunmuşdur.

Qeyd olunmuşdu ki, Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur Rayon Prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyə və tapşırıqlarına uyğun olaraq, cinayət hadisələrinin qarşısının alınması üçün profilaktik tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, muxtar respublika cinayətkarlığın səviyyəsi baxımından ən stabil regiona çevrilmiş, cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır. Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: “Davamlı iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, gənclərin səmərəli məşğulluğunun təmin edilməsi muxtar respublikada cinayətkarlığın aşağı səviyyədə olmasını təmin etmişdir. Hüquq mühafizə orqanları yaradılan şəraitdən istifadə edərək maarifləndirmə-profilaktika tədbirlərini düzgün təşkil etməli, nizam-intizamı daim möhkəmləndirməli, ictimai asayişin qorunması üçün səylə çalışmalıdırlar”. Bu gün muxtar respublikanın prokurorluq orqanları profilaktik tədbirlərin təsirliliyinin artırılmasını diqqət mərkəzində saxlayırlar. Çünki demokratik dövlət quruculuğunda insanların hərtərəfli hüquqi düşüncəyə və hüquq mədəniyyətinə malik olmaları əsas şərtlərdəndir. Hüquq maarifinin yüksək səviyyədə olmasını muxtar respublika prokurorluğunun işçiləri özləri üçün əsas vəzifə hesab edərək bu istiqamətdə işlərini günün tələbləri səviyyəsində qurmağa çalışırlar.

Qeyd olunmuşdu ki, prokurorluq orqanlarına işə qəbulun müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına komplektləşdirilməsi üçün ciddi zəmin yaratmışdır. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna Naxçıvan Muxtar Respublikası ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmışşəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar.

Sonda əminliklə ifadə olunmuşdur ki, dövlət qayğısını daim üzərlərində hiss edən prokurorluq orqanlarının işçiləri bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaq, Azərbaycan dövlətçiliyinə sadiq olaraq ölkəmizin müstəqilliyinin daha da möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak etməklə öz xidmətlərini layiqincə yerinə yetirəcəkdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Məhərrəm Talıbov, Prokurorluğun şöbə rəisləri və rayon (şəhər) prokurorları çıxış edərək prokurorluq orqanlarına göstərilən dövlət qayğısından danışmışlar.

Sonda bir qrup prokurorluq işçiləri mükafatlandırılmışlar.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Baş prokuror Zakir Qaralov ədliyyə işçilərinin peşə bayramı gününün qeyd olunması tədbirində iştirak edib

## Ədliyyə işçiləri peşə bayramlarını qeyd ediblər






Noyabrın 22-də Baş prokuror Zakir Qaralov ədliyyə işçilərinin peşə bayramı gününün qeyd olunması tədbirində iştirak edib.

Tədbir Ədliyyə Nazirliyində keçirilib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin nazirlikdəki büstü önünə tər çiçəklər qoyulub.

Tədbirdə ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Ali Məhkəmənin sədri Ramiz Rzayev, nazirliyin kollektivi, vətəndaş cəmiyyəti və media nümayəndələri iştirak ediblər.

Azərbaycan ədliyyəsinin müasir fəaliyyətinə həsr olunmuş qısametrajlı film nümayiş etdirilib.

Peşə bayramı günü münasibətilə bütün ədliyyə və məhkəmə orqanları işçilərini təbrik edən nazir Fikrət Məmmədov Azərbaycan ədliyyəsinin tarixindən və inkişaf yolundan, ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində ədliyyə sisteminə göstərdiyi diqqət və qayğıdan bəhs edib, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə son illər bütün sahələrdə sürətli tərəqqiyə nail olunmasını vurğulayıb, ədliyyə və məhkəmə sistemində aparılan uğurlu islahatlardan danışıb.

Fəaliyyətində fərqlənmiş bir qrup işçiyə xüsusi rütbələr və mükafatlar verilib.

Mərasimdə çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev hüquq ictimaiyyəti üçün əlamətdar olan ədliyyə işçilərinin peşə bayramının ulu öndər Heydər Əliyev tərəfindən təsis edilməsini məmnunluqla xatırladıb, məhkəmə-hüquq sahəsində əldə olunan və beynəlxalq aləmdə təqdir edilən nailiyyətləri qeyd edib, ədliyyə işçilərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Ali Məhkəmənin sədri Ramiz Rzayev peşə bayramı münasibətilə təbriklərini çatdırıb, ədliyyənin intibah dövrünün müstəqillik illərində ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilən demokratik hüquqi dövlət quruculuğu prosesi ilə başlandığını qeyd edib, ölkə Prezidenti cənab İlham Əliyevin ədliyyə və məhkəmə sisteminin inkişafına diqqət və qayğısından bəhs edərək ədliyyə işçilərinin bundan sonra da qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklərini vurğulayıb.

Tədbirdə iştirak edən ictimaiyyət nümayəndələri çıxış edərək ədliyyə işçilərini peşə bayramları münasibətilə təbrik edib, ötən dövrdə Azərbaycan ədliyyəsinin inkişafı üzrə mühüm addımların atıldığını və yeni-yeni nailiyyətlərin əldə olunduğunu bildiriblər.

Gənc ədliyyə işçiləri ölkəmizdə dövlət gənclər siyasətinin uğurla həyata keçirildiyini, ölkə rəhbərliyi tərəfindən Azərbaycan gəncliyinin inkişafı üçün hər cür şəraitin yaradıldığını, ədliyyə sistemində gənclərə hər zaman xüsusi qayğı ilə yanaşıldığını dərin minnətdarlıq hissi ilə qeyd edib, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Tədbirdə ədliyyə işçilərinin ulu öndərin müəyyən etdiyi və uğurla həyata keçirilən dövlətçilik amallarına sadiq qalaraq ölkəmizin hərtərəfli tərəqqisində və demokratik-hüquqi dövlət quruculuğu işində möhtərəm Prezidentimizə layiqli yardımçı olmaq üçün əzmkarlıqla və məsuliyyətlə çalışacaqlarından əminlik ifadə olunub.

Sonra tədbir mədəni proqramla davam edib.

**Ədliyyə Nazirliyi və Baş Prokurorluğun Mətbuat Xidməti**

# Baş prokuror Zakir Qaralov OECD Katibliyinin Antikorrupsiya məsələləri üzrə baş müşaviri Olqa Savran və Hüquq-mühafizə orqanları şəbəkəsinin katibi Anka Yurmanı qəbul edib

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının nümayəndələri Baş Prokurorluqda olmuşlar**



Oktyabrın 25-27-də Bakı şəhərində keçirilən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin (ACN) Hüquq-mühafizə orqanları şəbəkəsinin 8-ci görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olan OECD Katibliyinin Antikorrupsiya məsələləri üzrə baş müşaviri Olqa Savran və Hüquq-hühafizə orqanları şəbəkəsinin katibi Anka Yurma Baş Prokurorluqda olmuşlar.

Qonaqları salamlayan Baş prokuror Zakir Qaralov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə uğurla həyata keçirilən məhkəmə-hüquq islahatları, o

cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş qanunverici və institusional tədbirlər, "ASAN" xidmət mərkəzləri və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti barədə ətraflı məlumat verib, OECD ilə səmərəli əməkdaşlığın verdiyi töhfələrin önəmini vurğulayıb.

Xüsusi olaraq cari il sentyabrın 12-13-də Paris şəhərində keçirilmiş OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının görüşündə baş tutmuş müzakirələr nəticəsində ölkəmizə qurumun IV Monitorinq Raund Hesabatı üzrə ünvanlanmış tövsiyələrin böyük əksəriyyətinin uğurla icra edilməsinin qeyd edilməsi vurğulanmışdır.

Səmimi qəbula görə minnətdarlıqlarını bildirən qonaqlar Azərbaycan Respublikasının maliyyə dəstəyi ilə 20-dən artıq ölkənin 70-ə yaxın korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumlarının nümayəndələrinin və beynəlxalq ekspertlərin iştirak etdiyi tədbirin yüksək peşəkarlıqla təşkil olunmasına görə öz təşəkkürlərini bildiriblər.

OECD nümayəndələri Azərbaycanın qurumun Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsi ilə uğurlu əməkdaşlığını, tövsiyələrin icrası istiqamətində göstərdiyi təşəbbüskarlığı qeyd etməklə səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliklərini ifadə ediblər.

Görüşdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin işçilərinin ekspert qismində digər ölkələrin fəaliyyətinin dəyərləndirilməsinə cəlb edilməsi xüsusi olaraq qeyd edilib, qarşılıqlı əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Baş prokuror Zakir Qaralov Tacikistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Rustam Soliyevi qəbul edib

## Tacikistanın Azərbaycandakı səfiri Baş Prokurorluqda olmuşdur

Oktyabrın 26-da Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov Tacikistan Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rustam Soliyevlə görüşüb.

Görüşdə dost və qardaş ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən hüquqi əlaqələrin uğurla inkişaf etdiyi məmnunluqla vurğulanıb. Baş prokuror bildirib ki, hər iki dövlətin prezidentləri cənab İlham Əliyevin və cənab Emoməli Rəhmonun ciddi səyləri nəticəsində Azərbaycan-Tacikistan əlaqələri günü gündən inkişaf edir və əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial mövcuddur.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən səfir Rustam Soliyev iki dövlət arasında əlaqələrin regionda sülhə və tərəqqiyə xidmət etdiyini və əlaqələrin inkişaf etdirilməsi üçün bundan sonra da səylərini əsirgəməyəcəyini bildirib.

Daha sonra hər iki dövlətin prokurorluq orqanları arasında əməkdaşlıq, cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya və sair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

## Baş prokuror Sabirabad şəhərində vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov oktyabrın 27-də Sabirabad rayon prokurorluğunun inzibati binasında Şirvan şəhəri, Sabirabad, Hacıqabul, Saatlı və Salyan rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Sabirabad rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul işçilərinin, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 24 vətəndaş qəbul edilmiş, onların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapmışdır.

## Baş prokuror Bərdə şəhərində vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov noyabrın 24-də Bərdə rayon prokurorluğunun inzibati binasında Mingəçevir şəhəri, Bərdə, Yevlax, Ağdaş, Ucar və Zərdab rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Bərdə rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul işçilərinin, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 17 vətəndaş qəbul edilmiş, onların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapmışdır.

## Baş prokuror Abşeron rayonunda vətəndaşları qəbul edib



Baş prokuror Zakir Qaralov dekabrın 22-də Abşeron rayon prokurorluğunun inzibati binasında Sumqayıt şəhər, Abşeron, Xızı, Qubadlı, Zəngilan və Şuşa rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Abşeron rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul işçilərinin, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 26 vətəndaş qəbul edilmiş, onların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapmışdır.

***

Qəbullar zamanı həmçinin, müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilmişdir.

Vətəndaşlar bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə etmişlər.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibəti ilə Azərbaycan Respublikasının Baş prokuroru I dərəcəli dövlət ədliyyə müşaviri cənab Zakir Qaralovun ünvanına daxil olan təbrik məktubları

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim!***

*Sizi və rəhbərlik etdiyiniz kollektivi 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə ürəkdən təbrik edir, ən xoş arzularımı bildirirəm.*

*Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasını uğurla həyata keçirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Prokurorluğu qanunun aliliyinin, insan hüquq və azadlıqlarının etibarlı təmin olunması, ictimai-siyasi sabitliyin qorunması naminə səmərəli fəaliyyət göstərir.*

*Fəxrlə deyə bilərik ki, bu gün prokurorluq orqanları qanunçuluğun keşiyində ləyaqətlə dayanır, cinayətkarlığın bütün təzahürlərinə qarşı mübarizədə, dövlətçiliyimizin hər cür qəsdlərdən qorunmasında və cinayətkar dəstələrin ifşa olunmasında qətiyyətli mövqe tutur, ədalət mühakiməsinin həyata keçirilməsində, korrupsiyaya qarşı mübarizədə üzərinə düşən çətin və məsuliyyətli missiyanı uğurla davam etdirir.*

*Bilavasitə rəhbərliyinizlə prokurorluğun fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi üzrə həyata keçirilən genişmiqyaslı tədbirlər və əldə olunan nailiyyətlər, o cümlədən qabaqcıl İKT-lərin tətbiqi, beynəlxalq əlaqələrin dərinləşdirilməsi, müasir düşüncəli yeni nəsil prokurorluq işçilərinin yetişdirilməsi hər birimizdə böyük məmnunluq doğurur.*

*Xüsusilə qeyd olunmalıdır ki, dövlət başçısının cari ilin fevralın 10-da imzaladığı vətəndaşların azadlıq hüququnun daha etibarlı qorunmasına və cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamı ilə prokurorluq orqanlarının üzərinə çox mühüm və məsuliyyətli vəzifələr qoyulmuşdur.*

*Azərbaycan Prokurorluğunun xidmətləri ölkə başçısı tərəfindən daim yüksək qiymətləndirilir və sevindirici haldır ki, əməkdaşlarınız dövlət təltiflərinə və ali xüsusi rütbələrə layiq bilinirlər.*

***Hörmətli Zakir müəllim!***

*Peşə bayramınız münasibətilə Ədliyyə Nazirliyinin rəhbərliyi və çoxminli kollektivi adından Sizi bir daha ürəkdən təbrik edir, respublikamızın hərtərəfli tərəqqisi naminə mühüm və şərəfli işinizdə yeni-yeni nailiyyətlər diləyirəm.*

***Hörmətlə,***

***Fikrət Məmmədov,***
***Azərbaycan Respublikasının ədliyyə naziri,***
***Məhkəmə-Hüquq Şurasının sədri,***
***I dərəcəli ədliyyə müşaviri***
*1 oktyabr 2017-ci il*

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Sizi və rəhbərlik etdiyiniz kollektivi 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə səmimi təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayıram.*

*Azərbaycan Respublikasının Prokurorluğu ölkəmizdə insan hüquq və azadlıqlarının təminatı istiqamətində əldə etdiyi xidməti nailiyyətlər və həyata keçirdiyi uğurlu fəaliyyəti ilə cəmiyyətdə özünə qarşı yüksək etimad hissi formalaşdırmışdır.*

*Bu gün Sizin rəhbərliyinizlə prokurorluq orqanları öz fəaliyyətində ədalət və şəffaflıq prinsiplərini əsas götürərək ölkəmizdə aparılan hüquqi islahatlar prosesində fəal iştirak edir, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.*

*Prokurorluq orqanlarının təkmilləşdirilməsi və yeniləşdirilməsi istiqamətində görülən işlərin müsbət nəticəsidir ki, rəhbərlik etdiyiniz orqan qanunla müəyyən edilmiş funksiyalarını yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının təmin edilməsində, bütövlükdə, hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayır.*

*İnanırıq ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquq qaydasının və ədalətin müdafiə olunmasına yönəlmiş fəaliyyətinizi bundan sonra da uğurla davam etdirəcək, bu məsuliyyətli işdə öz təcrübənizi və səriştənizi əsirgəməyəcəksiniz.*

*Əlamətdar gün münasibətilə Sizi bir daha təbrik edir, möhkəm sağlamlıq, fəaliyyətinizdə müvəffəqiyyətlər və yeni nailiyyətlər arzulayıram.*

**Hörmətlə,**

**Fərhad Abdullayev,**
**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsinin Sədri**
*1 oktyabr 2017-ci il*

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim!***

*Sizi və prokurorluq orqanlarında çalışan bütün əməkdaşları Prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə Ali Məhkəmənin kollektivi adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, ən xoş arzularımı bildirirəm.*

*Bu bayramı ulu öndərimiz Heydər Əliyevin təsis etməsi prokurorluq orqanlarının fəaliyyətinə verdiyi yüksək qiymətin təcəssümüdür. Ümummilli liderimizin yolunu uğurla davam etdirən möhtərəm cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə hüquq sahəsində aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu gün Azərbaycan Prokurorluğu mütərəqqi normativ hüquqi bazası olan, demokratik məzmunlu prinsiplər və iş metodları əsasında fəaliyyət göstərən sivil dövlət təsisatına çevrilmişdir.*

*Milli dövlətçiliyə daim sədaqətlə xidmət edən, respublikada ictimai-siyasi sabitliyin, qanunçuluğun və hüquq qaydalarının təminatında mühüm rol oynayan Azərbaycan prokurorluğunun əməkdaşları öz vəzifələrini şərəflə yerinə yetirməkdədirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə Prokurorluğun bir qrup əməkdaşının yüksək dövlət təltiflərinə, ali xüsusi rütbələrə layiq görülməsi prokurorluq işçilərinin səmərəli fəaliyyətinə yüksək qiymətdir.*

*Dövlət həyatında əhəmiyyətli yer tutan prokurorluğun insan hüquq və azadlıqlarının təminində, demokratik inkişafa törədilən maneələrin aradan qaldırılmasında, ədalət mühakiməsinin beynəlxalq tələblərə cavab verən səviyyədə formalaşmasında, ictimai-siyasi həyatın bütün sahələrində dövlətin hüquqi bazasının möhkəm təməllər üzərində qurulmasında böyük rolu vardır.*

*Sizin rəhbərliyinizlə şəffaf və ədalətli kadr islahatları prokurorluğun uğurlarının əsasını təşkil edir.*

*Prokurorluq orqanlarında çalışan əməkdaşlar demokratik cəmiyyətdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli xidmətlər göstərirlər.*

*Prokurorluq orqanlarında cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da güzləndirilir, dövlətçiliyimizin möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının qorunması, sosial ədalətin bərpa olunması istiqamətində mühüm işlər görülür.*

*Əminik ki, prokurorluq orqanları öz fəaliyyətinin etimada layiq səviyyədə təşkili üçün bütün zəruri tədbirlərin görülməsini davam etdirəcək, xalqın mənafeyinin cinayətkar qəsdlərdən qorunmasında bundan sonra da yaxından iştirak edəcəklər.*

***Hörmətli Zakir müəllim!***

*Peşə bayramı günündə Sizi bir daha ürəkdən təbrik edir, şərəfli və məsuliyyətli vəzifələri yerinə yetirən prokurorluğun bütün kollektivinə möhkəm can sağlığı və işlərində uğurlar arzulayıram.*

***Hörmətlə,***

***Ramiz Rzayev,***
***Azərbaycan Respublikası***
***Ali Məhkəməsinin sədri***
*1 oktyabr 2017-ci il*

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Yarandığı gündən önəmli inkişaf yolu keçən prokurorluq orqanları Milli Lider Heydər Əliyevin rəhbərliyi ilə hüquq sahəsində dövlət siyasətini həyata keçirən, qanunçuluğun etibarlı müdafiəsini təmin edən mühüm dövlət strukturu olaraq formalaşmış, cəmiyyətdə böyük nüfuz qazanmışdır.*

*Prokurorluq sisteminin əməkdaşları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizin inkişafı, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət edən islahatların aparılması, insan və vətəndaş hüquqlarının etibarlı müdafiəsi sahəsində görülən əhəmiyyətli işlərə bu gün də layiqli töhfələr verirlər. Respublikada konstitusion dövlət quruluşunun möhkəmlənməsi, ağır və xüsusilə ağır cinayətlərin, onların transmilli mütəşəkkil növlərinin qarşısının alınması, açılması, istintaqı vəzifələrinin yerinə yetirilməsində prinsipiallığı, xalqa, Vətənə və dövlətə sədaqəti ilə seçilirlər.*

*Möhtərəm Prezident tərəfindən prokurorluq işçilərinin səmərəli fəaliyyətinin həmişə yüksək dəyərləndirilərək dövlət mükafatlarına və ali xüsusi rütbələrə layiq görülməsi Zati-alilərinin böyük etimadının, əvəzsiz diqqət və qayğısının əyani ifadəsidir.*

*Daim inkişafda olan əməkdaşlıq əlaqələrimiz milli maraqların, vətəndaşların qanuni mənafelərinin və ictimai asayişin etibarlı qorunmasına, cinayətkarlığa qarşı mübarizənin güclənməsinə, qanunçuluğun və hüquq qaydasının möhkəmlənməsinə xidmət etməkdədir.*

*Əlamətdar peşə bayramınız – prokurorluq orqanlarının yaranmasının 99-cu ildönümü münasibətilə Sizi və respublikanın bütün prokurorluq işçilərini ürəkdən təbrik edir, can sağlığı, ailə səadəti, məsul və şərəfli işinizdə yeni-yeni nailiyyətlər arzulayıram!*

**Dərin hörmətlə,**

**Ramil Usubov,**
**Azərbaycan Respublikasının**
**daxili işlər naziri, general-polkovnik**
*1 oktyabr 2017-ci il*

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim!***

*1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı münasibətilə Sizi və rəhbərlik etdiyiniz qurumun kollektivini səmimi qəlbdən təbrik edərək, intibah tarixinin yeni yüksəliş mərhələsini yaşayan ölkəmizdə qanunun aliliyinin, insan hüquq və azadlıqlarının etibarlı təminatı, cinayətkarlığın bütün təzahürlərinə qarşı mübarizənin daha da gücləndirilməsi naminə fəaliyyətinizdə uğurlar diləyirəm.*

*Müasir Azərbaycan dövlətçiliyinin qurucusu və memarı, ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə müstəqil və suveren respublikamızda həyata keçirilən genişmiqyaslı məhkəmə-hüquq islahatları nəticəsində struktur və mahiyyət etibarilə yenidən formalaşdırılan ölkə prokurorluğu milli dövlətçilik tariximizdə ilk dəfə olaraq konstitusion statusa və qanunvericilik təşəbbüsünə malik mütərəqqi ruhlu və demokratik məzmunlu dövlət təsisatına çevrilmiş oldu. Müstəqilliyimizin möhkəmləndirilməsində və qanunçuluğun təminatlı müdafiəsində prokurorluq orqanlarının önəmli rolunu hər zaman layiqincə dəyərləndirən dahi rəhbərin təşəbbüsü ilə qəbul edilən "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunu və digər qanunvericilik aktları çərçivəsində reallaşdırılan kompleks tədbirlər hazırda ictimai-siyasi həyatımızın bütün sahələri üzrə yeniləşən doğma Vətənin beynəlxalq hüquq məkanına inteqrasiyasını əhəmiyyətli dərəcədə sürətləndirmişdir.*

*Əbədiyaşar liderin ümummilli mənafelərimizə və yüksək bəşəri dəyərlərə söykənən mükəmməl hüquq mühafizə siyasətini keyfiyyətcə yeni müstəvidə inamla davam etdirən ölkə Prezidenti möhtərəm İlham Əliyev cənablarının ali diqqət və qayğısı sayəsində artıq ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunan maddi-texniki və təkmil normativ hüquqi bazaya, həmçinin demokratik meyarlar və şəffaf prosedurlara əsaslanaraq müsabiqə yolu ilə formalaşdırılan yeni nəsil kadr korpusuna malik prokurorluq orqanları bu gün öz işini zamanın ictimai-siyasi və sosial-iqtisadi reallıqlarına uyğun qurmaqla dövlət başçısının qeyd etdiyi kimi, cəmiyyətin və dövlətin maraqlarının qorunmasında, qanunçuluğun təmin edilməsində və bütövlükdə milli hüquq sisteminin inkişafında mühüm rol oynamaqdadır.*

*Peşə bayramınız münasibətilə Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti adından bir daha səmimi təbriklərimi çatdıraraq Sizə möhkəm cansağlığı və uzun ömür diləyir, dövlət başçısı tərəfindən müəyyənləşdirilmiş müasir məzmunlu hüquq siyasətinin həyata keçirilməsində Azərbaycan Prokurorluğuna yeni-yeni nailiyyətlər arzulayıram.*

***Hörmətlə,***

***Kəmaləddin Heydərov,***
***Azərbaycan Respublikasının***
***fövqəladə hallar naziri, general-polkovnik***
*1 oktyabr 2017-ci il*

**_Azərbaycan Respublikasının Baş prokuroru_**
**_I dərəcəli dövlət ədliyyə müşaviri_**
**_cənab Zakir Qaralova_**

**_Hörmətli Zakir müəllim!_**

*Sizi və prokurorluq orqanları əməkdaşlarını Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı münasibəti ilə İqtisadiyyat Nazirliyinin kollektivi və öz adımdan təbrik edirəm.*

*Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan bütün sahələrdə olduğu kimi, hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu sahəsində də böyük nailiyyətlərə imza atır. Dünyada öz layiqli yerini tutan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz hərtərəfli inkişaf edir və gələcək tərəqqi üçün möhkəm zəmin yaradılır.*

*Heç şübhəsiz ki, bu uğurların əldə olunmasında Azərbaycan dövlətçiliyinin və qanunçuluğunun sadiq keşikçisi olan prokurorluq orqanlarının rolu böyükdür.*

*Azərbaycan Prokurorluğu ölkəmizdə ictimai-siyasi sabitliyin, dövlətin və cəmiyyətin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, bütövlükdə hüquq sisteminin inkişafında xüsusi rol oynayır.*

*Bu gün Azərbaycan Prokurorluğu təkmil və mütərəqqi hüquqi bazası olan, beynəlxalq standartlar, demokratik prinsiplər və iş metodları əsasında fəaliyyət göstərən, qanunçuluğa, hər kəsin qanun qarşısında hüquq bərabərliyinə, insan və vətəndaş hüquqlarının təmin olunmasına əsaslanan, cəmiyyətdə özünəməxsus yer tutan mühüm dövlət təsisatıdır.*

*Rəhbərliyinizlə prokurorluq orqanları vətəndaşların azad və təhlükəsiz yaşamaq kimi fundamental hüquqlarının reallaşdırılması sahəsində mühüm tədbirlər həyata keçirir, dövlətçiliyimizin qorunması və daha da möhkəmlənməsində nümunəvi xidmət göstərirlər. Dövlətçiliyə sadiq, sağlam mənəviyyata, geniş dünyagörüşünə malik prokurorluq əməkdaşları güclü Azərbaycan naminə şərəfli missiyanı böyük əzmlə davam etdirir, ölkəmizin inkişafına öz töhfələrini verirlər.*

*Ölkə rəhbərliyi tərəfindən Azərbaycanın prokurorluq sisteminə böyük diqqət və qayğı göstərilir, prokurorluq orqanları əməkdaşlarının əməyi daim yüksək qiymətləndirilir. Hər il oktyabrın 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi, onların sosial müdafiəsinin daha da gücləndirilməsi tədbirləri prokurorluq orqanlarının Vətənimiz qarşısında xidmətlərinə və keçdiyi tarixi yola verilən yüksək qiymətin nümunəsidir.*

*Sizi və prokurorluq əməkdaşlarını bu əlamətdar gün münasibəti ilə bir daha təbrik edir, mühüm fəaliyyətinizdə böyük uğurlar arzulayıram.*

**_Hörmətlə,_**

**_Şahin Mustafayev,_**
**_Azərbaycan Respublikasının_**
**_iqtisadiyyat naziri_**
*1 oktyabr 2017-ci il*

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim!***

*Müdafiə Sənayesi Nazirliyinin kollektivi Sizi və rəhbərlik etdiyiniz qurumun əməkdaşlarını Prokurorluq orqanları əməkdaşlarının peşə bayramı günü münasibətilə səmimi qəlbdən təbrik edir, belə bir xoş gündə Sizlərə uzun ömür, möhkəm cansağlığı və respublikamızda təhlükəsizliyin, ədalətin qorunub saxlanması naminə həyata keçirdiyiniz işlərdə uğurlar arzulayır.*

*Çoxillik tarixə malik olan Azərbaycan Respublikasının prokurorluq orqanları ötən illər ərzində böyük sınaqlardan çıxmışdır. Təhlükəsizliyin, ədalətin keşiyində duran prokurorluq orqanlarını bu sınaqlar daha da qüvvətləndirmişdir.*

*İkinci dəfə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra respublikamız yeni dövrə qədəm qoymuşdur. Lakin müstəqilliyin ilk illərində ölkəni bürümüş daxili didişmələr, anarxiya və xaos dövlət quruculuğuna böyük zərbə vurmuşdur.*

*Xalqın israrlı tələbi ilə Ulu öndər Heydər Əliyevin hakimiyyətə xilasedici qayıdışından sonra Azərbaycandakı özbaşınalığa, siyasi hakimiyyətsizliyə birdəfəlik son qoyuldu, ölkədə sabitlik təmin edildi, qanunsuz silahlı birləşmələr tərksilah edildi, atəşkəsə nail olundu, güclü dövlətin möhkəm özülü qoyuldu.*

*Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra prokurorluq orqanlarının da fəaliyyətində yeni bir dövr başladı. Bu dövrdə müstəqil dövlətçiliyimizin əleyhinə olan cinayətlər, görkəmli ictimai və dövlət xadimlərinə qarşı törədilən terror aktları, dövlət əmlakının mənimsənilməsi, bank-maliyyə sistemində baş vermiş ağır cinayət hadisələri, o cümlədən sadə vətəndaşların əmanətlərinin talan edilməsi kimi ağır cinayət hadisələri məhz prokurorluq orqanlarının əməkdaşları tərəfindən peşəkarcasına araşdırıldı, təqsirkar şəxslər layiqli cəzalarını aldılar.*

*Hər zaman təhlükəsizliyin və ədalətin təminatçısı olan prokurorluq orqanları son illər Respublika Prezidenti İlham Əliyevin rəhbərliyi altında qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunması, cinayətkarlıqla mübarizə, qanunçuluğun və hüquq qaydasının qorunması istiqamətində daha da təkmilləşərək müstəqil dövlətimizin özülünün sarsılmazlığına xidmət edən müvafiq orqana çevrildi.*

***Hörmətli Zakir müəllim!***

*Bu əlamətdar gün münasibəti ilə Müdafiə Sənayesi Nazirliyinin kollektivinin səmimi təbriklərini bir daha Sizlərə çatdırır, üzərinizə götürdüyünüz şərəfli və məsuliyyətli işlərin bundan sonra da yerinə yetirilməsi naminə Ulu Tanrıdan öz şəfqət və mərhəmətini Sizlərdən əsirgəməməsini diləyirəm.*

***Hörmətlə,***

***Yavər Camalov,***
***Azərbaycan Respublikasının***
***müdafiə sənayesi naziri***
*1 oktyabr 2017-ci il*

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Sizi və rəhbərlik etdiyiniz prokurorluq orqanlarının əməkdaşlarını peşə bayramınız münasibətilə ürəkdən təbrik edir, ən xoş və səmimi arzularımı çatdırıram!*

*Müasir Azərbaycan Respublikasının banisi və qurucusu Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan dövlətçilik siyasət kursunun əsas məqsədlərindən biri xalqın iradəsinin ifadəsi kimi konstitusiya müddəalarının təmin olunmasıdır. Möhtərəm Prezidentimiz Zati-aliləri cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə bu xəttin müasir dövrün tələblərinə uyğun olaraq uğurla inkişaf etdirilməsində prokurorluq orqanlarının xüsusi rolu vardır.*

*Fəxrlə qeyd edilməlidir ki, Azərbaycan Respublikasının demokratik və hüquqi dövlət kimi tərəqqisi üçün vacib şərt olan etibarlı sabitliyin və qanunçuluğun bərqərar olunmasına da öz layiqli töhfələrini verən prokurorluq orqanlarının fəaliyyəti cəmiyyətimiz tərəfindən təqdir olunur.*

*Əminəm ki, ölkəmizdə qanunçuluğun və əmin-amanlığın təmin olunması, milli maraqların və dövlət mənafeyinin cinayətkar qəsdlərdən qorunması naminə Vətənə və dövlətə sədaqətlə xidmət edən təhlükəsizlik və prokurorluq orqanlarının işgüzar əməkdaşlığı bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.*

**Hörmətli Zakir müəllim!**

*Sizi və rəhbərlik etdiyiniz kollektivin əməkdaşlarını peşə bayramınız münasibətilə bir daha təbrik edir, hamınıza möhkəm cansağlığı, mühüm və gərəkli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram!*

**Hörmətlə,**

**Mədət Quliyev,**
**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi**
**Xidmətinin rəisi, general-leytenant**
*30 sentyabr 2017-ci il*

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim!***

*Sizi və tabeliyinizdə olan bütün şəxsi heyəti Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü münasibətilə səmimi qəlbdən təbrik edirəm!*

*Dahi Öndər, Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə hüquqi dövlətin qurulması və inkişafı, hüquq siyasətinin aparılması, milli hüquq sisteminin formalaşdırılması sahəsində xüsusi xidmətləri olan Prokurorluq orqanları ölkədə cinayətkarlığa qarşı mübarizə sahəsində ciddi nailiyyətlər əldə etmiş, Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında əhəmiyyətli rol oynamışdır.*

*Rəhbərliyiniz altında prokurorluq orqanları hüquqi dövlət quruculuğunun uğurla həyata keçirilməsi, ölkədə sabitliyin bərqərar olunması, vətəndaşların hüquq və azadlıqlarının qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qaçaqmalçılığa, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin aparılması, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, ixtisaslı kadr potensialının yaradılması sahələrində mühüm nailiyyətlər əldə etmişdir.*

*Dövlətçiliyimizin möhkəmlənməsi, cinayətkarlığın qarşısının alınması istiqamətində Dövlət Sərhəd Xidməti ilə Prokurorluq orqanlarının birgə fəaliyyəti istiqamətində aparılmış məqsədyönlü tədbirlər bu gün dövlət sərhədlərinin etibarlı mühafizəsi işinin təşkilinə öz töhfəsini verməkdədir.*

*Çətin və şərəfli xidmət yolu keçən prokurorluq işçilərinin fəaliyyətlərinin daim yüksək qiymətləndirilməsi, dövlətçiliyimizin inkişafına önəmli töhfələr verdiklərinə və səmərəli xidmətlərinə görə dəfələrlə yüksək dövlət təltiflərinə layiq görülmələri onlara göstərilən dövlət qayğısının təzahürüdür.*

***Hörmətli Zakir müəllim,***

*Bu əlamətdar gün münasibətilə bir daha Sizi və prokurorluq orqanlarının bütün əməkdaşlarını təbrik edir, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında doğma Azərbaycanımızın inkişafı naminə fəaliyyətinizdə uğurlar diləyir, şəxsi həyatınızda sevinc dolu anlar arzu edirəm!*

***Dərin hörmətlə,***

***Elçin Quliyev,***
***Azərbaycan Respublikası Dövlət***
***Sərhəd Xidmətinin rəisi, general-polkovnik***
*1 oktyabr 2017-ci il*

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim!***

*1 Oktyabr – Prokurorluq işçilərinin Peşə Bayramı günü münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi səmimi qaibdən təbrik edir, ən xoş arzularımı bildirir və məsul fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar diləyirəm.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli sərəncamına müvafiq olaraq, belə bir bayramın təsis edilməsi milli dövlətçilik dəyərlərinə və tarixi keçmişə hörmətin, prokurorluğun cəmiyyətimizdə tutduğu yerə münasibətin təzahürüdür.*

*Azərbaycan Prokurorluğunun sivil və demokratik məzmunda yenidən formalaşması, müstəqil dövlətçiliyin maraqlarına xidmət edən dövlət təsisatı kimi təkmilləşməsi Ümummilli lider Heydər Əliyevin dövlətçilik siyasəti və xüsusi qayğısı nəticəsində mümkün olmuşdur. Xalq Cümhuriyyəti dövründə müstəqil dövlət orqanı kimi hərtərəfli formalaşmağa imkanı olmayan, Sovetlər İttifaqı zamanında hakim partiyanın siyasətinə xidmət edən qurum kimi fəaliyyət göstərən, keçən əsrin 90-cı illərinin əvvəllərindəki anarxiya və xaos dövründə işini qanun çərçivəsində qura bilməyən və mütəşəkkil cinayətkar təzahürlərin, vətəndaşların hüquqlarının kütləvi şəkildə pozulması hallarının qarşısını almaqda aciz olan Azərbaycan Prokurorluğu yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra cəmiyyətdə öz layiqli yerini tutmağa nail olmuş, dövlətçiliyimizin sütunlarından hesab edilən mühüm təsisata çevrilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti dövründə Azərbaycan Prokurorluğu öz inkişafının məzmunca və keyfiyyətcə tamamilə yeni mərhələsinə qədəm qoymuş, hərtərəfli dövlət qayğısı ilə əhatə olunaraq Sizin rəhbərliyinizlə bu orqanın işinin müasirləşdirilməsi istiqamətində çox mühüm addımlar atılmışdır. Bu gün Azərbaycan Prokurorluğu yeni tələblərə uyğun təkmilləşdirilmiş mütərəqqi normativ-hüquqi bazası olan, müasir iş prinsipləri və metodları əsasında fəaliyyət göstərən sivil dövlət təsisatına çevrilmişdir.*

***Hörmətli Zakir müəllim,***

*Bir daha Sizi və rəhbərlik etdiyiniz kollektivi bu əlamətdar gün münasibətilə təbrik edir, xidməti fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar diləyir, uzun ömür və möhkəm cansağlığı, qarşıya qoyduğunuz məqsədlərə çatacağınıza inam və tükənməz enerji arzulayıram.*

***Hörmətlə,***

***Firudin Nəbiyev,***
***Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi,***
***II dərəcəli dövlət miqrasiya xidməti müşaviri***
*1 oktyabr 2017-ci il*

**Генеральному прокурору Азербайджанской Республики**
**Гаралову Закир Бекир оглы**

**Уважаемый господин Гаралов!**

*От всей души поздравляю Вас и возглавляемый Вами коллектив с профессиональным праздником – Днём работников прокуратуры Азербайджанской Республики!*

*Ежедневный труд сотрудников прокуратуры, основанный на высоком профессионализме, ответственности, честности, принципиальности и преданности своему делу, обеспечивает стабильность и надежную защиту интересов общества и государства.*

*Примите самые искренние пожелания благополучия, мира, стабильности, успехов, неиссякаемой энергии и новых профессиональных достижений!*

*Пользуясь случаем, позвольте выразить уверенность в дальнейшем плодотворном сотрудничестве органов прокуратуры Украины и Азербайджанской Республики на благо наших народов и государств.*

***С уважением,***

**Юрий Луценко,**
**Генеральный прокурор Украины**
*02.10.2017*

**Генеральному прокурору Азербайджанской Республики**
**Гаралову Закир Бекир оглы**

**Уважаемый Закир Бекир оглы!**

*От имени Генеральной прокуратуры Республики Молдова, и от себя лично, позвольте поздравить Вас и всех сотрудников органов прокуратуры с профессиональным праздником – Днем работника прокуратуры Республики Азербайджан.*

*В этот праздничный день, примите наши искренние пожелания успехов в достижении основной профессиональной цели - защиты конституционных прав и свобод граждан, интересов общества и государства.*

*Искренне желаю крепкого здоровья, счастья, благополучия, добра и творческих идей, дальнейших успехов на ниве служения верховенству закона.*

*Уверен, что сотрудничество между нашими ведомствами будет в дальнейшем развиваться в конструктивном и деловом русле.*

***С искренним уважением,***

**Эдуард Харунжен,**
**Генеральный прокурор Республики Молдова**
*29.09.2017*

**Генеральному прокурору Азербайджанской Республики**
**Гаралову Закир Бекир оглы**

**Уважаемый Закир Бекир оглы!**

*От имени Генеральной прокуратуры Кыргызской Республики и от себя лично поздравляю Вас и в Вашем лице всех работников и ветеранов органов прокуратуры с профессиональным праздником – Днем работника прокуратуры Азербайджанской Республики.*

*Позвольте пожелать Вам и всему коллективу крепкого здоровья, стабильности и благополучия, плодотворной работы в деятельности по обеспечению законности и правопорядка.*

*Пользуясь случаем, выражаю надежду на дальнейшее продолжение профессионального партнерства и сотрудничества между генеральными прокуратурами наших дружественных государств, на основе обоюдного доверия и взаимного понимания общих целей и задач в укреплении верховенства закона и борьбы с преступностью.*

***С уважением,***

**Индира Джолдубаева,**
**Генеральный прокурор Кыргызской Республики**
*01.10.2017*

# Prokurorluq orqanlarında peşə biliyinin qiymətləndirilməsi perspektivləri barədə

*8 dekabr 2017-ci il tarixdə "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 17 noyabr 2017-ci il tarixli Qanunu rəsmi dərc edilərək qüvvəyə minib. Qanunla "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununa 14.6-cı maddə əlavə edilib. Əlavədəki normanın məzmunu belədir: "Prokurorluq işçilərinin işlədiyi müddətdə nəzəri biliklərinin və peşə hazırlığının vaxtaşırı qiymətləndirilməsi yalnız bu Qanunun 14.1-ci maddəsində müəyyən edilmiş hallarda həyata keçirilir. Bu məqsədlə hər hansı digər vaxtaşırı qiymətləndirmə üsulları (imtahan və sair) tətbiq edilə bilməz.". Bu dəyişiklik prokurorluqda peşə hazırlığı sahəsində yeni perspektivlər açıb, nəzəri biliklər də daxil olmaqla peşə hazırlığı məsələlərinin daha iki yeni çərçivədə – "attestasiya" və "xidməti fəaliyyətin qiymətləndirilməsi" çərçivələrində də həllini nəzərdə tutub. Məqalədə prokurorluqda peşə hazırlığı sisteminin strukturu, funksional elementləri barədə qısa bilgi verilməklə nəzəri biliklərin və peşə hazırlığının vaxtaşırı qiymətləndirilməsinin mövcud və perspektiv formaları qüvvədə olan normativlər və təcrübə baxımından təhlil edilir.*

### Prokurorluqda peşə hazırlığının rasional və normativ əsasları

Prokurorluq işçisinin ali hüquq təhsili ilə yanaşı müvafiq vəzifələrin yerinə yetirilməsi üçün zəruri peşə keyfiyyətlərinə malik olmalıdır. Bu tələblərə cavab verməyənlər prokurorluqda "prokuror", "prokurorluğun müstəntiqi" və "prokurorluğun əməliyyatçısı" vəzifələrinə təyin edilmirlər .

Namizədin ali hüquq təhsilli olması asan müəyyən edilir, bunun üçün müvafiq formalı diplomun təqdim edilməsi kifayətdir. Seçki hüququ da Azərbaycan Respublikasının vətəndaşlığını təsdiqləyən sənədlə – şəxsiyyət vəsiqəsi ilə təsdiq edilir. Onun prokuror, müstəntiq və ya əməliyyatçı vəzifələrinin yerinə yetirilməsi üçün zəruri peşə keyfiyyətlərinə malik olması, Azərbaycan dilini bilməsi isə işə qəbul müsabiqəsi zamanı müəyyən edilir. Burada "zəruri peşə keyfiyyətləri" minimal səviyyəni müəyyən edir, yəni bunlarsız prokurorluqda işləməkdən ümumiyyətlə söhbət gedə bilməz. "Peşə keyfiyyətləri"nin yuxarı, maksimum həddi isə yoxdur, necə deyərlər, bu "limitsiz" dəyərdir. İşə qəbul edilən andan prokurorluq işçisi daimi öz peşəkarlığının artırılması və "maksimum" göstəricilərə yaxınlaşması üçün çalışır. Bu, peşənin xarakterindən irəli gəlir.

Qanunvericiliyin, məhkəmə-istintaq təcrübəsinin, nəzəri və metodoloji biliklərin dinamikliyi bir tərəfdən, peşə fəaliyyəti zamanı ən müxtəlif, bir-birindən fərqli konkret həyat situasiyalarını dərk etmək, araşdırmaq vəzifəsi prokurorluq işçilərindən yüksək intellektual potensiala sahib olmağı və, ən əsası da onu bu səviyyədə saxlamağı tələb edir. Bunu təmin edən institusional mexanizmlər mövcuddur, yəni bu, təkcə gerçəyi zərurətdən irəli gələn fikir, ideya deyil, həm də təyinatı həmin səviyyəni saxlamaq üçün gərəki addımları və prosesə cəlb olunan subyektlərin konkret vəzifələrini nəzərdə tutan funksional sistemdir. "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 13.1-ci maddəsində (Maddə 13. Prokurorluq işçilərinin peşə hazırlığının artırılması və əlavə təhsili) belə bir norma vardır: "13.2. Prokurorluq işçisinin öz ixtisasını artırması onun qulluq borcu, işçilərin nəzəri biliklərinin və peşə hazırlığının artırılması üçün tədbirlər görülməsi rəhbər prokuror işçilərinin qulluq vəzifəsidir.". Göründüyü kimi, normativ mexanizm bir tərəfdən "prokurorluq işçisi"nin, digər tərəfdən bir qurum kimi "prokurorluğun" bu sahədə qarşılıqlı vəzifələrini müəyyən edib. Bu sahədə prokurorluğa aid olan vəzifənin yerinə yetirilməsi Baş Prokurorluğun üzərinə qoyulub. "Prokurorluq haqqında" Qanunun 9-cu maddəsində göstərilib ki, Baş Prokurorluq həm də "prokurorluğun kadrlarının seçilib yerləşdirilməsi və peşə hazırlığının yüksəldilməsi işini təşkil edir".

Bəs prokurorluq bu vəzifənin icrası üçün hansı addımlar atıb? İlk növbədə peşə hazırlığının daxili normativ hüquqi bazasının təməli qoyulub. Prokurorluqda həyata keçirilən islahatların ilkin mərhələsində, daha dəqiq desək, 28.12.2001-ci il tarixdə Azərbaycan Respublikası Baş Prokurorluğu üzrə 08/174 nömrəli "Prokurorluq işçilərinin nəzəri və peşə hazırlığı ilə əlaqədar işin təkmilləşdirilməsi haqqında" əmr imzalanıb, sonradan bu əmrə 04.09.2008-ci il tarixli 10/40 №-li, 11.02.2010-cu il tarixli 10/14 №-li, 03.09.2015-ci il tarixli 10/79 №-li və 14.04.2016-cı il tarixli 10/19 №-li əmrlərlə dəyişiklik

edilib. Hazırda əmrin adı "Prokurorluq işçilərinin ixtisaslarının artırılması, attestasiya olunması işinin təkmilləşdirilməsi haqqında" adlanır. Əmrin 1-ci bəndində yazılıb ki, *"Baş Prokurorluğun idarə və şöbə rəislərindən, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisindən, Azərbaycan Respublikası Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi, Bakı şəhəri, tabe rayon (şəhər) və ərazi hərbi prokurorlarından işçilərin nəzəri və peşə hazırlığının yüksəldilməsi üçün zəruri tədbirlər görülməsi tələb edilsin.";* 2.5-ci bəndində vurğulanıb ki, *"nəzəri və peşə hazırlığı aşağı səviyyədə olan prokurorluq işçilərinin Baş Prokurorluğun Elm-Tədris Mərkəzində ixtisasartırma kurslarına cəlb edilməsi barədə attestasiya komissiyaları, müvafiq tabe struktur qurumların rəhbərləri tərəfindən Azərbaycan Respublikasının Baş prokuroru qarşısında vəsatət qaldırılması təmin olunsun".* Bu əmrə əsasən, rüblük planlara uyğun olaraq hər bir prokurorluq qurumunda hər həftənin bir günü tədris günü hesab edilir və bu günlərdə keçirilən tədris məşğələlərində qanunvericilik aktlarının, qanun normalarının tətbiqi təcrübəsinin və metodikasının, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun, Konstitusiya Məhkəməsinin və Ali Məhkəmənin Plenum qərarlarının, Baş Prokurorluq (və müvafiq yuxarı prokurorluq) üzrə normativ aktların, metodiki tövsiyələrin, elmi-praktiki şərhlərin, hüquq ədəbiyyatının, müsbət iş təcrübəsinə dair icmal və informasiya məktublarının, prokurorluqda tətbiq olunan informasiya sistemlərinin proqram təminatı ilə çalışma qaydalarının öyrənilməsi təmin edilir, görülmüş işlər barədə Baş Prokurorluğun Kadrlar idarəsinə rüblük hesabatlar göndərilir.

Demokratikliyi, funksionallığı və əhatəliliyi ilə seçilən bu mexanizm günə kimi işləyir və səmərəli nəticələr verir.

### Peşə hazırlığının institusional elementləri: Elm-Tədris Mərkəzi

Normativ baza formalaşandan sonra institusional tədbirlər həyata keçirilməyə başlayıb. Qeyd edilməlidir ki, prokurorluqda peşə hazırlığı vəzifəsinin yerinə yetirilməsi üçün müvafiq resursların cəlb edilməsinin və institusional tədbirlərin görülməsinin təməli qanun norması ilə qoyulub. Belə ki, "Prokurorluq haqqında" Qanunun 8-ci maddəsində (Maddə 8. Prokurorluğun sistemi və təşkili) prokurorluğun sisteminə "tədris-elm müəssisələri"nin daxil olduğu müəyyən edilib. Qanunun 40-cı maddəsində (Maddə 40. Prokurorluğun elmi, tədris müəssisələri və mətbuatı) yazılıb ki, *"Prokurorluq işçilərinin peşə ixtisaslarının artırılması üçün prokurorluqda tədris müəssisəsi yaradıla bilər.".* "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 13.1-ci maddəsində (Maddə 13. Prokurorluq işçilərinin peşə hazırlığının artırılması və əlavə təhsili) qeyd edilib ki, *"Prokurorluq orqanlarını ixtisaslı kadrlarla təmin etmək, işçilərin nəzəri və peşə hazırlığını artırmaq məqsədilə ixtisasartırma kurslarından, məşğələlərdən, seminarlardan, konfranslardan, xarici dövlətlərin və beynəlxalq təşkilatların müvafiq təhsil sistemindən və digər tədbirlərdən istifadə olunur. Peşə hazırlığının təşkili prokurorluğun tədris planları və proqramlarına uyğun aparılır.".* Oxşar norma "Dövlət qulluğu haqqında" Qanunda mövcuddur. Qanunun 22-1.5-ci maddəsində göstərilib ki, *"Dövlət qulluqçusunun əlavə təhsili ixtisasartırma və yenidənhazırlanma qurumlarında, peşə-ixtisas təhsili müəssisələrində yaradılmış müvafiq strukturlarda, stajkeçmə və peşə hazırlığı kurslarında və bu sahə üzrə fəaliyyətinə xüsusi razılıq verilmiş digər müəssisələrdə qanunvericiliklə müəyyən olunmuş istiqamətlərdə həyata keçirilir.".* Sonuncu Qanunun 22-1.9-cu maddəsində dəqiqləşdirilib ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının və Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) aparatlarında, habelə 2-ci-5-ci kateqoriya dövlət orqanlarında ali hüquq təhsili tələb edən vəzifələrdə qulluq keçən dövlət qulluqçuları mütəmadi olaraq müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində peşə hazırlığına və ixtisasının artırılmasına cəlb edilirlər.

Sadalanan qanun normaları ilə təsbit edilmiş vəzifələrin yerinə yetirilməsi üçün prokurorluqda müvafiq praktiki addımlar atılıb. Burada qeyd edilməlidir ki, prokurorluqda peşə hazırlığı praktikasının möhkəm tarixi ənənələri mövcuddur. Müstəqilliyin ilk illərində peşə hazırlığı ilə müxtəlif qurumlar – ilkin olaraq Azərbaycan Respublikası Prokurorluğun Tədris Mərkəzi (1991-1993-cü illər), sonra Kadrlar İdarəsinin Tədris Mərkəzi (1993-1998-ci illər), daha sonra Azərbaycan Respublikası Prokurorluğunun Elm və tədris idarəsi (1998-2000-ci illər), nəhayət Azərbaycan Respublikası Baş Prokurorluğu Kadrlar İdarəsinin Tədris Mərkəzi (2000-2009-cu illər)

məşğul olub. Lakin prokurorluq orqanları qarşısında qoyulan yeni vəzifələr daha yüksək intellektual və peşəkarlıq potensialına malik prokurorluq kadrları tələb edirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 3065 nömrəli Sərəncam ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın 1.8-ci bəndində Baş Prokurorluğun struktur qurumu kimi Elm-Tədris Mərkəzinin yaradılması *"Prokurorluq orqanlarının fəaliyyətinin elmi-nəzəri təminatının gücləndirilməsi, hüquq elminin inkişafı və Avropa hüquq təcrübəsinin tətbiqi ilə əlaqədar prokurorluq işçilərinin nəzəri biliklərinin, peşə hazırlığının artırılması"* məqsədi ilə izah edilir. "Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturu"na Elm-Tədris Mərkəzinin yaradılmasına dair 15-ci bənd əlavə ediləndən sonra Azərbaycan Respublikası Baş prokuroru tərəfindən 30.12.2009-cu il tarixdə Mərkəzin Əsasnaməsi təsdiq olundu. Təxminən bir ay sonra Azərbaycan Respublikası Prezidentinin 26 yanvar 2010-cu il tarixli 706 nömrəli Sərəncamı ilə Mərkəzin idarə səlahiyyətli olması təsbit edildi.

Mərkəzin qarşısında qoyulan çoxsaylı vəzifələrin biri də "prokurorluq işçilərinin nəzəri biliklərinin, peşə hazırlığının artırılması" vəzifəsidir. Əsasnamənin 3.3-cü bəndində göstərilir ki, Mərkəz *"prokurorluq əməkdaşları üçün mühazirə, seminar, təcrübi və səyyar məşğələ, konfrans və s. formalardan istifadə etməklə, prokurorluq orqanlarının gənc mütəxəssislərinin hazırlıq proqramlarını həyata keçirir, prokurorluq əməkdaşları üçün ixtisasartırma və əlavə peşə hazırlığı kursları təşkil edir", "razılaşdırılmış proqramlar üzrə hüquq mühafizə və digər dövlət orqanlarının əməkdaşları üçün müvafiq ixtisasartırma kursları təşkil edir";* 5.13-cü bəndində bildirilir ki, *"Mərkəz tədris prosesini ixtisasartırma, prokurorluq orqanlarının gənc mütəxəssislərinin hazırlıq proqramları və əlavə peşə hazırlığı formalarında həyata keçirir".*

Nəzərə alınmalıdır ki, Mərkəz bu işi təkbaşına deyil, prokurorluğun digər orqanları ilə əlaqəli olaraq sistemli şəkildə həyata keçirir. Bunun əsasını normativ qaydalar təşkil edir. Mərkəz bu sistemin yalnız bir, lakin əhəmiyyətli elementidir. Məsələn, Baş Prokurorluq üzrə 28.07.2010-cu il tarixli, 10/70 nömrəli "Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin səmərəliliyinin artırılması, istintaq və təhqiqat üzərində nəzarətinin gücləndirilməsi və bu sahədə işin daha da təkmilləşdirilməsi haqqında" əmrin 27-ci bəndində müəyyən edilib ki, *"İstintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə nəzarəti həyata keçirən prokurorluq işçilərinin ixtisasının artırılması məqsədilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzində müntəzəm olaraq ixtisasartırma kurslarının təşkil edilməsi, məşğələlərin keçirilməsinə daha hazırlıqlı və ixtisaslı işçilər, o cümlədən prokurorluğun əmək veteranları və hüquqşünas alimlər cəlb olunsunlar. Tədris prosesində qabaqcıl təcrübənin dərindən öyrənilməsi və elmi tövsiyələrə əsaslanan müasir nəzəri-təcrübi metodların tətbiqi təmin edilsin.".*

18.11.2010-cu il tarixli,10/103-11/13-s nömrəli "Azərbaycan Respublikasi Prokurorluğu orqanlarında kriminalistika xidmətinin fəaliyyətinin daha da təkmilləşdirilməsi və bu sahədə bəzi struktur dəyişiklikləri aparılması haqqında" əmrin 6.2-ci bəndində müvafiq qurumların rəhbərlərindən *"müstəntiqlərin Elm-Tədris Mərkəzi ilə birgə tərtib edilmiş tədris-tematik planlar əsasında təşkil olunan ixtisasartırma kurslarına cəlb edilməsi"* tələb edilib.

Tədris kurslarına işçilər attestasiya komissiyalarının tövsiyələrinə əsasən də göndərilirlər. 05.09.2001-ci il tarixli 08/124 №-li əmri ilə təsdiq edilmiş (08.09.2004-cö il tarixli 08/58 №-li, 07.04.2006-cı il tarixli 09/26 №-li əmrlərlə edilmiş əlavə və dəyişikliklərlə) "Prokurorluq orqanları işçilərinin attestasiyasının keçirilməsi Qaydaları"nın 4.12.7-ci bəndində attestasiya komissiyaları işçilərin "ixtisasartırma kurslarına cəlb edilməsi" barədə tövsiyə verə bilər.

İxtisasartırma kursları test imtahanlarında uğursuz nəticələr nümayiş etdirmiş işçilər üçün də təşkil edilir. 07.10.2010-cu il tarixli, 10/90 nömrəli, "Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması Qaydaları"nın 4.4-cü bəndində qeyd edilib ki, "Yoxlamada müvəffəqiyyət qazanmamış prokurorluq işçiləri Elm-Tədris Mərkəzində təşkil olunan ixtisasartırma kurslarına cəlb edilir".

## Prokurorluq işçilərinin nəzəri biliklərinin və peşə hazırlığının vaxtaşırı qiymətləndirilməsi və onun formaları

İlk öncə "nəzəri biliklərinin və peşə hazırlığı" ifadəsinin mahiyyəti barədə. Bunlar, əslində "peşə biliyi" anlayışı ilə əhatə edilir.

Ümumiyyətlə, "peşəkar olmaq" şəxsin hər hansı bir fəaliyyəti mövcud keyfiyyət standartlarına uyğun yerinə yetirməsini təmin edən bilik, bacarıq və vərdişlər sistemidir. "Peşəkarlığı" təmin edə biləcək sistem 3 komponentdən – *"bilik", "bacarıq"* və *"vərdiş"*dən ibarətdir. "Bilik" komponenti ilə məsələ aydındır, o, mübahisəsiz olaraq "peşə biliyi" ilə əhatə edilir. Bəs "bacarıq" və "vərdiş" necə, onlar da bu anlayışla əhatə edilə bilərmi? “Bacarıq” – biliklərin müəyyən məcmusu ilə təmin olunmuş və insan tərəfindən mənimsənilmiş hərəkətin edilməsi üsuludur və biliklərin təcrübədə şüurlu surətdə tətbiq etmək bacarığında ifadə olunur. “Vərdiş” – insanın şüurlu hərəkəti nəticəsində yaranan avtomatlaşdırılmış komponentidir, əvvəlcə avtomatlaşdırılmış hərəkət, sonra isə onun avtomatlaşdırılmış üsulu kimi əmələ gəlir. Bu və ya digər hərəkətin vərdiş olması o deməkdir ki, fərd çalışma nəticəsində bu əməliyyatı özünün şüurlu hədəfi etmədən yerinə yetirmək imkanı əldə etmişdir. Göründüyü kimi, bunlar da, yəni "bacarıq" və "vərdiş" də bilikdir, sadəcə olaraq biliyin "praktiki", "metodoloji" növüdür. Beləliklə, nəzəri və praktiki komponentlərdən olan biliklərin məcmusu prokurorluq işçisi peşəsi üçün zəruri olan bilgilərdən ibarətdir. Bunu "peşə biliyi" də adlandırmaq olar.

Prokurorluqda peşə hazırlığı sisteminin funksional elementlərindən biri görülən işin nəticələrinin qiymətləndirilməsi, yəni "imtahan"dır. Peşə hazırlığının nəticələri işçinin peşə biliyi əldə etməsində ifadə olunur. İşçinin peşə biliyi səviyyəsini dəqiqləşdirməklə nəinki konkret işçinin potensialını, həm də ümumən peşə hazırlığı prosesini (və ya onun bir hissəsini) qiymətləndirmək mümkündür. Bilik səviyyəsini, o cümlədən peşə biliyi səviyyəsini yoxlamağın isə bir yolu var, o da şəxsə həmin bilik sahəsinə aid suallar verib, cavablar almaq və onları obyektiv meyarlar əsasında qiymətləndirmək yoludur. Buna "imtahan" da demək olar, lakin son zamanlar eyni fikri ifadə etmək üçün daha çox "qiymətləndirmə", "test" kimi sözlərdən istifadə edilir.

"Peşə biliyi" prokurorluqda tətbiq edilən müxtəlif formalı (“ilkin hazırlıq”, “ixtisasartırma”, prokurorluq orqanlarında təşkil olunan tədris tədbirləri) tədris prosesində əldə edilir. Tədrisi onun nəticələrinin qiymətləndirilməsindən, o cümlədən dinləyicilərin biliklərinin qiymətləndirilməsindən ayrılıqda təsəvvür etmək çətindir. Hələ Mərkəzin Əsasnaməsi hazırlanarkən bu, nəzərə alınıb. Əsasnamənin 3.2-ci bəndində göstərilir ki, *"prokurorluq orqanlarında müvafiq vəzifələrin icrasına başlamaq üçün zəruri bilik və vərdişlərə yiyələnmələri üçün işə qəbul olunmuş gənc mütəxəssisləri, ixtisas və peşə bilik və vərdişlərinin artırılması, eləcə də əlavə peşələri öyrənmələri üçün prokurorluğun əməkdaşlarını müvafiq tədris kurslarına cəlb edir; dinləyicilərin nailiyyətlərini yoxlamaq məqsədi ilə cari və yekun imtahanları keçirir, nəticələri barədə Baş prokurora məlumat verir";* 6.11-ci bənddə bildirilir ki, kursların dinləyicilərinin *"biliklərinin səviyyəsi cari nəzarət və yekun imtahanlar vasitəsi ilə müəyyən edilir".*

Mərkəzdə təşkil olunan "ilkin hazırlıq" və "ixtisasartırma" kursları zamanı peşə bilikləri qiymətləndirilir, prokurorluq orqanlarında təşkil olunan həftəlik tədris məşğələlərində əldə olunan biliklər isə qiymətləndirilmir. Bundan başqa, peşə hazırlığının elə formaları var ki, hər bir tədbirin yekunu üzrə "qiymətləndirmə" keçirmək texniki cəhətdən mümkün deyil, məsələn, elmi-praktiki konfranslar, idarələrarası seminarlar və sairə formalı tədbirlər.

Lakin həyata keçirilən bütün işlərin, o cümlədən tədris işinin də nəticələri, səmərəsi, mümkün olan bütün hallarda qiymətləndirilməlidir. Dövlət orqanı olaraq prokurorluğun bu sahəyə sərf edilmiş maliyyə vəsaitlərinin, işçi vaxtının və digər resursların bəhrəsini, xeyrini görməyə haqqı çatır. Əgər səmərə yoxdursa, gündəmə bu resursları başqa istiqamətlərə yönəltmək, varsa, həmin tədbirləri saxlamaq və inkişaf etdirmək məsələləri çıxır.

Bu məsələlərin həlli zamanı həm də qanun normalarının tələbləri nəzərə alınır. “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Qanunun 13.2-ci maddəsində göstərilib ki, *“İşçinin tutduğu vəzifəyə uyğun olub-olmaması, mükafatlandırılması və vəzifədə irəli çəkilməsi məsələlərinin həlli zamanı onun təhsilə münasibəti, nəzəri və peşə hazırlığı nəzərə alınır”.* “Təhsilə münasibət”, “nəzəri və peşə hazırlığı” prokurorluq işçilərinin hamısında eyni ola bilməz, əks təqdirdə normanın mənası olmaz. İşçiləri fərqləndirmək üçün onların hər birinin bu meyarlar üzrə göstəriciləri müəyyən edilməlidir. Göstəricilər müqayisələndirilə bilən, məsələn, rəqəmlərlə ifadə edilən məlumatlardan ibarət olmalıdır. Bir-biri ilə tutuşdurulması mümkün olan başqa formalar da tətbiq etmək olar, lakin riyazi üsul tutuşdurmada daha dəqiq bilgi verir. Bunu “elmi yanaşma” da adlandırmaq olar. Bir müdrik (deyilənə

görə İmmaniul Kant) deyib ki, hər bir elmdə nə qədər riyaziyyat varsa, bir o qədər də həqiqət var.

Bütün bunları nəzərə alaraq, həm də Azərbaycan Respublikası Prezidentinin 3065 nömrəli Sərəncamında irəli sürülmüş prokurorluqda "kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorlarının formalaşdırılması və peşəkarlığının artırılması" vəzifəsinin yerinə yetirilməsi məqsədi ilə Baş Prokurorluq üzrə 07.10.2010-cu il tarixli 10/90 nömrəli əmrlə "Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması Qaydaları" (bundan sonra – Qaydalar) təsdiq edilib. Əmrin preambulasında Qaydaların məqsədi kimi *"yeni nəsil prokurorluq işçilərinin formalaşdırılmasını və onların fəaliyyətinin qiymətləndirilməsi işinin daha da təkmilləşdirilməsini, prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin obyektiv meyarlar əsasında müəyyən edilməsini, prokurorluq orqanlarında davamlı olaraq həyata keçirilən tədris prosesinin səmərəliliyinin müasir tələblərə uyğun yüksəldilməsini və bu istiqamətdə həyata keçirilən tədbirlərin stimullaşdırıcı əhəmiyyətinin artırılmasını təmin etmək"* göstərilib. Qaydalarda vurğulanıb ki, o, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin tələblərinə uyğun olaraq hazırlanıb və Azərbaycan Respublikası Prokurorluğu orqanları işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin kompüter vasitəsilə test üsulu ilə yoxlanılmasına dair məsələləri tənzimləyir. Qaydalara əsasən, *"prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığının səviyyəsi Baş prokurorun əmrinə əsasən bir qayda olaraq 2 ildən bir yoxlanılır. Baş prokurorun əmrinə uyğun olaraq yoxlama daha tez və ya gec müddətlərdə də keçirilə bilər".* Bu "yoxlama" faktiki olaraq elektron test üsulu ilə keçirilən imtahandır.

Yeri gəlmişkən, test üsulu ilə imtahan prokurorluğa işə qəbul zamanı Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 509 nömrəli Fərmanı (Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2007-ci il və 24 iyun 2009-cu il tarixli fərmanları ilə edilmiş əlavə və dəyişikliklərlə) ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqinda Əsasnamə"nin tələbinə görə də tətbiq edilir.

"Hazırlıq" və ya "ilkin hazırlıq" tədris proqramları prokurorluğa işə yeni qəbul edilmiş və stajorluq keçən şəxslər üçün təşkil olunur. Baş Prokurorluq üzrə 05.10.2010-cu il tarixli, 10/89 nömrəli əmrlə təsdiq edilmiş "Prokurorluq orqanlarında stajorluq və sınaq keçmə Qaydaları"nın 3-cü bəndində müəyyən edilib ki, stajorluq müddətinin "bir ayı Baş Prokurorluğun Elm-Tədris Mərkəzində təşkil olunmuş hazırlıq kursunda" keçirilir.

### "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda "attestasiya" və "nəzəri biliklərin və peşə hazırlığının qiymətləndirilməsi" arasında əlaqə

Göstərilən norma müəyyən edib ki, "Prokurorluq işçilərinin işlədiyi müddətdə nəzəri biliklərinin və peşə hazırlığının vaxtaşırı qiymətləndirilməsi yalnız bu Qanunun 14.1-ci maddəsində müəyyən edilmiş hallarda həyata keçirilir. Bu məqsədlə hər hansı digər vaxtaşırı qiymətləndirmə üsulları (imtahan və sair) tətbiq edilə bilməz.". Qeyd edilən maddədə söhbət "attestasiya" və "xidməti fəaliyyətin qiymətləndirilməsi"ndən gedir. Ardıcıllıq baxımından əvvəl "xidməti fəaliyyətin qiymətləndirilməsi", sonra isə "attestasiya" durur. Bu, məntiqi sıradır, yəni norma deyirsə ki "prokurorluq işçilərinin attestasiyası zamanı onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır", deməli, əvvəl qiymətləndirmə olmalıdır ki, onun nəticələri bəlli olsun və sonradan attestasiya zamanı nəzərə alınsın. Maddənin məzmunundan aydın olur ki, "attestasiya" ilə "peşə hazırlığı" arasında əlaqə "məqsəd-vasitə" münasibəti xarakterlidir. Yəni, "peşə hazırlığı" – məqsəd, "attestasiya" isə – vasitədir. Bu mülahizələrdən belə bir praktiki nəticə hasil ola bilər ki, attestasiya zamanı işçinin peşə hazırlığının vəziyyəti yoxlanılmır, qiymətləndirilmir, yəni o, imtahan vermir. Çünki, attestasiyanın özü yalnız bu qiymətləndirmənin göstəricilərinə gələcəkdə təsir edə biləcək bir vasitə kimi çıxış edir.

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanuna 17 noyabr 2017-ci il tarixli Qanunla əlavə edilmiş 14.6-cı maddə prokurorluq işçilərinin "nəzəri biliklərinin və peşə hazırlığının vaxtaşırı qiymətləndirilməsi" ilə onların attestasiyası arasındakı münasibətlərin xarakterini əhəmiyyətli dərəcədə dəyişib. Normanın mənasına görə, "nəzəri biliklərinin və peşə hazırlığının vaxtaşırı qiymətləndirilməsi" statusu dəyişdirilib, prokurorluqdakı "ixtisasartırma işi" dairəsindən çıxarılıb və o cümlədən "işçilərin

attestasiyası işi" dairəsinə daxil edilib. "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 14.6-cı maddəsinin mənasına görə, işçilərin attestasiyası zamanı onların "nəzəri biliklərinin və peşə hazırlığının vaxtaşırı qiymətləndirilməsi" həyata keçirilir.

Bu yanaşma yenilik deyil, oxşar cəhdlər olub. Belə ki, "Dövlət qulluğu haqqında" Qanunun hazırda qüvvədən düşmüş 31.3-cü maddəsində göstərilirdi ki, "Attestasiya zamanı dövlət qulluqçusunun peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətləri qiymətləndirilir və onun tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyi barədə nəticə çıxarılır.". "Peşəkarlıq" anlayışı "nəzəri biliklərinin və peşə hazırlığının vaxtaşırı qiymətləndirilməsi" anlayışı ilə haradasa toqquşa bilər, lakin hər bir halda onların arasına eynilik işarəsi qoymaq mümkün deyil.

Ənənəvi olaraq personalın "attestasiya"sı vaxtaşırı olaraq işçinin peşə yararlılığını və tutduğu vəzifəyə uyğunluğunu müəyyən etməkdən ibarət olan bir element kimi, kadr işinin vacib elementi kimi nəzərdən keçirilib. Prokurorluq orqanlarında işçilərin attestasiyası ilk dəfə SSRİ Baş prokurorunun 15 nömrəli 24.01.1951-ci il tarixli əmri ilə tətbiq edilməyə başlayıb. Əmrdə attestasiyanın məqsədi kimi prokuror-müstəntiq işçilərin tutduqları vəzifələrə uyğun olmalarının sistemli yoxlanması, perspektivli işçilərin vaxtında aşkar edilməsi və vaxtında daha yüksək vəzifələrə irəli çəkilməsi göstərilmişdi. "Nəzəri bilik və peşə hazırlığı" səviyyəsinin yoxlanması isə attestasiyanın məqsədi kimi göstərilməmişdi.

Hazırda Azərbaycan Respublikasının prokurorluq orqanlarında attestasiya Baş prokurorun 16.11.2011-ci il tarixli 10/95-11/373-k N-li əmri ilə təsdiq edilmiş "Prokurorluq işçilərinin attestasiyasının keçirilməsi qaydalar"ı (Azərbaycan Respublikası Baş prokurorunun 16.11.2011-ci il tarixli 10/95-11/373k №-li əmri ilə təsdiq edilmişdir (05.06.2012-ci il tarixli 10/64-11/142k №-li, 13.07.2015-ci il tarixli 10/64 №-li, 03.09.2015-ci il tarixli 10/79 №-li və 10.08.2017-ci il tarixli 10/59-11/381k №-li əmrlərlə edilmiş dəyişikliklərlə) ilə tənzimlənir. Bu Qaydalarda da attestasiya komissiyaları qarşısında işçilərin "nəzəri bilik və peşə hazırlığı"nı yoxlamaq məqsədi qeyd edilməyib, göstərilib ki, "Attestasiya işçinin tutduğu vəzifəyə uyğun olub-olmaması, onun imkanlarından istifadə etmək mümkünlüyünün aşkara çıxarılması, peşəkarlığının artırılmasının stimullaşdırılması, hazırlıq səviyyəsinin yüksəldilməsi və ya təkrar hazırlıq keçməsi zəruriliyinin, habelə vaxtında vəzifədə irəli çəkilməsi, vəzifədən azad edilməsi, yaxud aşağı vəzifəyə keçirilməsinin müəyyənləşdirilməsi məqsədi ilə keçirilir.".

Yeri gəlmişkən, qonşu postsovet ölkələrinin prokurorluqlarında da yanaşma oxşardır. Məsələn, Rusiya Federasiyası prokurorluq orqanlarında işçilərin attestasiyası RF Baş prokurorunun 30 oktyabr 1998-ci il tarixli 74 nömrəli əmri ilə təsdiq edilmiş Əsasnaməyə əsasən keçirilir və orada da nə məqsədlər, nə çıxarılan nəticələr və verilən tövsiyələr sırasında "nəzəri bilik və peşə hazırlığı" məsələlərinə yer ayrılmayıb.

Azərbaycan prokurorluğunda işçinin attestasiyası ilə onun nəzəri bilik və peşə hazırlığı göstəriciləri arasında əlaqə mövcuddur. Belə ki, "Prokurorluq işçilərinin attestasiyasının keçirilməsi qaydalar"ının 3.2.2-ci bəndində tələb edilir ki, attestasiya vərəqəsində *"nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılmasına dair imtahanın nəticəsi"* göstərilsin; 4.22-ci bəndində vurğulanıb ki, attestasiya komissiyaları işçinin tutduğu vəzifəyə uyğun olub-olmaması, şərti uyğun olması barədə rəy, eləcə də işini yaxşılaşdırmaq üçün altı ayadək vaxt verilməklə təkrar attestasiyasının keçirilməsi, aşağı vəzifəyə keçirilməsi, başqa vəzifəyə keçirilməsi, tutduğu vəzifədən azad edilməsi, prokurorluqdan xaric edilməsi, xüsusi rütbənin aşağı salınması, təcrübə keçməyə və ya ixtisasartırma kurslarına cəlb edilməsi, vəzifədə irəli çəkilməsi, ilk xüsusi rütbə verilməsi, xüsusi rütbənin artırılması, həvəsləndirmə tədbiri tətbiq edilməsi, müsbət iş təcrübəsinin yayılması, verilmiş intizam tənbehinin vaxtından əvvəl üzərindən götürülməsi barədə tövsiyə verərkən *"“Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsinin tələblərini, işçinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması və xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticələrini nəzərə alır"*.

Təhlildən görünür ki, Azərbaycan Respublikasının prokurorluq orqanlarında işçilərin attestasiyası və nəzəri və peşə hazırlığının qiymətləndirilməsi bir-biri ilə üst-üstə düşməyən, əhatə olunmayan müstəqil anlayışlar, iş formalarıdır. Bununla belə, onların arasında əlaqə mövcuddur, biri o birinin nəticələrini nəzərə alır.

### "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda "xidməti fəaliyyətin qiymətləndirilməsi" və "nəzəri biliklərin və peşə hazırlığının qiymətləndirilməsi" arasında əlaqə

Yuxarıda göstərilən qanun normasının mənasına görə, "nəzəri biliklərinin və peşə hazırlığının vaxtaşırı qiymətləndirilməsi" həm də onların "xidməti fəaliyyətinin qiymətləndirilməsi" zamanı həyata keçirilir. Əvvəl qeyd edilən Qanunun 14.1-ci maddəsi (Maddə 14. Prokurorluq işçilərinin attestasiyası və fəaliyyətinin qiymətləndirilməsi) dəqiqləşdirib ki, *"Prokurorluq işçilərinin attestasiyası zamanı onların xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri nəzərə alınır. Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir."* Sonuncu Qanunun 30-1-ci maddəsində (Maddə 30-1. Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi) müəyyən edilib ki, inzibati vəzifə tutan dövlət qulluqçusunun xidməti fəaliyyəti hər təqvim ilinin sonunda qiymətləndirilir; bunun məqsədi qulluqçunun *"il ərzində vəzifəsinin öhdəsindən gəlməsini, tutduğu vəzifəyə dair tələblərin yerinə yetirilməsini qiymətləndirməkdən və işçinin gələcək inkişafını müəyyən etməkdən ibarətdir"*. Qiymətləndirmə bütün dövlət qulluqçuları barəsində 7 meyar üzrə – *"peşə biliyi", "xidməti vəzifələrə münasibət", "təhlil aparmaq, çətinlikləri həll etmək və qərar vermək bacarığı", "yaradıcılıq və təşəbbüskarlıq", "əmək intizamı", "iş təcrübəsi və onu bölüşmə", "kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilər arası münasibətlər"* – qiymətləndirilir. Rəhbər işçilərin xidməti fəaliyyəti əlavə olaraq *"təhlil və proqnozlaşdırma", "idarəetmə; kollektiv daxilində nüfuz və ruhlandırmaq bacarığı", "komanda qurmaq bacarığı"* meyarları əsasında qiymətləndirilir. Qiymətləndirmə "əla", "yaxşı", "kafi", "qeyri-kafi" qiymətlər qoymaq şəklində aparılır. Sadalananlar qanun normaları ilə tənzimləndiyinə görə, prokurorluq orqanlarında olduğu kimi tətbiq edilir. Kənarda qalan məsələlər isə, Baş Prokurorluq üzrə 10/42-11/126-k nömrəli, 6 may 2015-ci il tarixli əmrlə təsdiq edilmiş "Prokurorluq işçilərinin xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları" (bundan sonra – Qiymətləndirmə Qaydaları) ilə tənzimlənir.

Bu məsələlər sırasında "peşə biliyi"nin müəyyən edilməsi qaydası da yer tutur. Bu anlayış bir qədər fərqli məzmunda müəyyən edilib. Qiymətləndirmə Qaydalarının 16.1.1-ci bəndində göstərilib ki, *"Peşə bilikləri – işçinin tutduğu vəzifə üzrə qanunvericiliyin düzgün tətbiq edilməsi, habelə Baş prokurorun 07.10.2010-cu il tarixli 10/90 nömrəli əmri ilə təsdiq edilmiş "Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması Qaydaları"nın tələblərinə uyğun olaraq biliklərinin qiymətləndirilməsi nəzərdə tutulur"*. Qiymətləndirmə Qaydalarına əlavələrdə müvafiq metodiki göstərişlər də vardır. Prokurorluq işçisinin xidməti fəaliyyətini qiymətləndirən rəhbər bunları nəzərə alır.

Göründüyü kimi, "xidməti fəaliyyətin qiymətləndirilməsi"nə münasibətdə də "nəzəri biliklərin və peşə hazırlığının qiymətləndirilməsi" tam müstəqil bir iş formasıdır; sonuncunun nəticələri birinci prosesdə nəzərə alınır.

### Nəticə

Göründüyü kimi, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 14.6-cı maddəsinin məzmunu prokurorluqda işçilərin peşə biliyinin qiymətləndirilməsinin artıq formalaşmış mexanizminin təkmilləşdirilməsini, inkişafını, genişləndirilməsini tələb edir. Bunun üçün ilk növbədə prokurorluğun daxili normativ-hüquqi aktlarının məzmunlarının qanun normalarının məzmununa uyğunlaşdırılması həyata keçirilməlidir. Ümumi şəkildə bu, prokurorluq işçilərinin "nəzəri biliklərinin və peşə hazırlığının vaxtaşırı qiymətləndirilməsi"nin *prokurorluq işçilərinin xidməti fəaliyyətinin qiymətləndirilməsi* çərçivəsində aparılması kimi görünə bilər.

Fikrimizcə, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 14.6-cı maddəsinin məzmunu prokurorluqda peşə biliklərinin tədris prosesi çərçivəsində qiymətləndirilməsini qadağan etmir. Aydın yazılmasa da, normanın məzmunundakı "vaxtaşırı" sözünün tədris kursları zamanı "nəzəri biliklərinin və peşə hazırlığının qiymətləndirilməsi"ni də əhatə etmədiyini ehtimal etmək olar. Başqa yanaşma praktiki cəhətdən mümkünsüzdür, çünki, əks təqdirdə prokurorluqda mövcud olan institusional sistemin – ilkin hazırlıq və ixtisasartırma, bütövlükdə peşə hazırlığı sisteminin ləğvi və ya ən azı radikal şəkildə zəiflədilməsi, formal tədbirlər sırasına çevrilməsi labüddür.

**Nazir Bayramov,**
*Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi*
*III dərəcəli dövlət ədliyyə müşaviri*

# Bakıda kibercinayətkarlıqla mübarizəyə dair beynəlxalq konfrans keçirilib




Oktyabrın 9-da Bakı şəhərində Azərbaycan Respublikası Prokurorluğu və Beynəlxalq Prokurorlar Assosiasiyasının, həmçinin Avropa İttifaqı və Avropa Şurasının birgə təşkilatçılığı ilə "Kibercinayətkarlıqla mübarizəyə dair Konfrans" öz işinə başlamışdır.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında baş tutan tədbirə Şərqi Avropa, Balkan regionu və Mərkəzi Asiya ölkələrinin hüquq-mühafizə orqanlarının 50-dək əməkdaşı, beynəlxalq ekspertlər, Beynəlxalq Prokurorlar Assosiasiyasının rəsmi şəxsləri, həmçinin ölkəmizin hüquq mühafizə orqanlarının nümayəndələri qatılmışlar.

Konfransın açılış mərasimində Beynəlxalq Prokurorlar Assosiasiyasının Baş katibi, eyni zamanda Assosiasiyanın Prokurorların Qlobal Elektron Cinayət Şəbəkəsinin (GPEN) rəhbəri və Niderland Krallığının "Eurojust"da təmsilçisi Han Moraal və Avropa Şurasının Bakı Ofisinin rəhbəri Zoltan Hernyes iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev sürətlə qloballaşan dünyada kibercinayətkarlıq probleminin xüsusi aktuallığı və ona qarşı dövlət orqanları tərəfindən aparılan mübarizənin vacibliyi barədə ətraflı məlumat verərək cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və digər cinayətlərə qarşı mübarizənin ölkələrin milli təhlükəsizliyinin təmin olunmasına xidmət etdiyini bildirmişdir. Qeyd edilmişdir ki, ölkəmizdə Prezident cənab İlham Əliyevin siyasi rəhbərliyi altında korrupsiya, çirkli pulların yuyulması və kibercinayətkarlıq da daxil olmaqla cinayətkarlığın bütün təzahürlərinə qarşı barışmaz mübarizə aparılır, Azərbaycan Respublikasının 2010-cu ildən Avropa Şurasının "Kibercinayətkarlıq haqqında" Konvensiyasına qoşularaq bu beynəlxalq müqavilədən irəli gələn öhdəliklərin yerinə yetirilməsi istiqamətində kompleks və sistemli inzibati və normativ tədbirlər görülməklə, həyata keçirilmiş hüquqi və institusional islahatlar nəticəsində ölkəmizdə ən müasir beynəlxalq standartlara cavab verən qanunvericilik bazası formalaşdırılmışdır. Dövlət başçısının 18 noyabr 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün




Milli Fəaliyyət Planı"nın bu istiqamətdə fəaliyyətin uğurla davam etdirilməsi üçün mühüm siyasi hüquqi sənədin əhəmiyyəti xüsusu vurğulanmışdır.

Kamran Əliyev ölkəmizin hüquq-mühafizə orqanları ilə Beynəlxalq Prokurorlar Assosiasiyası arasında qarşılıqlı əməkdaşlıq münasibətlərinin hazırkı vəziyyəti və gələcək inkişaf perspektivləri haqda geniş məlumat vermişdir.

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov, BPA-nın Baş katibi Han Moraal və Avropa Şurasının Bakı Ofisinin rəhbəri Zoltan Hernyes çıxış edərək kibercinayətkarlığa qarşı mübarizə işində dövlət orqanları və beynəlxalq təşkilatların fəaliyyətlərinin effektiv əlaqələndirilməsini təmin edən koordinasiya mexanizminin yaradılmasının, onlar arasında əməkdaşlığın və məlumat mübadiləsi sisteminin səmərəliliyinin artırılmasının, qanunvericiliyin beynəlxalq standartlara tam uyğunlaşdırılmasının, habelə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulamış, kibercinayətkarlıqla mübarizədə hüquq mühafizə orqanları əməkdaşlarının peşəkarlığının artırılması və effektivliyin təmin edilməsində keçiriləcək təlimlərin əhəmiyyətini qeyd etmişlər.

Tədbirdə iştirak edən kütləvi informasiya vasitələrinin nümayəndələrinin sualları cavablandırılmışdır.

***



Oktyabrın 11-də Azərbaycan Respublikası Prokurorluğu, Beynəlxalq Prokurorlar Assosiasiyası, Avropa İttifaqı və Avropa Şurasının birgə təşkilatçılığı ilə keçirilən "Kibercinayətkarlıqla mübarizəyə dair Konfrans" öz işini yekunlaşdırmışdır.

Tədbir çərçivəsində kibercinayətlərin formaları, bu növ cinayətlərin ibtidai istintaqı və cinayət təqibi, ortaya çıxan problemlər və onların həlli yolları, informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə törədilən çirkli pulların yuyulması və digər cinayətlər, elektron sübutların əldə edilməsi, ekspertizası və onların məhkəmə təcrübəsində istifadəsi, o cümlədən kibercinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlıq mövzuları geniş müzakirə edilmiş, praktiki məsələlərlə bağlı iştirakçıların sualları ətraflı cavablandırılmışdır.

Konfrans zamanı Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi uğurlar, müsbət iş təcrübəsi, o cümlədən "ASAN Xidmət" mərkəzlərinin fəaliyyəti ilə bağlı keçirilmiş təqdimatlar iştirakçıların marağına səbəb olmuşdur.

Tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində və 5 saylı "ASAN Xidmət" mərkəzində olmuş, ölkəmizin tarixi, mədəniyyəti ilə və xidmət tərəfindən həyata keçirilən tədbirlərlə yaxından tanış olmuşlar.

Tədbirin sonunda konfransın yekunlarını özündə əks etdirən və kibercinayətkarlığa, çirkli pulların yuyulmasına və korrupsiyaya qarşı mübarizə sahəsində hüquq-mühafizə və maliyyə nəzarəti orqanları arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi və əməkdaşlığa dair qərarlar qəbul edilmiş, iştirakçılara sertifikatlar təqdim edilmişdir.

Konfrans iştirakçıları tədbirin yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını ifadə etmişlər.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Bakıda korrupsiya cinayətlərinin istintaqı və cinayət təqibi məsələlərinə dair beynəlxalq tədbir keçirilib




Oktyabrın 25-də Bakıda Azərbaycan Respublikası Prokurorluğunun, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) birgə təşəbbüsü ilə bu qurumun Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin



(ACN) Hüquq-mühafizə orqanları şəbəkəsinin "Korrupsiya cinayətlərinin istintaqı və cinayət təqibi: cinayət yolu ilə əldə edilmiş gəlirlərin müsadirəsi, əmlakın bərpası və prokurorların müstəqilliyi" mövzusunda beynəlxalq konfrans işə başlamışdır.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında keçirilən tədbirə Şərqi Avropa və Mərkəzi Asiya regionundakı 20-dən artıq ölkənin korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış qurumlarının rəhbər şəxsləri, bilavasitə korrupsiya cinayətlərinin istintaqı və cinayət təqibini həyata keçirən müstəntiq və prokurorlar, anti-korrupsiya məsələləri üzrə ixtisaslaşmış beynəlxalq ekspertlər, OECD-nin rəsmiləri, eləcə də ölkəmizin hüquq-mühafizə orqanlarının nümayəndələri olmaqla 70-dən artıq iştirakçı qatılmışdır.

Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev konfransda çıxış edərək korrupsiya fenomeninin qlobal miqyasda aktuallığını və ona qarşı mübarizədə beynəlxalq tərəfdaşlarla əməkdaşlığın artan əhəmiyyətini qeyd etmiş, OECD-nin rüşvətxorluq, korrupsiya və oxşar mənfi təzahürlərə qarşı mübarizənin öncüllərindən olmasını vurğulamışdır. Baş İdarə rəisi təşkilatın Anti-Korrupsiya Şəbəkəsinin Şərqi Avropa və Mərkəzi Asiya regionunda yerləşən ölkələrdə həyata keçirilən anti-korrupsiya islahatlarına mühüm töhfə verdiyini bildirmişdir.

Kamran Əliyev ölkəmizdə korrupsiya hallarına qarşı mübarizənin dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil etməsi və bu sahədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsinə söykənən qabaqlayıcı, cəza və maarifləndirmə tədbirlərinin kompleks tətbiqi ilə xarakterizə olunan genişmiqyaslı islahatların həyata keçirildiyi barədə iştirakçılara ətraflı məlumat vermişdir.

Ölkəmizlə OECD-nin Anti-Korrupsiya Şəbəkəsi arasında qarşılıqlı əlaqələrinə toxunan K.Əliyev Azərbaycan Respublikasının Şəbəkə ilə 2003-cü ildən İstanbul Anti-Korrupsiya Fəaliyyət Planı çərçivəsində əməkdaşlıq etdiyini, indiyədək respublikamızın üç monitorinq mərhələsini uğurla tamamladığını, IV Monitorinq Raunduna keçən ilk ölkələrdən biri olduğunu vurğulamışdır. Baş prokurorun müavini cari ilin sentyabrında Parisdə keçirilən görüşlər zamanı IV Monitorinq Raundu çərçivəsində ölkəmiz üzrə qəbul edilmiş hesabatda nəzərdə tutulmuş tövsiyələrin icra vəziyyəti ilə bağlı İnkişaf Hesabatının uğurla qəbul edildiyini xatırlatmış, Baş İdarənin əməkdaşlarının ekspert qismində İstanbul Anti-Korrupsiya Fəaliyyət Planı çərçivəsində bir neçə ölkənin monitorinq prosesinə cəlb edilmələrinin mühüm nailiyyət olduğunu diqqətə çatdırmışdır.

Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov çıxışında korrupsiyaya qarşı mübarizəyə dair dövlət proqramları və onların effektiv icrası, Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış "ASAN xidmət" mərkəzlərinin uğurlu fəaliyyəti, bu sahədə hüquq mühafizə orqanlarının səmərəli işi, beynəlxalq standartlara cavab verən mükəmməl qanunvericilik və beynəlxalq təşəbbüslərdə fəal iştirakla bağlı tədbir iştirakçılarına məlumat vermişdir. O, "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin dövlət orqanları tərəfindən 80 faiz səviyyəsində icra olunduğunu, Azərbaycanda və regionda ilk dəfə olaraq Milli Fəaliyyət Planının elektron formada qiymətləndirildiyini bildirmişdir.

Tədbirdə çıxış edən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-




Korrupsiya Şəbəkəsinin meneceri xanım Olqa Savran və Şəbəkənin Hüquq-Mühafizə Orqanları Şəbəkəsinin sədri xanım Anka Yurma bu görüşün korrupsiya cinayətlərinin istintaqı, cinayət yolu ilə əldə edilmiş gəlirlərin müsadirəsi, əmlakın bərpası və prokurorların müstəqilliyi sahələrində əldə edilmiş qabaqcıl təcrübənin paylaşılması üçün mühüm platforma olduğunu bildirmişlər. Həmçinin bu tədbirin iştirakçılar arasında qarşılıqlı əməkdaşlığın daha da inkişaf etməsinə mühüm töhfə verəcəyi qeyd olunaraq, Azərbaycanın Şəbəkənin fəaliyyətində fəal iştirakı ilə fərqlənən ölkələrdən olduğu vurğulanmışdır. Bu mühüm tədbirə ev sahibliyinin Azərbaycan Respublikasının korrupsiyaya və oxşar təzahürlərə qarşı mübarizə işinə sadiqliyinin bariz nümunəsi olduğu bildirilərək konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlıq ifadə edilmişdir.

Çıxışlardan sonra beynəlxalq tədbir işini məruzələrin dinlənilməsi və müzakirələrlə davam etdirmişdir.

***

Oktyabrın 27-də Azərbaycan Respublikası Prokurorluğu, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) birgə təşkilatçılığı ilə keçirilən beynəlxalq tədbir başa çatmışdır.

Tədbir çərçivəsində bir sıra iştirakçı dövlətlərin nümayəndələri tərəfindən konkret cinayət işlərinin nümunəsində təmsil olunduqları ölkələrin korrupsiya cinayətlərinin istintaqı və bu yolla əldə edilmiş gəlirlərin müsadirəsi təcrübəsinə dair çıxışlar edilmişdir. Əmlakın bərpası və prokurorların müstəqilliyi sahələrində əldə edilən nailiyyətlər paylaşılmış, bu mövzularda beynəlxalq ekspertlər tərəfindən təqdimatlar keçirilərək geniş fikir mübadiləsi aparılmış, təşkilat tərəfindən qeyd edilən sahələrdə son dövrlərdə həyata keçirilmiş tədqiqatlar müzakirə edilmişdir. Görüşlərdə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən də bir sıra təqdimatlar keçirilmiş, ölkəmizin bu sahədə əldə etdiyi müsbət iş təcrübəsi önə çəkilmişdir. Bununla yanaşı, təmsilçilərimizlə Latviya, Rumıniya, Ukrayna və digər ölkələrin nümayəndə heyətləri arasında ikitərəfli görüşlər keçirilmiş, Baş İdarə tərəfindən ibtidai istintaqı aparılan cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımla bağlı sorğuların icra vəziyyəti və əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Tədbirin sonuncu günündə iştirakçılar Heydər Əliyev Mərkəzində olmuş, onlar ölkəmizin tarixi və mədəniyyəti ilə yaxından tanış olmuşlar. Daha sonra qonaqlar korrupsiyaya qarşı preventiv tədbirlər sahəsində Azərbaycan brendi kimi dünyada tanınan “ASAN Xidmət”də olmuş, nümayəndələrə mərkəzin respublikamızda korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyətindəki rolu barədə ətraflı məlumat verilmişdir.

İştirakçılar görüşün yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə öz minnətdarlıqlarını bildirərək belə bir tədbirin ölkəmizdə keçirilməsinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə Azərbaycan Respublikası arasında, eləcə də Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin ölkələri arasında qarşılıqlı əməkdaşlığın inkişafında yeni bir mərhələ olduğunu qeyd etmişlər.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Amerikalı və fransız jurnalistlər Hərbi Prokurorluqda olublar






Hərbi Prokurorluqda Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının xətti, ölkəmizin Fransadakı Səfirliyinin dəstəyi və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nümayəndələrinin iştirakı ilə oktyabrın 3-8-də ölkəmizdə səfərdə olan fransız və bir amerikalı jurnalist Gil Mihaely, Slimane Zeghid, Samira İbrahim, Jonathan Simon Sellem və Greenger Nurit ilə görüş keçirilmişdir.

Hərbi prokurorun müavini Rasim Kazımov qonaqları salamlayaraq Azərbaycan Respublikası Hərbi Prokurorluğunun yaranma və inkişaf tarixi, fəaliyyət istiqamətləri, struktur qurumları barədə qısaca məlumat verib, sonra Azərbaycan xalqına qarşı törədilmiş soyqırımlardan bəhs edərək tarixi həqiqətlər barədə bilgilər verilib, Azərbaycan tarixinin son iki əsrində ermənilərin Azərbaycanın tarixi torpaqlarını işğal etmələri, Azərbaycan xalqının yurdlarından zorla köçürülməsi, ardıcıl şəkildə həyata keçirilən etnik təmizlənməsi, deportasiya və soyqırıma məruz qalması ilə müşayiət olunmuş, 1905-1907 və 1918-1920-ci illər ərzində Azərbaycan xalqına qarşı soyqırım törədilmiş, əhali qaçqın vəziyyətinə salınmış, kəndlər talan edilərək viran qoyulmuş, bundan başqa, 1988-1992-ci illərdə erməni vəhşiləri tərəfindən Əsgəranda, Zəngibasarda, Vedibasarda, Mehmandarda, Şirazlıda, Xamisədə, Sidlidə, Xankəndi-Kərkicahanda, Qazax-Bağanis-Ayrımda, Şuşa-Malıbəyli və Quşçularda, Əsgəran-Meşəlidə, Xocavənd-Qaradağlıda və nəhayət, Xocalıda Azərbaycan xalqına qarşı soyqırım, sülh və insanlıq əleyhinə olan cinayətlər, müharibə cinayətləri törədilmiş, həmçinin mədəni-tarixi abidələr, müxtəlif dini təriqətlərə məxsus məscidlər, kilsələr, sinaqoqlar və digər ibadət yerləri, ziyarətgahlar, dini ocaqlar, tarixi qalalar, muzeylər, kitabxanalar və digər mədəni dəyərlər talan edilmişdir. Ardınca Rasim Kazımov qonaqların diqqətini 5 yaşında, tamamilə köməksiz olan körpə qızcığazın yaxın məsafədən 17 dəfə atəş açılmaqla öldürülməsi, ağaca bağlanmış atasının ayaqlarını qucaqlayan qızın




təpiklə ondan uzaqlaşdırılmaqla, elə onun gözləri önündə atasının diri-diri yandırılması faktlarına çəkərək, bildirdi ki, təəssüf ki, erməni vandalları tərəfindən bunlardan da dəhşətli cinayətlər törədilmişdir.

Ermənilər tərəfindən törədilən cinayət faktları ilə əlaqədar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsində dörd istiqamət – soyqırım, əsir götürülmüş şəxslərə qarşı işgəncə, terror və dövlətə və vətəndaşlara dəymiş ziyan üzrə istintaqın davam etdirildiyi qeyd olunaraq, çoxsaylı istintaq hərəkətlərinin aparıldığı, o cümlədən 25.000 nəfərə yaxın şəxsin zərərçəkmiş şəxs qismində tanınaraq dindirildiyi, habelə soyqırım, sülh və insanlıq əleyhinə, müharibə cinayətləri törətmiş şəxslərin təqsirləndirilən şəxs qismində cəlb olunmaqla, məhkəmələrin qərarları əsasında barələrində həbs qətimkan tədbiri seçildiyi və axtarışları ilə əlaqədar müvafiq sənədlərin İnterpolun Azərbaycan Respublikası Milli Bürosuna və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinə göndərilməsinin təmin olunduğu bildirib.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş sosial-iqtisadi islahatlar nəticəsində ölkə iqtisadiyyatı 3 dəfədən də çox böyümüş, müasirləşmiş, Azərbaycan yerləşdiyi regionun ən qüdrətli və iqtisadi cəhətdən inkişaf etmiş ölkəsi olmaqla yanaşı, dünya siyasətində öz sözünü deməyi bacaran dövlətlərdən biri olmuşdur. Dövlət başçımız Ermənistanın ölkəmizə qarşı təcavüzünü, erməni millətçiləri tərəfindən xalqımıza qarşı törədilmiş terror və soyqırım cinayətləri barədə həqiqətləri, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini dünya ictimaiyyətinə çatdırmağa, həmin cinayətlərə düzgün siyasi və hüquqi qiymət verilməsi ilə bağlı görülmüş tədbirlərə hər zaman xüsusi önəm vermişdir. Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun I vitse-prezidenti Leyla xanım Əliyevanın rəhbərliyi ilə 2005-ci ildə Fondun yaratdığı və geniş məlumat bazasına malik, Qarabağ müharibəsi, Ermənistanın Azərbaycana təcavüzü, işğal olunmuş ərazilərdə yerli əhaliyə qarşı törədilən azğınlıq, tarixi-memarlıq abidələrimizin vəhşicəsinə dağıdılması barədə faktların da öz əksini tapdığı “Azərbaycan” portalı internet şəbəkəsinə qoşulmuş Xocalı soyqırımını, ümumiyyətlə xalqımızın başına gətirilən faciələri dünya ictimaiyyətinə tanıtmaq məqsədi ilə «Xocalıya ədalət» kampaniyası çərçivəsində silsilə tədbirlər keçirilmiş və bu, hazırda da uğurla davam etdirilir.

Erməni millətçilərinin xüsusi amansızlıqla və qəddarlıqla törətdikləri soyqırım, sülh və insanlıq əleyhinə, müharibə cinayətlərinin tarixin yaddaşına həkk olunması, obyektiv həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və bu barədə gələcək nəsillərin ixtiyarına tutarlı dəlillərin və zəngin faktik materialların verilməsi məqsədi ilə Respublika Hərbi Prokurorluğunda maddi sübutlar, əşyalar, zəngin tarixi sənədlər, faktlar və istintaq materialları əsasında «Soyqırım Muzeyi»nin yaradıldığı qeyd edilib və 4 – tarix, deportasiyalar-repressiyalar, soyqırımlar və terror bölmələrindən ibarət olan eksponatlarla qonaqlar tanış olarkən bu barəd ətraflı məlumat verilib. Qonaqlar haqq-ədalətin bərqərar olunmasını, bu işdə Azərbaycana uğurlar arzulayaraq öz təəssüratlarını Muzeyin xatirə kitabında qeyd ediblər.

Sonda soyqırım qurbanları haqqında məlumatların əks olunduğu slaydlar və Hərbi Prokurorluq tərəfindən hazırlanan “Əsrin faciəsi” rəqəmsal video çəkilişi nümayiş etdirilib, “Soyqırım muzeyi” kitabı, “Əsrin faciəsi”, “Xocalı soyqırımı qurbanlarının haqqında məlumatlar” video diskləri hədiyyə edilib.

**Hərbi Prokurorluq**

# Bakıda hüquqi şəxslərin cinayət məsuliyyəti mövzusunda simpozium keçirilib





Dekabrın 1-də Avropa İttifaqı ilə birlikdə həyata keçirilən “Azərbaycanda ədliyyə sisteminin inkişafına və cinayət işləri üzrə məhkəmə qərarlarını icra edən qurumların göstərdiyi xidmətlərin təkmilləşdirilməsinə dəstək” layihəsi çərçivəsində “hüquqi şəxslərin cinayət məsuliyyəti” mövzusunda simpozium keçirilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun işçiləri, birinci və apellyasiya instansiyaları məhkəmələrinin hakimlərinin qatıldığı tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Heydər Məmmədov çıxış edərək korrupsiyaya qarşı mübarizənin ölkəmizdə dövlət siyasətinin prioritet istiqaməti olmasını vurğulayıb bu mübarizənin güclü siyasi iradəyə əsaslandığını qeyd etmiş, həmin sahədə beynəlxalq əməkdaşlığın və təcrübə mübadiləsinin böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Baş İdarənin Daxili təhlükəsizlik şöbəsinin rəisi Vüqar Quliyev təqdimatla çıxış edərək, layihə çərçivəsində hüquqi şəxslərin cinayət məsuliyyəti mexanizminin xüsusiyyətlərinin öyrənilməsi məqsədi ilə Niderland Krallığına nəzərdə tutulan tanışlıq səfəri barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

Simpoziumda Avropa Şurasının ekspertləri hüquqi şəxslər tərəfindən törədilən korrupsiya cinayətlərinə qarşı mübarizənin aspektləri, bu kateqoriyadan olan cinayətlərlə mübarizə sahəsində müsbət təcrübə, hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasının hüquqi və praktiki tərəfləri barədə təqdimatlar keçirmiş, iştirakçıları maraqlandıran sualları cavablandırmışlar.

Tədbirin sonunda iştirakçılara müvafiq sertifikatlar təqdim edilmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Baş Prokurorluğun nümayəndə heyəti "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" IV beynəlxalq elmi-praktiki konfransda iştirak edib



Oktyabrın 20-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" IV beynəlxalq elmi-praktiki konfrans keçirilib.

Polis Akademiyasının rəisi Nazim Əliyev konfransı açıq elan edib iştirakçıları salamlayandan sonra cinayətkarlığın kriminoloji tədqiqi sahəsində qarşılıqlı əlaqələrin, beynəlxalq əməkdaşlığın və etibarlı tərəfdaşlıq münasibətlərinin inkişafının mühüm əhəmiyyət kəsb etməsini vurğulayıb, bu zəmində regional cinayətkarlığın kriminoloji tədqiqinə həsr edilmiş beynəlxalq elmi-praktik konfransların keçirilməsini səmərəli vasitə kimi dəyərləndirib, bu ənənənin bundan sonra davam etdiriləcəyinə ümid bəslədiyini bildirib.

Tədbirdə Rusiya Federasiyasından, Gürcüstan, Belarus və Ukrayna respublikalarının tanınmış hüquqşünas alimləri, polis təhsil müəssisələrinin nümayəndələri, Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarının təmsilçiləri, həmçinin Baş Prokurorluğun Hüquqi təminat idarəsinin rəis müavini Aynur Osmanova, Elm-Tədris Mərkəzinin İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi Talıb Cəfərov, Kriminalistika kafedrasının rəisi Elxan Əsgərov və Hüquqi təminat idarəsinin böyük prokuroru Mahir Tağıyev iştirak ediblər.

"Azərbaycan Respublikasında cinayətkarlığın regional kriminoloji tədqiqinin nəzari və təcrübi problemləri", "İqtisadi cinayətkarlığın istintaqı və sübutetmədə xüsusi biliklərin tətbiqi problemləri





(regional aspekt)", "Nijniy Novqorod regionunda kriminogen vəziyyətin regional xüsusiyyətləri: empirik tədqiqatın təcrübəsi", "Oğru birliyi və "qanuni oğrular" mütəşəkkil cinayətkarlığın xüsusi forması kimi və onların regional xüsusiyyətləri", "Cinayətkarlığa qarşı mübarizə sahəsində vəkillik fəaliyyəti", "Azərbaycan Respublikasında narkotiklərlə bağlı törədilən cinayətlərin regional tədqiqinin aktual məsələləri", "Belarus Respublikası daxili işlər orqanları tərəfindən ailə zorakılığı ilə bağlı inzibati xətaların və cinayətlərin profilaktikasının təşkilati təminatının regional xüsusiyyətləri", "Regional cinayətkarlığın cinayət-hüquqi xəbərdar edilməsinin bəzi aspektləri" mövzular üzrə çıxışlar dinlənilib, səslənən fikirlər barədə müzakirələr aparılıb.

Sonra tədris ilində təhsildə və idmanda fərqlənmiş Polis Akademiyasının müdavimlərinə döş nişanları və diplomlar təqdim olunub, video-rolik vasitəsilə əvvəlki konfranslara ekskurs edilib.

Tədbirin sonunda bəyanat qəbul olunub və iştirakçılara konfransın mövzusu ilə bağlı məqalələr toplusu təqdim edilib.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş Prokurorluğun Hüquqi təminat idarəsi tərəfindən beynəlxalq normaların öyrənilməsi üzrə bölgələrdə seminarlar keçirilib

Azərbaycan Respublikasının 31 may 2017-ci il tarixli Qanunu ilə təsdiq edilmiş «Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə, müsadirəsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair» Avropa Şurasının Konvensiyası və ondan irəli gələn vəzifələr» mövzusunda noyabrın 28-də İsmayıllı, 30-da Salyan rayon prokurorluqlarda Şirvan şəhər və Salyan, Cəlilabad, Masallı, Biləsuvar, Neftçala, Saatlı, Sabirabad, Hacıqabul, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Ağdaş, Göyçay, Ağsu, Şamaxı, Kürdəmir, Ucar, Qobustan rayon prokurorluqlarının işçilərinin iştirakı ilə seminarlar keçirilib.

Tədbirlərdə çıxış edən Baş Prokurorluğun Hüquqi təminat idarəsinin böyük prokuroru Rəşad Qasımov, prokurorları Namiq Əliyev və Vüsal Mehrəliyev qeyd etmişlər ki, beynəlxalq aktlara uyğun olaraq insan hüquqları universaldır və həmin hüquqlardan heç bir diskriminasiyaya yol vermədən bütün insanlar istifadə edə bilər. BMT və onun ixtisaslaşmış qurumları, regional beynəlxalq təşkilatlar, beynəlxalq konqreslər, konfranslar və digər forumların qəbul etdiyi və insan hüquqlarının prinsiplərinin bəyan edildiyi sənədlərin əksəriyyəti məcburi qüvvəyə malik olmasa da, onların böyük əxlaqi siyasi təsiri vardır. Bu sənədlər dövlətlər üçün praktiki təlimat rolu oynayır. Bu sənədlərin əhəmiyyəti onların çoxlu sayda dövlətlər tərəfindən qəbul olunmasıdır. Azərbaycan Respublikası 31 may 2017-ci il tarixli Qanunu ilə Avropa Şurasının "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə, müsadirəsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair" 2005-ci il mayın 16-da Varşava şəhərində imzalanmış Konvensiyasına qoşulmuşdur. Konvensiyanın məzmununa uyğun olaraq hər bir Tərəf mənbəyinin qanuni və ya qeyri-qanuni olmasından asılı olmayaraq, istənilən üsulla, tamamilə və ya qismən terrorçuluğun maliyyələşdirilməsi üçün istifadə olunmuş və ya istifadəsi nəzərdə tutulmuş əmlakın, yaxud bu cinayət əməlindən əldə edilmiş gəlirin axtarışını, izlənilməsini, aşkar edilməsini, dondurulmasını, üzərinə həbs qoyulmasını və müsadirəsini təmin edir və bu məqsədlə mümkün olan ən yüksək səviyyədə əməkdaşlıq edir.

Məruzəçilər çıxışlarında iştirakçıların diqqətinə Konvensiyanın müxtəlif fəsillərində bəyan olunan istiqamətlər barədə məlumat vermişlər. Diqqətə çatdırılmışdır ki, bu beynəlxalq akta qoşulan hər bir tərəf cinayətin alət və vasitələrinin, cinayət yolu ilə əldə edilmiş gəlirlərin və ya belə gəlirlər leqallaşdırılmış əmlak dəyərində gəlirlərin və ya əmlakın müsadirəsini mümkün edən qanunvericilik və digər zəruri tədbirləri həyata keçirir. Sonrakı mərhələdə müsadirə tədbirinin həyata keçirilməsinə şərait yaratmaq məqsədilə müsadirə ediləcək əmlakın aşkar edilməsinin, izlənilməsini, dondurulmasını və ya təxirə salınmadan üzərinə həbs qoyulmasını mümkün edən qanunvericilikdə nəzərdə tutulmuş digər zəruri tədbirləri həyata keçirir.

Dondurulma, əmlak üzərinə həbs qoyulması və müsadirə, həmçinin dondurulmuş və üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi və istintaq səlahiyyətləri və metodları barədə Konvensiyanın tələbləri diqqətə çatdırılıb. Bildirilib ki, tərəflər bank sirrinin qorunmasını əsas gətirərək bu maddənin müddəalarının yerinə yetirilməsindən imtina etməməlidir. Gəlirlərin leqallaşdırılması üzrə cinayət əməlləri, hüquqi şəxslərin məsuliyyəti barədə Konvensiyanın tələbləri şərh olunub.

Həmçinin "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli Qanununa müvafiq olaraq Məcəlləyə edilən dəyişikliklər barədə məlumat verilib.

Tədbirlərdə mövzu ilə bağlı müzakirələr aparılaraq iştirakçıların mülahizələri dinlənilib, suallara ətraflı cavablar verilib.

**Baş Prokurorluğun Hüquqi təminat idarəsi**

# Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən müxtəlif sahələr üzrə seminarlar təşkil olunub

*Mülki müdafiə məsələləri üzrə məşğələ keçirilib*

**Baş Prokurorluqda**





Oktyabr 11-də Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi və Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə idarəsinin təşkilatçılığı ilə Baş Prokurorluqda xilasetmə, yanğınsöndürmə, sanitar-hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin üzvlərinə mülki müdafiə üzrə məşğələ keçirilib.

Müraciətlərə baxılması idarəsinin məxfiçilik və mülki müdafiə məsələləri üzrə prokuroru Yadigar Aslanov hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin fövqəladə hallar zamanı yerinə yetirdikləri hərəkətlərin məqsəd və mahiyyəti, aralarında təşkil edilən əlaqələndirmənin zəruriliyi, dəstə komandirlərinin əsas vəzifələri, ilkin qərarların qəbul edilməsi qaydası və digər taktiki məsələlər barədə məlumat verib.

Azərbaycan Respublikası FHN-in Mülki müdafiə idarəsinin şöbə rəisi Fuad Abduraşidov əlavə edib ki, hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin şəxsi heyəti ilə xəbərdarlıq və toplanış məşqlərinin keçirilməsində məqsəd şəxsi heyətin komplektləşdirilməsi, təchizatı, rabitə və xəbərdarlıq sisteminin hazırlığı vəziyyətinin yoxlanılmasının təmini, onların təkmilləşdirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsidir. Ona görə də məşq keçirilərkən mülki müdafiə dəstələrinin şəxsi heyətinin qarşısına qoyulmuş funksional vəzifələrə aid nəzəri biliklərə yiyələnməsinin vəziyyəti və zəruri vərdişləri mənimsəməsinin keyfiyyəti yoxlanılmaqla, məşqin keçirildiyi dövrdə təhlükəsizlik qaydalarına düzgün riayət olunması üzrə tədbirlərin görülməsi təmin edilir.

Mülki müdafiə dəstələrinin şəxsi heyətinin öz vəzifələrindən irəli gələn nəzəri biliklərə yiyələnmələri qənaətbəxş hesab olunub.

# “Arxiv işinin təşkili” mövzusunda seminar keçirilib

### İsmayıllı rayon prokurorluğunda



Oktyabrın 9-da İsmayıllı rayon prokurorluğunda “Arxiv işinin təşkili” mövzusunda seminar keçirilib.

Seminarda İsmayıllı, Ağdaş, Oğuz, Qəbələ, Göyçay, Ağsu və Şamaxı rayon prokurorluqlarının ekspert komissiyalarının sədrləri və dəftərxana müdirləri iştirak ediblər.

Müraciətlərə baxılması idarəsinin böyük prokuroru – arxiv mudiri Pərviz Nərimanov prokurorluq orqanlarında arxiv fondunun formalaşdırılması, mühafizəsi, istifadəsi və arxivlərin fəaliyyəti barədə məlumat verib, "Azərbaycan Respulikası Prokurorlugu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın, "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında sənədlərin saxlanılması müddətlərinə dair Siyahı"nın müvafiq müddəalarını şərh etməklə arxiv işinin təkmilləşdirilməsinə dair tövsiyələr verib. Şəhər və rayon prokurorluqlarının ekspert komissiyaları tərəfindən tərtib edilən sənədlərin məhv edilməsinə dair aktlarda daha cox rastlanan nöqsanlar təhlil edilib izahlar verilmiş, prokurorluq üzrə hüquqi aktların tələblərinin öyrənilməsinin və məhv edilməli olan sənədlərin vaxtında ayrılmasının zəruriliyi vurğulanıb.

Tədbirin sonunda suallar cavablandırılıb.

## "Məxfi kargüzarlıq işinin təşkili" mövzusunda seminar keçirilib

### Tərtər rayon prokurorluğunda



Oktyabrın 28-də Tərtər rayon prokurorluğunda "Məxfi kargüzarlıq işinin təşkili" mövzusunda seminar keçirilib.

Seminarda Tərtər, Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Goranboy, Xocavənd və Xocalı rayon prokurorluqlarının məsul işçiləri və dəftərxana müdirləri iştirak ediblər.

Müraciətlərə baxılması idarəsinin böyük prokuroru (məxfiçilik üzrə) Seyfulla Aslanov prokurorluq orqanlarında məxfiçilik və məxfilik rejiminin təmin olunması, bu sahədə icraya nəzarət və məxfi kargüzarlıq işinin təşkili sahəsində ardıcıl həyata keçirilən tədbirlər barədə məlumat verərək Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 179 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan

hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası"nın tələblərini şərh edib, dövlət sirrinin qorunması və məxfiçilik rejiminə əməl olunmasının təmin edilməsinin vacibliyini vurğulayıb. Eyni zamanda dövlət sirrinin və məxfiçilik rejiminin qorunması qaydalarının, məxfi sənədlərlə işin prosedurlarını tənzim edən normativ hüquqi aktların, Baş Prokurorluq üzrə müvafiq əmr, qaydalar və təlimatların öyrənilməsinin zəruriliyi, icraatda olan məxfi sənədlərin nəzarətdən çıxma imkanının qarşısının alınması, yaxud onların nəzarətdən çıxması faktlarının vaxtında aşkar edilməsi və adekvat tədbirlərin görülməsi üçün həmin sənədlərin mövcudluğunun yoxlanılması qaydasına ciddi əməl edilməsinin, icraçılar tərəfindən icra müddətlərində məxfi sənədlərin etibarlı mühafizəsinin təmin olunmasının əhəmiyyətindən danışılıb.

Sonda verilən suallar cavablandırılıb.

# «Vətəndaşların qəbulu işinin təşkili» mövzusunda seminar keçirilib

## Astara və Kürdəmir rayon prokurorluqlarında



Oktyabrın 23-də Astara, noyabrın 13-də Kürdəmir rayon prokurorluqlarında «Vətəndaşların qəbulu işinin təşkili» mövzusunda seminarlar keçirilib.

Astara rayon prokurorluğunda keçirilən seminarda Biləsuvar, Astara, Yardımlı, Lənkəran, Cəlilabad, Lerik və Masallı rayon prokurorluqlarının işçiləri, Kürdəmir rayon prokurorluğunda təşkil edilən seminarda Şirvan şəhər, Kürdəmir, Hacıqabul, Ağsu, Göyçay, Ucar, İmişli və Zərdab rayon prokurorluqlarının işçiləri iştirak ediblər.

Müraciətlərə baxılması idarəsinin Vətəndaşların qəbulu şöbəsinin böyük prokuroru Yaqut Əliyeva prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə danışıb. Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» əmrin müddəaları şərh edilib. Yuxarı və tabe prokurorluqlara daxil olan müraciətlərlə işin xüsusiyyətləri, vətəndaşların həm prokurorluqda, həm də yaşayış yerlərində qəbulunun prosedurları haqqında danışılıb, qəbulların planlaşdırılması, təşkili və həyata keçirilməsinin xüsusiyyətləri, rayon prokurorlarının və onların vətəndaşların qəbuluna məsul olan köməkçilərinin vəzifələri təhlil edilib. Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin düzgün təşkili və həyata keçirilməsi, təkrar müraciətlərə baxılması proseduru ilə bağlı tövsiyələr verilib. Müraciətlərə baxılması və vətəndaşların qəbulu işində tətbiq edilən müasir informasiya kommunikasiya vasitələrinin əhəmiyyəti vurğulanıb, son illərdə prokurorluq orqanlarında bu sahədə görülən işlər barədə dinləyicilər məlumatlandırılıb. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun əhəmiyyəti barədə danışılaraq onun müddəaları təhlil edilib, yeni Qanunun tətbiqi ilə əlaqədar Baş Prokurorluq üzrə müvafiq əmrdə edilən dəyişikliklərin mahiyyəti açıqlanıb, bu dəyişikliklər nəzərə alınmaqla əmrin tələblərinin tətbiqinə dair zəruri tövsiyələr verilib. Təcrübədə yaranan problemlər müzakirə edilib, tabe prokurorluqların fəaliyyətində daha tez rastlanın nöqsan və pozuntular təhlil edilib.

Sonda suallar cavablandırılıb.

# "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlıq işinin təşkili» mövzusunda seminar keçirilib

## Şirvan şəhər prokurorluğunda

Noyabrın 20-də Şirvan şəhər prokurorluğunda «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlıq işinin təşkili» mövzusunda seminar keçirilib.

Seminarda Şirvan şəhər, Hacıqabul, Saatlı, Sabirabad, Kürdəmir, Biləsuvar, Neftçala, Salyan və İmişli rayon prokurorluqlarının məsul işçiləri və dəftərxana müdirləri iştirak ediblər.

Müraciətlərə baxılması idarəsinin prokuroru Toğrul Əhmədov «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat»ın müddəalarını şərh edərək prokurorluq orqanlarında kargüzarlıq işinin təşkili – daxil olan müraciətlərin qəbulu və qeydiyyata alınması, müraciətlərə baxılması və onların cavablandırılması, müraciətlərlə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi, sənədlərin dövriyyəsinin (hərəkətinin) təşkili, daxil olan sənədlərin qəbulu, ilkin işlənməsi, qeydiyyatı və uçotu, sənədlərə baxılması, icra edilməsi və göndərilməsi, sənədlərin icrasına nəzarət, sənədlərin tərtib edilməsi qaydaları, işlərin nomenklaturunun, işlərin və nəzarət icraatlarının tərtib edilməsi barədə danışıb, kargüzarlıq işinin düzgün təşkilinə və həyata keçirilməsinə dair konkret tövsiyələr verib. Prokurorluq orqanlarında elektron formada aparılan kargüzarlıq işinin qüvvədə olan qanunvericiliyin və «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kargüzarlığın aparılmasına dair Təlimat»ın tələblərinə uyğun olaraq həyata keçirilməsinin zəruriliyi göstərilməklə, kargüzarlığın aparılması işində tətbiq edilən müasir informasiya-kommunikasiya vasitələrinin əhəmiyyəti vurğulanıb, son illərdə prokurorluq orqanlarında bu sahədə görülən işlər barədə məlumat verilib. Təcrübədə yaranan problemlər, tabe prokurorluqların fəaliyyətində daha çox rastlanın nöqsanlar təhlil edilib.

Sonda suallar cavablandırılıb.

**Baş prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Dövlət ittihamçıları "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanununun müddəalarını öyrəniblər

Noyabrın 18-də Azərbaycan Respublikasının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanunun müddəalarının öyrənilməsi ilə əlaqədar Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarədə geniş tərkibdə müşavirə keçirilib.

Tədbirdə idarənin rəhbərliyi və idarənin Birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsi, Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsi, Apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsi və Bakı şəhər prokurorluğunun dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokurorları iştirak ediblər.

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə bağlı məlumat verilib, qanunun müddəaları üzrə təhlil aparılaraq qəbul edilmiş yeniliklərin məhkəmələrdə baxılan cinayət işləri, habelə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında işlər üzrə tətbiqi zamanı gələcəkdə yarana biləcək hüquqi məsələlərə dair vahid mövqe bildirilməsi üçün dövlət ittihamçılarına tövsiyələr verilib, çoxsaylı suallar ətrafında müzakirələr aparılıb.

**Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsi**

# Qusar və Şəmkir rayon prokurorluqlarında bölgə prokurorluqları işçilərinin iştirakı ilə «Azərbaycan Respublikası Prezidentinin «Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə» 10 fevral 2017-ci il tarixli Sərəncamının icrası ilə bağlı prokurorluq orqanlarının üzərinə düşən vəzifələr» mövzusunda seminarlar keçirilib

Dekabrın 22-də Qusar, 26-da Şəmkir rayon prokurorluqlarında «Azərbaycan Respublikası Prezidentinin «Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə» 10 fevral 2017-ci il tarixli Sərəncamının icrası ilə bağlı prokurorluq orqanlarının üzərinə düşən vəzifələr» mövzusunda seminarlar keçirilib.

Qusar rayon prokurorluğunun inzibati binasında keçirilmiş seminarda Sumqayıt şəhər, Abşeron, Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı, Qubadlı, Şuşa, Zəngilan rayon prokurorluqlarının, Şəmkir rayon prokurorluğunun inzibati binasında keçirilmiş seminarda Gəncə şəhər, Ağstafa, Qazax, Daşkəsən,

Şəmkir, Tovuz, Gədəbəy, Goranboy, Göygöl, Samux, Kəlbəcər və Xocalı rayon prokurorluqlarının işçiləri iştirak ediblər.

Qusar rayon prokurorluğunda rayon prokuroru Mübariz Əhmədov, Şəmkir rayon prokurorluğunda rayon prokuroru Azər Hətəmov tərəfindən tədbir açıq elan olunduqdan sonra Baş Prokurorluğun Hüquqi təminat idarəsinin böyük prokuroru Mahir Tağıyev mövzu ilə bağlı geniş məruzə ilə çıxış edərək qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-i il tarixli «Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə» Sərəncamı respublikamızın hüquq və qanunvericilik sistemi üçün çox mühüm və əhəmiyyətli məsələlərə həsr edilib. 10 fevral 2017-i il tarixli Sərəncam ölkənin hüquq sisteminin ən yüksək beynəlxalq tələblər səviyyəsində təkmilləşdirilməsinə yönəlib, bu istiqamətlərdə mühüm əhəmiyyətə malik məsələlərin həlli yollarını müəyyən edən proqram xarakterli, vaxtında qəbul olunmuş çox aktual bir dövlət sənədi olmaqla ölkədə ardıcıl olaraq həyata keçirilən sistemli hüquqi islahatların növbəti mərhələsinin əsasını qoyub. Sərəncam ölkənin hüquq sisteminin müasir dövrün ən yüksək standartları səviyyəsində yenilənməsinin strateji istiqamətlərini müəyyən edən, bu sahədə yol xəritəsi əhəmiyyətinə malik dövlət sənədidir. Sərəncam dövlətimizin həyata keçirdiyi sosialyönümlü siyasətə tam uyğun olaraq insan və vətəndaşın əmin-amanlığına və mənafeyinə xüsusi önəm verərək dövlətin cəza-icra siyasətinin liberallaşdırılması, cinayətlərin dekriminallaşdırılması, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyaya şərait yaradan halların tam aradan qaldırılması və müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üçün kompleks institusional, qanunverici və praktiki tədbirlərin görülməsi nəzərdə tutulmaqla Prezident İlham Əliyevin humanistlik siyasətinin və ölkədə davamlı olaraq həyata keçirilən, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş humanist cəza siyasətinin növbəti təzahürüdür.






Sərəncamda nəzərdə tutulan bir sıra mühüm məsələlər prokurorluq orqanlarının fəaliyyəti ilə bilavasitə bağlı olduğundan bu dövlət orqanı

qarşısında çox ciddi vəzifələr müəyyən edilib. Bu vəzifələrin icrası ilə bağlı görülmüş sistemli və ardıcıl işlər barədə məlumat verilməklə bildirilib ki, Azərbaycan Respublikası Ali Məhkəməsi və Ədliyyə Nazirliyi ilə birlikdə prokurorluq orqanlarının üzərinə düşən, Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı bu dövlət orqanlarının rəhbərlərinin imzaladığı birgə sərəncamla geniş tərkibdən ibarət birgə işçi qrupu yaradılaraq səmərəli fəaliyyət göstərməklə geniş təkliflər paketi hazırlanaraq müvafiq qaydada təqdim edilib. Sərəncamın 12-ci bəndində həbs qətimkan tədbirinin seçilməsi hallarının məhdudlaşdırılması ilə bağlı, həbs qətimkan tədbirinin seçilməsi barədə istintaq orqanının vəsatətlərinə baxılarkən ilk növbədə digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyünün araşdırılmasına dair, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi barədə prokurorun təqdimatının müstəsna hallarda verilməsinə dair prokurorluq orqanlarına xüsusi tövsiyələr verilib ki, onlardan irəli gələn mühüm vəzifələrin icrası istiqamətində intensiv tədbirlər həyata keçirilməklə Baş Prokurorluq üzrə müvafiq əmrlərə bir sıra əhəmiyyətli dəyişikliklər və əlavələr hazırlanıb.

Prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin icrasının təmin edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 10 fevral 2017-ci il tarixli Sərəncamla Baş prokurorun müavininin rəhbərliyi ilə geniş tərkibli işçi qrupu yaradılaraq müvafiq layihələrin hazırlanması təmin edilib. Bununla yanaşı, Prezidentin qeyd olunan Sərəncamından irəli gələn prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin daha səmərəli yerinə yetirilməsi yollarının və mexanizminin müəyyən edilməsi ilə bağlı bir neçə dəfə müvafiq vəzifəli şəxslərin iştirakı ilə əməliyyat müşavirələri keçirilib, müzakirələr aparılıb, o cümlədən 16 fevral 2017-ci il tarixdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Ali Məhkəmənin, Ədliyyə Nazirliyinin, digər hüquq-mühafizə orqanlarının, onların istintaq qurumlarının nümayəndələrinin iştirakı ilə geniş iclas keçirilib. İclasda Azərbaycan Respublikasının Baş prokuroru cənab Zakir Qaralov tərəfindən istintaq qurumlarına cinayət işlərinin istintaqı zamanı ilk növbədə digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyünün nəzərdən keçirilməsi və yalnız bu mümkün olmadıqda və qanuni əsaslar olduqda həbs qətimkan tədbirinin seçilməsinə, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin yalnız müstəsna hallarda seçilməsinə dair konkret göstərişlər verilib. Həmçinin, Azərbaycan Respublikası Baş prokurorunun 31 may 2017-ci il tarixli 10/41 nömrəli əmri ilə Baş prokurorluq üzrə 28 iyul 2010-cu il tarixli 10/70 nömrəli, 01 noyabr 2010-cu il tarixli 10/100 nömrəli, 27 yanvar 2005-ci il tarixli 08/8-09/2s nömrəli və 07 fevral 2005-ci il tarixli 08/16 nömrəli əmrlərə bir sıra dəyişiklik və əlavələr edilməklə prokurorluq orqanlarında Prezidentin Sərəncamının icrası istiqamətində səmərəli fəaliyyətin həyata keçirilməsi prosedurları və mexanizmi nəzərdə tutulub.

Azərbaycan Respublikası Prezidentinin «Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə» 10 fevral 2017-ci il tarixli Sərəncamı insan hüquqlarının daha səmərəli təmin olunmasına, humanizm prinsiplərinin geniş tətbiqinə xidmət etməklə ölkədə cəza-icra siyasətinin təkmilləşdirilməsi üzrə strateji prioritetləri özündə ehtiva edir. Bu strateji əhəmiyyətli konseptual sənədin həyata keçirilməsinin ölkənin hüquq sisteminin inkişafına verdiyi töhfələr artıq özünü göstərir, cinayət qanunvericiliyinə 300-ə yaxın dəyişiklərin edilməsinə dair çox mütərəqqi qanun qəbul edilib, Ədliyyə Nazirliyində cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektli nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədi ilə Probasiya Xidməti yaradılıb, 01.12.2017-ci il tarixdə «Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında» və «Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunları qəbul edilib, digər ciddi işlər görülüb.

Hüquqi təminat idarəsinin prokuroru vəzifəsini icra edən Namiq Əliyev «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 20.10.2017-ci il tarixli Qanunun əsas müddəalarının xüsusiyyətləri barədə məlumat verib.

Mövzusu üzrə müzakirə və fikir mübadiləsi aparılaraq tədbir iştirakçılarının sualları cavablandırılıb, yeni qanunvericiliyin tətbiqi ilə bağlı müvafiq tövsiyələr verilib.

**Baş Prokurorluğun Hüquqi**
**təminat idarəsi**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 20.10.2017-ci il tarixli Qanununun müddəalarından irəli gələn məsələlərə həsr olunan konfrans keçirilib

Dekabrın 22-də "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanununun qəbulu ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunun Tədbirlər Planı"na əsasən «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 20.10.2017-ci il tarixli Qanununun müddəalarından irəli gələn məsələlərə həsr olunan konfrans keçirilib.

Konfransda Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev çıxış edərək qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2017-ci il fevralın 10-da "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam imzalanıb. Həmin Sərəncamla cinayət-hüquq siyasətinin liberallaşdırılması istiqamətində həyata keçiriləcək hüquqi islahatların yeni mərhələsinin başlanğıcını qoyulub. Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında qanunvericilik orqanına təqdim olunmuş "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi Milli Məclisin 20 oktyabr 2017-ci il tarixli iclasında qəbul edilib. Həmin Qanun 1 dekabr 2017-ci ildə qüvvəyə minib. Qanun demokratik məzmununa, sosial mahiyyətinə, cinayət qanunvericiliyinə edilən yeniliklərin sayına və həcminə görə bu qanunvericilik sahəsinin indiyədək mövcud olmuş təkmilləşdirilməsi təcrübəsində ən önəmli yer tutur.

Qanuna əsasən, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə ümumilikdə 300-ə yaxın dəyişiklik edilərək, Məcəllədə indiyədək nəzərdə tutulmuş 18 cinayət əməli dekriminallaşdırılmış, cinayət məsuliyyətinə alternativ olan tədbirlərin tətbiqi əsasları genişləndirilərək 24 cinayətə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi, 25 cinayətə görə ziyanın ödənilməsi və dövlət büdcəsinə ödənişin edilməsi, 2 cinayətə görə məhkəmə qərarının icrası və ya əmək müqaviləsinin bağlanması şərti ilə cinayət məsuliyyətindən azad etmə, 1 cinayətə görə narkomaniya xəstəliyinə düçar olmuş təqsirləndirilən şəxsin tibbi xarakterli məcburi müalicə tədbirlərinin tətbiqindən sonra sağaldıqda cinayət məsuliyyətindən azad edilməsi təsbit olunmuş, 152 cinayətin sanksiyasına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə edilməsi, 36 cinayətə görə isə azadlıqdan məhrum etmə cəzasının daha az müddətlərinin müəyyən edilməsi yolu ilə yüngülləşdirilməsi nəzərdə tutulub.

Cinayət Məcəlləsinin Xüsusi hissəsində 36 cinayətə görə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının müəyyən edilmiş hədlərinin azaldılması nəticəsində 18 cinayət əməli az ağır cinayətlər kateqoriyasından böyük ictimai təhlükə törətməyən cinayətlər kateqoriyasına, 4 cinayət əməli ağır cinayətlər kateqoriyasından az ağır cinayətlər kateqoriyasına, 1 cinayət əməli xüsusilə ağır cinayət kateqoriyasından ağır cinayət kateqoriyasına keçirilib, 13 cinayətə görə isə azadlıqdan məhrumetmə cəzasının nəzərdə tutulmuş müddətlərinin həmin cinayətlərin kateqoriya dəyişikliyinə səbəb olmayan həddə azaldılması həyata keçirilib.

Qəbul olunmuş Qanunla azadlıqdan məhrumetmə cəzasının tətbiqi hallarının azaldılması və sanksiyalara alternativ cəza növlərinin daxil edilməsi məqsədilə Cinayət Məcəlləsinə yeni növ cəza daxil edilib. Bu, məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarət olan azadlığın məhdudlaşdırılması cəzasıdır.

Aparılmış təhlillər göstərib ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində mövcud olan cinayət tərkiblərinin 60 faizinin sanksiyasında azadlıqdan məhrumetmə alternativsiz olaraq yeganə cəza növü kimi nəzərdə tutulurdu. Bu tərkiblərin təqribən 40 faizini böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlər təşkil edirdi. Sanksiyalarda

alternativ cəzaların olmaması son nəticədə azadlıqdan məhrum edilmiş şəxslərin sayının artmasına səbəb olurdu. Yeni müəyyən edilmiş azadlığın məhdudlaşdırılması cəzası məhz bu problemin aradan qaldırılmasında mühüm vasitə olacaq. Cinayət Məcəlləsinin ümumilikdə 140-dan artıq maddəsində azadlığın məhdudlaşdırılması alternativ cəza növü kimi sanksiyalara daxil edilib. Bundan əlavə, daha 80 cinayətin sanksiyasına azadlıqdan məhrumetməyə alternativ olan cərimə və digər cəzalar daxil edilibdir. Qanunda mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində törədilən bir sıra cinayətlərə münasibətdə qanunvericilik liberallaşdırılıb, yeni qaydalar müəyyənləşdirilmişdir. Belə ki, oğurluğa görə cinayət məsuliyyəti qanunda nəzərdə tutulmuş istisnalar nəzərə alınmaqla oğurlanmış əmlakın dəyəri 500 manatdan yuxarı olduqda yaranır. Əvvəllər isə belə məsuliyyət 100 manatdan yuxarı olduqda yaranırdı.

Qanunda dələduzluq, mənimsəmə və ya israf etmə, əmlakı qəsdən və ya ehtiyatsızlıqdan məhv etmə və ya zədələmə, əmlakı ehtiyatsızlıqdan külli miqdarda məhv etmə və ya zədələmə, təbii qazın, suyun, elektrik və ya istilik enerjisinin xeyli və külli miqdarda talanması cinayətlərini törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulub. Ağırlaşdırıcı hallarda yuxarıda qeyd olunan cinayətləri törətmiş şəxsin zərərçəkmiş şəxslə barışması, dəymiş zərəri tamamilə ödəməsi və cinayət nəticəsində vurulmuş ziyanın bir misli miqdarında dövlət büdcəsinə ödəniş etməsi halında da cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulub. Xüsusilə ağırlaşdırıcı hallarda yuxarıda qeyd olunan cinayətləri törətmiş şəxslərin zərərçəkmiş şəxslə barışması, dəymiş zərəri tamamilə ödəməsi və cinayət nəticəsində vurulmuş ziyanın iki misli miqdarında dövlət büdcəsinə ödəniş etməsi halında isə cinayət məsuliyyətindən azad edilə bilməsi nəzərdə tutulub.

İqtisadi fəaliyyət sahəsində törədilmiş cinayətlərə görə də məsuliyyət liberallaşdırılıb, vurulmuş zərərin ödənilməsi hallarında cinayət törətmiş şəxslərin cinayət məsuliyyətindən azad olunması ilə bağlı yeni qaydalar müəyyən olunub. Belə ki, xeyli və külli miqdarda gömrük ödənişlərinin ödənilməsindən yayınma, xeyli, külli və xüsusilə külli miqdarda vergi ödəməkdən yayınma cinayəti törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir. Bundan başqa, qanunsuz sahibkarlıq, qanunsuz olaraq lotereyaların və idman mərc oyunlarının təşkili və ya keçirilməsi, yalançı sahibkarlıq, qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə, dövlət borcundan və ya dövlət zəmanəti ilə alınmış borcdan istifadə qaydalarını pozma, kreditor borclarını ödəməkdən qəsdən yayınma, əmtəə nişanlarından qanunsuz istifadə etmə, bilə-bilə yalan reklam etmə, insayder tərəfindən insayd məlumatdan qanunsuz istifadə, qiymətli kağızların buraxılması (emissiyası) qaydalarını pozma, qiymətli kağızlar bazarında manipulyasiyalar, nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanması, istifadəsi və satışı, təkrar və xüsusilə külli miqdarda gömrük ödənişindən yayınma, müflisləşmə zamanı qanunsuz hərəkətlər, qəsdən müflisləşmə, saxta müflisləşmə, qiymətli metalları və qiymətli daşları dövlətə satmaqdan yayınma cinayətini törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə də cinayət məsuliyyətindən azad edilir.

Qanunla zərərçəkmiş şəxslə barışma institutu təkmilləşdirilmiş, 20-dən artıq cinayət üçün zərərçəkmiş şəxslə barışmaqla və ziyanın ödənilməsi şərti ilə cinayət məsuliyyətindən azadetmə imkanı müəyyən olunub. Qanunla narkomanlar da məcburi müalicə ediləcəkdir. Belə ki, satış məqsədi olmadan narkotik vasitə əldə etmə cinayəti törətmiş, əməlində başqa cinayət tərkibi olmayan narkomanlıq xəstəliyinə düçar olmuş şəxsə stasionar qaydada tibbi xarakterli məcburi müalicə tədbirləri tətbiq ediləcək, şəxs sağaldıqda isə cinayət məsuliyyətindən azad ediləcəkdir. Bu qaydada məsuliyyətdən azad edilmək imkanı şəxsə yalnız bir dəfə verilir. Müalicədən yayınan şəxslərin isə cinayət məsuliyyətinə cəlb edilməsi nəzərdə tutulub.

Qeyd olundu ki, göstərilən istər mülkiyyət əleyhinə, istərsə də iqtisadi fəaliyyət sahəsində törədilmiş cinayətlərə görə yalnız bir dəfə cinayət məsuliyyətindən azad etmə nəzərdə tutulub. Ona görə də ümid edirik ki, istər vətəndaşlarımız, istərsə də sahibkarlar dövlət başçısı cənab İlham Əliyevin atdığı növbəti humanist addımdan bəhrələnəcək, qanunun tələblərinə ciddi əməl edəcəklər. Həyatda bir dəfə etdiyi səhvləri bir daha təkrarlamayacaqlar.

Sonra mövzu ətrafında çıxışlar edildi.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Naxçıvan Muxtar Respublikasının Prokurorluq orqanlarında "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanununun müddəaları öyrənilib

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanununun qəbulu ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunun Tədbirlər Planı"na əsasən, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20.10.2017-ci il tarixli Qanununun öyrənilməsi üzrə Şərur, Kəngərli və Sədərək rayon prokurorluqları işçilərinin iştirakı ilə noyabrın 17-də Şərur rayon prokurorluğunda, Naxçıvan şəhər, Babək və Şahbuz rayon prokurorluqları işçilərinin iştirakı ilə dekabrın 4-də Naxçıvan şəhər prokurorluğunda tədbir keçirilib.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamı ölkə başçısı cənab İlham Əliyevin humanist siyasətinin növbəti təzahürü olmaqla dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi cinayət təqibi və cəzaların icrası sahələrində hüquq islahatlarının yeni mərhələsidir. Sərəncamda cinayət-hüquq siyasətinin liberallaşdırılması, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılması, cinayətlərin dekriminallaşdırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üçün kompleks institusional tədbirlərin görülməsi nəzərdə tutulub.

Sərəncamın icrası ilə əlaqədar qəbul olunmuş "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə Cinayət Məcəlləsinə edilmiş dəyişikliklər cinayətlərin, xüsusilə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində bəzi cinayətlərin dekriminallaşdırılmasım, cinayətlərin sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə olunmasını, alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsini, bu məqsədlə Cinayət Məcəlləsinə yeni cəza növü kimi-məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarət olan azadlığın məhdudlaşdırılması cəzasının daxil edilməsini, zərərçəkmiş şəxslə barışıq institutunun daha da təkmilləşdirilməsini və digər məsələləri əhatə edib. Qanuna əsasən, Cinayət Məcəlləsinə ümumilikdə 300-ə yaxın dəyişiklik edilmiş, 18 cinayət əməli dekriminallaşdırılmış, 24 cinayətə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi, 25 cinayətə görə ziyanın ödənilməsi və dövlət büdcəsinə ödəniş edilməsi, 2 cinayətə görə məhkəmə qərarının icrası və ya əmək müqaviləsinin bağlanması şərti ilə cinayət məsuliyyətindən azad etmə müəyyən olunmuş, 1 cinayətə görə narkomanlıq xəstəliyinə düçar olmuş təqsirləndirilən şəxsin tibbi xarakterli məcburi müalicə tədbirlərinin tətbiqindən sonra sağaldıqda cinayət məsuliyyətindən azad edilməsi, 152 cinayətin sanksiyasına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə edilməsi və 36 cinayətə görə azadlıqdan məhrum etmə cəzasının yüngülləşdirilməsi nəzərdə tutulub.

Sonra Cinayət Məcəlləsinə edilmiş dəyişikliklər barədə suallar caavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Naxçıvan Muxtar Respublikasının Prokurorluq işçiləri “Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ)” mövzusu üzrə təlimdə iştirak ediblər




Oktyabrın 5-də Avropa İttifaqının və Avropa Şurasının Birgə Proqramının Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları layihəsi çərçivəsində Avropa Şurası, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyasının təşkilatçılığı ilə Naxçıvan şəhərində “Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ)” mövzusunda iki günlük təlim təşkil olunub.

Tədbirdə HELP-in (Hüquqşünaslar üçün insan hüquqlarının tədrisi üzrə Avropa Proqramı) təqdimatı keçirilib. Bu proqramın Azərbaycan vəkilləri üçün əlaqələndiricisi Fərhad Nəcəfov bildirilib ki, proqram Avropa Şurasının üzvü olan ölkələrdə məhkəmə-hüquq sahəsində çalışan peşəkar əməkdaşlar üçün ixtisasartırma vasitəsidir. HELP milli bacarıqlardan istifadə etməklə milli tədris institutları vasitəsilə ümumi tədris proqramı həyata keçirir. Bu çərçivədə təhsil, ailə hüququ, məhkəmə-hüquq, beynəlxalq əməkdaşlıq, presedent hüquqla bağlı bir sıra distant kurslar təşkil edilir. Kursların sonunda iştirakçılar müəyyən meyarlar üzrə qiymətləndirilir və onlara sertifikatlar təqdim olunur.

Təlimdə “İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə ərizələrin qəbuledilənlik meyarları: 6-cı maddənin ümumi hissəsi. Maddənin əhatə dairəsi” mövzusunda təlimçi Şəlalə Quluzadənin təqdimatı olub. Təqdimat zamanı iştirakçıların diqqətinə çatdırılıb ki, Avropa İnsan Hüquqları Məhkəməsi yalnız Avropa İnsan Hüquqları Konvensiyasında müəyyən olunmuş hüquqlarının pozulduğunu iddia edən şəxs, təşkilat və şirkətlərdən gələn şikayətlərə baxan beynəlxalq məhkəmədir. Konvensiya bir çox Avropa dövlətlərinin müəyyən əsas hüquqların təmin edilməsi barədə razılığa gəldiyi beynəlxalq müqavilədir. Məhkəmənin hər növ şikayətlərə baxmaq səlahiyyəti yoxdur. Onun səlahiyyətləri Konvensiyada nəzərdə tutulmuş kimin, nə zaman və nə barədə şikayət etmək qabiliyyətini məhdudlaşdıran qəbuledilənlik meyarları ilə müəyyənləşir. Məhkəmə tərəfindən baxılan ərizələrin 90 faizindən çoxu qəbuledilməz elan olunur. Bu səbəbdən məhkəməyə müraciət etmədən öncə şikayətlər qəbuledilənlik tələblərinə uyğun olmalıdır.

Tədbirdə təlimçilərdən Nihad Əliyev və Nuranə İbadova tərəfindən “6-cı maddənin ümumi hissəsi: “Mülki hüquq və vəzifələr” və “Cinayət ittihamı” məhkəməyə müraciət hüququ. İşə “ağlabatan müddətdə” baxılması”, “Ədalətli məhkəmə araşdırmasının ümumi tələbləri: Qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə, çəkişmə prinsipi, tərəflərin bərabərliyi”, “Ədalətli məhkəmə araşdırmasının ümumi tələbləri: açıq məhkəmə araşdırması, “Susmaq hüququ və öz əleyhinə ifadə verməmək hüququ, əsaslandırılmış məhkəmə qərarı” mövzularında təqdimatlar olub, təlim iştirakçılarının sualları cavablandırılıb.

Təlimin birinci gününün sonunda qruplarda kazusun müzakirəsi aparılıb. Təlimin ikinci günündə təqsirsizlik prezumpsiyası, müdafiə hüquqları–nədə təqsirləndirilmək barədə dərhal məlumatlandırmaq, müdafiənin hazırlanması üçün kifayət qədər vaxt və imkana malik olmaq, şəxsən və ya müdafiəçinin yardımı ilə müdafiə olunmaq, tərcüməçi ilə təmin olunmaq hüququ, şahidlərin dindirilməsi, sübutlar haqqında təqdimatlar keçirilib, kazus üzərində çalışmalar olub. Yekunda isə qazanılan biliklər qiymətləndirilərək sertifikatlar təqdim edilib.

**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun Hüquqi təminat**
**və informasiya şöbəsi**

# Baş Prokurorluğun nümayəndə heyəti MDB iştirakçı dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının iclasında iştirak edib



Noyabrın 29-da Sankt-Peterburq şəhərin¬də Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının (BPƏŞ) 27-ci iclası keçirilib.

MDB prokurorluq orqanlarının əməkdaşlarının iştirak etdiyi tədbirdə ölkəmizi Baş prokurorun birinci müavini Rüstəm Usubovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Baş prokurorun birinci müavini çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə-hüquq islahatlarının uğurla davam etdiyini vurğulayaraq, “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” 2017-ci il 10 fevral tarixli sərəncamdan sonra ölkəmizdə həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib.

Bildirilib ki, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanunu ölkəmizin humanist siyasətinin növbəti təzahürü olmaqla, həyata keçirilən sistemli və genişmiqyaslı hüquqi islahatların tərkib hissəsi, eyni zamanda cinayət təqibi və cəzaların icrası sahəsində hüquqi islahatların yeni mərhələsidir.

Ölkəmizdə prokurorluq orqanlarının fəaliyyəti barədə məlumat verən nümayəndə heyətinin rəhbəri Azərbaycan Prokurorluğunun ibtidai istintaq və məhkəmələrdə dövlət ittihamının müdafiəsi



sahələrində mütərəqqi təcrübə əldə edildiyini iclas iştirakçılarının diqqətinə çatdırıb, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun davamlı şəkildə öyrənilərək tətbiq edilməsinə xüsusi önəm verildiyini qeyd edib.

İclasda, həmçinin "Mədəni irsin qorunmasında dövlətin məsuliyyəti və prokurorluğun rolu" (Belarus Respublikası), "Cinayət prosesinin sadələşdirilməsi və tezləşdirilməsi" (Qazaxıstan Respublikası), "İşgəncələrə qarşı mübarizə" (Qırğızıstan Respublikası), "Prokurorluq orqanlarında informasiya təminatı işinin təşkili: yeni metod və formalar" (Rusiya Federasiyası), "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə" (Tacikistan Respublikası), "Sahibkarların hüquq və qanuni mənafelərinin qorunması" (Özbəkistan Respublikası) və sair mövzularda çıxışlar dinlənilib, fikir mübadiləsi aparılıb.

Yekunda Rusiya Federasiyasının Baş prokuroru Yuri Çayka növbəti bir il müddətinə yenidən Şuranın sədri seçilmiş və təşkilatın 2018-ci ildəki iclasının Tacikistanın paytaxtı Düşənbə şəhərində keçirilməsi qərara alınıb.

Noyabrın 30-da Beynəlxalq Prokurorlar Assosiasiyasının Sankt-Peterburqda yerləşən ilk regional ofisinin açılış mərasiminə qatılan Azərbaycan nümayəndə heyəti qurumun Prezidenti Gerhard Yaroş, icraçı direktoru xanım Yanne Hübner və digər rəsmi şəxslərlə görüş keçirilib.

Nümayəndə heyətimiz həmin tədbirdə, eləcə də Sankt-Peterburqda eyni vaxtda keçirilən Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş Prokurorlarının 15-ci iclasında iştirak edən ölkələrin, o cümlədən Rusiya, Çin, Pakistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Monqolustan və Tacikistanın nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirib, ikitərəfli əməkdaşlığın inkişafı ilə bağlı faydalı fikir mübadiləsi aparılıb.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Baş Prokurorluğun nümayəndə heyəti Ukraynada səfərdə olub







Oktyabrın 9-10-da Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanovun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan və Ukrayna prokurorluqları arasında cinayət işləri üzrə hüquqi yardım sahəsində təcrübə mübadiləsinin genişləndirilməsi və qarşılıqlı əməkdaşlığın səmərəliliyinin artırılması məqsədilə Kiyev şəhərində səfərdə olub.

Səfər zamanı Azərbaycan nümayəndə heyəti ilə görüşən Ukrayna Baş prokurorunun müavini Yevgeniy Yenin ölkələrimiz arasında bütün sahələrdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini, o cümlədən hüquq-mühafizə orqanları ilə əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanov Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun salamlarını çatdıraraq cari ilin fevralında Ukraynanın Baş prokuroru Yuriy Lutsenkonun ölkəmizə səfərinin qarşılıqlı münasibətlərin inkişafına yeni təkan verdiyini vurğulayıb. Görüş zamanı cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya və digər məsələlər müzakirə edilib, prokurorluqların gələcək əməkdaşlığının perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Nümayəndə heyəti Ukrayna Baş Prokurorluğunun Xüsusi Antikorrupsiya Prokurorluğunda görüşlər keçirib, korrupsiya ilə mübarizə sahəsində bu ölkənin təcrübəsi ilə tanış olub. Hər iki tərəfin nümayəndələri korrupsiyaya qarşı mübarizə sahəsində prokurorluqlar arasında əlaqələrin vacibliyini vurğulayıb.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Baş Prokurorluğun nümayəndəsi beynəlxalq tədbirdə iştirak edib

Noyabrın 23-24-də Fransanın Strasburq şəhərində Avropa Şurası Avropa Prokurorlarının Məşvərətçi Şurasının (APMŞ) 12-ci plenar iclası keçirilib.

Plenar iclasda ötən bir il ərzində müxtəlif beynəlxalq tədbirlərdə Şuranın fəaliyyətinin işıqlandırılmasına nəzər yetirilmiş və təşkilatın sayca 12-ci rəyi müzakirə olunaraq qəbul edilib. "Cinayət prosesində qurbanların və şahidlərin hüquqları ilə bağlı prokurorların rolu" adlanan sənəddə qurban və şahidlərin hüquqları və müdafiə mexanizmləri, prokurorların həmin şəxslərin hüquqlarının qorunmasında rolu, xüsusilə həssas qrup qurbanların (terrorizm, insan alveri, məişət zorakılığı, cinsi istismar) müdafiəsi və reabilitasiyası və bu sahədə beynəlxalq əməkdaşlıq məsələləri öz əksini tapıb.

Tədbirdə Azərbaycan Prokurorluğunu təmsil edən Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanov çıxış edərək ölkəmizdə sözügedən sahələrdə qəbul edilmiş qanunvericilik və normativ aktlar, milli fəaliyyət planları, o cümlədən insan alverinə qarşı mübarizə sahəsində görülmüş işlər və əldə edilmiş nəticələr barədə ətraflı məlumat verib.

Sənədin müzakirəsi zamanı ümumi rəy üzrə müvafiq müddəaların qəbul olunmasında ölkəmizin müsbət təcrübəsi nəzərə alınıb.

İclasın sonunda keçirilən səsvermə nəticəsində Piter MakKormik (İrlandiya) növbəti 1 il müddətinə yenidən APMŞ-nin prezidenti, Xose Manuel Santos Pais (Portuqaliya) isə vitse-prezidenti seçiliblər.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Azərbaycanın nümayəndə heyəti Kibertəhlükəsizlik və Kibercinayətkarlığa həsr olunan beynəlxalq forumda iştirak edib




Oktyabrın 30-u və noyabrın 1-də Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində Avropa Şurasının təşkilatçılığı ilə «Cybercrime@EAP III» layihəsi çərçivəsində Kibertəhlükəsizlik və Kibercinayətkarlıq üzrə IV Cənubi Şərqi Avropa Regional Forumu keçirilib.

Seminarda Türkiyə, Ukrayna, Moldova, Belarus və digər dövlətlərin hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak etmişlər.

Ölkəmizi tədbirdə Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin Beynəlxalq hüquqi əməkdaşlıq və protokol Xidmətinin rəhbəri İsmayıl Qayıbov, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliklərinin məsul işçiləri təmsil ediblər.

Tədbirdə dünyada kibercinayətkarlığa qarşı mübarizənin vəziyyəti, virtual/kripto

valyutalar, onlayn formada çirkli pulların yuyulması, elektron sübutların toplanması, Kibercinayətkarlığa qarşı Konvensiyaya qoşulmuş ölkələrdə fəaliyyət göstərən provayderlərlə iş birliyi və qarşılıqlı əməkdaşlığın, həmçinin yardımın göstərilməsi mövzularında müxtəlif çıxışlar səslənib.

İsmayıl Qayıbov mövzu ilə əlaqədar təqdimatla çıxışında kibercinayətkarlıqla mübarizə sahəsində respublikamızda aparılan mübarizə haqqında məlumat verib, sualları cavablandırıb.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

## Baş Prokurorluğun nümayəndələri Beynəlxalq antikorrupsiya tədbirində iştirak ediblər

Noyabrın 15-17-də Portuqaliya Respublikasının paytaxtı Lissabon şəhərində Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsi (EACN) tərəfindən Portuqaliyanın Daxili İşlər Nazirliyinin dəstəyi ilə 17-ci illik Peşəkar Konfrans və Baş Assambleyasının növbəti iclası keçirilib.

Tədbirdə Avropanın 35 ölkəsindən olan 160-a yaxın nümayəndələr, korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşan beynəlxalq qurumlar və vəzifəli şəxslər iştirak ediblər.

Ölkəmizi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əməliyyat təminatı şöbəsinin rəisi Fuad Rəsulov və Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Elnur Hümbətov təmsil ediblər.

Portuqaliyanın Daxili İşlər Naziri Eduardo Kabrita və Avropa Tərəfdaşları Təşkilatı və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin prezidenti Andreas Vieselhalerin Assambleya iştirakçılarını salamlaması ilə öz işinə başlayan iclasda Avropada və dünyada korrupsiyaya qarşı mübarizə səylərinin inkişafının ölçülməsi, korrupsiyaya qarşı mübarizə sahəsində təşkilata üzv ölkələr tərəfindən əldə olunmuş ən yüksək təcrübələrin öyrənilməsi, dünya ölkələrində korrupsiya hüquqpozmalarına şərait yaradan halların aradan qaldırılması, elektron dövlətin rolu, şəffaflığın təmin olunması, vəzifəli şəxslərin xidməti fəaliyyətinin, peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydalarının pozulmasının qarşısının alınması, vətəndaş-məmur münasibətlərində etik normalara əməl olunması kimi preventiv tədbirlərin həyata keçirilməsi və digər bu kimi aktual mövzular müzakirə edilib, risklərin idarə və analiz edilməsi, eləcə də məlumatların qorunması üzrə işçi qruplar tərəfindən aparılan təhlillərin nəticələri dinlənilib.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti tərəfindən korrupsiyaya qarşı mübarizə üzrə ölkəmizdə aparılan mütərəqqi tədbirlər, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan institusional və qanunvericilik islahatları, o cümlədən Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və "ASAN xidmət" haqqında verilən məlumatlar böyük marağa səbəb olub, qeyd edilən nailiyyətləri özündə əks etdirən buklet və broşürlər tədbir iştirakçılarına təqdim edilib.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Azərbaycanlı məzunlara Beynəlxalq Antikorrupsiya Akademiyasının diplomları təqdim olunub

Dekabrın 7-də Beynəlxalq Antikorrupsiya Akademiyasının Avstriyada yerləşən mənzil qərargahında magistr proqramını başa vurmuş məzunların növbəti buraxılış mərasimi keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin köməkçisi Sərvan Cəfərov, Baş Prokurorluğun Kadrlar idarəsinin rəis müavini Günay İsmayılovaya və Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Toğrul Muxtarova Akademiyanın magistr diplomları təqdim olunmuşdur.

**Baş Prokurorluğun Kadrlar idarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 508-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 125; 2005, № 4, maddə 285, № 10, maddə 876; 2007, № 10, maddə 934, № 12, maddə 1219; 2013, № 6, maddə 595; 2016, № 11, maddə 1762) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Preambula üzrə:

**1.1.** birinci abzasa "özünüidarəetmə orqanlarının," sözlərindən sonra "publik hüquqi şəxslərin (bundan sonra – qurum)," sözləri əlavə edilsin;

**1.2.** ikinci abzasa "orqanlarına" sözündən sonra "və yerli özünüidarəetmə orqanlarına, qurumlara" sözləri, "özünüidarəetmə orqanlarında" sözlərindən sonra ", qurumlarda" sözü əlavə edilsin.

**2.** 1-ci, 9.3.2-ci və 9.3.5-ci maddələrə "orqanın" sözündən sonra "(qurumun)" sözü əlavə edilsin.

**3.** Aşağıdakı məzmunda 2.1.7-1-ci maddə əlavə edilsin:

**"2.1.7-1.** qurumların rəhbərləri və işçiləri, o cümlədən qurumlarda xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər;".

**4.** 4-cü maddənin adına "orqanlar" sözündən sonra "(qurumlar)" sözü əlavə edilsin.

**5.** 4.1-ci maddənin birinci cümləsinə "orqanları" sözündən sonra ", yerli özünüidarəetmə orqanları, qurumlar" sözləri əlavə edilsin.

**6.** 8.2-ci maddənin ikinci cümləsində "və ya yerli özünüidarəetmə orqanına" sözləri ", yerli özünüidarəetmə orqanına və ya quruma" sözləri ilə əvəz edilsin.

**7.** 8.5-ci maddənin ikinci cümləsinə "orqanına" sözündən sonra ", yerli özünüidarəetmə orqanına və ya quruma" sözləri əlavə edilsin.

**8.** 9.3.4-cü maddədə "orqanın" sözündən sonra "(qurumun)" sözü əlavə edilsin və "orqanlarının" sözündən sonra ", yerli özünüidarəetmə orqanlarının və ya qurumların" sözləri əlavə edilsin.

**9.** 9.3.7-ci maddəyə "orqanların" sözündən sonra "(qurumların)" sözü əlavə edilsin.

**10.** 9.3.10-cu maddədə "orqanları və ya yerli özünüidarəetmə orqanlarının" sözləri "orqanlarının, yerli özünüidarəetmə orqanlarının və ya qurumların" sözləri ilə əvəz edilsin.

**11.** 9.3.11-ci maddədə "və ya yerli özünüidarəetmə orqanlarının" sözləri ", yerli özünüidarəetmə orqanlarının və ya qurumların" sözləri ilə əvəz edilsin.

**12.** 12.1-ci maddənin ikinci cümləsinə "orqanlarının" sözündən sonra ", yerli özünüidarəetmə orqanlarının və ya qurumların" sözləri əlavə edilsin.

**13.** 13-cü maddədə "orqanları" sözündən sonra ", yerli özünüidarəetmə orqanları və ya qurumlar" sözləri əlavə edilsin, "edilə bilər" sözləri "edilir" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 oktyabr 2017-ci il
№ 786-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 5, maddələr 703, 735, № 6, maddə 1035) 148.3-cü maddəsindən ", notariat hərəkətləri aparan digər vəzifəli şəxslər" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 oktyabr 2017-ci il
№ 797-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004, № 11, maddə 1789, № 12, maddə 2033; 2017, № 6, maddələr 1034, 1305) 5-ci maddəsinin ikinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Birinci cümlədə "Kassasiya" sözü "İnzibati-iqtisadi məhkəmələrin iqtisadi mübahisələrlə bağlı qərarları, habelə kassasiya" sözləri ilə əvəz edilsin.

**2.** İkinci cümlədə "Bu qərarlarla" sözləri "Kassasiya və apellyasiya instansiyası məhkəmələrinin qərarları ilə" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2017-ci il
№ 813-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 357-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 9, maddə 1559, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 61.1.9-cu, 62.2.9-cu və 65.4.7-ci maddələrdə "yol hərəkəti qaydaları əleyhinə törədilən inzibati xəta" sözlərindən sonra ", yaxud bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xəta" sözləri əlavə edilsin.

**2.** 81.2-ci maddədə "qaydaları" sözündən sonra "və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları" sözləri əlavə edilsin.

**3.** 96.1.6-cı maddədə, 150.11-ci maddənin birinci və yeddinci cümlələrində və 529.3-cü maddədə "xətaların" sözündən sonra ", yaxud bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın" sözləri əlavə edilsin.

**4.** 125.7-ci, 152.5-ci və 339.5-ci maddələrdə "əleyhinə olan inzibati xəta" sözlərindən sonra ", yaxud bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xəta" sözləri əlavə edilsin.

**5.** 529.1-ci və 529.2-ci maddələrdə "xətaların" sözlərindən sonra "və bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2017-ci il
№ 814-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12,

maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 16.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"16.3.** Əvvəllər törətdiyi cinayətə görə məhkum olunmuş, məhkumluğu götürülmüş və ya ödənilmiş, yaxud cinayət məsuliyyətindən azad olunmuş şəxs tərəfindən bu Məcəllənin eyni bir maddəsi ilə nəzərdə tutulmuş və ya həmin Məcəllənin Xüsusi hissəsində birbaşa göstərilən hallarda müxtəlif maddələri ilə nəzərdə tutulmuş cinayətin yenidən törədilməsi, cinayətin təkrar törədilməsi hesab edilmir.";

**1.2.** 18.4-cü maddə üzrə:

**1.2.1.** 18.4.1-ci və 18.4.2-ci maddələrdə "cinayətlərə görə məhkumluqlar" sözləri "cinayətlər" sözü ilə əvəz edilsin;

**1.2.2.** 18.4.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 18.4.4-cü maddə əlavə edilsin:

**"18.4.4.** azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza təyin edilmiş cinayətlərə görə məhkumluqlar.";

**1.3.** aşağıdakı məzmunda 42.0.9-1-ci maddə əlavə edilsin:

"42.0.9-1. azadlığın məhdudlaşdırılması;";

**1.4.** 43.1-ci maddədə "saxlama," sözündən sonra "azadlığın məhdudlaşdırılması," sözləri əlavə edilsin;

**1.5.** 44.4-cü maddədə "islah işləri" sözlərindən sonra ", azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.6.** 46.3-cü maddənin ikinci cümləsində "Bu cəza növünün" sözlərindən sonra "cərimə və" sözləri əlavə edilsin;

**1.7.** 47-ci maddə üzrə:

**1.7.1.** 47.1-ci maddənin ikinci cümləsi çıxarılsın;

**1.7.2.** 47.3-cü maddənin birinci cümləsində "hissəsini" sözündən sonra "azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin və ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Bu zaman məhkumun ictimai işləri yerinə yetirdiyi müddət nəzərə alınır və çəkilməmiş dörd saat ictimai işə bir gün azadlığın məhdudlaşdırılması və ya səkkiz saat ictimai işə bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır.";

**1.7.3.** 47.4.3-cü maddədə "səkkiz" sözü "üç" sözü ilə əvəz edilsin və "qadınlara" sözündən sonra ", habelə üç yaşınadək uşağı təkbaşına böyüdən kişilərə" sözləri əlavə edilsin;

**1.7.4.** 47.4.5-ci maddədə "qulluqçulara" sözündən sonra "və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına" sözləri əlavə edilsin;

**1.8.** 48-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

**"48.0.** Ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxsin məhkum olunması zamanı məhkəmə cinayətin ictimai təhlükəliliyinin xarakterini və dərəcəsini, təqsirkarın şəxsiyyətini və işin digər hallarını nəzərə alaraq onun xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsinin zəruriliyi nəticəsinə gəldikdə aşağıdakı qərarlardan birini qəbul edir:

**48.0.1.** müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş ali xüsusi və ya ali hərbi rütbədən, yaxud fəxri addan və ya dövlət təltifindən məhrum edilməsi məsələsinə baxılması üçün bu barədə həmin orqana təqdimat göndərilməsi haqqında qərar;

**48.0.2.** digər dövlət orqanı tərəfindən verilmiş xüsusi və ya hərbi rütbədən, yaxud təltifdən məhrum edilməsi haqqında qərar.";

**1.9.** 49-cu maddə üzrə:

**1.9.1.** 49.3-cü maddənin birinci cümləsində "hissəsini" sözündən sonra "azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin və ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Bu zaman məhkumun islah işlərini yerinə yetirdiyi müddət nəzərə alınır və çəkilməmiş iki gün islah işlərinə bir gün azadlığın məhdudlaşdırılması və ya üç gün islah işlərinə bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır.";

**1.9.2.** aşağıdakı məzmunda 49.4-cü maddə əlavə edilsin:

**"49.4.** İslah işləri birinci qrup əlillərə və hərbi qulluqçulara təyin edilmir.";

**1.10.** 50-ci maddə üzrə:

**1.10.1.** 50.1-ci maddədən hər iki halda "kontrakt (bağlaşma) əsasında hərbi xidmət keçən və" sözləri çıxarılsın;

**1.10.2.** 50.2-ci maddədə "qazancından" sözü "aylıq pul təminatından" sözləri ilə əvəz edilsin;

**1.10.3.** aşağıdakı məzmunda 50.4-cü maddə əlavə edilsin:

**"50.4.** Hərbi xidmət üzrə məhdudlaşdırma müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına tətbiq olunmur.";

**1.11.** aşağıdakı redaksiyada 52-1-ci maddə əlavə edilsin:

**“Maddə 52-1. Azadlığın məhdudlaşdırılması**

**52-1.1.** Azadlığın məhdudlaşdırılması cəzası məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarətdir. Məhkəmə azadlığın məhdudlaşdırılması cəzası təyin edilmiş məhkumun yaşayış yerini (tamamilə və ya günün müəyyən vaxtlarında) və müəyyən ərazi hüdudlarını tərk etməsinə məhdudiyyət qoyur.

**52-1.2.** Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxs aşağıdakı vəzifələri yerinə yetirməlidir:

**52-1.2.1.** yaşayış yerini tamamilə və ya günün müəyyən vaxtlarında tərk etməmək;

**52-1.2.2.** elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək;

**52-1.2.3.** məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını tərk etməmək;

**52-1.2.4.** müvafiq məhkəmə qərarı olmadan yaşayış yerini dəyişdirməmək, habelə cəzanın icrasına nəzarət edən orqanı iş və ya təhsil yerinin dəyişdirilməsi barədə əvvəlcədən məlumatlandırmaq.

**52-1.3.** Məhkəmə məhkum üçün aşağıdakı əlavə vəzifələr müəyyən edə bilər:

**52-1.3.1.** kütləvi və digər tədbirlər təşkil etməmək və ya belə tədbirlərdə iştirak etməmək;

**52-1.3.2.** məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilində müəyyən yerlərə getməmək;

**52-1.3.3.** alkoqolizmdən, narkomaniyadan, toksikomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçmək;

**52-1.3.4.** məhkumun islah olunmasına kömək edən digər vəzifələr.

**52-1.4.** Azadlığın məhdudlaşdırılması altı aydan beş ilədək müddətə təyin edilir.

**52-1.5.** Məhkəmənin müəyyən etdiyi vəzifələri mütəmadi və ya qərəzli olaraq yerinə yetirməkdən boyun qaçıran məhkumun cəzasının çəkilməmiş hissəsi cəzanın icrasına nəzarət edən orqanın təqdimatı əsasında məhkəmə tərəfindən müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilir. Bu zaman iki gün azadlığın məhdudlaşdırılması bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır.

**52-1.6.** Azadlığın məhdudlaşdırılması hərbi qulluqçulara, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, habelə Azərbaycan Respublikası ərazisində daimi yaşayış yeri olmayan şəxslərə təyin edilmir.”;

**1.12.** 55.3-cü maddədə “və ya islah işləri” sözləri “, islah işləri və ya azadlığın məhdudlaşdırılması” sözləri ilə əvəz edilsin;

**1.13.** 57.4-cü maddədən “beş” sözü çıxarılsın;

**1.14.** 58.1-ci maddənin ikinci cümləsində “növü” sözündən sonra hər iki halda “və ya həddi” sözləri əlavə edilsin;

**1.15.** 59-cu maddə üzrə:

**1.15.1.** 59.1.9-cu və 59.1.10-cu maddələr aşağıdakı redaksiyada verilsin:

**“59.1.9.** cinayətin anlaqlılığı istisna etməyən psixi pozuntusu olan şəxs tərəfindən törədilməsi;

**59.1.10.** şəxsin könüllü gəlib təqsirini boynuna alması, cinayətin açılmasına, onun digər iştirakçılarının ifşa edilməsinə, cinayət nəticəsində əldə edilmiş əmlakın axtarışına və tapılmasına fəal kömək etməsi;”;

**1.15.2.** aşağıdakı redaksiyada 59.1.11—59.1.14-cü maddələr əlavə edilsin:

**“59.1.11.** cinayətin törədilməsindən bilavasitə sonra zərərçəkmiş şəxsə tibbi və ya digər yardım göstərilməklə onun həyat və sağlamlığına dəyə biləcək zərərin azaldılması;

**59.1.12.** zərərçəkmiş şəxslə və ya onun yaxın qohumu olan hüquqi varisi ilə barışıq əldə edilməsi;

**59.1.13.** cinayət nəticəsində dəymiş ziyanın könüllü olaraq tamamilə ödənilməsi və ya aradan qaldırılması;

**59.1.14.** cinayət nəticəsində dəymiş ziyanın qismən ödənilməsi və ya ziyanın azaldılması ilə nəticələnmiş digər hərəkətlərin edilməsi.”;

**1.15.3.** 59.2-ci maddədə “59.1.10-cu” sözləri “59.1.14-cü” sözləri ilə əvəz edilsin;

**1.16.** 60-cı maddə üzrə:

**1.16.1.** maddənin mətni 60.1-ci maddə hesab edilsin və həmin maddədə “59.1.9 və 59.1.10-cu maddələrində göstərilən cəzanı yüngülləşdirən hallar olduqda” sözləri “59.1.8, 59.1.10—59.1.13-cü maddələrinin hər hansı birində nəzərdə tutulmuş bütün hallar mövcud olduqda” sözləri ilə əvəz edilsin;

**1.16.2.** aşağıdakı məzmunda 60.2-ci maddə əlavə edilsin:

**“60.2.** Bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsinin sanksiyasında ömürlük azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulduqda, bu Məcəllənin 60.1-ci maddəsində müəyyən edilmiş qayda tətbiq edilmir.”;

**1.17.** 61.1.7-ci maddədə “müqəssir” sözü “təqsirkar” sözü ilə, “müqəssirdən” sözü “təqsirkardan” sözü ilə əvəz edilsin;

**1.18.** 66-cı maddə üzrə:

**1.18.1.** 66.2-ci maddənin:

**1.18.1.1.** birinci cümləsində “yalnız böyük ictimai təhlükə törətməyən” sözləri “böyük ictimai təhlükə törətməyən və ya az ağır” sözləri ilə əvəz edilsin;

**1.18.1.2.** ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Bu halda az ciddi cəzanı daha ciddi cəza ilə əhatə etmək yolu ilə təyin olunmuş qəti cəzanın müddəti və ya həcmi məcmuya daxil olan cinayətlərə görə ayrı-ayrılıqda təyin edilmiş cəzaların daha ağırından çox ola bilməz.”;

**1.18.1.3.** aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Cəzaların tamamilə və ya qismən toplanılması yolu ilə təyin edilmiş qəti cəzanın müddəti və ya həcmi azadlıqdan məhrum etmə növündə cəzaya münasibətdə böyük ictimai təhlükə törətməyən cinayətlərə görə üç ildən, az ağır cinayətlərə görə on iki ildən, digər cəzalara münasibətdə isə bu Məcəllənin Ümumi hissəsində müvafiq cəza növü üçün müəyyən edilmiş yuxarı həddən artıq ola bilməz.”;

**1.18.2.** 66.3-cü maddədən “az ağır,” sözləri çıxarılsın;

**1.19.** 68-ci maddə üzrə:

**1.19.1.** aşağıdakı məzmunda 68.1.1-1-ci maddə əlavə edilsin:

**“68.1.1-1.** azadlığın məhdudlaşdırılmasının iki günü;”;

**1.19.2.** 68.2-ci maddədə “məhdudlaşdırma” sözündən sonra “, azadlığın məhdudlaşdırılması” sözləri əlavə edilsin;

**1.20.** 69-cu maddə üzrə:

**1.20.1.** 69.1-ci maddədə “işlərinin,” sözündən sonra “azadlığın məhdudlaşdırılmasının,” sözləri əlavə edilsin;

**1.20.2.** 69.3-cü maddədə “bir gün,” sözlərindən sonra “azadlığın məhdudlaşdırılması növündə cəzanın müddətinə bir günə iki gün,” sözləri əlavə edilsin;

**1.21.** 70.5-ci maddənin birinci cümləsində “yardım göstərmək” sözlərindən sonra “, elektron nəzarət vasitəsini

gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək" sözləri əlavə edilsin;

**1.22.** 71-ci maddə üzrə:

**1.22.1.** 71.3-cü maddədə "boyun qaçırdıqda," sözlərindən sonra "o cümlədən elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etdikdə, onu zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmədikdə," sözləri əlavə edilsin, "çıxara bilər" sözləri "çıxarır" sözü ilə əvəz edilsin;

**1.22.2.** 71.4-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Məhkəmə şərti məhkum etmənin ləğv edilməsi qənaətinə gəldikdə, şəxsə bu Məcəllənin 67-ci maddəsində nəzərdə tutulmuş qaydalar üzrə cəza təyin edir.";

**1.22.3.** 71.5-ci maddənin ikinci cümləsi çıxarılsın;

**1.23.** 72.1-ci maddədə "İlk dəfə böyük" sözləri "Böyük" sözü ilə əvəz edilsin;

**1.24.** 72-ci maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Şəxs bu Məcəllənin 72 – 73-2 və 74-1-ci maddələrində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilir.";

**1.25.** 73-cü maddə üzrə:

**1.25.1.** maddənin mətni 73.1-ci maddə hesab edilsin və həmin maddədə "İlk dəfə böyük" sözləri "Böyük" sözü ilə əvəz edilsin;

**1.25.2.** aşağıdakı məzmunda 73.2-ci maddə əlavə edilsin:

**"73.2.** Bu Məcəllənin 127.1, 128, 129, 130, 131.2, 133.1, 134, 142.1, 143, 156.1, 157.1 və 158.1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.";

**1.26.** aşağıdakı məzmunda 73-1-ci və 73-2-ci maddələr əlavə edilsin:

**"Maddə 73-1. Mülkiyyət əleyhinə olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə**

**73-1.1.** Bu Məcəllənin 178.1, 179.1, 186.1, 187.1, 187.2, 189-1.1 və 189-1.2-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.

**73-1.2.** Bu Məcəllənin 178.2, 179.2 186.2.1, 189-1.2-1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş, zərərçəkmiş şəxslə barışmış və dəymiş ziyanı tamamilə ödəmiş şəxs, cinayət nəticəsində vurulmuş ziyanın bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.

**73-1.3.** Bu Məcəllənin 178.3, 178.4, 179.3 və 179.4-cü maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş, zərərçəkmiş şəxslə barışmış və dəymiş ziyanı tamamilə ödəmiş şəxs, cinayət nəticəsində vurulmuş ziyanın iki misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilə bilər.

**Maddə 73-2. İqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə**

**73-2.1.** Bu Məcəllənin 209.1, 209.2.2 və 213-cü maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.

**73-2.2.** Bu Məcəllənin 192, 192-1, 193, 195, 195-1, 196, 197, 198, 202-2, 203, 203-1.1, 205-2, 209.2.1, 209.3, 210, 211, 212 və 213-2-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.";

**1.27.** 74-cü maddədən "ilk dəfə" sözləri çıxarılsın;

**1.28.** aşağıdakı məzmunda 74-1-ci maddə əlavə edilsin:

**"Maddə 74-1. Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etmə**

**74-1.1.** Bu Məcəllənin 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş, əməlində başqa cinayət tərkibi olmayan və narkomaniya xəstəliyinə düçar olmuş şəxs barəsində məhkəmə tərəfindən bu xəstəliklə əlaqədar stasionar qaydada tibbi xarakterli məcburi tədbirlər tətbiq edilir. Həmin şəxsin tam sağalması nəticəsində tibbi xarakterli məcburi tədbirlər ləğv edildikdə, məhkəmə şəxsi cinayət məsuliyyətindən azad edir.

**74-1.2.** Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiqindən yayınmış şəxs həmin tədbirlərin həyata keçirildiyi tibb müəssisəsinin müdiriyyətinin məlumatı əsasında bu Məcəllənin 75.1-ci maddəsində göstərilən müddət keçməmişdirsə, cinayət məsuliyyətinə cəlb edilir.";

**1.29.** 76-cı maddə üzrə:

**1.29.1.** 76.1-ci maddənin birinci cümləsində "intizam xarakterli hərbi hissədə saxlama, hərbi xidmət üzrə məhdudlaşdırma və ya müəyyən müddətə" sözləri "hərbi xidmət üzrə məhdudlaşdırma, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama, müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük" sözləri ilə əvəz edilsin;

**1.29.2.** aşağıdakı məzmunda 76.3.1-1-ci maddə əlavə edilsin:

**"76.3.1-1.** ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı üçdə iki hissəsini;";

**1.29.3.** 76.3.3-cü maddədən "ağır və ya" sözləri çıxarılsın;

**1.29.4.** aşağıdakı məzmunda 76.4-1-ci maddə əlavə edilsin:

**"76.4-1.** Ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxsin bu Məcəllənin 57.3-cü maddəsində nəzərdə tutulmuş qaydada cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi zamanı onun cəza çəkdiyi dövrün son beş ili ərzində cəzanın çəkilməsi qaydalarına əməl etməsi halları nəzərə alınır.";

**1.29.5.** 76.6.1-ci maddədə "qaçırdıqda" sözündən sonra ", o cümlədən elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etdikdə, onu zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmədikdə" sözləri əlavə edilsin;

**1.29.6.** 76.6.2-ci və 76.6.3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

**"76.6.2.** ehtiyatsızlıqdan cinayət törətdikdə və ya qəsdən böyük ictimai təhlükə törətməyən cinayət törətdikdə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin ləğv edilməsi və ya saxlanılması barədə məsələ məhkəmə tərəfindən həll edilir (cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə ləğv edildiyi halda, cəza bu Məcəllənin 67-ci maddəsində nəzərdə tutulmuş qaydalar üzrə təyin olunur);

**76.6.3.** qəsdən az ağır, ağır və ya xüsusilə ağır cinayət törətdikdə, məhkəmə cəzadan şərti olaraq vaxtından əvvəl azad etməni ləğv edir və ona bu Məcəllənin 67-ci

maddəsində nəzərdə tutulmuş qaydalar üzrə cəza təyin edir.";

**1.30.** 79-cu maddə üzrə:

**1.30.1.** 79.1-ci maddədə (hər üç halda) və 79.3-cü maddədə "səkkiz" sözü "on dörd" sözləri ilə əvəz edilsin;

**1.30.2.** 79.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"79.4.** Şəxs cəzaçəkmənin təxirə salındığı müddətdə ehtiyatsızlıqdan cinayət törətdikdə və ya qəsdən böyük ictimai təhlükə törətməyən cinayət törətdikdə cəzaçəkmənin təxirə salınmasının ləğv edilməsi və ya saxlanması barədə məsələ məhkəmə tərəfindən həll edilir. Məhkəmə cəzaçəkmənin təxirə salınmasının ləğv edilməsi qənaətinə gəldikdə, şəxsə bu Məcəllənin 67-ci maddəsində nəzərdə tutulmuş qaydalar üzrə cəza təyin edir.";

**1.30.3.** aşağıdakı məzmunda 79.5-ci maddə əlavə edilsin:

**"79.5.** Şəxs cəzaçəkmənin təxirə salındığı müddətdə qəsdən az ağır, ağır və ya xüsusilə ağır cinayət törətdikdə, məhkəmə cəzaçəkmənin təxirə salınmasını ləğv edir və ona bu Məcəllənin 67-ci maddəsində nəzərdə tutulmuş qaydalar üzrə cəza təyin edir.";

**1.31.** 83-cü maddə üzrə:

**1.31.1.** 83.2-ci maddədə "Cəzadan azad edilmiş şəxs" sözləri "Barəsində cəza təyin edilməməklə və ya təyin edilmiş cəzadan azad edilməklə əlaqədar ittiham hökmü çıxarılmış şəxs" sözləri ilə əvəz edilsin;

**1.31.2.** 83.3-cü maddədə "hallarda" sözündən sonra "məhkumluq ödənilmiş hesab olunur" sözləri əlavə edilsin;

**1.31.3.** aşağıdakı məzmunda 83.3.1-1-ci, 83.3.1-2-ci və 83.3.2-1-ci maddələr əlavə edilsin:

**"83.3.1-1.** cəzanın çəkilməsi təxirə salınmış şəxslər barəsində – bu Məcəllənin 79.3-cü maddəsində nəzərdə tutulmuş qaydada cəzadan və ya cəzanın çəkilməmiş hissəsindən azad edildikdə;

**83.3.1-2.** ittiham hökmü qanunla müəyyən edilmiş müddətdə icra edilməmiş şəxslər barəsində — bu Məcəllənin 80.1-ci maddəsində nəzərdə tutulmuş müddətlər keçdikdə;

**83.3.2-1.** böyük ictimai təhlükə törətməyən cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər barəsində — onlar cəzanı çəkib qurtardıqları gündən bir il keçdikdə;";

**1.31.4.** 83.3.3-cü maddədən "böyük ictimai təhlükə törətməyən və ya" sözləri çıxarılsın, "üç" sözü "iki" sözü ilə əvəz edilsin;

**1.31.5.** 83.3.5-ci maddədən "məhkumluq ödənilmiş hesab olunur" sözləri çıxarılsın;

**1.32.** 85-ci maddə üzrə:

**1.32.1.** aşağıdakı məzmunda 85.1.3-1-ci maddə əlavə edilsin:

**"85.1.3-1.** azadlığın məhdudlaşdırılması;";

**1.32.2.** 85.2-ci maddənin birinci cümləsində "çatmayan məhkuma" sözləri "çatmayana" sözü ilə əvəz edilsin;

**1.32.3.** 85.4-cü maddənin birinci cümləsində və 85.5-ci maddənin birinci cümləsində "çatmayan məhkumlara" sözləri "çatmayanlara" sözü ilə əvəz edilsin;

**1.32.4.** aşağıdakı məzmunda 85.4-1-ci maddə əlavə edilsin:

**"85.4-1.** Azadlığın məhdudlaşdırılması yetkinlik yaşına çatmayanlara iki aydan iki ilədək müddətə təyin edilir.";

**1.33.** 90.0-cı maddədə "işlərinə" sözündən sonra ", azadlığın məhdudlaşdırılmasına" sözləri əlavə edilsin;

**1.34.** aşağıdakı məzmunda 90-1-ci maddə əlavə edilsin:

**"Maddə 90-1.Yetkinlik yaşına çatmayanların cəzasının çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi**

**90-1.1.** Böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkən yetkinlik yaşına çatmayan şəxsin cəzasını çəkdiyi dövrdə davranışını nəzərə alaraq, məhkəmə cəzanın çəkilməmiş hissəsini bu Məcəllənin 85.1-ci maddəsində nəzərdə tutulmuş istənilən daha yüngül cəza növü ilə əvəz edə bilər. Bu halda şəxs tamamilə və ya qismən əlavə cəzadan da azad edilə bilər.

**90-1.2.** Yetkinlik yaşına çatmayanın cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəza müddətinin ən azı dörddə bir hissəsi çəkildikdən sonra tətbiq edilə bilər.";

**1.35.** aşağıdakı məzmunda 93-1.3—93-1.7-ci maddələr əlavə edilsin:

**"93-1.3.** Bu Məcəllənin 74-1.1-ci maddəsində nəzərdə tutulmuş şəxslər barəsində narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlər müvafiq icra hakimiyyəti orqanının tibb müəssisələrində həyata keçirilir.

**93-1.4.** Narkomaniya xəstəliyi ilə əlaqədar barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxsin tam sağalması nəticəsində həmin tədbirlərin ləğv edilməsi zərurəti yarandıqda, yaxud davam etdirilməsinə ehtiyac olduqda həmin tədbirlərin tətbiqinin uzadılması və ya ləğv edilməsi məsələsi həkim-məsləhət komissiyasının rəyi əsasında müvafiq tibb müəssisəsinin müdiriyyətinin təqdimatı ilə həmin müəssisənin yerləşdiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən həll edilir.

**93-1.5.** Narkomaniya xəstəliyi ilə əlaqədar barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxs bu tədbirin tətbiqinin uzadılması və ya ləğv edilməsi məsələsinin həll edilməsi məqsədi ilə altı ayda bir dəfədən az olmayaraq həkim-məsləhət komissiyasında baxışdan keçirilməlidir. Həmin tədbirlərin uzadılması və ya ləğv edilməsi məsələsinə ilk dəfə müalicənin başlandığı gündən altı ay keçdikdən sonra baxılır.

**93-1.6.** Məhkəmə bu Məcəllənin 93-1.4-cü maddəsində nəzərdə tutulmuş məsələlər üzrə qəbul edilmiş qərarları həmin tədbirləri tətbiq etmiş məhkəməyə göndərir.

**93-1.7.** Şəxs tibbi xarakterli məcburi tədbirlərdən yayındıqda həmin tədbirlərin həyata keçirildiyi tibb müəssisəsinin müdiriyyəti bu barədə həmin tədbirləri tətbiq etmiş məhkəməyə yazılı məlumat verir.";

**1.36.** 121-ci maddənin sanksiyasında "üç" sözündən əvvəl "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.37.** 122.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.38.** 123-cü maddə üzrə:

**1.38.1.** 123.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.38.2.** 123.2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.39.** 124.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.40.** 127-ci maddə üzrə:

**1.40.1.** 127.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.40.2.** 127.2-ci maddənin sanksiyasında "beş" sözündən əvvəl "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ildən" sözləri əlavə edilsin;

**1.41.** 128-ci maddə üzrə:

**1.41.1.** sanksiyada "bir ilədək müddətə islah işləri" sözləri "iki yüz qırx saatdan üç yüz altmış saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri ilə əvəz edilsin;

**1.41.2.** "Qeyd" hissəsi ləğv edilsin;

**1.42.** 129-cu maddə üzrə:

**1.42.1.** 129.1-ci maddənin sanksiyasında "eyni" sözü "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri ilə əvəz edilsin;

**1.42.2.** 129.2-ci maddənin sanksiyasında "islah işləri" sözlərindən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.43.** 130-cu maddə üzrə:

**1.43.1.** maddənin adından "sağlamlığa ağır" (birinci halda) sözləri və "və ya az ağır" sözləri çıxarılsın;

**1.43.2.** 130.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.43.3.** 130.2-ci maddədən "və ya az ağır" sözləri çıxarılsın;

**1.43.4.** 130.2-ci maddənin sanksiyasında "eyni" sözü "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri ilə əvəz edilsin;

**1.44.** 131-ci maddə üzrə:

**1.44.1.** maddənin adından "az ağır və ya" sözləri çıxarılsın;

**1.44.2.** 131.1-ci maddə ləğv edilsin;

**1.44.3.** 131.2-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.45.** 133.1-ci maddənin sanksiyasında "eyni" sözü "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri ilə əvəz edilsin;

**1.46.** 134-cü maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.47.** 140-cı maddə üzrə:

**1.47.1.** 140.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.47.2.** 140.4-cü maddənin sanksiyasında "edilməklə" sözündən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.48.** 141.3-cü maddənin sanksiyasında "edilməməklə" sözündən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.49.** 142-ci maddə üzrə:

**1.49.1.** 142.1-ci maddənin sanksiyasında "və ya bir ilədək müddətə" sözlərindən sonra "azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə" sözləri əlavə edilsin;

**1.49.2.** 142.2-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.50.** 143-1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.51.** 144-3.1-ci, 144-3.2-ci və 144-3.3-cü maddələrin sanksiyasında "bir ildən" sözlərindən əvvəl "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.52.** 147.2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.53.** 156.2-ci maddənin sanksiyasında "edilməməklə" sözündən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.54.** 157-ci maddə üzrə:

**1.54.1.** 157.2-ci maddənin sanksiyasında "eyni" sözü "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək" sözləri ilə əvəz edilsin;

**1.54.2.** 157.3-cü maddənin sanksiyasında "edilməklə üç" sözləri "edilməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

**1.55.** 158-ci maddə üzrə:

**1.55.1.** 158.2-ci maddənin sanksiyasında "eyni" sözü "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək" sözləri ilə əvəz edilsin;

**1.55.2.** 158.3-cü maddənin sanksiyasında "edilməklə üç" sözləri "edilməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

**1.56.** 160.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.57.** 162.1-ci maddənin sanksiyasında "işləri ilə" sözləri "işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri ilə əvəz edilsin;

**1.58.** 162-1-ci maddə üzrə:

**1.58.1.** 162-1.1-ci maddənin sanksiyasında "üç" sözü "iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

**1.58.2.** 162-1.2-ci maddənin sanksiyasında "üç" sözündən sonra "ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç" sözləri əlavə edilsin;

**1.58.3.** "Qeyd" hissəsi üzrə:

**1.58.3.1.** mətni 1-ci bənd hesab edilsin və həmin bənddə "maddədə" sözü "Məcəllənin 162-1.1-ci maddəsində" sözləri ilə əvəz edilsin;

**1.58.3.2.** aşağıdakı məzmunda 2-ci və 3-cü bəndlər əlavə edilsin:

**"2.** Bu Məcəllənin 162-1.1-ci maddəsində nəzərdə tutulmuş əməli törətmiş şəxs Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada işçiləri ilə əmək müqaviləsi bağladıqda və dövlət büdcəsinə ödəməkdən yayındırılmış vergiləri və məcburi dövlət sosial sığorta haqlarını tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.

**3.** Şəxs bu "Qeyd"in 2-ci bəndində nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilir.";

**1.59.** 165.2-ci, 165-1.2-ci, 165-2.2-ci, 165-3.2-ci və 166.2-ci maddələrin sanksiyasında "üç" sözü "iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

**1.60.** 169-cu maddə üzrə:

**1.60.1.** 169.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.60.2.** 169.2-ci maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.61.** 177-ci maddə üzrə:

**1.61.1.** 177.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.61.2.** 177.2-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.61.3.** 177.3-cü maddənin dispozisiyasında "Eyni" sözü "Bu Məcəllənin 177.1 və ya 177.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

**1.61.4.** 177.3.3-cü maddə ləğv edilsin və müvafiq olaraq 177.3.2-ci maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

**1.61.5.** 177.3-cü maddənin sanksiyasında "yeddi ildən on iki" sözləri "beş ildən on" sözləri ilə əvəz edilsin;

**1.61.6.** aşağıdakı məzmunda 177.4-cü maddə əlavə edilsin:

**"177.4.** Bu Məcəllənin 177.1-177.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə -

on ildən on dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.61.7.** "Qeyd" hissəsi aşağıdakı redaksiyada verilsin:

**"Qeyd:**

**1.** Bu Məcəllənin 177.1, 178.1 və 179.1-ci maddələrində nəzərdə tutulmuş məsuliyyət əmlakın mülkiyyətçisinə və ya digər sahibinə beş yüz manatdan yuxarı, lakin beş min manatdan artıq olmayan məbləğdə ziyan vurulduğu hallarda yaranır. Bu Məcəllənin 177.2.1-177.2.3-2, 177.2.5 və 177.3.1-ci maddələrində nəzərdə tutulmuş məsuliyyət əmlakın mülkiyyətçisinə və ya digər sahibinə yüz manatdan yuxarı məbləğdə ziyan vurulduğu hallarda yaranır.

**2.** Bu Məcəllənin 177-182-ci, 185-187-ci və 189-1-ci maddələrində "xeyli miqdar" dedikdə, beş min manatdan yuxarı, lakin əlli min manatdan artıq olmayan məbləğ, "külli miqdar" dedikdə əlli min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, "xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ başa düşülür.

**3.** Bu Məcəllənin 177—183-cü, habelə 213-3, 217, 227, 232 və 235-ci maddələri ilə nəzərdə tutulmuş cinayətlərdən hər hansı birini və ya bir neçəsini törətmiş şəxs tərəfindən bu Məcəllənin 177—183-cü maddələri ilə nəzərdə tutulmuş cinayətlərin hər hansı birinin yenidən törədilməsi (bu Məcəllənin 16.3-cü maddəsində göstərilən hallar istisna olunmaqla) onların təkrar törədilməsi hesab olunur.";

**1.62.** 178-ci maddə üzrə:

**1.62.1.** 178.1-ci maddənin sanksiyasında "islah işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.62.2.** 178.2-ci maddənin sanksiyasında "üç ildən yeddi" sözləri "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş" sözləri ilə əvəz edilsin;

**1.62.3.** 178.3-cü maddənin dispozisiyasında "Eyni" sözü "Bu Məcəllənin 178.1 və ya 178.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

**1.62.4.** 178.3.3-cü maddə ləğv edilsin və müvafiq olaraq 178.3.2-ci maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

**1.62.5.** 178.3-cü maddənin sanksiyasında "yeddi ildən on iki" sözləri "beş ildən on" sözləri ilə əvəz edilsin;

**1.62.6.** aşağıdakı məzmunda 178.4-cü maddə əlavə edilsin:

**"178.4.** Bu Məcəllənin 178.1—178.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə —

on ildən on dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.63.** 179-cu maddə üzrə:

**1.63.1.** 179.1-ci maddənin sanksiyasında "ictimai işlər və ya" sözlərindən sonra "iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.63.2.** 179.2-ci maddənin sanksiyasında "üç ildən yeddi" sözləri "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş" sözləri ilə əvəz edilsin;

**1.63.3.** 179.3.3-cü maddə ləğv edilsin və müvafiq olaraq 179.3.2-ci maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

**1.63.4.** 179.3-cü maddənin sanksiyasında "yeddi ildən on iki" sözləri "beş ildən on" sözləri ilə əvəz edilsin;

**1.63.5.** aşağıdakı məzmunda 179.4-cü maddə əlavə edilsin:

**"179.4.** Bu Məcəllənin 179.1—179.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə —

on ildən on dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.64.** 180-ci maddə üzrə:

**1.64.1.** 180.1-ci maddənin sanksiyasında "iki ilədək müddətə islah işləri" sözləri "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri ilə əvəz edilsin;

**1.64.2.** 180.2-ci maddənin sanksiyasında "dörd ildən səkkiz" sözləri "üç ildən yeddi" sözləri ilə əvəz edilsin;

**1.64.3.** 180.3-cü maddənin dispozisiyasında "Eyni" sözü "Bu Məcəllənin 180.1 və ya 180.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

**1.64.4.** 180.3.3-cü maddə ləğv edilsin və müvafiq olaraq 180.3.2-ci maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

**1.64.5.** 180.3-cü maddənin sanksiyasında "üç" sözü "iki" sözü ilə əvəz edilsin;

**1.64.6.** aşağıdakı məzmunda 180.4-cü maddə əlavə edilsin:

**"180.4.** Bu Məcəllənin 180.1—180.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə —

on iki ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.65.** 181-ci maddə üzrə:

**1.65.1.** 181.1-ci maddənin sanksiyasında "üç" sözü "dörd" sözü ilə əvəz edilsin;

**1.65.2.** 181.2.4-cü maddədə “zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla” sözləri “xeyli miqdarda əmlak əldə etmək məqsədi ilə” sözləri ilə əvəz edilsin;

**1.65.3.** 181.3-cü maddənin dispozisiyasında “Eyni” sözü “Bu Məcəllənin 181.1 və ya 181.2-ci maddələrində nəzərdə tutulmuş” sözləri ilə əvəz edilsin;

**1.65.4.** 181.3.4-cü maddə ləğv edilsin və müvafiq olaraq 181.3.3-cü maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

**1.65.5.** aşağıdakı məzmunda 181.4-cü maddə əlavə edilsin:

**“181.4.** Bu Məcəllənin 181.1—181.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə —

on dörd ildən on səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”;

**1.66.** 182-ci maddə üzrə:

**1.66.1.** 182.3-cü maddənin dispozisiyasında “Eyni” sözü “Bu Məcəllənin 182.1 və ya 182.2-ci maddələrində nəzərdə tutulmuş” sözləri ilə əvəz edilsin;

**1.66.2.** 182.3.4-cü maddə ləğv edilsin və müvafiq olaraq 182.3.3-cü maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

**1.66.3.** aşağıdakı məzmunda 182.4-cü maddə əlavə edilsin:

**“182.4.** Bu Məcəllənin 182.1—182.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə —

on üç ildən on yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”;

**1.67.** 183.1-ci maddənin sanksiyasında “səkkiz” sözü “yeddi” sözü ilə əvəz edilsin;

**1.68.** 184-cü maddə ləğv edilsin;

**1.69.** 185-ci maddə üzrə:

**1.69.1.** 185.1-ci maddənin sanksiyasında “islah işləri və ya” sözlərindən sonra “iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin;

**1.69.2.** 185.2-ci maddənin sanksiyasında “və ya” sözlərindən sonra “bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin;

**1.69.3.** aşağıdakı məzmunda 185.4-cü maddə əlavə edilsin:

**“185.4.** Bu Məcəllənin 185.1—185.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə —

on ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”;

**1.70.** 186-cı maddə üzrə:

**1.70.1.** 186.1-ci maddənin sanksiyasında “cərimə və ya” sözlərindən sonra “iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin;

**1.70.2.** aşağıdakı məzmunda 186.3-cü maddə əlavə edilsin:

**“186.3.** Bu Məcəllənin 186.1 və 186.2-ci maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə —

yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”;

**1.71.** 187-ci maddə üzrə:

**1.71.1.** 187.1-ci maddənin dispozisiyasında “ehtiyatsızlıqdan” sözü “odla və ya başqa yüksək təhlükə mənbəyi ilə ehtiyatsız davranma üzündən” sözləri ilə əvəz edilsin;

**1.71.2.** 187.1-ci maddənin sanksiyasında “islah işləri və ya” sözlərindən sonra “altı ayadək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin;

**1.71.3.** 187.2-ci maddənin dispozisiyasından “odla və ya başqa yüksək təhlükə mənbəyi ilə ehtiyatsız davranma üzündən baş verdikdə və ya” sözləri çıxarılsın;

**1.71.4.** 187.2-ci maddənin sanksiyasında “altı ayadək” sözləri “bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək” sözləri ilə əvəz edilsin;

**1.71.5.** aşağıdakı məzmunda 187.4-cü maddə əlavə edilsin:

**“187.4.** Bu Məcəllənin 187.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə —

bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”;

**1.71.6.** “Qeyd” hissəsi ləğv edilsin;

**1.72.** 189-cu maddə ləğv edilsin;

1.73. 189-1-ci maddə üzrə:

**1.73.1.** 189-1.1-ci maddənin sanksiyasında “işləri” sözündən sonra “və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması” sözləri əlavə edilsin;

**1.73.2.** 189-1.2-ci və 189-1.3-cü maddələrin sanksiyasında “və ya” sözlərindən sonra “bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin;

**1.73.3.** aşağıdakı məzmunda 189-1.2-1-ci maddə əlavə edilsin:

**“189-1.2-1.** Bu Məcəllənin 189-1.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə —

üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.”;

**1.73.4.** 189-1.3-cü və 189-1.4-cü maddələrin dispozisiyasında “189-1.1 və ya 189-1.2-ci” sözləri “189-1.1-ci, 189-1.2-ci və ya 189-1.2-1-ci” sözləri ilə əvəz edilsin;

**1.73.5.** 189-1.4-cü maddənin sanksiyasında “və ya” sözlərindən sonra “iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin;

**1.73.6.** “Qeyd” hissəsi ləğv edilsin;

**1.74.** 190-cı maddənin “Qeyd” hissəsində “192.2.1, 192.2.2, 192-1.3.2, 193.2.1, 193.2.2,” rəqəmləri “192-1.3.2,” rəqəmləri ilə əvəz edilsin, “artıq olan məbləğ” sözlərindən sonra “, 192.2.1, 192.2.2, 193.2.1 və 193.2.2-ci maddələrində “külli miqdar” dedikdə yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, 192.3.1, 192.3.2, 193.3.1 və 193.3.2-ci maddələrində “xüsusilə külli miqdar” dedikdə beş yüz min manatdan yuxarı olan məbləğ” sözləri əlavə edilsin;

**1.75.** 192-ci maddə üzrə:

**1.75.1.** 192.1-ci maddənin sanksiyasında “və ya” sözlərindən sonra “altı ayadək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin;

**1.75.2.** 192.2-ci maddənin sanksiyasında “və ya” sözlərindən sonra “üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya” sözləri əlavə edilsin;

**1.75.3.** aşağıdakı məzmunda 192.3-cü maddə əlavə edilsin:

**“192.3.** Bu Məcəllənin 192.1 və 192.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

**192.3.1.** xüsusilə külli miqdarda ziyan vurduqda;

**192.3.2.** xüsusilə külli miqdarda gəlir əldə etməklə törədildikdə –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd misli miqdarında cərimə və ya beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.";

**1.75.4.** "Qeyd" hissəsi ləğv edilsin;

**1.76.** 193-cü maddə üzrə:

**1.76.1.** 193.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "altı ayadək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.76.2.** 193.2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.76.3.** aşağıdakı məzmunda 193.3-cü maddə əlavə edilsin:

**"193.3.** Bu Məcəllənin 193.1 və 193.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

**193.3.1.** xüsusilə külli miqdarda ziyan vurduqda;

**193.3.2.** xüsusilə külli miqdarda gəlir əldə etməklə törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd misli miqdarında cərimə və ya beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.";

**1.76.4.** "Qeyd" hissəsi ləğv edilsin;

**1.77.** 194-cü maddə üzrə:

**1.77.1.** 194.1-ci maddənin sanksiyasında "cərimə" sözündən sonra "və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.77.2.** 194.2.3-cü maddə ləğv edilsin;

**1.78.** 195-ci maddə üzrə:

**1.78.1.** 195.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.78.2.** 195.2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.79.** 196-cı maddə üzrə:

**1.79.1.** 196.1-ci maddənin sanksiyasında "və ya üç" sözləri "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

**1.79.2.** 196.2-ci maddənin sanksiyasında "üç ildən" sözləri "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən" sözləri ilə əvəz edilsin;

**1.80.** 197-ci maddə üzrə:

**1.80.1.** 197.1-ci maddənin dispozisiyasından "təkrar törədildikdə və ya" sözləri çıxarılsın;

**1.80.2.** 197.1-ci maddənin sanksiyasında "bir" sözündən sonra "ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir" sözləri əlavə edilsin;

**1.80.3.** 197.2-ci maddənin sanksiyasında "üç ilədək" sözlərindən sonra "müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri əlavə edilsin;

**1.81.** 198.2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.82.** 200-cü maddə üzrə:

**1.82.1.** 200.3-cü maddənin sanksiyasında "üç" sözü "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

**1.82.2.** "Qeyd" hissəsində "yüz" sözündən əvvəl "üç" sözü əlavə edilsin;

**1.83.** 200-1.1-ci maddə üzrə:

**1.83.1.** 200-1.1-ci maddənin sanksiyasına "cərimə və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.83.2.** 200-1.2-ci maddənin sanksiyasına "edilməklə" sözündən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.84.** 201.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.85.** 202-1.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.86.** 202-2.1-ci maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.87.** 203-1.1-ci maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.88.** 204.2-ci maddədən "və ya əvvəllər saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satmağa görə məhkum olunmuş şəxs tərəfindən" sözləri çıxarılsın;

**1.89.** 206.2-ci maddədə "psixotrop maddələrin" sözlərindən sonra "və ya onların prekursorlarının" sözləri əlavə edilsin;

**1.90.** 208.1-ci maddənin sanksiyasında "üç" sözündən əvvəl "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.91.** 209-cu maddə üzrə:

**1.91.1.** aşağıdakı məzmunda 209.3-cü maddə əlavə edilsin:

**"209.3.** Bu Məcəllənin 209.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə —

cinayət nəticəsində vurulmuş ziyanın dörd mislindən beş mislinədək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.91.2.** "Qeyd" hissəsinin 2-ci bəndi ləğv edilsin, müvafiq olaraq 1-ci bəndindən "1" rəqəmi çıxarılsın və həmin bənddə "artıq olan" sözləri "yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləği, "xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan" sözləri ilə əvəz edilsin;

**1.92.** 211-ci maddə üzrə:

**1.92.1.** 211.1-ci maddənin sanksiyasında "eyni" sözü "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək" sözləri ilə əvəz edilsin;

**1.92.2.** 211.2-ci maddənin sanksiyasında "iki ildən dörd" sözləri "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

**1.93.** 212.2-ci maddənin sanksiyasında "üç ilədək" sözləri "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri ilə əvəz edilsin;

**1.94.** 213-cü maddə üzrə:

**1.94.1.** 213.2-ci maddənin sanksiyasında "yeddi" sözü "beş" sözü ilə əvəz edilsin;

**1.94.2.** aşağıdakı məzmunda 213.3-cü maddə əlavə edilsin:

**"213.3.** Bu Məcəllənin 213.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd mislindən beş mislinədək miqdarda cərimə və ya beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.";

**1.94.3.** "Qeyd" hissəsinin birinci bəndində "artıq olan" sözləri "yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, "xüsusilə külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı olan" sözləri ilə əvəz edilsin;

**1.94.4.** "Qeyd" hissəsinin 2-ci bəndi ləğv edilsin və müvafiq olaraq 1-ci bəndindən "1" rəqəmi çıxarılsın;

**1.95.** 213-2-ci maddənin sanksiyasında "bir ildən üç" sözləri "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

**1.96.** 213-3.2-ci maddənin sanksiyasında "bir ildən üç" sözləri "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

**1.97.** 221-ci maddə üzrə:

**1.97.1.** 221.1-ci maddənin dispozisiyasında "vətəndaşlar" sözü "şəxslər" sözü ilə əvəz edilsin;

**1.97.2.** 221.1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"min manatdan üç min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.97.3.** 221.2-ci maddənin sanksiyasında "beş" sözü "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ildən dörd" sözləri ilə əvəz edilsin;

**1.97.4.** 221.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"221.3.** Bu Məcəllənin 221.1-ci və ya 221.2-ci maddələrində nəzərdə tutulmuş əməllərin silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə törədilməsi zərər çəkmiş şəxsə zor tətbiq olunması ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət olunduqda —

iki ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.98.** 222-1-ci maddə üzrə:

**1.98.1.** 222-1.1-ci maddənin sanksiyasında "edilməməklə" sözündən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.98.2.** 222-1.2-ci maddənin sanksiyasında "bir ildən üç" sözləri "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

**1.99.** 223.1-ci maddənin sanksiyasında "edilməməklə üç" sözləri "edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

**1.100.** 224-2-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.101.** 225.1-ci maddənin sanksiyasında "edilməməklə üç" sözləri "edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri ilə əvəz edilsin;

**1.102.** 228-ci maddə üzrə:

**1.102.** 1. 228.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.102.2.** 228.4-cü maddənin sanksiyasında "islah işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.103.** 230-cu maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.104.** 231-ci maddənin sanksiyasında "edilməməklə" sözündən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.105.** 233-cü maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.106.** 234-cü maddə üzrə:

**1.106.1.** 234.1-ci maddənin dispozisiyasında "əldə etmə və ya saxlama" sözləri "əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma" sözləri ilə əvəz edilsin;

**1.106.2.** 234.1-ci maddənin sanksiyasında "üç" sözündən əvvəl "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.106.3.** aşağıdakı məzmunda 234.3-1-ci maddə əlavə edilsin:

**"234.3-1.** Yetkinlik yaşına çatmayanlara qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, habelə bu Məcəllənin 234.2-ci və 234.3-cü maddələrində nəzərdə tutulmuş əməlləri təhsil və ya səhiyyə müəssisələrində, eləcə də cəzaçəkmə müəssisələrində yaxud həbs yerlərində törətmə –

dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.106.4.** 234.5-ci maddənin sanksiyasında "edilməklə" sözündən sonra "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.107.** 235.4.4-cü maddə ləğv edilsin və müvafiq olaraq 235.4.3-cü maddənin sonundakı nöqtəli vergül işarəsi tire işarəsi ilə əvəz edilsin;

**1.108.** 236.1-ci maddənin sanksiyasında "iki" sözündən əvvəl "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.109.** 237.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.110.** 239-cu maddənin sanksiyasında "edilməməklə" sözündən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.111.** 247-ci maddənin sanksiyasında "üç" sözündən əvvəl "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.112.** 248-ci maddə üzrə:

**1.112.1.** 248.1-ci maddənin sanksiyasında "eyni" sözü "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri ilə əvəz edilsin;

**1.112.2.** 248.2-ci maddənin sanksiyasında "beş" sözündən əvvəl "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.113.** 249-cu maddə üzrə:

**1.113.1.** 249.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.113.2.** 249.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.114.** 250-ci maddə üzrə:

**1.114.1.** 250.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.114.2.** 250.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.115.** 251-ci maddə üzrə:

**1.115.1.** 251.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.115.2.** 251.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.116.** 252-ci maddə üzrə:

**1.116.1.** 252.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.116.2.** 252.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.117.** 253-cü maddə üzrə:

**1.117.1.** 253.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.117.2.** 253.2-ci maddənin sanksiyasında "üç" sözündən əvvəl "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.118.** 254-cü maddə üzrə:

**1.118.1.** 254.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.118.2.** 254.2-ci maddənin sanksiyasında "eyni" sözü "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək" sözləri ilə əvəz edilsin;

**1.119.** 255-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.120.** 256-cı maddə üzrə:

**1.120.1.** 256.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.120.2.** 256.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.120.3.** 256.3-cü maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.121.** 257-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.122.** 258-ci maddə üzrə:

**1.122.1.** 258.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.122.2.** 258.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.122.3.** 258.3-cü maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.123.** 259-cu maddə üzrə:

**1.123.1.** 259.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.123.2.** 259.2-ci maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.123.3.** 259.3-cü maddənin sanksiyasında "cərimə və ya" sözlərindən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin və "iki ildən beş ilədək" sözləri "üç ildən altı ilədək" sözləri ilə əvəz edilsin;

**1.124.** 260-cı maddə üzrə:

**1.124.1.** 260.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.124.2.** 260.1-1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.124.3.** 260.2-ci maddənin sanksiyasında "edilməməklə" sözündən sonra "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.125.** 261-ci maddənin sanksiyasında "işləri ilə" sözləri "işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri ilə əvəz edilsin;

**1.126.** 262-ci maddə üzrə:

**1.126.1.** 262.1-ci maddənin sanksiyasında "iki ilədək müddətə islah işləri" sözləri "beş min manatdan yeddi min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri ilə əvəz edilsin;

**1.126.2.** 262.2-ci maddənin sanksiyasında "iki" sözündən əvvəl "üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə" sözləri əlavə edilsin;

**1.126.3.** 262.3-cü maddənin sanksiyasında "beş" sözündən əvvəl "üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə" sözləri əlavə edilsin;

**1.127.** 263-cü maddə üzrə:

**1.127.1.** 263.1-ci maddənin sanksiyasında "islah işləri" sözlərindən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.127.2.** 263.1-1-ci maddənin sanksiyasında "məhrum edilməklə" sözlərindən sonra "bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.127.3.** "Qeyd" hissəsi üzrə:

**1.127.3.1.** mətni 1-ci bənd hesab edilsin və həmin bənddə "maddədə" sözü "Məcəllənin 263.1-ci maddəsində" sözləri ilə əvəz edilsin;

**1.127.3.2.** aşağıdakı məzmunda 2-ci bənd əlavə edilsin:

**"2.** Bu Məcəllənin 263.1 və ya 263.1-1-ci maddələrində nəzərdə tutulmuş cinayəti törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir. Bu halda şəxsin əməllərində inzibati xəta tərkibinin əlamətləri olduqda o, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilir.";

**1.128.** 264-cü maddənin sanksiyasında "edilməklə" sözündən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.129.** 268.1-ci maddənin sanksiyasında "və ya" sözlərindən sonra "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.130.** 269-cu maddənin sanksiyasında "və ya" sözlərindən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.131.** 285-ci maddənin sanksiyasında "üç" sözündən əvvəl "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.132.** 286.3-cü maddənin sanksiyasında "edilməklə" sözündən sonra "üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.133.** 292.1-ci maddənin sanksiyasında "iki" sözündən sonra "llədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki" sözləri əlavə edilsin;

**1.134.** 294.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.135.** 296.2-ci maddənin sanksiyasında "üç ildən səkkiz" sözləri "iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş" sözləri ilə əvəz edilsin;

**1.136.** 297.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.137.** 302.3-cü maddənin sanksiyasında "müddətə" sözündən sonra "azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə" sözləri əlavə edilsin;

**1.138.** 306-cı maddə üzrə:

**1.138.1.** 306.1-ci maddənin sanksiyasında "işləri" sözündən sonra "və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.138.2.** 306.2-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.138.3.** aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Bu Məcəllənin 306.1 və ya 306.2-ci maddələrində nəzərdə tutulmuş əməlləri törətmiş şəxs qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini məhkəmə tərəfindən hökm çıxarılanadək tam icra etdikdə cinayət məsuliyyətindən azad edilir.";

**1.139.** 308.2-ci maddənin sanksiyasında "səkkiz" sözü "yeddi" sözü ilə əvəz edilsin;

**1.140.** 309.2-ci maddənin sanksiyasında "yeddi" sözü "səkkiz" sözü ilə əvəz edilsin;

**1.141.** 314-cü maddə üzrə:

**1.141.1.** 314.1-ci maddənin sanksiyasında "islah işləri" sözlərindən sonra "və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması" sözləri əlavə edilsin;

**1.141.2.** 314.2-ci maddənin sanksiyasında "beş" sözündən əvvəl "iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.142.** 319.1-ci maddənin sanksiyasında "müddətə" sözündən sonra "azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə" sözləri əlavə edilsin;

**1.143.** 324-cü maddənin sanksiyasında "bir" sözündən əvvəl "iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin;

**1.144.** 326-cı maddə üzrə:

**1.144.1.** 326-cı maddənin adında, 326.1 və 326.2-ci maddələrin dispozisiyalarında "oğurlama" sözü "talama" sözü ilə əvəz edilsin;

**1.144.2.** 326.1-ci maddənin sanksiyasında "işləri və ya" sözlərindən sonra "bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya" sözləri əlavə edilsin.

**Maddə 2. Keçid müddəaları**

**2.1.** Bu Qanunun azadlığın məhdudlaşdırılması cəzası ilə bağlı müddəaları həmin cəzanın icrası və elektron nəzarət vasitələrinin tətbiq edilməsi qaydalarının müəyyən edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsində ediləcək dəyişikliklərlə eyni gündə qüvvəyə minir.

**2.2.** Bu Qanunun narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etməyə dair müddəaları müvafiq icra hakimiyyəti orqanının narkomaniya xəstəliyi ilə bağlı tibbi xarakterli məcburi tədbirlərin həyata keçirildiyi tibb müəssisəsinin fəaliyyətə başladığı gündən qüvvəyə minir.

**2.3.** Bu Qanunun digər müddəaları 2017-ci il dekabrın 1-dən qüvvəyə minir.

**2.4.** Bu Qanunun 1-ci maddəsinə əsasən cinayət hesab olunmayan əməllərə görə bu Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkən şəxslər cəzadan azad olunurlar. Onlar, habelə bu Qanunla cinayət hesab olunmayan əməllərə görə əvvəllər məhkum edilmiş və cəzasını çəkmiş şəxslər məhkumluğu olmayan hesab edilirlər.

**2.5.** Bu Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkib qurtarmamış şəxslərin məhkum edildiyi cinayətə görə bu Qanunla daha yüngül sanksiya tətbiq edilməsi nəzərdə tutulmuşdursa, həmin şəxslərin cəza müddətləri bu Qanuna əsasən tətbiq edilməli olan sanksiyanın yuxarı həddindən çox olduğu halda cəza müddətləri həmin həddə qədər azaldılır.

**2.6.** Bu Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkən və ya cəzasını çəkmiş, lakin məhkumluğu olan şəxslərin vəziyyəti bu Qanunla yaxşılaşdırılırsa, həmin məsələlərə, habelə bu Qanunun 2.4 və 2.5-ci maddələrində nəzərdə tutulmuş məsələlərə hökm çıxarmış məhkəmə və ya məhkumun cəza çəkdiyi yer üzrə məhkəmə tərəfindən cəzanı icra edən müəssisə və ya orqanın təqdimatı və ya məhkumun ərizəsi əsasında Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş hökm və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında baxılır.

**2.7.** Bu Qanunun 1-ci maddəsinə əsasən cinayət hesab olunmayan əməllərə dair məhkəmələrin, ibtidai istintaq və ya təhqiqat orqanlarının icraatında olan cinayət işləri və materiallara əməlin cinayət olmasını aradan qaldıran yeni qanunun qüvvəyə minməsi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilmə əsasları ilə xitam verilir və ya cinayət təqibinin başlanması rədd edilir və bu əməllərin inzibati məsuliyyətə səbəb olması məsələsi araşdırılır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2017-ci il
№ 816-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr

397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 9, maddə 1559, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 28.4.3 və 28.4.4-cü maddələrdə "səkkiz" sözü "üç" sözü ilə əvəz edilsin;

**1.2.** 38.1-ci maddədə "pozulmasına" sözündən sonra ", xırda talamaya" sözləri əlavə edilsin;

**1.3.** 39-cu maddənin mətni 39.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 39.2-ci maddə əlavə edilsin:

**"39.2.** Bu Məcəllənin 227-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta haqqında iş üzrə icraat zamanı inzibati xəta törətmiş şəxs vurulmuş ziyanı tamamilə ödədikdə və zərər çəkmiş şəxslə barışdıqda inzibati iş üzrə icraata xitam verilir.";

**1.4.** 53.0.9-cu maddənin sonundakı nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 53.0.10-cu maddə əlavə edilsin:

**"53.0.10.** bu Məcəllənin 227-ci maddəsində nəzərdə tutulan inzibati xətanı törətmiş şəxs vurulmuş ziyanı tamamilə ödədikdə və zərərçəkmiş şəxslə barışdıqda.";

**1.5.** 54.2-ci maddədə "445-1," rəqəmlərindən sonra "528-1.3," rəqəmləri əlavə edilsin;

**1.6.** 102.1-ci maddədə "bu Məcəllənin" sözlərindən sonra "227-ci," sözləri əlavə edilsin;

**1.7.** 154-cü maddə üzrə:

**1.7.1.** 154.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İctimai işlər növündə inzibati tənbeh tədbiri tətbiq edilmiş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.";

**1.7.2.** aşağıdakı məzmunda 154.1-1 və 154.1-2-ci maddələr əlavə edilsin:

**"154.1-1.** Müvafiq icra hakimiyyəti orqanları müvafiq inzibati-ərazi vahidi üzrə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısını və həmin işlərin həyata keçirilməsi üçün zəruri olan şəxslərin sayı barədə məlumatı növbəti ay başlayanadək müvafiq icra hakimiyyəti orqanına göndərir.

**154.1-2.** İcra məmuru barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilən şəxsə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısındakı yerlərdən birində işləmək üçün göndəriş verir. İctimai işlərin həyata keçiriləcəyi yerlərlə bağlı hər hansı məlumat tələb edildikdə icra məmuru müvafiq icra hakimiyyəti orqanına bu barədə sorğu verir. Sorğuya beş iş günündən gec olmayaraq cavab verilməlidir.";

**1.7.3.** 154.3-cü maddədə "müvafiq icra hakimiyyəti orqanı ilə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısını razılaşdırır" sözləri "ayda iki dəfədən az olmayaraq şəxsin ictimai işləri yerinə yetirməli olduğu vaxtlarda həmin işlərin görüldüyü yerlərə baş çəkməklə protokol tərtib edir, tənbehin bu Məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilməsi üçün digər tədbirləri görür" sözləri ilə əvəz edilsin;

**1.7.4.** 154.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"154.9.** İşəgötürən ictimai işlərin həyata keçirilməsi üçün mövcud olan yerlər barədə müvafiq icra hakimiyyəti orqanına düzgün və tam məlumat verir, şəxs ictimai işlərin həyata keçiriləcəyi yerdə qəbul edilərək ictimai işə təhkim edildikdə, onun tərəfindən ictimai işlərin yerinə yetirilməli olduğu vaxtların cədvəlini tərtib edərək üç gündən gec olmayaraq icra məmuruna göndərir, barəsində bu tənbeh növü tətbiq edilən şəxslər üçün müəyyən edilmiş işin yerinə yetirilməsinə nəzarət edir, onların işlədikləri saatların uçotunu aparır və ictimai işləri yerinə yetirməkdən boyun qaçırma halları barədə dərhal icra məmuruna məlumat verir.";

**1.8.** 227-ci maddə üzrə:

**1.8.1.** sanksiyada "iki yüz manatdan iki yüz əlli manatadək məbləğdə cərimə edilir" sözləri "yüz altmış saatdan iki yüz qırx saatadək ictimai işlər" sözləri ilə, "iki ayadək" sözləri "üç ayadək" sözləri ilə əvəz edilsin;

**1.8.2.** "Qeyd" hissəsi aşağıdakı redaksiyada verilsin:

**"Qeyd:** Bu Məcəllənin 227-ci maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.";

**1.9.** 227-1-ci maddə ləğv edilsin;

**1.10.** 360-cı maddə üzrə:

**1.10.1.** maddənin dispozisiyasından "az miqdarda" sözləri çıxarılsın;

**1.10.2.** maddənin "Qeyd" hissəsi ləğv edilsin;

**1.11.** aşağıdakı məzmunda 528-1-ci maddə əlavə edilsin:

**"Maddə 528-1. İctimai işlər növündə cəzanın və ya inzibati tənbehin icrası ilə bağlı vəzifələrin yerinə yetirilməməsi**

**528-1.1.** İctimai işlər növündə cəzanın və ya inzibati tənbehin həyata keçiriləcəyi yerlərinin siyahısını və həmin işlərin həyata keçirilməsi üçün zəruri olan şəxslərin sayı barədə məlumatı vaxtında müvafiq icra hakimiyyəti orqanına göndərilməməsinə, yaxud ictimai işlərin həyata keçiriləcəyi yerlərlə bağlı sorğulara vaxtında cavab verilməməsinə görə –

vəzifəli şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.

**528-1.2.** İctimai işlər növündə cəzanın və ya inzibati tənbehin icra edildiyi yerdə işəgötürən tərəfindən şəxs üçün müəyyən edilmiş işin yerinə yetirilməsinə nəzarət edilməməsinə, yaxud işlədiyi saatların uçotunun aparılmamasına və ya düzgün aparılmamasına, şəxsin ictimai işlərin yerinə yetirilməli olduğu vaxtların cədvəlinin tərtib edilməməsinə və ya bu cədvəlin icra məmuruna vaxtında göndərilməməsinə, habelə ictimai işlərin yerinə yetirilməsindən boyun qaçırma halları barədə icra məmuruna dərhal məlumat verilməməsinə görə –

vəzifəli şəxslər altı yüz manatdan səkkiz yüz manatadək məbləğdə cərimə edilir.

**528-1.3.** İcra məmuru tərəfindən ayda iki dəfədən az olmayaraq şəxsin ictimai işləri yerinə yetirməli olduğu vaxtlarda həmin işlərin görüldüyü yerlərə baş çəkilməməsinə görə –

vəzifəli şəxslər üç yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.".

**Maddə 2.** Bu Qanun 2017-ci il dekabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2017-ci il
№ 817-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 9, maddə 1559, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, №6, maddələr 1020, 1033, 1036, №7, maddələr 1273, 1296, 1297, 1299) 127-2.3-cü maddəsində "müddətinin bitməsinə 1 saat qalmış" sözləri "müddəti bitdikdən sonra 1 saat ərzində" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 oktyabr 2017-ci il
№ 847-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 21-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689, № 12, maddə 1436; 2016, № 2 (II kitab), maddə 214, № 6, maddələr 970, 988, 1008, № 7, maddə 1246, № 11, maddə 1794; 2017, № 7, maddə 1312) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 9.3.4-1-ci maddə əlavə edilsin:

**"9.3.4-1.** hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər barəsində cəzanın çəkilməsi təxirə salındıqda – məhkəmə məhkum edilmiş şəxsi cəzanın çəkilməmiş hissəsindən azad edənədək və ya məhkum edilmiş şəxs əsas cəzasının qalan hissəsini çəkib qurtaranadək;".

**2.** Aşağıdakı məzmunda 17.1.5-1-ci maddə əlavə ed**ilsin:**

**"17.1.5-1.** hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər barəsində cəzanın çəkilməsi təxirə salındıqda – məhkəmə məhkum edilmiş şəxsi cəzanın çəkilməmiş hissəsindən azad edənədək və ya məhkum edilmiş şəxs əsas cəzasının qalan hissəsini çəkib qurtaranadək;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 noyabr 2017-ci il
№ 852-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750; Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 580-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 10.6-cı maddədə "nümayəndələri" sözündən sonra "və vəkilləri" sözləri əlavə edilsin;

**1.2.** 19.2-ci maddə üzrə:

**1.2.1.** 19.2.1-ci maddədə "təyin edilmişsə" sözləri ", yaxud vəkili olmuşsa" sözləri ilə əvəz edilsin;

**1.2.2.** 19.2.2-ci maddədə "nümayəndəsinin" sözündən sonra "və ya vəkilinin" sözləri əlavə edilsin;

**1.3.** 20.2.1-ci maddədə "nümayəndələrindən" sözündən sonra ", yaxud vəkillərindən" sözləri əlavə edilsin;

**1.4.** 69-cu maddə üzrə:

**1.4.1.** aşağıdakı məzmunda 69.1-1-ci maddə əlavə edilsin:

**"69.1-1.** Fiziki şəxsin nümayəndəsi onun yaxın qohumu və ya vəkil (bu Məcəllənin 71-ci maddəsində nəzərdə tutulan şəxslər istisna olmaqla) ola bilər. Nümayəndənin məhkəmədə iş aparmaq səlahiyyəti lazımi qaydada rəsmiləşdirilməlidir.";

**1.4.2.** 69.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"69.2.** Hüquqi şəxsi məhkəmədə qanunlarla, digər hüquqi aktlarla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilmiş səlahiyyətli şəxsləri, yaxud müvafiq qaydada səlahiyyət verilmiş və əsas iş yeri həmin hüquqi şəxs olan işçiləri və ya vəkillər təmsil edir.";

**1.5.** 70-ci maddə ləğv edilsin;

**1.6.** 72.5-ci maddədə "başqa şəxsə" sözləri "bu Məcəllənin 69.1-1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə" sözləri ilə əvəz edilsin;

**1.7.** 150.0.3-cü maddədə "nümayəndənin səlahiyyətlərini təsdiq edən etibarnamə və ya digər" sözləri "iddia ərizəsinin səlahiyyətli şəxs tərəfindən imzalanmasını təsdiq edən" sözləri ilə əvəz edilsin;

**1.8.** 179.2-ci maddədə "və nümayəndələrin" sözləri ", nümayəndələrin və vəkillərin" sözləri ilə əvəz edilsin;

**1.9.** 185-ci maddə üzrə:

**1.9.1.** adında "və nümayəndələrin" sözləri ", nümayəndələrinin və vəkillərinin" sözləri ilə əvəz edilsin;

**1.9.2.** 185.6-cı maddənin birinci və ikinci cümlələrində "nümayəndəsinin" sözündən sonra ", yaxud vəkilinin" sözləri əlavə edilsin;

**1.10.** 220.3-cü maddənin birinci cümləsində "və nümayəndələr" sözləri ", nümayəndələr və vəkillər" sözləri ilə əvəz edilsin;

**1.11.** 271.2-ci maddə üzrə:

**1.11.1.** 271.2.5-ci maddədə "nümayəndələrin" sözündən sonra ", vəkillərin" sözü əlavə edilsin;

**1.11.2.** 271.2.9-cu maddədə "və nümayəndələrin" sözləri ", nümayəndələrin və vəkillərin" sözləri ilə əvəz edilsin;

**1.12.** 361.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"361.2.** Apellyasiya şikayəti, şikayəti vermiş şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsi, yaxud vəkili tərəfindən imzalanır. Qanuni nümayəndə və ya nümayəndə, yaxud vəkil tərəfindən verilən apellyasiya şikayətinə, əgər işdə yoxdursa müvafiq olaraq nümayəndənin, yaxud vəkilin səlahiyyətini təsdiq edən etibarnamə, vəkilin orderi və ya digər sənəd əlavə edilməlidir.";

**1.13.** 393-cü maddənin mətnində "qəbul edildiyi" sözləri "qətnamə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi" sözləri ilə əvəz edilsin;

**1.14.** 400-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Apellyasiya instansiyası məhkəməsinin bu Məcəllənin 402-ci maddəsində nəzərdə tutulmuş qərardadlarından kassasiya şikayəti verilməmişdirsə, həmin qərardadlar işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 10 gün sonra, qanunla şikayət verilməsi nəzərdə tutulmayan qərardadları isə çıxarıldığı andan qanuni qüvvəyə minir.";

**1.15.** 402-ci maddədə "qətnamə və" sözləri "qətnamələrindən, işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi, habelə iş üzrə icraata xitam verilməsi barədə" sözləri ilə əvəz edilsin;

**1.16.** 403.1-ci maddədə "maraqlı şəxslər" sözlərindən sonra "tələbləri təmin olunmadığı hallarda" sözləri əlavə edilsin;

**1.17.** Aşağıdakı məzmunda 404-1-ci maddə əlavə edilsin:

**"404-1.** Kassasiya şikayətinin mümkünlüyü

Apellyasiya instansiyası məhkəməsində baxılan mülki işlər üzrə iddianın qiyməti iki min manatdan, iqtisadi mübahisələrə dair işlər üzrə iddianın qiyməti on min manatdan az olan əmlak xarakterli iddialar üzrə qətnamələrdən kassasiya şikayəti verilə bilməz.";

**1.18.** 408.1.1-ci maddədən "onu imzalamağa" sözləri çıxarılsın;

**1.19.** 415.2-ci maddədə "nümayəndələri" sözündən sonra "və vəkilləri" sözləri əlavə edilsin;

**1.20.** 415-1.4-cü maddədən birinci cümlə çıxarılsın və ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Sonra məhkəmə yerində müşavirə apararaq və ya müşavirə otağında səs çoxluğu ilə qərar qəbul edir.";

**1.21.** 417.1.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 417.1.7-ci maddə əlavə edilsin:

**"417.1.7.** kassasiya şikayətinin bu Məcəllənin tələblərinə zidd olaraq icraata qəbul olunması, yaxud da icraata qəbul olunduqdan sonra digər şəxslərin kassasiya şikayəti ilə apellyasiya məhkəməsinə müraciət etməsi müəyyən edilərsə, icraata qəbul qərardadını ləğv edərək işi kassasiya baxışından çıxarmaqla apellyasiya instansiyası məhkəməsinə qaytara bilər.";

**1.22.** 418-ci maddə üzrə:

**1.22.1.** 418.4.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 418.4.9-cu maddə əlavə edilsin:

**"418.4.9.** işə məhkəmə aidiyyəti qaydalarının pozulması ilə baxılmışsa.";

**1.22.2.** 418.5.-ci maddədə "418.4.6-cı" sözləri "418.4.6-418.4.9-cu" sözləri ilə əvəz edilsin;

**1.23.** 424.2.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 424.2.5-ci maddə əlavə edilsin:

**"424.2.5.** işə məhkəmə aidiyyəti qaydalarının pozulması ilə baxılmışsa.";

**1.24.** 429.0.3-cü maddədə "işi" sözündən sonra "kassasiya və ya" sözləri əlavə edilsin;

**1.25.** 431-4-cü maddə üzrə:

**1.25.1.** 431-4.2.1-ci və 431-4.3.1-ci maddələrdə "işin" sözündən sonra "kassasiya və ya" sözləri əlavə edilsin;

**1.25.2.** 431-4.3.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 431-4.3.5-ci və 431-4.3.6-cı maddələr əlavə edilsin:

**"431-4.3.5.** iş üzrə qəbul edilmiş məhkəmə aktlarının ləğv edilməsi və işin icraatına xitam verilməsi barədə;

**431-4.3.6.** İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarındakı müddəaların nəzərə alınması və (və ya) icrası barədə.".

**Maddə 2. Keçid müddəaları**

**2.1.** Bu Qanun 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

**2.2.** Bu Qanunun 1.4-1.6-cı maddələri məhkəmələrdə baxılmaqda olan işlər üzrə nümayəndə qismində iştirak edən şəxslərə həmin işlər müvafiq instansiya məhkəmələrində mahiyyəti üzrə həll edilənədək şamil olunmur.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 31 oktyabr 2017-ci il
№ 853-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 190-cı maddənin "Qeyd" hissəsində "195-1.2," rəqəmlərindən sonra "195-2.1," rəqəmləri, "195-1.3," rəqəmlərindən sonra "195-2.2," rəqəmləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 195-2-ci maddə əlavə edilsin:

**"Maddə 195-2. Daxili və xarici borcalma qaydasını pozma**

**195-2.1.** Dövlətə məxsus olan hüquqi şəxslərin müvafiq icra hakimiyyəti orqanının razılığını almadan daxili və ya xarici borcalması dövlətə xeyli miqdarda ziyan vurduqda -

üç il müddətinə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə cinayət nəticəsində vurulmuş ziyanın bir mislindən üç mislinədək miqdarında cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**195-2.2.** Eyni əməllər dövlətə külli miqdarda ziyan vurduqda -

üç il müddətinə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarında cərimə və ya iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**Qeyd:** Bu maddədə "dövlətə məxsus olan hüquqi şəxslər" dedikdə, paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan kommersiya hüquqi şəxsləri, dövlətin yaratdığı qeyri-kommersiya hüquqi şəxsləri və publik hüquqi şəxslər, habelə qeyd olunan hüquqi şəxslərin yaratdığı paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə həmin hüquqi şəxslərə məxsus olan törəmə təsərrüfat cəmiyyətləri, qeyri-kommersiya hüquqi şəxsləri və publik hüquqi şəxslər nəzərdə tutulur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 noyabr 2017-ci il
№ 868-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə

480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2, (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751) 215.3.1-ci maddəsində "195-1," rəqəmlərindən sonra "195-2," rəqəmləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 noyabr 2017-ci il
№ 869-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Mülki Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035; Azərbaycan Respublikasının 2017-ci il 2 oktyabr tarixli 797-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 148.2-1-ci maddə əlavə edilsin:

**"148.2-1.** Hüquq sahibinin istəyi ilə "Elektron hökumət" portalında yerləşdirilmiş daşınmaz əmlakın dövlət reyestrindən çıxarış əsasında daşınmaz əmlak üzərində sərəncam verildiyi hallarda çıxarış notarius və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər tərəfindən daşınmaz əmlakın dövlət reyestrindən elektron informasiya sistemləri vasitəsi ilə "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq real vaxt rejimində əldə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 noyabr 2017-ci il
№ 871-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299) 54.2-ci maddəsində "531," rəqəmindən sonra "538-1.4 - 538-1.6," rəqəmləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 noyabr 2017-ci il
№ 874-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330; № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271,1293) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 234.3-cü maddənin dispozisiyasında "hazırlama, əldə etmə, saxlama, göndərmə, daşıma və ya satma" sözləri "satma, yaxud prekursorları eyni məqsədlə xeyli miqdarda hazırlama, əldə etmə, saxlama, göndərmə və ya daşıma" sözləri ilə əvəz edilsin.

**2.** "Qeyd" hissəsinin ikinci bəndi aşağıdakı redaksiyada verilsin:

**"2.** Bu fəsildə göstərilən narkotik vasitələrin və ya psixotrop maddələrin şəxsi istehlak miqdarından artıq və külli miqdarı, habelə prekursorların və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) xeyli və külli miqdarı müvafiq qanunlarla müəyyən edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 noyabr 2017-ci il
№ 875-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299) aşağıdakı məzmunda 206-1-ci maddə əlavə edilsin:

**"Maddə 206-1. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorların hazırlanması, əldə edilməsi, saxlanılması, göndərilməsi və ya daşınması**

Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə prekursorların az miqdarda hazırlanmasına, əldə edilməsinə, saxlanılmasına, göndərilməsinə və ya daşınmasına görə -

iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

**Qeyd:**

**1.** Bu maddədə "az miqdarda" dedikdə, müvafiq qanunla müəyyən edilmiş prekursorların xeyli miqdarından aşağı miqdar başa düşülür.

**2.** Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında istifadə etmək məqsədi ilə hazırladığı, əldə etdiyi, saxladığı, göndərdiyi və ya daşıdığı prekursorları könüllü surətdə təhvil verən şəxs bu maddədə nəzərdə tutulan hərəkətlərə görə inzibati məsuliyyətdən azad edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 noyabr 2017-ci il
№ 876-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 961-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 961-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 697, № 12, maddə 1085; 2010, № 5, maddə 382; 2016, № 6, maddə 996; 2017, № 2, maddə 163, № 5, maddə 731) ilə təsdiq edilmiş "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları"nın III SİYAHI Qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilər fəslinin "Qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin miqdarı" qrafası aşağıdakı redaksiyada verilsin:

| **Qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) miqdarları** | |
|---|---|
| **xeyli miqdar** | **külli miqdar (daxil olmaqla aşağı hədləri)** |
| 2-10 ədəd (4-20 hissə)<br>3-15 ədəd (6-30 hissə) | 11 ədəd (21 hissə)<br>16 ədəd (31 hissə) |
| 3-50 ədəd (6-100 hissə) | 51 ədəd (101 hissə) |
| 1 ədəd (2 hissə)<br>2 ədəd (4 hissə) | 2 ədəd (3 hissə)<br>3 ədəd (5 hissə) |

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 noyabr 2017-ci il
№ 878-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 688; 2000, № 7, maddə 494; 2002, № 8, maddə 464; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 202; 2005, № 10, maddələr 874, 876, 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddə 1, № 2, maddə 82; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 11, maddə 944; 2011, № 4, maddə 269, № 7, maddə 611, № 11, maddə 987; 2012, № 6, maddə 519; 2014, № 3, maddə 237; 2016, № 6, maddələr 1012, 1017) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43-cü maddənin adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 43. Azərbaycan Respublikası Milli Məclisinin məlumatlandırılması"**

**2.** 44-cü maddədə:

**2.1.** adında "nəzarəti" sözü "məlumatlandırılması" sözü ilə əvəz edilsin;

**2.2.** mətnində "prokurorluğun fəaliyyəti haqqında" sözlərindən əvvəl "istintaq edilən cinayət işləri istisna olmaqla," sözləri əlavə edilsin, "mütəmadi olaraq" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 noyabr 2017-ci il
№ 880-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452, № 12, maddə 731; 2002, № 12, maddə 706; 2005, № 10, maddə 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddələr 1, 4, № 2, maddə 82, № 6, maddə 570, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 4, maddə 250, № 8, maddə 696; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 3, maddə 171, № 11, maddə 944; 2011, № 2, maddə 71, № 11, maddə 988; 2012, № 11, maddə 1039; 2014, № 3, maddə 238; 2016, № 2, I kitab, maddə 193, № 6, maddələr 982, 1018) aşağıdakı məzmunda 14.6-cı maddə əlavə edilsin:

**“14.6.** Prokurorluq işçilərinin işlədiyi müddətdə nəzəri biliklərinin və peşə hazırlığının vaxtaşırı qiymətləndirilməsi yalnız bu Qanunun 14.1-ci maddəsində müəyyən edilmiş hallarda həyata keçirilir. Bu məqsədlə hər hansı digər vaxtaşırı qiymətləndirmə üsulları (imtahan və sair) tətbiq edilə bilməz.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 noyabr 2017-ci il
№ 885-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299; Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 814-VQD və 817-VQD nömrəli qanunları) 566-cı maddəsinin adında və dispozisiyasında “Şəxsiyyət vəsiqəsinin, pasportun, dənizçinin” sözləri “Dənizçinin” sözü ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2018-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 dekabr 2017-ci il
№ 913-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr

90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2, (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 37-ci maddə üzrə:

**1.1.1.** 37.3-cü maddədən "131.1," və "184.1," rəqəmləri çıxarılsın;

**1.1.2.** 37.4-cü maddədə "maddəsində" sözü "və 73-1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

**1.2.** 40.2-ci maddədə "72-74-cü" sözləri "72, 73.1, 73-1.3 və 74-cü" sözləri ilə əvəz edilsin;

**1.3.** 84.5.11-ci maddədə "artırılması" sözü "uzadılması məsələsinə baxılması üçün" sözləri ilə əvəz edilsin və "məhkəməyə" sözündən sonra "və ya müvafiq təqdimatın verilməsi üçün yuxarı prokurora" sözləri əlavə edilsin;

**1.4.** 87.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Ölmüş zərər çəkmiş şəxsin yaxın qohumları olmadıqda, digər qohumları, onlar da olmadıqda və ya həmin şəxslər bu Məcəllənin 106.2-ci maddəsinə əsasən hüquqi varis hesab edilə bilmədikdə, zərər çəkmiş şəxsin hüquqları cinayət prosesini həyata keçirən orqanın qərarı əsasında müvafiq ərazi üzrə fəaliyyət göstərən vəkil qurumunun rəhbərinin təyin etdiyi vəkil tərəfindən həyata keçirilir.";

**1.5.** 106-cı maddə üzrə:

**1.5.1.** 106.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Ölmüş zərər çəkmiş şəxsin yaxın qohumları olmadıqda, digər qohumları, onlar da olmadıqda və ya həmin şəxslər bu Məcəllənin 106.2-ci maddəsinə əsasən hüquqi varis hesab edilə bilmədikdə, bu Məcəllənin 87.2-ci maddəsində nəzərdə tutulmuş qaydada təyin edilmiş vəkil həmin cinayət işi üzrə icraatda zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınır.";

**1.5.2.** 106.2-ci maddədə "yaxın qohumu" sözləri "şəxs" sözü ilə əvəz edilsin;

**1.5.3.** 106.3-cü maddənin birinci və ikinci cümlələrindən "yaxın" sözü çıxarılsın;

**1.5.4.** 106.4-cü maddənin ikinci cümləsində "şəxsin" sözündən sonra "qohumu olan" sözləri əlavə edilsin;

**1.5.5.** 106.6-cı maddədə "hüquqi varisinin" sözləri "yaxın qohumu olan hüquqi varisi istisna olmaqla, digər hüquqi varisin" sözləri ilə əvəz edilsin;

**1.5.6.** 106.7-ci maddədə "şəxsin" sözündən sonra "qohumu olan" sözləri əlavə edilsin;

**1.6.** 151-ci maddə üzrə:

**1.6.1.** 151.5-ci maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Həmin müddət keçənədək tutulmuş şəxs barəsində daha ciddi qətimkan tədbiri seçilməli, yaxud bu Məcəllə ilə müəyyən edilmiş qaydada həbs və ya ev dustaqlığı qətimkan tədbirinin seçilməsi məsələsinə baxılması üçün məhkəməyə gətirilməlidir.";

**1.6.2.** həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Məhkəmə qətimkan tədbirinin seçilməsi məsələsinə təxirə salınmadan baxmalı və qərar qəbul etməlidir.";

**1.7.** 152-ci maddə üzrə:

**1.7.1.** 152.1-ci maddənin birinci cümləsində "yalnız" sözü "bu Məcəllənin 519.2-ci maddəsində nəzərdə tutulmuş qaydada" sözləri ilə əvəz edilsin, ikinci cümləsində "əsasında" sözündən sonra "müvafiq ərazi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən" sözləri əlavə edilsin;

**1.7.2.** 152.4-cü maddənin ikinci cümləsində "məhkəmə" sözündən sonra "bu Məcəllənin 519.1-ci maddəsində nəzərdə tutulmuş qaydada" sözləri əlavə edilsin;

**1.8.** 154-cü maddə üzrə:

**1.8.1.** 154.2.8-ci maddədə "nəzarət" sözündən əvvəl "yetkinlik yaşına çatmayanı" sözləri əlavə edilsin;

**1.8.2.** 154.3-cü maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu Məcəllənin 154.2.8-ci maddəsində nəzərdə tutulmuş qətimkan tədbiri yalnız on səkkiz yaşına çatmayan şəxs barəsində seçilə bilər.";

**1.8.3.** 154.4-cü maddənin üçüncü cümləsi ləğv edilsin;

**1.9.** 155-ci maddə üzrə:

**1.9.1.** 155.2.3-cü maddədə ", qətimkan tədbirinin seçilməsini və digər əhəmiyyətli halları." sözləri "və qətimkan tədbirinin seçilməsini;" sözləri ilə əvəz edilsin və aşağıdakı məzmunda 155.2.4-cü maddə əlavə edilsin:

**"155.2.4.** şübhəli və ya təqsirləndirilən şəxsin zərərçəkmiş şəxslə və ya onun yaxın qohumu olan hüquqi varisi ilə barışıq əldə edib-etməməsini, cinayət nəticəsində vurulmuş ziyanın ödənilib-ödənilməməsini və digər əhəmiyyətli halları.";

**1.9.2.** 155.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"155.3.** Həbs qətimkan tədbiri yalnız aşağıdakı şəxsə tətbiq oluna bilər:

**155.3.1.** bu Məcəllənin 155.1.1-155.1.3-cü maddələrində nəzərdə tutulmuş hərəkətlərin qarşısını almaq məqsədi ilə, 2 (iki) ildən artıq müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayətin törədilməsində ittiham olunan şəxsə;

**155.3.2.** cinayət prosesini həyata keçirən orqandan gizlənməsinin qarşısını almaq məqsədi ilə, 2 (iki) ilədək müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayətin törədilməsində ittiham olunan şəxsə;

**155.3.3.** əvvəllər seçilmiş digər qətimkan tədbirinin şərtlərini pozmuş şəxsə və ya hökmün icrasını təmin etmək məqsədilə, barəsində azadlıqdan məhrum etmə növündə cəza təyin edilmiş şəxsə.";

**1.9.3.** 155.6-cı maddənin birinci cümləsində "və ona alternativ" sözləri ", ev dustaqlığı və girov" sözləri ilə əvəz edilsin;

**1.10.** 156-cı maddə üzrə:

**1.10.1.** 156.2-ci maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Ev dustaqlığı bu Məcəllənin 163-cü maddəsində nəzərdə tutulmuş qaydada məhkəmənin öz təşəbbüsü, müdafiə tərəfinin vəsatəti, habelə müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə tərəfindən seçilir.";

**1.10.2.** 156.2-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Girov bu Məcəllənin 164-cü maddəsində nəzərdə tutulmuş qaydada yalnız müdafiə tərəfinin vəsatəti ilə məhkəmə tərəfindən seçilir.";

**1.11.** aşağıdakı məzmunda 156-1-ci maddə əlavə edilsin:

**"Maddə 156-1. Qətimkan tədbirləri üzrə elektron nəzarət vasitələrinin tətbiqi**

**156-1.1.** Elektron nəzarət vasitələri bu Məcəllənin 163-cü maddəsinə əsasən barəsində qətimkan tədbiri seçilmiş şəxslərə tətbiq edilir. Elektron nəzarət vasitələrinin siyahısı və tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**156-1.2.** Elektron nəzarət vasitələri tətbiq edilmiş şəxsin üzərinə qoyulmuş vəzifələri yerinə yetirməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**156-1.3.** Şəxsin üzərinə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulduqda, elektron nəzarət vasitəsi onun üzərinə bağlanılır və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydaları, hər hansı müdaxilənin və ya cihazın üzərindən çıxarılmasının yolverilməzliyi, həmçinin bu əməllərin hüquqi nəticələri izah edilir və bu barədə protokol tərtib edilir.

**156-1.4.** Elektron nəzarət vasitəsi tətbiq edilmiş şəxs həmin vasitəni zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda onun dəyəri həmin şəxsdən tutulur.";

**1.12.** 157.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"157.5.** Həbsin qətimkan tədbiri qismində seçilməsi və ya uzadılması məsələsinə baxarkən məhkəmə təqsirləndirilən şəxsin cəmiyyətdən tam təcrid edilməsinə və ya həbsdə saxlanılmasına zərurət olmadığı qənaətinə gəldikdə, onun barəsində müdafiə tərəfinin vəsatəti və ya öz təşəbbüsü ilə ev dustaqlığı, habelə müdafiə tərəfinin vəsatəti əsasında girov qətimkan tədbiri seçir.";

**1.13.** 159-cu maddə üzrə;

**1.13.1.** 159.1-ci maddədə "əlaqədar" sözündən sonra "müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında" sözləri əlavə edilsin;

**1.13.2.** 159.2-ci maddədə "təkrarən" sözü "bu Məcəllənin 159.3-1-ci maddəsində nəzərdə tutulmuş qaydada" sözləri ilə əvəz edilsin;

**1.13.3.** 159.3-cü maddənin birinci cümləsində "Təqsirləndirilən" sözü "Bu Məcəllənin 159.1-ci maddəsində nəzərdə tutulmuş hallarda təqsirləndirilən" sözləri ilə, "7 (yeddi)" sözləri "6 (altı)" sözləri ilə əvəz edilsin;

**1.13.4.** aşağıdakı məzmunda 159.3-1-ci maddə əlavə edilsin:

**"159.3-1.** Bu Məcəllənin 159.2-ci maddəsində nəzərdə tutulmuş hallarda müstəntiq təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinin keçməsinə ən geci 8 (səkkiz) gün qalmış ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora müvafiq əsaslandırılmış vəsatət verir. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror təqsirləndirilən şəxsin həbsdə saxlanılması müddətinin uzadılması zərurəti ilə razılaşdıqda, məhkəmə qərarı ilə müəyyən edilən həbsdə saxlama müddətinin keçməsinə ən geci 6 (altı) gün qalmış vəsatəti təqdimat verilməsi üçün müvafiq olaraq Azərbaycan Respublikasının Hərbi prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru, Bakı şəhər prokuroru və ya Azərbaycan Respublikası Baş prokurorunun müavininə göndərir. Azərbaycan Respublikasının Hərbi prokuroru, Bakı şəhər prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru və ya Azərbaycan Respublikası Baş prokurorunun müavini təqsirləndirilən şəxsin həbsdə saxlanılması müddətinin uzadılması zərurəti ilə razılaşdıqda, məhkəmə qərarı ilə müəyyən edilən həbsdə saxlama müddətinin keçməsinə ən geci 4 (dörd) gün qalmış məhkəməyə müvafiq təqdimatla müraciət edir. Məhkəmə təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinin uzadılmasının zəruriliyi ilə razılaşdıqda, onun barəsində qətimkan tədbirinin seçilməsi haqqında qərarla müəyyən edilmiş həbsdə saxlanılma müddəti başa çatanadək təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinin uzadılması barədə qərar qəbul edir.";

**1.13.5.** 159.8-ci maddəyə "son müddəti" sözlərindən sonra "bu Məcəllənin 159.8-1-ci maddəsində nəzərdə tutulmuş qaydada" sözləri əlavə edilsin;

**1.13.6.** aşağıdakı məzmunda 159.8-1-ci maddə əlavə edilsin:

**"159.8-1.** Bu Məcəllənin 159.8-ci maddəsində nəzərdə tutulmuş hallarda müstəntiq təqsirləndirilən şəxsin həbsdə saxlanılmasının 159.7-ci maddədə göstərilən son müddətinin uzadılması barədə həbsdə saxlama müddətinin keçməsinə ən geci 10 (on) gün qalmış ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora müvafiq əsaslandırılmış vəsatət verir. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror təqsirləndirilən şəxsin həbsdə saxlanılması müddətinin uzadılması zərurəti ilə razılaşdıqda, məhkəmə qərarı ilə müəyyən edilən həbsdə saxlama müddətinin keçməsinə ən geci 8 (səkkiz) gün qalmış vəsatəti Azərbaycan Respublikası Baş prokuroruna və ya onun birinci müavininə müraciət edilməsi üçün müvafiq olaraq Azərbaycan Respublikasının Hərbi prokuroru, Bakı şəhər prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru və ya Azərbaycan Respublikası Baş prokurorunun birinci müavininə təqdim edir. Azərbaycan Respublikasının Hərbi prokuroru, Bakı şəhər prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru və ya Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini təqsirləndirilən şəxsin həbsdə saxlanılması müddətinin uzadılması zərurəti ilə razılaşdıqda, məhkəmə qərarı ilə müəyyən edilən həbsdə saxlama müddətinin keçməsinə ən geci 6 (altı) gün qalmış təqdimatın verilməsi üçün müvafiq olaraq Azərbaycan Respublikasının Baş prokuroruna və ya onun birinci müavininə müraciət edir. Azərbaycan Respublikası Baş prokuroru və ya onun birinci müavini təqsirləndirilən şəxsin həbsdə saxlanılması müddətinin uzadılması zərurəti ilə razılaşdıqda, məhkəmə qərarı ilə müəyyən edilən həbsdə saxlama müddətinin keçməsinə ən geci 4 (dörd) gün qalmış məhkəməyə müvafiq təqdimatla müraciət edir. Məhkəmə təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinin uzadılmasının zəruriliyi ilə razılaşdıqda, onun barəsində qətimkan tədbirinin seçilməsi haqqında qərarla müəyyən edilmiş həbsdə saxlanılma müddəti başa çatanadək təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinin uzadılması barədə qərar qəbul edir.";

**1.13.7.** 159.9-cu maddədə "müddətə" sözündən sonra "bu Məcəllənin 159.3-cü maddəsində nəzərdə tutulmuş qaydada" sözləri əlavə edilsin;

**1.13.8.** aşağıdakı məzmunda 159.11-ci maddə əlavə edilsin:

**"159.11.** Bu Məcəllənin 159.3, 159.3-1 və 159.8-1-ci maddələrində nəzərdə tutulmuş hallarda təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbirinin uzadılması məsələsinə baxılarkən bu Məcəllənin 292.1-1-ci maddəsində göstərilmiş müddət nəzərə alınmalıdır.";

**1.14.** 162-ci maddə üzrə:

**1.14.1.** 162.2-ci maddədə "edilə bilər" sözləri "edilir" sözü ilə əvəz edilsin;

**1.14.2.** 162.5.2-ci maddədə "çatdıqda" sözündən sonra "və həmin müddət bu Məcəllənin 159.8-159.10-cu maddələrində nəzərdə tutulmuş qaydada uzadılmadıqda" sözləri əlavə edilsin;

**1.14.3.** aşağıdakı məzmunda 162.5.2-1-ci maddə əlavə edilsin:

**"165.5.2-1.** bu Məcəllənin 159.8-159.10-cu maddələrində nəzərdə tutulmuş qaydada uzadılmış həbsdə saxlanılma müddəti başa çatdıqda;";

**1.15.** 163-cü maddə üzrə:

**1.15.1.** 163.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"163.2.** Ev dustaqlığı məhkəmə tərəfindən müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında, habelə həbs qətimkan tədbirinin seçilməsi və ya uzadılması məsələsinə baxılarkən müdafiə tərəfinin vəsatəti və ya məhkəmənin öz təşəbbüsü ilə seçilə bilər. Ev dustaqlığı qətimkan tədbirinin seçilməsi məsələsinə, həmçinin müdafiə tərəfinin vəsatəti əsasında həbs qətimkan tədbirinin əvəz edilməsi kimi baxıla bilər.";

**1.15.2.** 163.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"163.3.** Barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxs aşağıdakı vəzifələri yerinə yetirməlidir:

**163.3.1.** yaşayış yerini tamamilə və ya günün müəyyən vaxtlarında tərk etməmək;

**163.3.2.** elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək;

**163.3.3.** məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını tərk etməmək;

**163.3.4.** məhkəmənin müvafiq qərarı olmadan yaşayış yerini dəyişməmək.";

**1.15.3.** aşağıdakı məzmunda 163.3-1, 163.3-2 və 163.3-3-cü maddələr əlavə edilsin:

**"163.3-1.** Məhkəmə tərəfindən barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxs üçün aşağıdakı əlavə vəzifələr müəyyən edilə bilər:

**163.3-1.1.** kütləvi və digər tədbirlər təşkil etməmək və ya belə tədbirlərdə iştirak etməmək;

**163.3-1.2.** məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilində müəyyən yerlərə getməmək;

**163.3-1.3.** alkoqolizmdən, narkomaniyadan, toksikomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçmək;

**163.3-1.4.** müəyyən şəxslərlə ünsiyyətdə olmamaq;

**163.3-1.5.** təqsirləndirilən şəxsin lazımi davranışını və cəmiyyətdən qismən təcrid olunmasını təmin edən digər vəzifələr.

**163.3-2.** Ev dustaqlığı qətimkan tədbiri Azərbaycan Respublikası ərazisində daimi yaşayış yeri olmayan şəxslərə tətbiq edilmir.

**163.3-3.** Tibbi göstəricilərə görə təqsirləndirilən şəxs tibb müəssisəsinə stasionar müalicəyə yerləşdirildikdə ev dustaqlığı qətimkan tədbiri məhkəmə tərəfindən ləğv edilənə və ya dəyişdirilənədək bu qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələr qüvvəsində qalır. Bu halda ev dustaqlığı qətimkan tədbirinin icrası yeri müvafiq tibb müəssisəsi hesab edilir.";

**1.15.4.** aşağıdakı məzmunda 163.7, 163.8 və 163.9-cu maddələr əlavə edilsin:

**"163.7.** Barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxs və onun yaşayış yeri müşahidə altına alınır, onun ev dustaqlığı qətimkan tədbirinin şərtlərinə riayət etməsinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən nəzarət edilir. Barəsində ev dustaqlığı qətimkan tədbiri tətbiq edilmiş şəxsin müəyyən edilmiş vəzifələrə riayət etməməsinə dair əsaslı şübhələr olduqda müvafiq icra hakimiyyəti orqanının əməkdaşı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun qərarı ilə təqsirləndirilən şəxsin yaşayış yerinə daxil olmaq və müəyyən edilmiş vəzifələrə əməl edilməsini yerində yoxlamaq hüququna malikdir.

**163.8.** Ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələrin dəyişdirilməsi və ya ləğv edilməsi, o cümlədən əlavə vəzifələrin müəyyən edilməsi müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı və ya müdafiə tərəfinin vəsatəti əsasında, habelə cinayət işinə baxan məhkəmənin öz təşəbbüsü ilə və ya tərəflərin vəsatəti əsasında yalnız məhkəmənin qərarı ilə həyata keçirilir.

**163.9.** Barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxs həmin qətimkan tədbirinin şərtlərini pozduğu və bu Məcəllənin 155.1.1-155.1.3-cü maddələrində nəzərdə tutulmuş əsaslar mövcud olduğu halda onun barəsində həbs qətimkan tədbiri seçilir.";

**1.16.** 164-cü maddə üzrə:

**1.16.1.** 164.1-ci maddədə "habelə" sözündən sonra "ictimai təhlükəliliyi yalnız maddi ziyanla bağlı olan və ya" sözləri əlavə edilsin və maddədən "həbsdən azad edilməsi, lakin onun" sözləri çıxarılsın;

**1.16.2.** 164.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"164.2.** Girov qətimkan tədbiri məhkəmə tərəfindən həbs qətimkan tədbirinin seçilməsi və ya uzadılması məsələsinə baxılarkən müdafiə tərəfinin vəsatəti əsasında seçilə bilər. Girov qətimkan tədbirinin seçilməsi məsələsinə, həmçinin müdafiə tərəfinin vəsatəti əsasında həbs qətimkan tədbirinin əvəz edilməsi kimi baxıla bilər. Məhkəmə girov qətimkan tədbirinin seçilməsini mümkün hesab etdikdə, girovun məbləğini müəyyən edir.";

**1.16.3.** 164.4-cü maddədə "qoyulmaqla həbsdən azad etməni" sözləri "qətimkan tədbirinin tətbiq edilməsini" sözləri ilə əvəz edilsin;

**1.16.4.** 164.5-ci maddədə "məbləği" sözündən sonra ", bu Məcəllənin 164.5-1-ci maddəsi nəzərə alınmaqla," sözləri əlavə edilsin;

**1.16.5.** 164.5.2-ci maddədə "və ya" sözlərindən sonra "ictimai təhlükəliliyi yalnız maddi ziyanla bağlı olan və yaxud" sözləri əlavə edilsin;

**1.16.6.** aşağıdakı məzmunda 164.5-1-ci maddə əlavə edilsin:

**"164.5-1.** Girovun məbləği cinayət nəticəsində vurulmuş ziyandan və ya onun ödənilməmiş hissəsindən artıq olmalıdır.";

**1.16.7.** 164.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"164.6.** Məhkəmə müdafiə tərəfinin vəsatəti əsasında girovun qətimkan tədbiri qismində tətbiq olunması məsələsini həll edərkən girovun qətimkan tədbiri qismində tətbiq olunması və ya bundan imtina edilməsi barədə qərar qəbul edir. Həmin qərardan apellyasiya instansiyası məhkəməsinə şikayət və ya protest verilə bilər.";

**1.16.8.** 164.11-ci maddə ləğv edilsin;

**1.17.** 170-ci maddə üzrə:

**1.17.1.** maddənin adında və 170.1-ci maddədə "Nəzarət" sözü "Yetkinlik yaşına çatmayanı nəzarət" sözləri ilə əvəz edilsin;

**1.17.2.** 170.3-cü maddənin birinci cümləsində "Şübhəli və ya təqsirləndirilən şəxs barəsində" sözləri "Yetkinlik yaşına çatmayanı" sözləri ilə, ikinci cümləsində isə "nəzarət altına vermə barədə çıxarılmış" sözləri "həmin" sözü ilə əvəz edilsin;

**1.17.3.** aşağıdakı məzmunda 170.8-ci maddə əlavə edilsin:

**"170.8.** Barəsində yetkinlik yaşına çatmayanı nəzarət altına vermə qətimkan tədbiri seçilmiş şəxs 18 yaşına çatdıqda və nəzarəti həyata keçirməli olan şəxslər onu lazımi nəzarət altında saxlamaq vəzifəsini davam etdirmək iqtidarında olduqlarını bildirdikdə qətimkan tədbiri dəyişdirilmir.";

**1.18.** 175.3-cü maddənin ikinci cümləsində ", 163.6 və 164.11-ci maddələrində nəzərdə tutulmuş hallarda məhkəmə tərəfindən seçilmiş həbs, ev dustaqlığı və ya girov" sözləri "və 163.6-cı maddələrində nəzərdə tutulmuş hallarda məhkəmə tərəfindən seçilmiş həbs və ya ev dustaqlığı" sözləri ilə əvəz edilsin;

**1.19.** 194-cü maddə üzrə:

**1.19.1.** maddənin adında "nümayəndəsinin" sözündən sonra "və ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkilin" sözləri əlavə edilsin;

**1.19.2.** aşağıdakı məzmunda 194.1-1-ci maddə əlavə edilsin:

**"194.1-1.** Ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkil tərəfindən göstərilən hüquqi yardımın ödənilməsi, məhkəmə tərəfindən məhkumun üzərinə qoyulduğu hallar istisna olmaqla Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına təmin edilir.";

**1.19.3.** 194.2-ci maddədə "ittihamçıya göstərilmiş hüquqi yardımı" sözləri "ittihamçının nümayəndəsi və ya ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində göstərdiyi hüquqi yardım" sözləri ilə əvəz edilsin;

**1.20.** aşağıdakı məzmunda 197.1.5-1-ci maddə əlavə edilsin:

**"197.1.5-1.** ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkil tərəfindən göstərilmiş hüquqi yardıma görə ödənilməli olan haqqın məbləği;";

**1.21.** 198.1-ci maddədə "197.1.4" rəqəmlərindən sonra ", 197.1.5-1" rəqəmləri əlavə edilsin;

**1.22.** 215.7.4-cü maddənin sonundakı nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 215.7.5-ci maddə əlavə edilsin:

**"215.7.5.** dövlətin və cəmiyyətin mənafeyinə qəsd edən cinayətin xarakteri, işin xüsusiyyətləri və ibtidai araşdırmanın maraqları tələb etdikdə.";

**1.23.** 278.4.1-ci maddədə "və ona alternativ olan" sözləri, 278.4.2-ci maddədə isə "və ona alternativ" sözləri ", ev dustaqlığı, girov və vəzifədən kənarlaşdırma" sözləri ilə əvəz edilsin;

**1.24.** 290-cı maddə üzrə:

**1.24.1.** aşağıdakı məzmunda 290.3.2-1-ci maddə əlavə edilsin:

**"290.3.2-1.** bu Məcəllənin 467-9.1-ci maddəsində nəzərdə tutulmuş hallarda cinayət işi üzrə icraatı dayandırmaqla tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi məsələsinə baxılması üçün işi məhkəməyə göndərmək;";

**1.24.2.** 290.5.3-cü maddədə "məhkəməyə təqdimat vermək" sözləri "bu Məcəllə ilə müəyyən edilmiş qaydada təqdimatla məhkəməyə və ya müvafiq təqdimatın verilməsi üçün yuxarı prokurora müraciət etmək" sözləri ilə əvəz edilsin;

**1.25.** Aşağıdakı məzmunda 353.4.8-1-ci maddə əlavə edilsin:

**"353.4.8-1.** azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxslər üçün müəyyən edilən vəzifələr;";

**1.26.** 442-ci maddə üzrə:

**1.26.1.** 442.1-ci maddədə "və ya əməliyyat-axtarış tədbirinin həyata keçirildiyi" sözləri ", əməliyyat-axtarış tədbirinin həyata keçirildiyi və ya ibtidai araşdırmanın aparıldığı" sözləri ilə əvəz edilsin;

**1.26.2.** 442.2.1-ci maddədə "dair" sözündən sonra "məsələlərlə bağlı" sözləri əlavə edilsin;

**1.26.3.** 442.4.1-ci maddədə "istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində" sözləri çıxarılsın;

**1.27.** 444-cü maddə üzrə:

**1.27.1.** 444-cü maddənin adında "tədbirləri" sözündən sonra "və bu tədbirlərlə bağlı digər məsələlər" sözləri əlavə edilsin;

**1.27.2.** aşağıdakı məzmunda 444.1.2-1, 444.1.2-2 və 444.3-cü maddələr əlavə edilsin:

**"444.1.2-1.** qətimkan tədbiri qismində ev dustaqlığı;

**444.1.2-2.** qətimkan tədbiri qismində girov;";

**"444.3.** Ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələr məhkəmənin qərarı əsasında dəyişdirilə, ləğv edilə, yaxud onun üzərinə əlavə vəzifələr qoyula bilər.";

**1.28.** 446-cı maddə üzrə:

**1.28.1.** 446.1.2-ci maddəyə "prokurorun" sözündən sonra ", bu Məcəllənin 159.2-ci və 159.8-ci maddələrində nəzərdə tutulmuş hallarda isə müvafiq prokurorun" sözləri əlavə edilsin;

**1.28.2.** aşağıdakı məzmunda 446.1.2-1 maddə əlavə edilsin:

**"446.1.2-1.** ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələrin dəyişdirilməsi, ləğv edilməsi və ya onun üzərinə əlavə vəzifələrin qoyulması üçün müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı;";

**1.28.3.** 446.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 446.1.4-cü maddə əlavə edilsin:

**"446.1.4.** ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələrin dəyişdirilməsi və ya ləğv edilməsi üçün təqsirləndirilən şəxs, onun müdafiəçisi və ya qanuni nümayəndəsinin vəsatəti.";

**1.28.4.** 446.2-ci maddədə "446.1-ci maddəsində" sözləri "446.1.1-446.1.3-cü maddələrində" sözləri ilə əvəz edilsin və aşağıdakı məzmunda 446.2-1-ci maddə əlavə edilsin:

**"446.2-1.** Ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələrin dəyişdirilməsi və ya ləğv edilməsi üçün vəsatətdə bu Məcəllənin 446.2.1-446.2.3-cü maddələrində nəzərdə tutulan məlumatlarla yanaşı, məsələnin zəruriliyi əsaslandırılmalı, təqsirləndirilən şəxsi səciyyələndirən və müvafiq qərar qəbul edilməsi üçün əhəmiyyətli olan digər məlumatlar göstərilməli və vəsatətə əlavə edilməlidir.";

**1.28.5.** 446.3-cü maddədə "üçün" sözü "məsələlərinə dair" sözləri ilə əvəz edilsin;

**1.29.** 447-ci maddə üzrə:

**1.29.1.** 447.3.2-ci maddəyə "prokuror" sözündən sonra "və ya müvafiq prokuror" sözləri əlavə edilsin;

**1.29.2.** 447.3.3-cü maddədə "tutulan" sözündən sonra ", yaxud barəsində ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə bağlı məsələyə baxılan" sözləri əlavə edilsin;

**1.29.3.** 447.5-ci maddədə "edilməsi" sözündən sonra "məsələləri" sözü əlavə edilsin;

**1.29.4.** 447.7.4-cü maddədə "ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən" sözləri "məhkəmə iclasında iştirak edən" sözləri ilə əvəz edilsin;

**1.30.** 448-ci maddə üzrə:

**1.30.1.** 448.1.1, 448.1.2, 448.4 və 448.8-ci maddələrdə "dair" sözündən sonra "məsələlərlə bağlı" sözləri əlavə edilsin;

**1.30.2.** 448.1.3-cü maddədə "və ya ona alternativ olan" sözləri ", ev dustaqlığı, girov və vəzifədən kənarlaşdırma" sözləri ilə əvəz edilsin;

**1.30.3.** aşağıdakı məzmunda 448.1.3-1-ci maddə əlavə edilsin:

**"448.1.3-1.** ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələrin dəyişdirilməsi, ləğv edilməsi və ya onun üzərinə əlavə vəzifələrin qoyulması üçün verilmiş vəsatətin təmin edilməsi, yaxud bundan imtina edilməsi barədə.";

**1.31.** 449.3.3-cü maddədə "və ya həbs edilmiş" sözləri ", həbs edilmiş və ya barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş" sözləri ilə əvəz edilsin;

**1.32.** 452.1-ci maddəyə "prokuror" sözündən sonra "və ya yuxarı prokuror" sözləri əlavə edilsin;

**1.33.** 453.3-cü maddənin birinci cümləsinə "prokuror" sözündən sonra "və ya müvafiq prokuror" sözləri əlavə edilsin;

**1.34.** Aşağıdakı məzmunda LIV-I fəsil əlavə edilsin:

*"LIV-I fəsil*

**Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat**

**Maddə 467-1. Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın xüsusiyyətləri**

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş, əməlində başqa cinayət tərkibi olmayan və narkomaniya xəstəliyinə düçar olmuş və bu xəstəliklə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat bu Məcəllənin 467-1-467-11-ci maddələri ilə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla bu Məcəllənin ümumi qaydaları əsasında aparılır.

**Maddə 467-2. Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraat**

**467-2.1.** Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin (bundan sonra – narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlər) tətbiq edilməsi üzrə məhkəməyədək icraat ibtidai istintaq şəklində aparılır.

**467-2.2.** Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın aparılmasında barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan şəxs, bu Məcəllə ilə müəyyən edilmiş hallarda onun müdafiəçisi və qanuni nümayəndəsi iştirak edirlər.

**Maddə 467-3. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı müəyyən edilməli olan hallar**

**467-3.0.** Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı aşağıdakılar müəyyən edilməlidir:

**467-3.0.1.** cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi;

**467-3.0.2.** həmin əməlin barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın aparıldığı şəxs tərəfindən törədilməsi;

**467-3.0.3.** şəxsin əməlində başqa cinayət tərkibinin olmaması;

**467-3.0.4.** şəxsin narkomaniya xəstəliyinə düçar olması;

**467-3.0.5.** şəxsin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş məcburi müalicə tətbiq edilməyən narkomaniya xəstəliyinə düçar olmuş şəxslər kateqoriyasına daxil olmaması.

**Maddə 467-4. Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində cinayət işinin ayrılması**

İbtidai araşdırma bir neçə təqsirləndirilən şəxs barəsində aparıldıqda narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində cinayət işi ayrıca icraata ayrılır.

**Maddə 467-5. Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxsə ittihamın elan edilməsi və onun barəsində qətimkan tədbirinin seçilməsi**

**467-5.1.** Cinayətin törədilməsində ittihamın elan edilməsinə əsas verən kifayət qədər sübutlar olduğu halda müstəntiq narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında əsaslandırılmış qərar çıxarır və ittihamı bu Məcəllənin 224-cü maddəsində müəyyən edilmiş qaydada elan edir.

**467-5.2.** Bu Məcəllənin 155-ci maddəsində nəzərdə tutulmuş əsaslar mövcud olduqda narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində qətimkan tədbiri tətbiq edilir.

**Maddə 467-6. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraatda müstəntiqin hərəkətləri**

**467-6.1.** Toplanmış sübutlar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraatın qurtarması üçün kifayət hesab edildikdə müstəntiq aşağıdakı qərarlardan birini qəbul edir:

**467-6.1.1.** şəxs barəsində cinayət işi üzrə icraatın dayandırılması və tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün məhkəməyə göndərilməsi haqqında məsələnin həll edilməsi məqsədi ilə iş materiallarının ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi haqqında;

**467-6.1.2.** bu Məcəllənin müddəaları ilə nəzərdə tutulmuş əsaslar olduqda iş üzrə icraatın dayandırılması və ya icraata xitam verilməsi haqqında.

**467-6.2.** Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı bu Məcəllənin 467-6.1-ci maddəsində nəzərdə tutulmuş qərarlardan hər hansı biri qəbul edildikdən sonra müstəntiq başa çatmış icraatın materiallarını tanış olmaları üçün barəsində icraatın aparıldığı şəxsə, habelə olduğu hallarda onun müdafiəçisinə və qanuni nümayəndəsinə təqdim edir.

**467-6.3.** Bu Məcəllənin 467-6.2-ci maddəsində göstərilən şəxslərin narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə iş materialları ilə tanış olmaları haqqında protokol tərtib edilir.

**Maddə 467-7. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraat zamanı prokurorun hərəkətləri**

**467-7.0.** Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat materialları müstəntiqin bu Məcəllənin 467-6.1.1-ci maddəsində nəzərdə tutulmuş qərarı ilə birlikdə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim edilir. Prokuror aşağıdakı qərarlardan birini qəbul edir:

**467-7.0.1.** müstəntiqin qərarını təsdiq edir və işi məhkəməyə göndərir;

**467-7.0.2.** bu Məcəllənin 467-3-cü maddəsində nəzərdə tutulmuş hallar düzgün müəyyən edilmədikdə işi əlavə araşdırmanın aparılması üçün müstəntiqə qaytarır;

**467-7.0.3.** bu Məcəllənin müddəaları ilə nəzərdə tutulmuş əsaslar olduqda iş üzrə icraatı dayandırır və ya icraata xitam verir.

**Maddə 467-8. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə məhkəmə baxışının xüsusiyyətləri**

**467-8.1.** Məhkəmə iclası cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinin zəruriliyi barədə dövlət ittihamçısının məruzəsi ilə başlanır. Sonra məhkəmə cinayət prosesi tərəflərinin təqdim etdikləri sübutları tədqiq edir, bu Məcəllənin 467-3-cü maddəsində nəzərdə tutulmuş halların müəyyən olunub-olunmadığını araşdırır və barəsində icraat aparıldığı şəxsi, olduğu halda onun müdafiəçisini və qanuni nümayəndəsini, habelə dövlət ittihamçısının fikrini dinləyir. Daha sonra məhkəmə qərar qəbul edilməsi üçün müşavirə otağına gedir.

**467-8.2.** Məhkəmə tərəfindən narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı aşağıdakı qərarlardan biri çıxarılır:

**467-8.2.1.** narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında;

**467-8.2.2.** bu Məcəllənin 467-3-cü maddəsində nəzərdə tutulmuş hallar düzgün müəyyən edilmədikdə işin əlavə araşdırmanın aparılması üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması haqqında;

**467-8.2.3.** bu Məcəllənin müddəaları ilə nəzərdə tutulmuş əsaslar olduqda iş üzrə icraatın dayandırılması və ya icraata xitam verilməsi haqqında.

**467-8.3.** Məhkəmə tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş qərarın surətini icra olunması üçün qərarda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının tibb müəssisəsinə göndərir.

**Maddə 467-9. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsini zəruri edən halların ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə tərəfindən müəyyən edilməsi**

**467-9.1.** İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror ittiham aktı ilə daxil olmuş cinayət işi üzrə bu Məcəllənin 467-3-cü maddəsində nəzərdə tutulmuş halları müəyyən etdikdə cinayət işi üzrə icraatın dayandırılması və narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi məsələsinə baxılması üçün işin məhkəməyə göndərilməsi haqqında qərar qəbul edir.

**467-9.2.** Cinayət işinə baxan məhkəmə bu Məcəllənin 467-3-cü maddəsində nəzərdə tutulmuş halları müəyyən etdikdə cinayət işi üzrə icraatın dayandırılması və narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə qərar qəbul edir.

**Maddə 467-10. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin uzadılması və ya ləğv edilməsi**

**467-10.1.** Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin uzadılması və ya ləğv edilməsi məsələlərinə məhkəmə tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 93-1.4-cü maddəsində nəzərdə tutulmuş qaydada prokurorun, həmin tədbirlərin həyata keçirildiyi tibb müəssisəsinin nümayəndəsinin və barəsində tibbi xarakterli məcburi tədbirinin uzadılması və ya ləğv edilməsi haqqında məsələyə baxılan şəxsin mütləq iştirakı ilə baxılır.

**467-10.2.** Məhkəmə bu Məcəllənin 467-10.1-ci maddəsində nəzərdə tutulmuş məsələlər üzrə qəbul edilmiş qərarları həmin tədbirləri tətbiq etmiş məhkəməyə göndərir.

**467-10.3.** Şəxs tibbi xarakterli məcburi tədbirlərdən yayındıqda müvafiq tibb müəssisəsinin müdiriyyəti həmin tədbirləri tətbiq etmiş məhkəməyə yazılı məlumat verir.

**467-10.4.** Tibb müəssisələrində narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlər müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi qaydalara uyğun aparılır.

**Maddə 467-11. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın təzələnməsi**

**467-11.1.** Şəxsin tam sağalması nəticəsində qəbul edilmiş narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi haqqında qərar həmin tədbirləri tətbiq etmiş məhkəməyə daxil olduqda, məhkəmə iş üzrə icraatı təzələməklə, şəxsin cinayət məsuliyyətindən azad edilməsi və icraata xitam verilməsi haqqında qərar qəbul edir.

**467-11.2.** Şəxsin narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirdən yayınmasına dair müvafiq tibb müəssisəsinin müdiriyyətinin məlumatının əsaslı olduğu müəyyən edildikdə, həmin tədbirləri tətbiq etmiş məhkəmə iş üzrə icraatı təzələyir və aşağıdakı qərarlardan birini qəbul edir:

**467-11.2.1.** əgər narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlər bu Məcəllənin 467-9.2-ci maddəsində nəzərdə tutulmuş qaydada tətbiq edilmişdirsə, cinayət işi üzrə məhkəmə iclasının təyin edilməsi haqqında,

**467-11.2.2.** digər hallarda, işin ibtidai araşdırmanın aparılması üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi haqqında.

**467-11.3.** Bu Məcəllənin 467-11.2-ci maddəsində müəyyən edilmiş hallarda cinayət işi üzrə ibtidai istintaq və ya məhkəmə icraatı bu Məcəllənin ümumi qaydaları əsasında aparılır.";

**1.35.** 507.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"507.6.** Hökmlə məhkumun xüsusi və ya hərbi rütbədən, fəxri addan, yaxud dövlət təltifindən məhrum edilməsi haqqında məsələ nəzərdə tutulduğu halda, hakim məhkumun müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş ali

xüsusi və ya ali hərbi rütbədən, yaxud fəxri addan və ya dövlət təltifindən məhrum edilməsi məsələsinə baxılması üçün bu barədə təqdimatı və məhkəmə hökmünün surətini müvafiq icra hakimiyyəti orqanına göndərir, digər dövlət orqanı tərəfindən verilmiş xüsusi və ya hərbi rütbədən, yaxud təltifdən məhrum edilməsi hallarında isə bu barədə məhkəmə hökmünün surətini icra olunması üçün həmin orqana göndərir.";

**1.36.** 513.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxs barəsində eyni məzmunlu ərizənin məhkəmə tərəfindən rədd olunması hallarında isə təkrar ərizə belə qərarın çıxarıldığı gündən azı 1 (bir) il keçdikdə verilə bilər.";

**1.37.** 519-cu maddə üzrə:

**1.37.1.** aşağıdakı məzmunda 519.1.2-1-ci maddə əlavə edilsin:

**"519.1.2-1.** azadlığın məhdudlaşdırılması növündə cəza çəkən məhkumun üzərinə əlavə vəzifələrin qoyulması və yaxud əvvəllər qoyulmuş vəzifələrin dəyişdirilməsi və ya ləğv edilməsi barədə;";

**1.37.2.** 519.2-ci maddədə "vəsatəti və" sözlərindən sonra "müvafiq ərazi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən" sözləri əlavə edilsin;

**1.37.3.** 519.2.1-ci və 519.2.2-ci maddələrində "və bununla bağlı məsələlərin" sözləri "məsələlərinin" sözləri ilə əvəz edilsin.

**Maddə 2. Keçid müddəaları**

**2.1.** Bu Qanunun ev dustaqlığı qətimkan tədbiri ilə bağlı müddəaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən elektron nəzarət vasitələrinin siyahısı və tətbiqi qaydaları ilə eyni gündə qüvvəyə minir;

**2.2.** Bu Qanunun 1.34-cü maddəsi müvafiq icra hakimiyyəti orqanının narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin həyata keçirildiyi tibb müəssisəsinin fəaliyyətə başladığı gündən qüvvəyə minir;

**2.3.** Bu Qanunun digər müddəaları dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 dekabr 2017-ci il
№ 914-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, III kitab, maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Aşağıdakı məzmunda 15.5-1-ci maddə əlavə edilsin:

**"15.5-1.** Azadlığın məhdudlaşdırılması növündə cəzanı məhkumun yaşayış yeri üzrə icra məmuru icra edir.";

**1.2.** Aşağıdakı məzmunda 15-1 və 15-2-ci maddələr əlavə edilsin:

**"Maddə 15-1. Probasiya nəzarəti**

**15-1.1.** Probasiya nəzarəti – azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş, şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəza çəkməsi təxirə salınmış məhkumların, habelə bu Məcəllənin 15-1.2.3-cü maddəsində nəzərdə tutulmuş digər şəxslərin üzərinə qanunla və məhkəmə qərarı ilə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nəzarət edilməsinə, məhkumların islah edilməsi, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş kompleks sosial-hüquqi xarakterli tədbirlər sistemindən ibarətdir.

**15-1.2.** Probasiya nəzarəti aşağıdakı şəxslərə tətbiq edilir:

**15-1.2.1.** cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş şəxslər;

**15-1.2.2.** şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəza çəkməsi təxirə salınmış şəxslər;

**15-1.2.3.** alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxslər.

**15-1.3.** Probasiya nəzarəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**15-1.4.** Probasiya nəzarətini həyata keçirən icra məmurları bu Məcəllə, "İcra haqqında" və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilənlərdən əlavə aşağıdakı vəzifələri yerinə yetirirlər:

**15-1.4.1.** məhkəmə qərarı əsasında elektron nəzarət vasitələrini məhkumlara tətbiq etmək və məhkum tərəfindən həmin vasitələrdən istifadə qaydalarına riayət edilməsinə nəzarət etmək;

**15-1.4.2.** məhkumun olduğu yer müəyyən edilmədikdə 10 günədək müddətdə onun axtarılması ilə əlaqədar ilkin tədbirlər həyata keçirmək;

**15-1.4.3.** məhkumun olduğu yer 10 gündən artıq müddətdə müəyyən edilmədikdə onun barəsində axtarış elan edilməsi haqqında qərar qəbul etmək, qərarın surətini müvafiq icra hakimiyyəti orqanına göndərmək, həmçinin məhkumun tutulması barədə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada vəsatət vermək;

**15-1.4.4.** probasiya nəzarəti tətbiq edilən məhkumların islah edilməsi, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş tədbirləri həyata keçirmək.

**Maddə 15-2. Elektron nəzarət vasitələrinin tətbiqi xüsusiyyətləri**

**15-2.1.** Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxslərə elektron nəzarət vasitələri tətbiq edilir. Məhkəmənin müəyyən etdiyi hallarda şərti məhkum edilmiş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə də elektron nəzarət vasitələri tətbiq edilir.

**15-2.2.** Elektron nəzarət vasitələrinin siyahısı və tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**15-2.3.** Elektron nəzarət vasitələri tətbiq edilmiş məhkumun müəyyən edilmiş vəzifələri yerinə yetirməsinə nəzarət icra məmurları tərəfindən həyata keçirilir.

**15-2.4.** Şəxsin üzərinə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulduqda, elektron nəzarət vasitəsi onun üzərinə bağlanılır və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydaları, hər hansı müdaxilənin və ya cihazın üzərindən çıxarılmasının yolverilməzliyi, həmçinin bu əməllərin hüquqi nəticələri izah edilir və bu barədə protokol tərtib edilir.

**15-2.5.** Elektron nəzarət vasitəsi tətbiq edilmiş şəxs həmin vasitəni zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, onun dəyəri həmin şəxsdən tutulur.";

**1.3.** 34-cü maddə üzrə:

**1.3.1.** 34.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İctimai işlər növündə cəzaya məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.";

**1.3.2.** aşağıdakı məzmunda 34.1-1 və 34.1-2-ci maddələr əlavə edilsin:

**"34.1-1.** Müvafiq icra hakimiyyəti orqanı müvafiq inzibati-ərazi vahidi üzrə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısını və həmin işlərin həyata keçirilməsi üçün zəruri olan şəxslərin sayı barədə məlumatı növbəti ay başlayanadək müvafiq icra hakimiyyəti orqanına göndərir.

**34.1-2.** İcra məmuru ictimai işlər növündə cəzaya məhkum olunmuş şəxsə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısındakı iş yerlərindən birində işləmək üçün göndəriş verir. İctimai işlərin həyata keçiriləcəyi yerlərlə bağlı hər hansı məlumat tələb edildikdə icra məmuru müvafiq icra hakimiyyəti orqanına bu barədə sorğu verir. Sorğuya beş gündən gec olmayaraq cavab verilməlidir.";

**1.3.3.** 34.3-cü maddədə "aparır" sözündən sonra ", ayda iki dəfədən az olmayaraq şəxsin ictimai işləri yerinə yetirməli olduğu vaxtlarda həmin işlərin görüldüyü yerlərə baş çəkməklə protokol tərtib edir, cəzanın bu Məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilməsi üçün digər tədbirləri görür" sözləri əlavə edilsin və həmin maddədən "müvafiq icra hakimiyyəti orqanı ilə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısını razılaşdırır," sözləri çıxarılsın;

**1.4.** 37-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"İşəgötürən ictimai işlərin həyata keçirilməsi üçün mövcud olan yerlər barədə müvafiq icra hakimiyyəti orqanına düzgün və tam məlumat verir, hər bir məhkum ictimai işlərin həyata keçiriləcəyi yerdə ictimai işə təhkim edildikdə, məhkum tərəfindən ictimai işlərin yerinə yetirilməli olduğu vaxtların cədvəlini tərtib edərək üç gündən gec olmayaraq icra məmuruna göndərir, məhkumlar üçün müəyyən edilmiş işin yerinə yetirilməsinə nəzarət edir, onların işlədikləri saatların uçotunu aparır və ictimai işlərin yerinə yetirilməsindən boyun qaçırma halları barədə dərhal icra məmuruna məlumat verir.";

**1.5.** Aşağıdakı məzmunda VII-I fəsil əlavə edilsin:

*"VII-I fəsil*

**Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası**

**Maddə 51-1. Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrasına başlanılması qaydası**

**51-1.1.** Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrasını həyata keçirən icra məmuru məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün surətini və həmin hökmün icrası barədə göstərişi aldığı vaxtdan 3 gün müddətində azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxsə gəlib qeydiyyatdan keçməsinə dair yazılı bildiriş göndərir.

**51-1.2.** Məhkum bu Məcəllənin 51-1.1-ci maddəsində nəzərdə tutulmuş göstərişi aldıqdan sonra 3 gün müddətində cəzanın icrasına nəzarət edən orqana gəlməlidir. Üzrsüz səbəblərdən gəlməyən məhkumlar icra qurumunun rəhbəri tərəfindən təsdiq olunmuş icra məmurunun qərarı ilə məcburi gətirilir. Həmin qərar müvafiq icra hakimiyyəti orqanı tərəfindən icra edilir.

**51-1.3.** İcra məmuru məhkumu qeydiyyata alır, ona məhkəmə hökmünün tələblərini, cəzanın icrası qaydalarını, həmin qaydaların pozulmasının hüquqi nəticələrini, o cümlədən üzərində elektron nəzarət vasitəsi daşımalı olduğunu, həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydalarını, habelə hər hansı müdaxilənin və ya cihazın üzərindən çıxarılmasının yol verilməzliyini izah edir, elektron nəzarət vasitəsini məhkumun üzərinə bağlayır və bu barədə protokol tərtib edir.

**Maddə 51-2. Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası müddətinin hesablanması**

**51-2.1.** Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası müddəti məhkumun cəzanı icra edən orqanda qeydiyyata alındığı vaxtdan hesablanır.

**51-2.2.** Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası zamanı məhkuma inzibati tənbeh kimi verilmiş, yaxud başqa cinayət işi ilə əlaqədar qətimkan tədbiri kimi seçilmiş həbsin müddəti həmin cəzanın icrası müddətinə hesablanmır.

**Maddə 51-3. Azadlığın məhdudlaşdırılması növündə cəzanın çəkilməsi qaydası**

**51-3.1.** Azadlığın məhdudlaşdırılması növündə cəza məhkumun yaşayış yeri üzrə çəkilir.

**51-3.2.** Məhkum edilmiş şəxs məhkəmənin hökmündə müəyyən edilmiş vəzifələri yerinə yetirməli və icra məmurunun tələbi ilə cəzanın çəkilməsi məsələləri ilə bağlı yazılı izahat verməlidir. Məhkumun cəzanın icrası qaydalarına və şərtlərinə riayət etməsinə nəzarət etmək məqsədi ilə icra məmuru (gecə vaxtı istisna olmaqla) onun yaşayış yerinə daxil olmaq və müəyyən edilmiş vəzifələrə əməl edilməsini yerində yoxlamaq hüququna malikdir. Bu halda müvafiq protokol tərtib edilir.

**51-3.3.** Məhkum edilmiş şəxsin müəyyən vaxtlarda yaşayış yerini və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını (yalnız Azərbaycan Respublikasının ərazisi hüdudlarında) müvəqqəti tərk etməsinə icazə icra məmuru tərəfindən aşağıdakı müstəsna hallarda verilir:

**51-3.3.1.** yaxın qohumların ölümü və ya həyatı üçün təhlükə yaradan ağır xəstəliyi (yeddi gün müddətinə qədər);

**51-3.3.2.** təbii fəlakət və digər fövqəladə hadisə ilə bağlı şəxsin yaşayış yerində müəyyən müddət qalmasının mümkün olmaması;

**51-3.3.3.** yaxın qohumların nikaha daxil olması (iki gün müddətinə qədər);

**51-3.3.4.** şəxsə tibbi yardım göstərilməsi zərurətinin yaranması (yaşayış yerində və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilindəki tibb müəssisəsində tələb olunan tibbi yardımın göstərilməsi mümkün olmadıqda);

**51-3.3.5.** istirahət və bayram günlərində, həvəsləndirmə tədbiri qismində.

**51-3.4.** Tibbi göstəricilərə görə məhkum yaşayış məntəqəsinin ərazisindən kənar tibb müəssisəsinə yeddi gündən çox stasionar müalicəyə yerləşdirildikdə, (yaşayış məntəqəsinin ərazisində yerləşən tibb müəssisələrində bu mümkün olmadıqda) onun üçün müəyyən edilmiş məhdudiyyətlər qüvvəsində qalmaqla cəzanın icrası yeri müvafiq tibb müəssisəsi hesab edilir.

**51-3.5.** Məhkumun yaşayış yerini və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını müvəqqəti tərk etməsi ilə bağlı müraciətinə təxirəsalınmadan baxılır və bu Məcəllənin 51-3.3-cü maddəsinə uyğun olaraq əsaslandırılmış qərar qəbul edilir. Məhkuma yaşayış yerini və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını müvəqqəti tərk etmək üçün icazə verilmiş vaxt cəzanın icrası müddətinə hesablanır.

**51-3.6.** İcra məmuru azadlığın məhdudlaşdırılması növündə cəza çəkən məhkumun yaşayış yerini (yalnız Azərbaycan Respublikasının ərazisi hüdudlarında) dəyişdirməsinə dair ərizəsi əsasında bu barədə məhkumun yaşayış yeri üzrə məhkəməyə təqdimat verir. Məhkəmə aşağıdakı müstəsna hallarda məhkumun yaşayış yerini dəyişməsinə icazə verilməsi barədə qərar qəbul edir:

**51-3.6.1.** məhkumun ailə vəziyyəti dəyişdikdə;

**51-3.6.2.** məhkum digər yaşayış sahəsi üzərində mülkiyyət hüququ əldə etdikdə;

**51-3.6.3.** şəxsin xəstəliyi ilə bağlı ona yaşayış məntəqəsinin ərazisindən kənar tibb müəssisəsində uzunmüddətli tibbi yardım göstərilməsi zərurəti yarandıqda (yaşayış yerində və ya məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilindəki tibb müəssisəsində tələb olunan tibbi yardımın göstərilməsi mümkün olmadıqda).

**Maddə 51-4. Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası zamanı icra məmurunun vəzifələri**

**51-4.0.** Azadlığın məhdudlaşdırılması növündə cəzanı icra edən icra məmuru:

**51-4.0.1.** məhkumun qeydiyyatını aparır;

**51-4.0.2.** məhkumun bu Məcəllə ilə müəyyən edilmiş cəzanın icrası qaydalarına və şərtlərinə riayət etməsinə nəzarət edir;

**51-4.0.3.** məhkumla tərbiyə işini aparır;

**51-4.0.4.** məhkum barəsində bu Məcəllədə nəzərdə tutulmuş həvəsləndirmə və tənbeh tədbirlərini tətbiq edir;

**51-4.0.5.** olduğu yer məlum olmayan məhkumun axtarışını təşkil edir;

**51-4.0.6.** cəzanın icrasından irəli gələn digər vəzifələri yerinə yetirir.

**Maddə 51-5. Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxslə tərbiyə işi**

**51-5.1.** İcra məmuru azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxslə tərbiyə işini onunla əməyə və təhsilə vicdanlı münasibət göstərilməsinə, cəmiyyətdə qəbul edilmiş davranış qaydalarına riayət edilməsinə yönəlmiş fərdi söhbətlər aparmaqla həyata keçirir. Bu zaman məhkumun fərdi xüsusiyyətləri, xarakteri və törədilən cinayətin səbəbləri nəzərə alınır.

**51-5.2.** Məhkumların tərbiyə xarakterli tədbirlərdə fəal iştirakı həvəsləndirilir və onların islah edilməsi müəyyən olunarkən nəzərə alınır.

**Maddə 51-6. Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxs barəsində tətbiq edilən həvəsləndirmə tədbirləri**

**51-6.1.** Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxsə cəzanın icrası qaydalarını nümunəvi yerinə yetirdiyinə görə icra məmuru tərəfindən təşəkkür elan edilə, əvvəllər verilmiş tənbeh götürülə, istirahət və bayram günlərini müəyyən edilmiş ərazi hüdudlarından kənarda keçirməyə icazə verilə bilər.

**51-6.2.** Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş şəxsə tətbiq edilmiş həvəsləndirmə və tənbeh tədbirləri, habelə tərbiyə xarakterli tədbirlərdə fəal iştirakı məhkumun islah edilməsi müəyyənləşdirilərkən nəzərə alınır.

**Maddə 51-7. Azadlığın məhdudlaşdırılması növündə cəzanın icrası qaydasının pozulmasının nəticələri**

**51-7.1.** Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxs cəzanın çəkilməsi qaydalarını pozduqda və ya onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən boyun qaçırdıqda, icra məmuru ona töhmət növündə tənbeh verir. Tənbeh tədbiri yazılı şəkildə əsaslandırılmış qərarla verilir.

**51-7.2.** Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxsin aşağıdakı əməlləri törətməsi, onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən boyun qaçırma hesab edilir:

**51-7.2.1.** icra məmurunun cəzanın çəkilməsi üçün gəlib qeydiyyatdan keçməsinə dair yazılı bildirişini aldıqdan sonra 3 gün müddətində üzrlü səbəblər olmadan cəzanın icrasına nəzarət edən orqana gəlməməsi;

**51-7.2.2.** üzrlü səbəb olmadan məhkəmə tərəfindən müəyyən edilmiş vəzifələri yerinə yetirməməsi;

**51-7.2.3.** cəzanın çəkilməsi məsələləri ilə bağlı yazılı izahat vermək üçün icra məmurunun çağırışı ilə gəlməməsi;

**51-7.2.4.** barəsində inzibati həbs növündə tənbeh tədbirinin tətbiq edilməsi.

**51-7.3.** Tənbeh tətbiq edilməzdən əvvəl məhkumdan yazılı izahat alınır. Xətanın müəyyən edildiyi gündən bir ay keçdikdən sonra məhkum barəsində tənbeh tədbiri tətbiq edilə bilməz. Məhkum tətbiq edilmiş tənbeh tədbirindən yuxarı vəzifəli şəxsə və ya məhkəməyə şikayət edə bilər.

**51-7.4.** Azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxs onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən mütəmadi və ya qərəzli olaraq boyun qaçırdıqda icra məmuru cəzanın çəkilməmiş hissəsinin müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edilməsi üçün məhkəməyə təqdimat verir.

**51-7.5.** Üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən boyun qaçırdığına görə töhmət almış məhkumun il ərzində daha iki dəfə bu Məcəllənin 51-7.2-ci maddəsində nəzərdə tutulmuş əməlləri törətməsi vəzifələri mütəmadi yerinə yetirməmə hesab edilir.

**51-7.6.** Aşağıdakı əməllər azadlığın məhdudlaşdırılması növündə cəzanın icrasından qərəzli boyun qaçırma hesab edilir:

**51-7.6.1.** məhkumun müəyyən edilmiş ərazi hüdudlarını icazəsiz tərk etməsi

**51-7.6.2.** məhkumun elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etməsi, onu zədələməsi və ya digər üsulla yararsız vəziyyətə salması, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməməsi;

**51-7.6.3.** məhkumun yaşayış yerini bu Məcəllənin 51-3.3 və ya 51-3.6-cı maddələrində nəzərdə tutulmuş icazə olmadan 10 gündən artıq müddətdə tərk etməsi.";

**1.6.** 168.1-ci maddəyə "islah işləri," sözlərindən sonra "azadlığın məhdudlaşdırılması," sözləri əlavə edilsin;

**1.7.** 178.7-ci maddədə "Otuz" sözü "On" sözü ilə əvəz edilsin və "edilməyən" sözündən sonra "və ya elektron nəzarət vasitəsini gəzdirməkdən imtina edən, həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət göstərməyən, elektron nəzarət vasitəsini zədələyən və ya digər üsulla yararsız vəziyyətə salan" sözləri əlavə edilsin;

**1.8.** 182.5-ci maddədə "Otuz" sözü "On" sözü ilə əvəz edilsin və "edilməyən" sözündən sonra "və ya elektron nəzarət vasitəsini gəzdirməkdən imtina edən, həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməyən, elektron nəzarət vasitəsini zədələyən və ya digər üsulla yararsız vəziyyətə salan" sözləri əlavə edilsin.

**Maddə 2. Keçid müddəaları**

**2.1.** Bu Qanunun azadlığın məhdudlaşdırılması cəzası ilə bağlı müddəaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən elektron nəzarət vasitələrinin siyahısı və tətbiqi qaydaları ilə eyni gündə qüvvəyə minir.

**2.2.** Bu Qanunun digər müddəaları dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 dekabr 2017-ci il
№ 915-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

**QƏRAR**

**№ 438**

Bakı şəhəri, 17 oktyabr 2017-ci il

## "İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 2668 nömrəli Sərəncamının 17.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 438 nömrəli qərarı ilə təsdiq edilmişdir.*

## İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi

## QAYDASI

### 1. Ümumi müddəalar

**1.1.** Bu Qayda Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 2668 nömrəli Sərəncamının 17.3-cü bəndinə uyğun olaraq hazırlanmışdır və ictimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin icra ediləcəyi yerlərin müəyyənləşdirilməsi qaydasını müəyyən edir.

**1.2.** İctimai işlər cəzası belə cəzaya məhkum olunmuş şəxslərin əsas işindən və ya təhsilindən asudə vaxtında haqqı ödənilmədən cəmiyyətin xeyrinə ictimai-faydalı işləri yerinə yetirməsindən ibarətdir.

**1.3.** İctimai işlər növündə cəzaya məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növünün və icra ediləcəyi yerlərin müəyyənləşdirilməsi, həmin şəxslərin ictimai işlərə göndərilməsi, belə işlərin təşkili və nəzarət tədbirləri qüvvədə olan cinayət, cəzaların icrası, əmək qanunvericiliyi normalarına və bu Qaydaya əməl edilməklə həyata keçirilir.

**1.4.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi və digər qanunvericilik aktları ilə müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla, ictimai işlər növündə

cəzaya məhkum olunmuş şəxslərin qanunda nəzərdə tutulmuş hüquq və azadlıqlarına təminat verilir.

**1.5.** İctimai işlər növündə cəzaya məhkum olunmuş şəxslərin cəzasının icrası zamanı onların əmək qanunvericiliyində nəzərdə tutulmuş əməyin mühafizəsi normaları, qaydaları və prinsipləri ilə əlaqədar hüquqları təmin olunmalıdır.

**1.6.** Əməyin mühafizəsi qaydalarına və təhlükəsizlik texnikası normalarına əməl olunmasına, ictimai işlər növündə cəzaya məhkum edilmiş şəxslərin əməyindən səmərəli istifadəyə görə məsuliyyəti ictimai işləri yerinə yetirilən müəssisələrin rəhbərliyi daşıyır.

## 2. İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri

**2.1.** İctimai işlər cəzasına məhkum olunmuş şəxslər aşağıdakı işlərə cəlb edilə bilərlər:

**2.1.1.** şəhər, rayon ərazisinin, küçə, park və meydanların, yolların, abadlaşdırılması və təmizlənməsi (o cümlədən, yaşıllaşdırılması, qar və yağış sularının fəsadlarının aradan qaldırılması);

**2.1.2.** məişət tullantılarının (əhalinin həyat fəaliyyəti nəticəsində yaşayış yerlərində əmələ gələn əşyaların, maddələrin və materialların, tullantıların) yığılması (toplanılması), çeşidlənməsi, daşınması, yerləşdirilməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi və basdırılması;

**2.1.3.** yaşayış ərazilərinin, xəstəxanaların, məktəblərin, məktəbəqədər təhsil müəssisələrinin, yataqxana və pansionatların, sosial xidmət müəssisələrinin, habelə sosial sferanın digər obyektlərinin tikintisi və təmiri;

**2.1.4.** kənd təsərrüfatı müəssisələrinə kömək göstərilməsi;

**2.1.5.** təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması;

**2.1.6.** ictimai əhəmiyyətli digər işlər.

## 3. İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin icra ediləcəyi yerlərin müəyyənləşdirilməsi qaydaları

**3.1.** İctimai işlər növündə cəzanın icrası bu Qaydanın 2-ci hissəsində nəzərdə tutulmuş fəaliyyət növləri üzrə ictimai işlərcəzasına məhkum olunmuş şəxslərin yaşadığı ərazinin yerli icra hakimiyyəti orqanının müəyyən etdiyi ictimai yerlərdə həyata keçirilir.

**3.2.** Yerli icra hakimiyyəti orqanı ictimai işlərin həyata keçiriləcəyi yerləri bilavasitə tabeliyində olmayan müəssisələr üzrə yalnız sonuncuların razılığı və müraciəti əsasında müəyyən edə bilər.

**3.3.** Yerli icra hakimiyyəti orqanı ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısını ona müraciət edən icra məmuru ilə mütəmadi olaraq razılaşdırır.

**3.4.** İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin həyata keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi zamanı yerli icra hakimiyyəti orqanları tərəfindən həmin şəxslərin peşə vərdişləri, təcrübəsi, yaşı, eləcə də iş rejimi və zəruri əmək şəraitinin həmin şəxslərin sağlamlıq vəziyyətinə uyğunluğu nəzərə alınmalıdır.

**3.5.** İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin icra ediləcəyi yerlərin müəyyənləşdirilməsi zamanı açıq hava altında və kollektiv formada təşkil olunan iş yerlərinə üstünlük verilməlidir.

**3.6.** İş yerlərinin müəyyənləşdirilməsi məqsədi ilə inzibati ərazi vahidinin ərazisində fəaliyyət göstərən mühəndis-kommunikasiya və yol-infrastruktur layihələrini həyata keçirən qurumların siyahısı (bundan sonra – siyahı) şəhər və rayon icra hakimiyyəti orqanları tərəfindən müəyyən olunur və onların internet səhifəsində dərc edilir. Bu siyahı yarım ildə bir dəfə yenilənir.

**3.7.** İnzibati ərazi vahidində fəaliyyət göstərən qeyri-dövlət hüquqi şəxslər ictimai işlər cəzasına məhkum olunmuş şəxslərin işlərə cəlb edilməsi üçün siyahıya müvafiq əlavələrin edilməsi təşəbbüsü ilə çıxış edə bilərlər.

**3.8.** İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin işə cəlb edilməsi təşəbbüsü ilə çıxış edən qurumun rəhbəri həmin şəxslərin siyahıya daxil edilməsi məqsədi ilə müvafiq rayon və ya şəhər icra hakimiyyətinə müraciət etməlidir. Müraciətə bu Qaydanın 2-ci hissəsində göstərilən işlərin növləri, həyata keçiriləcəyi yerlər, habelə ictimai işlər cəzasına məhkum olunmuş şəxslərin işə cəlb edilməsi üçün əlaqəli vəzifəli şəxslər barədə məlumat əlavə edilir.

## 4. İctimai işlər cəzasına məhkum olunmuş yetkinlik yaşına çatmayan şəxslərin cəlb ediləcəyi işlərin və belə işlərin icra ediləcəyi yerlərin müəyyənləşdirilməsinin xüsusiyyətləri

**4.1.** İctimai işlər cəzasına məhkum olunmuş yetkinlik yaşına çatmayan şəxslərin cəlb ediləcəyi işlər və belə işlərin keçiriləcəyi yerlər müəyyənləşdirilən zaman onların təhsilindən və ya əsas işindən sonra asudə vaxtlarında yerinə yetirə biləcəyi işlər əsas götürülməli, onların yaş dövrünə uyğun psixoloji cəhətləri nəzərə alınmalıdır.

**4.2.** Yetkinlik yaşına çatmayan şəxslərin cəlb ediləcəyi işlər və belə işlərin həyata keçiriləcəyi yerlər müəyyənləşdirilərkən aşağıdakılar nəzərə alınır:

**4.2.1.** yetkinlik yaşına çatmayanların təhsili və ya əsas işi;

**4.2.2.** yetkinlik yaşına çatmayanların cinsi mənsubiyyəti;

**4.2.3.** yetkinlik yaşına çatmayanların yaş dövrünə uyğun fiziki sağlamlığı və psixoloji cəhətləri;

**4.2.4.** həyatı qavrama baxışları.

**4.3.** İctimai işlər cəzasına məhkum olunmuş yetkinlik yaşına çatmayan şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin həyata keçiriləcəyi yerlər müəyyən edilən zaman kənardan hamının sərbəst şəkildə görə bilmədiyi, həmçinin, belə işlərin icrasının digər şəxslər tərəfindən foto və video çəkilişlərinin aparılması mümkün olmadığı işlərə və iş yerlərinə üstünlük verilməlidir.

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**
**№ 10/90**

31 oktyabr 2017-ci il Bakı şəhəri

**Azərbaycan Respublikası Baş prokurorunun 01.11.2010-cu il tarixli 10/100 nömrəli əmrinə dəyişikliklər edilməsi barədə**

Prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılmasının, bu sahədə vəzifələrin daha dəqiq və ardıcıl surətdə yerinə yetirilməsinin təmin edilməsi məqsədilə, «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutub,

**ƏMR EDİRƏM:**

**1.** «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» Azərbaycan Respublikası Baş prokurorunun 01.11.2010-cu il tarixli 10/100 nömrəli əmrinə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** Əmrin 40.1-ci bəndində "Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən göndərilmiş, habelə" sözləri "Azərbaycan Respublikasının Prezidentindən," sözləri ilə əvəz edilsin.

**1.2.** Əmrin 40.2-ci bəndində "və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur qurumlarının rəhbərləri" sözləri ", Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur qurumlarının rəhbərləri, Azərbaycan Respublikası vitse-prezidentlərinin fəaliyyətini bilavasitə təmin edən struktur qurumların rəhbərləri və onların müavinləri, Azərbaycan Respublikası vitse-prezidentlərinin köməkçiləri" sözləri ilə əvəz edilsin.

**1.3.** Əmrin 63-cü bəndində "Azərbaycan Respublikası Baş Prokurorluğunun Reqlamenti"nin 4.21-ci bəndində" sözləri "Azərbaycan Respublikası Baş Prokurorluğunun Reqlamenti"ndə" sözləri ilə əvəz edilsin.

**2.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, habelə bütün tabe prokurorluqlara göndərilsin və «Azərbaycan Prokurorluğu» jurnalında dərc edilsin.

**Zakir Qaralov,**
Azərbaycan Respublikasının Baş prokuroru
I dərəcəli dövlət ədliyyə müşaviri